# AĞIR İTKİ

**Şəhid Həsən Baqirinin (Qulamhüseyn Əfşurdinin) həyatı**

**Qələmə alan: Səid Əllamian**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:................................... Ağır itki**
**Tərcümə edən:.............Zəhra Hüseynzadə**
**Çap tarixi:.............................................2019**
**Çap növbəsi:.....................................Birinci**
**Tiraj:......................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 16-20-024522-9

# Bismillahir-Rəhmanir-Rəhim

1983-cü ilin yanvar ayının 29-da döyüş komandirlərindən bir qrupu İmam Xomeyni ilə görüşə getmişdilər. O zaman Cəmarana mühüm bir xəbər gəldi: "Həsən Baqiri şəhid oldu".

O gün həmin sərkərdələr üçün çox acı bir gün oldu. Möhsün Rzayi deyirdi: "Elə bil, beynimdə partlayış baş verdi". O, müharibənin gələcəyinə dair narahatlığını bildirərək əlavə edirdi: "Sanki qollarımdan birini itirdim. Bundan sonra müharibəni necə davam etdirəcəyik?!" Şəhid Mehdi Zeynəddin isə hisslərini belə ifadə etmişdi: "Bu ağır xəbər bir dağ kimi başımıza uçdu".

Müharibənin taleyi sual altına düşmüşdü: Həsən yoxdursa, Kərbəla qərargahı başsız qalıbsa, döyüşlərin aqibəti necə olacaq?! Hacı Qasim Süleymani deyir: "Müharibə dövründə cəbhə uşaqları üçün heç bir gün Həsən Baqirinin şəhadət günü qədər ağır olmadı. Onun yoxluğu savaşın sonuna qədər hiss olunurdu".

Həsən Baqiri ləqəbi ilə tanınan Qulamhüseyn Əfşurdi 1980-ci ilin 23 sentyabrında Xuzistan vilayətinə yollandı və ömrünün 28 ayını döyüş cəbhələrində keçirdi. O, çox da uzun sürməyən bu müddətdə elə bir məqama yüksəldi ki, irili-xırdalı bütün əməliyyatların kəşfiyyat, plan və icrası ona əsaslanırdı. Korpusun baş komandanı Möhsün Rzayi deyir: "Həsənin sözlərini, fikirlərə son nöqtə olaraq qəbul edir, bəzən də o vaxta kimi heç kəsin ağlına gəlməyən ideya kimi qiymətləndirirdim. Hər bir əməliyyatda 3-4 əsas qərar təsdiq olunurdu ki, onların hər birində Həsənin təklifi həlledici olurdu; məsələn, Fəthülmübin əməliyyatında Həsənin sözünə etina etməyib düşmənin rabitə qovşağına zərbə vurmadan döyüşə girişsəydik, hər şey məhv olardı".

Ordu komandiri Şəhid Səyyad Şirazi deyirdi: "Həsən Baqirinin yüksək imanı və inqilabi ruhiyyəsi onun fitri istedadına, güclü zehninə, fəallığına və dərin təhlil qüvvəsinə elə sarılmışdı ki, cəbhənin ən yaxşıları yalnız illərlə vuruşandan sonra o dərəcəyə yüksələ bilərdilər".

Həsən Baqiri 27 yaşında şəhid olanda korpusun Quru Qoşunlarının komandanının müavini və müharibənin birinci dərəcəli komandirlərindən idi. O, 24 yaşında, müharibədə yalnız iki ay iştirakdan sonra elə məşhurlaşmışdı ki, İmam Xomeyninin Ali Müdafiə Şurasındakı nümayəndəsi, şuranın digər üzvləri və ölkənin ən yüksək rütbəli hərbçiləri onun haqqında belə deyirdilər: "O, cəbhə haqqında ən dəqiq məlumatlara malikdir və savaşın gedişatında həlledici fikir söyləyə bilir".

16.11.80 tarixində ordunun Süsəngird qərargahında imamın nümayəndəsi Ayətullah Xamenei, prezident Əbülhəsən Bəni-Sədr, ordunun Quru Qoşunlarının komandanı General Fəllahi, qərargah rəisi Zəhirnejad, Doktor Çəmran və digər vəzifəli şəxslərin iştirakı ilə iclas keçirildi. Cənub əməliyyat qərargahının komandiri Davud Kərimi Həsən Baqirini də özü ilə iclasa aparmışdı. Həsən o zaman kəşfiyyat komandiri idi. Çıxış zamanı növbə korpus nümayəndəsinə çatdıqda, Hacı Davud qarşıya çıxıb xəritə üzərində mövcud vəziyyəti izah etməyi Həsənə tapşırdı. Baqiri Xuzistanda yerləşən öz mövqelərimiz barədə məlumat verdikdən sonra İraq hərbi qüvvələrinin tərkibi və komandanlığı haqda elə geniş danışdı ki, iclasda iştirak edənlərin hamısı təəccübləndi. Hətta korpus üzvlərini səriştəsiz və hərbi işlərdə təcrübəsiz hesab edən prezident Bəni-Sədr də onu alqışladı. İclasda Həsənin yaşından çox hərbi qulluqda olmuş yüksək rütbəli zabitlər iştirak edirdilər. Onlar cənub cəbhəsi barədə tam məlumatlara malik bir

cavanla qarşılaşmışdılar. O, Xuzistanın şimalından cənubuna qədər bütün ərazilərdəki düşmən qüvvələrinin dəqiq sayını, hansı potensial, texnika, taktika və düzümə malik olduqlarını və hətta yaxın zamanda nə kimi planlar həyata keçirmək istədiklərini açıqlayırdı. Halbuki o gün nə prezident Bəni-Sədrin, nə də hərbi komandanlığın bu barədə məlumatı var idi. Süsəngird iclası Həsən Baqirinin yüksəliş nöqtəsi oldu. Çox keçmədi ki, ordu və korpus komandanlığı Həsənin kəşfiyyat, döyüş planı və irimiqyaslı əməliyyatlara başçılıq istedadı ilə yaxından tanış oldular və onu hərbiçi mütəfəkkir adlandırdılar.

Müharibə istedad və şəxsiyyətlərin üzə çıxması üçün həmişə uyğun yer olub. Sovet İttifaqında Marşal Georgi Jukov, Almaniyada General Ervin Rommel, Fransada General de Qoll, İngiltərədə General Bernard Montqomeri və Amerikada General Corc Patton kimi tanınmış hərbçilər gənc yaşlarında Birinci Dünya Müharibəsində təcrübə əldə edib İkinci Dünya Müharibəsində məşhurlaşdılar. İkinci Dünya Müharibəsi başlayan zaman onların yaşı orta hesabla 50-yə çatırdı. Onların ən cavanı 45 yaşlı Jukov və ən yaşlısı 54 yaşlı Montqomeri idi. Onların hamısı orta hesabla 75 yaşlarında müharibədən uzaq şəraitdə, adi ölümlə dünyadan köçüblər.

Montqomeri düşməni aldatmaqda, Marşal Jukov hərbi planlara dair novatorluqda, General Patton döyüş cəbhələri haqda kəşfiyyat məlumatlarının dəqiq əldə edilməsində, Marşal Rommel şəxsi heyəti ilə və əsirlərlə insanpərvər davranışda məşhur olublar. Adamı təəccübləndirən əsas amil Həsən Baqirinin gənc yaşlarında və qısa müddət ərzində bütün bu səciyyələrə yiyələnməsidir. Bu kitabın yazılmasına da məhz onun belə bir fərqli şəxsiyyəti səbəb oldu.

2007-ci ilin yayında "Şəhid Həsən Baqiri" müəssisəsi tərəfindən müəllifə onun həyat və mübarizəsi haqda araşdırmalar aparıb xatirələri toplamaq təklif olundu. O vaxtdan başlanan iş 2015-ci ilin yazına qədər davam etdi. Müəssisənin rəhbəri General Fətulla Cəfəri ilk növbədə 1983, 1996 və 2004-cü illərdə şəhidin ailə üzvlərindən, dostlarından, jurnalist həmkarlarından və cəbhə komandirlərindən alınan müsahibələrin lent yazılarını mənə verdi. Özüm 45 korpus və ordu komandiri ilə söhbət etmək imkanı əldə etdim. Assistantım xanım Məryəm Nuri bundan da artıq işlər gördü. Şəhid Baqirinin əlyazmalarından ibarət çoxsaylı qeydləri, məktubları və cəbhələrin gündəlik vəziyyəti barədə məruzələri mütaliə etdim. Nəticədə, yazılı materiallardan əlavə, 170 nəfərlə müsahibənin məzmunu üç cilddə çap olunan 2000 səhifəlik xatirələr məcmusunda yer aldı.

Bu illər ərzində Şəhid Həsən Baqiri haqda daha dərin araşdırma apardıqca onun xalq arasında lazımınca tanınmamasına, xüsusilə gənclərimizin bu barədə yetərincə məlumatlandırılmamasına görə təəssüf hissi keçirirdim. Fikirləşirdim ki, kaş indiki nəsil də onu müharibə illərindəki döyüşçü və komandirlərimiz qədər tanıyıb öyrənəydilər. Mənə elə gəlir ki, Baqiri yalnız öz zamanına aid şəxsiyyətlərdən deyil, indiki və gələcək nəsillərə örnək ola bilən dahi insandır. Çünki onun bacarığı və sarsılmaz iradəsi həyatda uğur yollarını araşdıran gənclərə misilsiz töhfədir. Beləliklə, illərlə düşüncələrimdə dolaşan arzum gerçəkləşməyə, həyata keçirməyim üçün ciddi qərar qəbul etməyimə səbəb oldu: bir neçə min səhifəlik xatirələr dəryasından gənc nəsli qane edəcək bir kitab yazıb həqiqət axtaranlara təqdim etmək. Bu istəyimi qədim dostum Mürtəza Sərhənginin yanında dilə gətirdim. O, fikrimi

alqışlayıb Şəhid Baqiri haqda yeniyetmə və cavanlar üçün sadə dildə qısa və sənədli kitabın yazılmasını zəruri saydı.

Bu kitabda 65 nəfərin Şəhid Baqiri ilə bağlı xatirələri qeyd olunub. Həmin şəxslər arasında olan görkəmli şəhidlər Məhəmməd İbrahim Himmət, Mehdi Zeynəddin, Mehdi Bakiri və Həmid Müiniandan 1983-cü ildə, Səyyad Şirazidən 1996-cı ildə, Davud Kərimidən 2004-cü ildə (şəhadətindən 2 ay qabaq) "Şəhid Baqiri müəssisəsi"ndə General Fətulla Cəfəri tərəfindən müsahibə alınıb. Qeyd etdiyimiz kimi, həm şəhidin əlyazma və sənədləri, həm də alınan müsahibələr ilk növbədə kağız üzərinə köçürülüb tərtib edildikdən sonra üçcildlik xatirələr toplusu hazırlanıb. Qarşınızdakı bu kitab da həmin üçcildlik materialların arasından seçilib yazılıb.

Həsən Baqiri ləqəbi ilə tanınan Qulamhüseyn Əfşurdi ömrünün 18 ayını jurnalistika sahəsində keçirib. İslam Cümhuriyyəti qəzetinin arxivində Qulamhüseyn Əfşurdinin inqilabın qaynar və böhranlı vaxtlarında baş vermiş hadisələrlə bağlı yazdığı ictimai-siyasi təhlillərlə rastlaşdım. Onun həmin dövrdə Kürdüstan vilayətinin tanınmış şəxsiyyətlərindən və əhli-sünnə alimlərindən olan Əhməd Müftizadə ilə müsahibəsi diqqətimi cəlb etdi. Müsahibə 1979-cu il, sentyabrın doqquzunda alınmışdı.

Əfşurdi İslam inqilabından sonra xarici ölkəyə göndərilən ilk jurnalist olmuşdu. 1979-cu ildə Mehdi Bazərqanın, İbrahim Yəzdinin və Doktor Çəmranın təmsil olunduğu, İran dövləti tərəfindən Əlcəzair Respublikasının Müstəqillik günü münasibəti ilə keçirilmiş mərasimə yollanmış heyətə Qulamhüseyn Əfşurdi jurnalist kimi dəvət olunmuşdu. Onun bu səfərdən hazırladığı reportaj 1979-cu ilin 3 noyabrında İslam Cümhuriyyəti qəzetində çap olundu. 1980-ci ilin 25 aprelində Amerikanın Təbəs səhrasına hərbi müdaxiləsindən bir neçə saat sonra Qulamhüseyn oraya yollandı və hadisə

yerinə çatan ilk jurnalist oldu. O, bu barədə dörd reportaj hazırlayaraq hadisənin təfərrüatını xronoloji ardıcıllıqla qəzetdə dərc etdirdi.

Qulamhüseyn Əfşurdinin qiymətli əsərlərindən bir qismi onun Livan reportajlarıdır. 1980-ci ilin yayında baş tutmuş ikihəftəlik səfərin nəticəsi olan beş reportaj mətbuatda geniş əks-səda doğurdu. O, bu reportajlarda Livanın ictimai, siyasi, iqtisadi və mədəni həyatı barədə geniş məlumatlar vermişdir. Qulamhüseynin toxunduğu mövzular üstündən 40 il keçməsinə baxmayaraq, hələ də aktuallığını qoruyub saxlayır. Bu reportajların bəzi hissələrini kitabda əziz oxuculara təqdim edəcəyik.

General Məhəmməd Baqiri ilə söhbətdə başa düşdüm ki, Qulamhüseyn hələ inqilabdan öncə mübarizə illərində Mətbuat qanunu barədə tənqidi yazı hazırlayıb Keyhan qəzetində dərc etdiribmiş. Arxivi axtararkən onu, həmin qəzetin 05.10.78 tarixində çap olunmuş sayında tapdım. O zaman şah rejimi siyasi gərginliyi azaltmaq məqsədilə mətbuat haqda yeni qanun layihəsini ictimai müzakirəyə çıxarmışdı. Ölkənin məşhur jurnalistlərindən bir neçəsi o barədə öz fikirlərini geniş oxucu kütləsi ilə bölüşmüşdü. O zaman hərbi xidmətə yeni çağırılmış gənc Qulamhüseyn də dəyərli bir məqalə yazaraq mövzuya münasibət bildirmişdi. O, yaxın zamanlarda təsdiq olunaraq qanuna çevriləcək Mətbuat layihəsini təcrübəli bir hüquqşünas kimi tənqid etmiş, onun nöqsanlı olduğunu peşəkarcasına vurğulamışdı. O zaman məqaləni oxuyanlar inanmırdılar ki, onun 22 yaşlı müəllifinin peşəkar deyil, heç həvəskar hüquq və jurnalistika təcrübəsi də yoxdur.

Oxucular şəhidin iti qələmi, təhlil və tənqid istedadı ilə tanış olsunlar deyə, həmin məqalənin bəzi hissələrini kitabda gətirmişik. Kitabda Şəhid Həsən Baqirinin müharibənin

əvvəlində həyata keçirilmiş ibtidai əməliyyatlardan başlayaraq, genişmiqyaslı hücumlara qədər inkişaf edən 28 aylıq komandirlik həyatı işıqlandırılmışdır. Döyüşlərin gedişatını çatdırmaqda mümkün qədər gənc nəslin başa düşəcəyi tərzdə yazmağa üstünlük vermiş, hərbi terminlərdən, mürəkkəb ifadələrdən çəkinmişik.

Bu girişin sonunda dəyərli xatirələri ilə Şəhid Həsən Baqirinin şəxsiyyətinə işıq salmış əziz şəhid komandirlərimizi, o cümlədən, İbrahim Himmət, Mehdi Bakiri, Həmid Müinian, Mehdi Zeynəddin, Davud Kərimi və Səyyad Şirazi kimi qardaşları yad etməyi özümə borc bilirəm. Eləcə də bir zamanlar həmsöhbət olmaq şərəfinə nail olduğum əziz insanları - Şəhid Hacı Həmid Təqəvini, Şəhid Hacı Hüseyn Həmədanini və Hacı Əhməd Səyyafzadəni dərin hüznlə xatırlayıram. Uca məqamlı bu insanlar bu gün aramızda olmasalar da, şirin kəlamları həyatımızın bütün sahələrinə nur saçır. Ruhları şad olsun!

Səid Əllamian
25 dekabr 2015

# Dəcəl uşaq

1956-cı ilin 16 martında Tehranın Analar xəstəxanasında bir körpə dünyaya göz açdı. O, Əfşurdi ailəsinin ikinci övladı idi. Təbrizdən idilər, amma fələyin hökmü ilə vətənlərini tərk edib Tehrana köçməyə məcbur olmuşdular.

Anası mahir dülgər ağa Məhəmmədəlinin qızı idi; beş yaşında olanda atası onu məktəbə Quranın otuzuncu cüzünü öyrənməyə göndərmişdi. Məktəbdə oğlan və qızlar birlikdə təhsil aldığına görə bir ildən sonra atası onu məktəbdən çıxardı və evdə özü Quran öyrətməyə başladı. Anası Xeyrənnisə mömin qadın idi, musiqi səsi gələn mağazaların önündən keçəndə əllərini qulaqlarına qoyardı. O, yoxsul qonşulara yardım edən imkanlı ailədən idi. Yayda əksər evlərin quyusu quruyurdu, onların quyusu isə o qədər dərin idi ki, heç vaxt suyu azalmırdı. Suyu da təmiz və dadlı idi. Qapıları günortadan axşama qədər hamının üzünə açıq olurdu, camaat gəlib quyudan su çəkirdi. Ağa Məhəmmədəli yaşlanandan sonra qələm düzəltməyə başladı. Lakin bazarda fabrik qələmləri çoxalanda işi kasadladı, daha yaxşı iş bazarına ümidlə Tehrana yollandı. Həsənin anasının onda 17 yaşı vardı.

**"Əvvəl Seyid Nəsrəddin xiyabanının yaxınlığında qalırdıq. Tehran bizim üçün yad bir şəhər idi. Farsca bilmirdik. Onda indiki kimi deyildi; indi tehranlıların çoxu türkcə bilir. O zaman türklərin sayı çox az idi və onlar xüsusi məhəllələrdə yaşayırdılar. Digər tərəfdən, anam ictimai bir insan idi. Təbrizdə həmişə ətrafımız adamla dolu olurdu. Tehran həyatı uzun illər bizə ağır keçdi.**

**Tehrana köçəndən bir il sonra, 1950-ci ildə Məcid Əfşurdi ilə ailə qurdum. O, orta məktəbi altıncı sinfə**

**qədər oxumuşdu. Toyumuzdan il yarım sonra uşağa qaldım. Qızım dünyaya gələndən sonra məndə xəstəlik və başağrısı yarandı. Bu, iyirmi il davam etdi. Zirzəmidə bir otaq kirayələmişdik, çətinliklə qalırdıq. Sonra yoldaşım Nəqliyyat nazirliyində işə düzəldi, arxiv işçisi oldu. İşlədiyi idarənin rəhbərliyinin köməyi ilə Nəqliyyat nazirliyinin Ərg meydanında yerləşən evlərinin birində qalmağa başladıq. Həyatımız yavaş-yavaş sahmana düşürdü ki, yoldaşım sümük vərəminə yoluxdu. Belinə sümük peyvəndindən sonra altı ay yataqda qaldı. Yoldaşım günəmuzd işləyirdi. İşi dayansaydı, həm işdən çıxarılıb bekar qalardı, həm də evi əldən verərdik. Boynundan buduna qədər bütün bədəni gipsdə idi. İstedadı güclü olduğuna görə on beş min qovluq sayını əzbər bilirdi. Mən o vaxtacan bir qədər oxumaq öyrənmişdim. Çarə yox idi. İşləri ona gətirirdilər, qovluqların nömrəsini deyirdi, mən də tapırdım. Beləcə, iş dayanmadı, altı aydan sonra da sağaldı və işinə davam etdi. O müddətdə çox çətinlik çəkmiş və arıqlamışdım. Həkimlər mənə müalicədən əlavə tam istirahət etməyi də tapşırdılar. Mənsə istirahət adamı deyildim; istəsəydim də buna imkan yox idi. Hamiləliyimin yeddi aylığında ağrım tutdu və məni xəstəxanaya apardılar. 1956-cı ilin 16 martında, qəməri təqvimi ilə 3 şəbanda, yəni İmam Hüseynin (ə) doğum günündə uşaq dünyaya gəldi. İmam Hüseyn (ə) nəzri olaraq adını Qulamhüseyn qoyduq".**[1]

Bəlkə də Qulamhüseyni dünyaya qədəm qoymağa tələsdirən səbəb anasının çəkdiyi məşəqqətlər idi. O, vaxtından iki ay öncə heç kimin gözləmədiyi halda dünyaya gəldi. Onun gəlişi ilə anasının gözləri ümid və sevincdən

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

parlasa da, yeni çətinlikləri təcrübə etməli idi. Qulamhüseyn erkən doğulmuşdu, çəkisi bir kilo səkkiz yüz qram idi. O xəstəxanada erkən doğulmuş uşaqları saxlamaq üçün aparatlar yox idi. Bəzi xəstəxanalarda var idi, onlar da xüsusi təbəqəyə məxsus idi, adi insanlar ondan məhrum idilər. Həkimlər körpənin yaşayacağına ümid bəsləməsələr də, onu üç gündən sonra anasına verdilər.

**"Evimizdə kürsü sobası vardı. Onu parçaya büküb sobanın altına qoyurdum. Olduqca zəif, yumurtadan təzə çıxmış cücə kimi idi. Bütün bədəni, üzərinə qırmızı dəri çəkilmiş sümüklərdən ibarət idi, barmaqları kibrit çöpünə oxşayırdı. Bir aya qədər qaşıqla ağzına süd verdim. Allahın lütfü ilə yavaş-yavaş inkişaf etdi. Bir yaş və bir neçə aylığında qara öskürək xəstəliyinə tutuldu. Onu geyindirib dama çıxarırdım ki, açıq havada nəfəs alsın".**[1]

Qulamhüseyn dünyaya gələndə bacısının dörd yaşı vardı. Körpə o qədər zəif idi ki, ağlayanda səsi çıxmırdı. Balaca bacı hər bir neçə dəqiqədən bir onun ağlayıb-ağlamadığını yoxlamalı idi. Ərg məscidinin önündə yaşıllıq vardı. Atası ağa Məcid axşamlar uşaqları oraya aparırdı.

**"Qulamhüseyni sinəsinin üstünə qoyurdu, yuxuya gedəndə evə qayıdırdıq. O, körpə olanda atamın hər axşamkı işi bundan ibarət idi. İki yaşına çatanda Kərbəlaya getdik. Anamın dayısı ilə ailə qurmuş bibim orada yaşayırdı. Onlar Qulamhüseyni olduqca çox sevirdilər. Bir gün ziyarət zamanı Qulam dəcəlliyindən itdi. Anam və bibim çoxlu axtarışdan və ağa İmam Hüseynə (ə) təvəssüldən sonra onu tapdılar".**[2]

---

[1] Yenə orada.

[2] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

Beş yaşında difteriya xəstəliyinə tutuldu. Qış idi. Anam onu qucağına götürüb qarın ortasında harasa getdi.

**"Həkim tapmayıb həyəcanla aptekə girdim. Dedim ki, uşağım əldən gedir. Onlar doktor Həsən Zamaniyə zəng vurdular. Uşağı tez onun yanına apardım. Nüsxə yazdı. Tez taksiyə minib aptekə qayıtdım. İynəsini vurdular və Allahın köməyi ilə xilas oldu. Elə bilirdim ki, ona bir şey olsa, həyatım məhv olar".**[1]

Əfşurdilər ailəsi Qulamhüseynin üç yaşına qədər Ərg meydanının yaxınlığındakı xidməti evdə yaşadı, sonra isə Mövləviyə Qənatabad xiyabanına köçdülər. Ondan üç il sonra Xorasan meydanı məhəlləsində, Sədriyyə məscidinin yerləşdiyi küçənin sonunda kiçik bir ev aldılar. Dörd ildən sonra da həmin məhəllənin Qaimiyyə küçəsində başqa bir evə köçdülər. Qulamhüseynin uşaqlıq, yeniyetməlik və gənclik dövrü həmin evdə keçdi.

Bir zaman arıqlıq və zəiflikdən öləcəyinə görə qorxan anası indi onun həddən artıq çevikliyinə, dəcəlliyinə, canını təhlükəyə salacaq hadisələrə görə nigaran idi. Qədim evlərdə həyətin ortasında bir hovuz olardı; dövrəsində oturub qab-qacaq və ya paltar yuyardılar. Bir gün Qulamhüseyn iki-üç yoldaşı ilə birgə hovuza qədər qaçmaq yarışı keçirirdilər. Qulamhüseyn hamıdan irəlidə qaçırdı, amma başını çevirib arxasına baxanda müvazinətini itirib divara çırpıldı, alnı yarılıb qanamağa başladı. Elə həmin anda anası qışqırdı: "Ya Hüseyn!" Həmin yarış onun alnında yadigar çapıq yaratdı. Bu kimi hadisələr Qulamhüseyn üçün adi bir şeyə çevrilmişdi. Xüsusən, ona üçtəkərli velosiped alandan sonra qəzaların sayı da artmağa başladı, velosipedi həddən artıq

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

sürətlə sürdüyünə görə dəfələrlə evə əl-ayağı və ya üzü yaralı halda dönməli oldu.

Qulamhüseyn yavaş-yavaş böyüyüb məktəb yaşına çatdı. Onun adını Mütərcimüd-dövlə ibtidai məktəbinə yazdırdılar. Məktəb, dərs və tapşırıqlar da Qulamhüseynin uşaq dəcəlliyini azaltmadı.

**"Məktəblər başlayanda anamın problemləri də başlayırdı. Dərs ili bitəndə isə əllərini qaldırıb deyirdi: "Xudaya! Sənə min şükür!" Anam tez-tez Qulamhüseynə deyirdi ki, tapşırıqlarını yaz, dərsini oxu. O isə kitab-dəftərlərinin harada olduğunu bilmirdi. Hərdən yatıb yuxuya qalırdıq, Qulam tez-tez hazırlaşırdı və birlikdə yola düşürdük. Bəzən görürdüm ki, küçədə özündən böyük bir şagird ona imla deyir, o da divarın küncündə oturub yazır".**[1]

Anasının səbri Qulamhüseynin dəcəlliklərindən böyük idi. O, dəfələrlə evin pəncərələrinin sınmış şüşələri ilə rastlaşmışdı. Qulamhüseyn şüşə qırıqlarını bayırdan içəri töküb onun bayırdan daşla sındırıldığını göstərmək istəyirdi. Anası isə üz vurmurdu, özünü ona inanmış kimi aparırdı. Bəzən həyətdə oynayanda anasının sevdiyi dibçəkləri sındırırdılar. Qulamhüseyn bu zaman da öz uşaqlıq aləminə görə çarə fikirləşirdi: dibçəyin torpağını həyətdən təmizləyir, dibçək qırıqlarını tullayır və gülləri bağçada əkirdi. İki gündən sonra güllər solanda isə anası həmişəki kimi üz vurmur, onları qoparıb kənara atırdı.

O zaman Tehranda ikimərtəbəli avtobuslar var idi. Qulamhüseyn onların daimi sərnişini idi.

**"İkimərtəbəli avtobusa minəndə ikinci mərtəbəyə qalxır, tez-tez o baş-bu başa gedirdi. Bir yerdə qərar**

---

[1] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

**tutmur, oturacaqda oturmurdu. Bəzən pəncərənin yanında dayanıb elə görkəm alırdı ki, sanki ikinci mərtəbənin sürücüsüdür. Bir gün anam bazara gedəndə Qulamhüseyni də özü ilə apardı. Deyirdi ki, Qulam o qədər qalxıb-oturdu ki, bizi biabır elədi. Camaat nə qədər tərs-tərs baxırdısa, yenə öz işini görürdü. Hərdən atam ona deyirdi ki, beş dəqiqə sakit otursan, sənə bir qran pul verəcəyəm. Cavab verirdi ki, nə bir qranı istəyirəm, nə də sakit oluram".**[1]

Məhəllənin uşaqları da bir neçə dəfə anasına şikayət etmişdilər.

**"Məhəllədə uşaqlarla dalaşırdı. Heç kimdən söz götürmürdü. Uşaqlar şikayətə gələndə deyirdim ki, gedin problemlərinizi özünüz həll edin, sizi vurubsa, siz də onu vurun".**[2]

Böyüyəndən sonra üçtəkərli velosipedi ikitəkərli velosipedlə əvəzlədi, daha sonra isə motosiklet aldı. Yaşı az olsa da, motosikleti çox sevirdi, onunla macəraçılıq edirdi. O macəraçılıqlar bir neçə qəza da törətdi. O, yüksək sürəti cəbhə dövrünə qədər tərk etmədi. Onun bu xüsusiyyəti hətta uzunqulağa minəndə də özünü göstərirdi.

**"Uşaqlıq və yeniyetməlik çağından çox aktiv idi. Biz Təbrizdə yaşayırdıq. Onlar da Təbrizə gəlmişdilər. Məhəlləmizin yaxınlığında bir meyvə bağı var idi. Bibimin də bağı vardı, təmiz hava almaq üçün oraya gedirdik. Bir gün bağa gedəndə onu gördüm, bir uzunqulaq tapıb minmişdi və çox sürətlə bizə doğru gəlirdi".**[3]

---

[1] Yenə orada.

[2] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

[3] Əmisi oğlu Hadi Əfşurdi ilə müsahibədən.

Dəcəlliyindən və yüksək sürətə marağından əlavə, yardımsevərliyi və açıq danışması da qonşuların dilinin əzbəri idi.

**"Onlar 1961-ci ildə məhəlləmizə gəlib bizimlə qonşu oldular. Onda Qulamhüseyn çox balaca idi, hələ məktəbə getmirdi. Elə əvvəldən bildik ki, onlar dindar və çox hörmətli ailədirlər. Qulamhüseyn mehriban uşaq idi. Mən xəstəliyimə görə bir müddət hərəkət edə bilmirdim. Bu uşaq həmişə gəlib qapını döyür və soruşurdu: "Çörək istəmirsiniz? Bir qulluğunuz yoxdur?" Onu işlərimin ardınca göndərirdim. Tez gedib mənə çörək, dərman alırdı, anasına xəbər aparırdı, nə işim olsaydı, görürdü. Anası Təbrizə qohumlarının yanına gedəndə onu mənə tapşırırdı. Bir dəfə günorta yeməyində onun xörəyə iştahsız yanaşdığını gördüm. Dedim ki, Qulamhüseyn, nə üçün xörək yemirsən? Açıq danışan uşaq idi. Dedi: "Əgər gəlib sizinlə xörək yeməyimi istəyirsinizsə, səbzi-plov bişirin, badımcan xuruşunu sevmirəm". Dedim ki, baş üstə".**[1]

Qulamhüseyn ibtidai məktəbi bitirəndən sonra Mərvi liseyinə yazıldı. Atasının ənənəvi baxışlarına görə anası məktəbə getməmişdi, ailə qurana qədər oxuyub-yazmağı bacarmırdı. Sonralar böyüklər məktəbinə gedib altıncı sinfi bitirdi, ailə-uşağı olmasına baxmayaraq, yaxşı qiymətlər aldı, amma təhsilini davam etdirə bilmədi. Buna görə uşaqlarının təhsil alıb yüksək elmi dərəcələrə nail olmalarını arzulayırdı.

**"Məhəllədə narahatlıqlarımdan biri də qonşuların təhsilsiz olmaları idi. Mənim qızım həmin məhəllədən attestat alan və universitetə daxil olan ilk qız oldu. Oğlanların əksəri uzaqbaşı orta məktəbi bitirənə qədər**

---

[1] Qonşuları xanım Zəhra Rzayi ilə müsahibədən.

**oxuyurdu. Bəziləri altıncı sinfi bitirəndən sonra bazara və müxtəlif işlərə gedirdilər. Nadinc olduğuna görə əvvəllər elə bilirdim ki, bu uşaq dərs oxuya bilməyəcək. Qiymətləri orta səviyyədə idi. Elə bilirdim ki, belə də davam edəcək. Ondan ötrü narahat idim. O, çoxlu kitablar oxuyurdu, Qurana, dini hökmlərə və hədislərə çox maraq göstərirdi, amma məktəb dərslərinə həvəssiz idi. Bir dəfə otağına girib dedim: "Sən dərslərini yaxşı oxumursan, kitablarını yandıracağam". Hədəmi laqeyd qarşıladığını görüb getdim".**[1]

Bacısı da belə səhnələrə şahid olmuşdu.

**"Qulamhüseyn yeddinci sinifdə oxuyurdu. O vaxt anam ona tez-tez dərslərini yazıb-oxumasını söyləyir, o isə əhəmiyyət vermirdi. Bir dəfə anam hirslənib kitablarını həyətə tökdü və bir qədər neft gətirdi. Kibriti yandırıb ona dedi: "Daha məktəbə getməyini istəmirəm". Onun reaksiya verməsini gözləyirdi. O isə başını aşağı salmışdı və heç nə demədən baxırdı. Nəhayət, anam geri çəkilib dedi: "Bu dəfə yandırmıram, get, tapşırıqlarını yaz".**[2]

Anası məyusluğa çox yaxınlaşdı, amma yenə ruhdan düşmədi.

**"Deyirdim ki, İlahi, əgər böyüyəndə sakitləşəcəyini və dərslərini oxuyacağını bilsəm, səbir edərəm. Həqiqətən də səbir etdim. Düzdür, əziyyət çəkdim, amma çox keçmədən gördüm ki, dəcəllikləri bitdi, həm iman və etiqad baxımından, həm də işdə ciddilik, təhsil və ailə baxımından ideal bir insana çevrildi".**[3]

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

[2] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

[3] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

Ailənin digər üzvləri də bu dəyişikliyi hiss etdilər.

**"Konkursun nəticələri elan olunanda Qulamhüseyn mənim universitetə qəbul olub-olmadığımı öyrənməyə getdi. O zaman nəticələri universitetin qapısının yanındakı divara vururdular. Ümumi telefondan zəng vurub qəbul olduğumu bildirdi. Axşam evə gələndə fikirli idi. Zənnimcə, bu hadisə Qulamhüseynin dərsə marağının artmasına səbəb oldu. Hər gün bir neçə dostu ilə birgə evimizin ikinci mərtəbəsində dərs oxuyurdu. Anam onlara nahar və şam yeməyi hazırlayırdı".**[1]

Əfşurdilər ailəsinin üçüncü övladı olan Məhəmməd 1960-cı ilin noyabrında Tehranda dünyaya gəlib. O, qardaşına nisbətən daha yaxşı dərs oxuyurdu, qiymətləri daha yüksək idi.

**"Mən birinci sinfə gedəndə Qulamhüseyn altıda oxuyurdu. Qardaşım ibtidai məktəbdə adi və orta səviyyəli bir şagird idi, mənsə məktəb və rayon birincisi olurdum. İkinci sinfi bitirəndən sonra müəllimimiz dedi ki, yayda üçüncü sinfi oxu, imtahan ver və növbəti dərs ilində dördüncü sinfə get. Müəllimimin həvəsləndirməsindən sonra tez-tez dərs oxuyub imtahanları verdim və iyirmidən on doqquz bal topladım. Qulamhüseyn qohumlar arasında dərs cəhətindən nümunəvi deyildi. Mən təkcə iki min şagirdi olan bir məktəbdə yox, bütün rayonda tanınırdım. Dərsə çox vaxt ayırmırdım. Əsas məsələ budur ki, orta istedadlı bir insan bir neçə ilə yüksək zirvəyə ucala bildi. Mən daha istedadlı idim, amma elə ola bilmədim".**[2]

---

[1] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

[2] Qardaşı General Məhəmməd Baqiri ilə müsahibədən.

## *Uşaqlığın sonu*

Qulamhüseyn baramadan gec çıxmış kəpənək kimi orta məktəbin yuxarı siniflərində uşaqlıq və yeniyetməliklə sağollaşdı, dərin dini və düşüncə yetkinliyinə nail oldu. Məktəbə və dərsə çox da əhəmiyyətli yanaşmasa, qiymətləri yüksək olmasa da, dini kitabların, Quran təfsirinin mütaliəsinə, imamət, nübüvvət və İmam Mehdi (ə) haqda araşdırmalara sonsuz maraq göstərirdi. İctimai idi, bildiklərini digərlərinə də çatdırmaq istəyirdi.

**"Məscidin və heyətin proqramlarında birlikdə iştirak edirdik. Orada Quran oxuyur, hədis və din hökmləri öyrənirdik. O zaman qardaşımın özü iki-üç Quran dərsi təşkil etmişdi. O, kiçik uşaqları başına toplayıb öyrəndiyi ayəni onlara oxuyurdu. Cib xərcliyi ilə rəngli karandaş alıb uşaqlara mükafat verirdi".**[1]

Onun sürətli inkişafını qonşular da sezmişdilər.

**"Zirək və istedadlı uşaq idi. Böyük ruhu vardı, mənim düşündüyümdən də böyük. Onun kiçik cismi böyük ruhu ilə həmişə təlatümdə idi. Ailəsi şəriət hökmləri ilə tanış idi, o da həmin ailədə böyümüşdü. Yaşıdlarını toplayıb onlara Quran, hədis və din hökmləri öyrədirdi".**[2]

Qulamhüseyn gənc, hətta böyük qohumlar arasında da dini hökmləri yerinə yetirən biri kimi məşhurlaşmışdı.

**"Hamı onu şəriət hökmlərinə həssas yanaşan biri kimi tanıyırdı. O yaşda güclü imanı və ixlası vardı. Ozamankı şəraitə görə, ölkədə gənclərin çoxu dini məsələlərə diqqət yetirmirdi, o isə qonaqlıqlarda, şənliklərdə gənc**

---

[1] Yenə orada.

[2] Qonşuları xanım Zəhra Rzayi ilə müsahibədən.

**qohumları toplayıb onlara Quran və hədis danışırdı. Gənc qohumları arasında böyük hörməti vardı".**[1]

Qulamhüseynin sürətli dini inkişafının mühüm amillərindən biri anasının verdiyi tərbiyə idi.

**"Qulamhüseynin tərbiyəsi üçün iki şey üzərində həssaslıq göstərirdim: halal-haram, doğru danışmaq və düzgünlük. Deyirdim ki, oğul, dinin əmri belədir, paklıqla murdarlıq arasında başqa bir şey yoxdur".**[2]

O zaman kütləvi informasiya vasitələri əksərən sağlam deyildilər. Uşaqlarını əxlaqsızlıqdan qorumaq üçün valideynlər məhərrəm əzadarlıqlarına, məscidlərə, camaat namazlarına və mübarək ramazan ayında təşkil olunan moizə məclislərinə üz tutmaqdan başqa bir yol görmürdülər.

**"İbtidai məktəb dövründə namazını tərk etmədi. Öz yaşıdları ilə heyət yaratmışdı. Həftədə bir dəfə yığışıb Quran oxuyur, hədis əzbərləyir, sinə vururdular. Yeddinci sinifdən etibarən məsciddə fəaliyyətlərini davam etdirməyə başladı. Atası onlara nəzarət edirdi".**[3]

Anası tərbiyə üsulu kimi uşaqlarla səmimi münasibətə və yoldaşlığa əhəmiyyət verirdi. Bəzən onlarla birlikdə kinoteatra gedirdi.

**"Əxlaq baxımından ziyanlı olmayan filmləri seçirdim. Çox vaxt komediya filmləri olurdu. Böyüyəndən sonra ciddi filmlərə getməyə başladıq. Atası və digər qohumlarla getdiyimiz son filmə gəlmədi. Elə yaxşı da gəlmədi, münasib film deyildi. Ondan sonra daha kinoteatra getmədik. Radiomuz var idi, amma**

---

[1] Əmisi oğlu Hadi Əfşurdi ilə müsahibədən.

[2] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

[3] Yenə orada.

**inqilabdan bir müddət sonraya qədər televizorumuz olmadı".**[1]

Xorasan meydanı möminlər məhəlləsi kimi tanınırdı. Qulamhüseynin yoldaşlıq etdiyi uşaqlar yaxşı və mömin uşaqlar idilər. Buna baxmayaraq, hər şey valideynlərinin nəzarəti altında idi.

**"O vaxt dövlət məktəblərinin əlavə fəaliyyətləri olmurdu. Bir gün məktəbdə onlara əlavə idman təlimi qoymuşdular. Məktəbdən gəlmədiyini görüb nigaran qaldım. Məktəbə nə qədər zəng vurdumsa, cavab vermədilər. Oraya getdim. Qapı bağlı idi. Mən evə qayıdandan bir qədər sonra gəldi. Dedim ki, nigaran qaldım, haradaydın? Dedi ki, bizə əlavə bir saat idman təlimi qoymuşdular. Həmişə vaxtında gedir, vaxtında qayıdırdı".**[2]

Atası ağa Məcidin rəsmi vəzifəsi vardı, amma evə bir tikə də şübhəli çörək gətirməzdi. Uşaqlar böyüyəndən sonra atalarının qazancı ailənin ehtiyaclarını təmin etmirdi. Anaları ailənin maddi durumuna kömək göstərməli olduğunu hiss etdi, işə başladı və dərziliklə məşğul oldu. O, imkanı daxilində təhsillə yanaşı uşaqlara yaxşı geyim, yaxşı qidalanma, səfər və əyləncə imkanları yaradırdı. Onlara azadlıq verirdi, dost seçmələrinə qarışmırdı. Qulamhüseynin çoxlu dostları vardı. Onlardan biri Mahmud Gülzari idi.

**"Qulamhüseyn Əfşurdi Xorasan xiyabanında Sədriyyə məscidinin arxasında qalırdı. Aşağıda iki, yuxarıda da bir otaqları vardı. İkinci mərtəbəni çətinliklə tikmişdilər. İmkanları yaxşı olmasa da, kasıb da deyildilər. Onun şəxsiyyətinin formalaşmasında anasının**

---

[1] Yenə orada.

[2] Yenə orada.

**rolu daha böyük olmuşdu. Atası orta idarə işçisi idi, məişətləri ondan əlavə anasının dərziliyi ilə idarə olunurdu. Ən azı, ayda bir dəfə on nəfər yığışıb onlarda şam yeyir və yatırdıq. Maddi vəziyyətlərinin çox da yaxşı olmadığını bilmirdik - bizə bildirmirdilər. Rayon uşağı idim, ora həyatımın bir hissəsinə çevrilmişdi. Anası onun dostları üzərində həssaslıq göstərirdi. Yaxşı olanda onlarla çox səmimi münasibət qurur, dostlarını saymaqla oğlunun şəxsiyyətinə hörmət edirdi".**[1]

Qulamhüseyn Mövləvi dördyolundakı Məhdəviyyə məscidinin heyətinin üzvü idi. Heyətin iclasları məscidin imamı Höccətül-islam Behişti tərəfindən cümə günləri günortadan sonra keçirilirdi. Gənclər o yığıncaqlarda Quran və hədis oxuyur, şəriət hökmlərini öyrənirdilər. Sədriyyə məscidində Ayətullah Seyid Məhəmmədmehdi Musəvi Xalxalinin nəzarəti altında daimi dərslər olurdu. Qulamhüseyn o dərslərin də davamlı və fəal üzvlərindən idi. Qulamhüseynin dini düşüncələri və mənəvi inkişafı belə bir şəraitdə formalaşdı.

**"Yeniyetmə çağından Sədriyyə məscidində fəaliyyət göstərirdi. Məsciddə dini-ictimai işlər görürdük. Qulamhüseynin aktiv iştirak etdiyi fəaliyyətlərdən biri də həzrət İmam Mehdinin (ə) doğum günü münasibəti ilə keçirilən böyük bayram tədbiri idi. Bu bayram bir gün yox, bir həftə keçirilirdi. O məhəllədə təşkil olunan bu mərasim Tehranda məşhur idi".**[2]

---

[1] Mahmud Gülzari 1971-ci ildə Sədriyyə məscidində Qulamhüseyn Əfşurdi ilə tanış olmuşdu. O zaman o, Sənaye universitetinin kimya mühəndisliyi fakültəsinin tələbəsi idi.

[2] Qonşusu Xəlil Sübhani ilə müsahibədən.

Qulamhüseyn din hökmləri işığında özünü islah etdi, dindar və şəriət hökmlərinə sadiq bir gənc kimi tanındı. Bu hökmlərdən biri də naməhrəmə baxmamaq idi.

**"Xalam qızı ilə danışanda xalamın üzünə baxırdı. Biz Qulamhüseyndən öyrəndik ki, imkan daxilində naməhrəmin üzünə baxmayaq".**[1]

Qulamhüseynin yaxşı işlərə dəvət etmək üsulu da özünəməxsus idi.

**"Heç kimi birbaşa nəsihət etməzdi. Deməzdi ki, mən namazımı ilk vaxtda qıldım, qalx, sən də qıl. Avtomobillə bayıra çıxanda hansı məsciddən azan səsi gəlsəydi, dayanar və namaz qılmağa gedərdi. Avtomobildən enəndə heç kimə deməzdi ki, sən də gəl. Bu, bizim üçün ən yaxşı dəvət üsulu idi. Yəni bunu rəftarı ilə başa salırdı, dillə yox".**[2]

Əlbəttə, lazım olan yerdə açıq şəkildə pis işdən çəkindirirdi.

**"Həmin bayramlarda və dərslərdə yüngül bir söz desəydik və ya yüngül hərəkət etsəydik, çəkinmədən deyirdi ki, ağa seyid, sənə yaraşmır, bu iş düzgün deyil. Bayramlarda hədiyyə paketləri verilirdi. Biz ikinci paketi almaq istəyəndə işarə ilə çəkindirirdi".**[3]

Məscid uşaqları və qohumları Qulamhüseynin sözünü həmişə ciddi qəbul edirdilər.

**"Yayda qohumlarla birgə yaylağa gedir, Dəmavəndin yuxarı hissəsində bir bağ kirayə edirdik. Biz Qulamhüseynlə birlikdə dağ-dərəyə gedib oynayırdıq. Evdən deyirdilər ki, gedirsinizsə, gələndə çörək də alın.**

---

[1] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

[2] Yenə orada.

[3] Qohumu Seyid Əhməd Təqəddümi ilə müsahibədən.

**Bağların arası ilə şəhərə gedib çörək alırdıq. Pul Qulamhüseyndə olurdu. Ona deyirdim: "Qulamhüseyn, bir dondurma da alarsan?" Deyirdi ki, indi olmaz. Səbəbini soruşanda belə cavab verirdi: "Bizə dedilər ki, yalnız çörək alın və gəlin".**

**Günorta azanına düşəndə deyirdi ki, gedək namaza. Mən deyirdim ki, növbəmiz əlimizdən çıxacaq. Növbəmizi birinə tapşırıb gedirdik. Qayıdanda görürdük ki, tapşırdığımız adam çörəyini alıb gedib. Yenidən növbəyə dayanırdıq".**[1]

Kitab oxumağa maraq Qulamhüseyndə yeniyetmə yaşlarında yarandı. Sədriyyə məscidində kitabxana açmaq məsələsi ortaya çıxanda çox həvəslə kitabxanada xidmət etməyə başladı.

**"Kitabxana üçün kiçik bir otaq hazırladıq. Əfşurdi kitabxananı o qədər sevirdi ki, onu səhər oraya salsaydılar, gecə saat 12-yə qədər kitab oxuyardı. O, kitabxanada kitabları toplayır, saxlayır və üzvlərin adlarını yazırdı".**[2]

Qulamhüseynlə oturub-duran dostları da kitab oxumağa həvəslənirdilər.

**"Kitabı çox sevirdi. Bir dəfə birlikdə bir yerə gedirdik. Yolumuzun üstə bir kitab mağazası var idi. Dedi ki, gedək, baxaq. Oradan bir neçə kitab aldı. Mənə bəzi kitablar göstərib deyirdi ki, Mustafa, bu kitablar da sənə yaxşıdır, al.**

---

[1] Yenə orada.

[2] Qonşusu Xəlil Sübhani ilə müsahibədən.

**Həmin gün bütün puluma kitab aldım. Dedi ki, kim mənimlə bir yerə getsə, gərək bütün pulunu kitaba versin".**[1]

Onun mütaliə həvəsi bitmək bilmirdi. Hər cür kitab oxuyurdu. Doktor Əli Şəriətinin, Mühəndis Mehdi Bazərqanın, Ayətullah Dəstqeybin, Ayətullah Behiştinin, Ayətullah Mütəhhərinin kitablarını və müxtəlif təfsirləri mütaliə edirdi, ensiklopedik kitabları, müxtəlif dinlərə, məsələn, məsihiliyə aid əsərləri də oxuyurdu. Hətta kommunistlərin, Xalq Mücahidləri Təşkilatının kitablarını da əldə etmişdi.

**"Hər cür kitabı vardı. Bir mövzu barədə danışmağa hazırlaşanda beş-altı kitab oxuyur, hər birindən qeydlər götürürdü. Üç kitab şkafı vardı, üçü də dolu idi. Bir gün evə gələndə gördüm ki, drellə şkafına bir cərgə də artırmaq istəyir. Vaxtını hədər etməzdi. Evə gələndə bilirdi ki, bu gün hansı kitabları oxumalı və hansı mövzuda hazırlaşmalıdır. Öncədən işlərini qeyd edərdi. Təxminən on üç yaşından gündəlik yazırdı. Həmişə ya oxuyur, ya da yazırdı".**[2]

Sədriyyə məscidində İslam təlimləri dərsləri keçirilirdi. Qulamhüseyn həmişə dərslərdə iştirak edirdi. O, həmin dövrün gənclərinə münasib mövzular da təklif edirdi. O mövzuların biri musiqi idi. Bu haqda çoxlu araşdırma aparmışdı.

**"Əfşurdi məndən on yaş kiçik idi, amma bizim gözlədiyimizdən böyük işlər görürdü. O, öz yaşıdlarını dərslərə cəlb edirdi. Bəzilərində uşaqlıqdan rəhbərlik**

---

[1] Sinif yoldaşı və qonşusu Mustafa Rəhimi ilə müsahibədən.

[2] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

**istedadı olur. Əfşurdi də belə idi. Həmin illərdən onda rəhbərlik və təşkilatçılıq qabiliyyəti görünürdü".**[1]

Qulamhüseyn on beş yaşında olanda öz çıxışları ilə dini müzakirə məclislərini rövnəqləndirirdi.

**"Üzərinə çıxış məsuliyyəti götürür və faydalı mövzulara toxunurdu. Bir gün təqva barədə çox məzmunlu bir söhbət etdi. Qulamhüseyn Əfşurdi dərsdə iştirak edən gənclər arasında İslam araşdırmalarına və nitq qabiliyyətinə görə ən nümunəvi və güclü gənclərdən idi. Onun düşüncəsi bəlkə də yaşından iyirmi il yüksək idi. Onda özündən iyirmi yaş böyük olan ali təhsilli adamlarla müzakirə etmək, fikirlərini əsaslandırmaq və onların mövqelərini tənqid etmək qabiliyyəti var idi".**[2]

Qulamhüseynin Sədriyyə məscidində əsasını qoyduğu digər fəaliyyət məqalə elanları idi. Bu məsələ o zaman bir yenilik sayılırdı.

**"Bütün dostlarından müəyyən bir mövzuda məqalə yazmalarını istəyirdi. Hər il İmam Mehdinin (ə) doğum günü olan 15 şəban yaxınlaşanda bəzi din alimlərindən və mütəfəkkirlərdən də məqalə alıb kitab şəklində çap edirdi. Bu məqalələr bir neçə ildən sonra İmam Mehdi (ə) ilə bağlı müxtəlif mövzularda beş cild kitaba çevrildi. Bu işin əsas təşkilatçısı Qulamhüseyn Əfşurdi idi".**[3]

Qulamhüseynin dostları onu fitri istedad sayırdılar.

**"Uşaqlara deyirdim ki, Qulamhüseyn bütünlüklə beyindən ibarətdir. Adama elə gəlirdi ki, onda beyindən başqa bir şey yoxdur".**[4]

---

[1] Qonşusu Xəlil Sübhani ilə müsahibədən.

[2] Məscid dostu Seyid Müctəba Musəvi ilə müsahibədən.

[3] Dostu və qonşusu Nasir Sübhani ilə müsahibədən.

[4] Dostu və qonşusu Möhsün İsmaili ilə müsahibədən.

Qulamhüseynin düşüncə, istedad və elmi inkişafında mühüm rolu olan xüsusiyyətlərindən biri alimlərdən öyrənmə cəhdi idi.

**"Araşdırmağa və imkanlardan istifadə etməyə hamıdan çox maraq göstərirdi. Biz elmli bir natiq dəvət edirdik. O, bir məclisimizdə qonaq olub çıxış edir, sonra da sağollaşıb gedirdi. İki-üç həftədən sonra bilirdik ki, Qulamhüseyn onunla əlaqəni davam etdirir və yaxın münasibət qurub. Dəyərli insanların ardınca gedir, onlarla əlaqə yaradırdı".**[1]

Dini və elmi fəaliyyətlər onu cəmiyyətdən uzaqlaşdırmırdı. Çox ictimai adam idi, ətrafındakı insanlara, xüsusən də zəiflərə qarşı laqeyd deyildi.

**"Divanları təmir etdirmək üçün qoca bir dülgər çağırmışdı. İşini gördü, pulunu aldı və getdi. Bir neçə gündən sonra öyrəndik ki, Qulamhüseyn onun dükanına gedib əlavə pul vermişdir. Soruşanda dedi: "O Allah bəndəsinin haqqı verdiyinizdən çox idi. Çəkindiyinə və bəzi səbəblərə görə az almışdı; kasıbdırlar, gərək onlara kömək olunsun".**

**Bir dəfə də bağçalarını səliqəyə salmaq üçün bir fəhlə gətirdilər. İşini bitirib gedəndən sonra Qulamhüseyn onun ardınca getdi. Sonra bizə dedi: "Fikirləşdim ki, ona verdiyiniz pul az oldu. Yazıq çox əziyyət çəkdi. Getdim ona bir az da pul verim ki, razı qalsın".**[2]

Bir axşam bir kişi ilə birgə evə gəldi. Evdəkilər öncədən o adamı görməmişdilər. Əynində köhnə paltar var idi. Qulamhüseynin ona yataq hazırladığını görəndə hamıda maraq yarandı.

---

[1] Dostu Mahmud Gülzari ilə müsahibədən.

[2] Yenə orada.

**"Otaqdan çıxan kimi soruşdum ki, bu adam kimdir? Dedi: "Xorasan meydanından keçəndə bir pilləkəndə oturduğunu gördüm. Gözləyirdi ki, xiyaban boşalsın və səkidə yatsın. Onunla danışdım, bildim ki, rayondan gəlib, qəribdir, mehmanxanaya getməyə də pulu yoxdur". Səhər o kişiyə yemək verib yola saldı".**[1]

Məhəllələrində epilepsiya xəstəsi olan bir qadın yaşayırdı. Bir gün nevroloji pozuntudan bədəni qıc olmuş, çırağın üstünə yıxılmış, çıraq aşmış və ev yanmağa başlamışdı. Ev tüstü ilə dolmuşdu, heç kim içəri girməyə cürət etmirdi.

**"Oraya çoxlu adam toplaşmışdı. Məhəllənin qoçularından bir neçəsi də dayanıb digərləri kimi tamaşa edirdilər. Hamı yanğınsöndürən maşının gəlməsini gözləyirdi. Hadisə yerinə çatan Qulamhüseyn özünü evə, od və tüstünün içinə atdı. Hamı təəccüblə tamaşa edirdi. Bir az sonra başdan-ayağa qaralmış vəziyyətdə evdən çıxıb dedi: "Bir nəfər köməyə gəlsin".**

**Mən onda kiçik idim. Heç kimin yaxına gəlmədiyini görəndə özü bir nəfərin qolundan tutub zorla içəri çəkdi. İkisi köməkləşib yaralı qadını bayıra çıxardılar və xəstəxanaya apardılar".**[2]

## *Yarımçıq təhsil*

Qulamhüseyn 1975-ci ilin yayında attestat alandan sonra ali məktəbə qəbul imtahanında iştirak etdi və səkkiz universitetə qəbul oldu. O, Urmiya universitetinin maldarlıq fakültəsini seçdi. Hüququ sevirdi, ona da qəbul olmuşdu, amma getmədi. Deyirdi ki, oxuyub hakim olsam, bu

---

[1] Qardaşı General Məhəmməd Baqiri ilə müsahibədən.

[2] Yenə orada.

dövlətdə necə hökm çıxaracağam?! İnqilabdan sonra isə dərhal hüquq fakültəsinə daxil oldu.

"Qulamhüseyn Əfşurdi Urmiya universitetinin maldarlıq fakültəsinin böyük gövşəyənlər ixtisasında təhsilə başladı. Onu Qulam çağırırdıq. Bir dəfə dedim ki, Qulam, böyük gövşəyənlər nə deməkdir? Zarafatcıl idi. Dedi ki, inək böyük gövşəyən, dovşan isə kiçik gövşəyəndir; mən inək ixtisasındayam. Biz də onu ələ salıb güldük".[1]

Qulamhüseyn mütaliə həvəskarı olsa da, həm də yazırdı. Urmiyaya gedəndən sonra tez-tez məktub yazırdı. Bacısı Bətulla münasibəti səmimi idi. Bacısı da digər ailə üzvlərinə nisbətən ona qarşı daha açıq idi; hər bir problemini Qulamhüseynə yazır, o da tez cavab verirdi.

**"Gözəl və səlis cümlələrlə məni sakitləşdirməyə çalışırdı. Tez-tez məktublaşırdıq. Təkcə mənimlə yox, çoxlu dostları ilə də məktublaşırdı".**[2]

Qulamhüseynin məktubları həmişə Allahın adı və həzrət Mehdini (ə) xatırlamaqla başlayırdı. O, 1975-ci ilin 27 dekabrında bacısına belə yazmışdı:

**“Allahın adı və İmam Mehdini (ə) yada salmaqla!**

**Əziz və hörmətli bacım! Ən səmimi salamlarımı göndərirəm və ümidvaram ki, Allah-Taalanın köməyi ilə işlərində müvəffəq olasan; lakin hər bir işdə yox, yalnız sağlam ağlın qəbul etdiyi işdə. Elə bir iş ki, onun həm dünyada, həm də axirətdə faydası olsun. İnşallah, mövlamız İmam Mehdiyə (ə) xidmətdə öncül olasan, o ağanın özü sənə kömək etsin! Canın sağ, könlün xoş olsun və qəm-qüssədən uzaq olasan!**

---

[1] Dostu Mahmud Gülzari ilə müsahibədən.

[2] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

**Bətul can, mən sənə hamıdan rahat şəkildə yaza bilirəm. Çünki həqiqətən səni anlayıram və sənin də məni başa düşdüyünü görürəm. Allah səni bizim üçün qorusun! İnşallah, dərslərində və işlərində uğur qazanasan, qiymətlərin yaxşı olsun!.."**[1]

Qulamhüseynin məktublaşdığı dostlarından biri də Mahmud Gülzari idi. O, bir məktubda yazmışdı ki, burada (Urmiyada) Quran lüğəti kitabının müəllifi olan Ayətullah Qüreyşi ilə görüşür və suallarımı ondan soruşuram.

**"O, həmin qısa müddətdə soraqlaşıb şəhərin böyüklərini tapmışdı, oradakı vaxtından istifadə etməyə çalışırdı".**[2]

Qulamhüseyn hər dəfə Urmiyadan Tehrana gələndə Seyid Əhməd Təqəddümini görməyə gedirdi. Ağa Təqəddümi bu görüşlərdə ondan şah rejimi əleyhinə sözlər eşidirdi. O, ölkənin vəziyyətini təhlil edib deyirdi: "Ölkəmizdən ötrü kimin əlindən nə gəlirsə, etməlidir".

**"Ona nəsihət verdim ki, otur, dərslərini oxu, bu məsələlərlə nə işin var? O isə dinləmədi və bir də eşitdik ki, onu universitetdən qovublar".**[3]

Urmiya universitetində üç semestr təhsil aldı. Onun dini və siyasi fəaliyyətləri, habelə bəzi müəllimlərlə İslam hökmləri mövzusunda mübahisəsi universitetdən qovulmasına kifayət etdi. Əslində isə bu fakültəyə həvəsi yox idi, ruhiyyəsi böyük gövşəyənləri araşdırmağa uyğun deyildi. Odur ki, Urmiya universitetini tərəddüd etmədən həyatından sildi.

---

[1] Həsən Baqirinin xatirələri, c. 1.

[2] Dostu Mahmud Gülzari ilə müsahibədən.

[3] Qohumu Seyid Əhməd Təqəddümi ilə müsahibədən.

Qulamhüseyn 1978-ci ilin aprelində hərbi xidmətə yollandı, Nəqədehdə Cəldian qarnizonunda hərbi təlim keçəndən sonra onu İlama göndərdilər.

**"1978-ci ilin 6 sentyabrında səhər yeməyindən sonra dedilər ki, attestatı olanlar düzülsünlər. On dörd nəfəri Qəsri-Şirinə, altı nəfəri İlama, ikisi tapşırılmış uşaqlar olan altı nəfəri Kirmanşaha, bir nəfəri də sürücülüyə ayırdılar. Orada qalan üç nəfərin biri çavuş idi, ikisi də öncədən komandiri "görmüşdü". Mən İlama gedən qrupa düşdüm. Günorta saat 13:30-da yola düşüb beşdə İlama çatdıq".**[1]

Qulamhüseyn Əfşurdinin o dövrə dair məktublarında və gündəlik qeydlərində dini vaciblərə, xüsusən də namaza xüsusi diqqət nəzərə çarpır. O, hərbi mühitin onun mənəviyyatını zəiflətdiyini düşünür, qeydlərinin birində belə yazırdı:

**"Axşam dəstəmaz alıb yatağıma uzandım. Vaxta bir dəqiqə qalırdı. Kül başıma! Məni yuxu tutdu. Həqiqətən, İmam Mehdinin (ə) lütfündən uzaq düşmüşəm. Səbəbini Allah bilir. Burada mənəvi paklığı qorumaq çox çətindir. İnsan mənəvi baxımdan korlananda isə artıq İmam Mehdinin (ə) diqqətindən uzaqlaşır. Yuxudan oyananda beşə on beş dəqiqə qalırdı. Şam namazını əda və ya qəza niyyəti etmədən, işa namazını da əda niyyəti ilə qılıb sübh namazını gözlədim. Azandan sonra sübh namazımı qıldım. Burada sübh azanı beşdədir. Bu gün çox sıxıcı keçdi. Sevinirdim ki, burada namazım qəza olmayıb. Əlbəttə, namazımız quru sözləri tələffüz etməkdən ibarətdir. Namazlarımda əsla ruh yoxdur. Ancaq onu qılmamaqdan qorxuram, ya adətdən, ya da vacib**

[1] Şəhid Həsən Baqirinin gündəliyindən.

**olduğuna görə qılıram. Özümü cəzalandırmaqdan ötrü səhərdən günortaya qədər su içmədim. Çox hirsli idim, amma nə faydası?! Bu qədər diqqətdən sonra şam və işa namazlarımı qılmadan yatmışdım. Kaş hərbi xidmətə gəlməyəydim və belə də olmayaydı! Allah-Taalanın bağışlayacağına ümid edirəm".**[1]

Qulamhüseynin dostlarından biri də hərbi xidmətini Zahidanda keçirirdi. O, məzuniyyət zamanı avtobusla Zahidandan Tehrana gedəndə günəşin doğmasına az qalmış sürücüdən xahiş edib ki, namazını qılsın, sürücü də onu məsxərə edib. O, avtobus sərnişinlərinin onu müdafiə etmədiklərinə görə narahat olmuşdu. Qulamhüseyn ona təskinlik vermək üçün başına gəlmiş bir hadisəni danışmışdı:

**"Məzuniyyət zamanı İlamdan Tehrana gedirdim. Kərəcin yaxınlığında sübh namazım qəzaya gedirdi. Sürücüdən xahiş etdim ki, avtobusu saxlasın və mən namazımı qılım. Sürücü dedi ki, Tehrana qədər dayanmayacağıq. İsrar etdiyimi görəndən sonra isə avtobusu saxladı. Hava soyuq idi. İki-üç dəqiqə ərzində namazımı qıldım. Qayıdanda gördüm ki, avtobus gedib, çantamı da aparıb".**[2]

Qulamhüseyn 1978-ci ilin 20 sentyabrında bacısı Bətula bir şəkillə birgə bir məktub göndərmişdi. Bu, onun əsgər paltarında ilk şəkli idi. Bədənindən çox böyük ölçüdə əsgər forması özünə də o qədər gülməli görünmüşdü ki, bacısını güldürməkdən ötrü ona belə bir şərh yazmışdı:

"18.09.1978 tarixində İlamın şimal-qərb istiqamətində kiçik bir istirahət yeri olan Dovşanlar təpəsində idim. Oradan şəhər yaxşı görünürdü. Şəhər də kiçik bir şəhərdir, Təbrizin

---

[1] Yenə orada.

[2] Dostu Seyid Əhməd Əsgəri ilə müsahibədən.

Şahgölü istirahət və əyləncə mərkəzinə bənzər bir yerdir, amma olduqca kiçikdir; yalnız kiçik bir təpədən ibarətdir, üzərində bir dalan salıblar, yuxarı qalxanlar elə həmin yolla da qayıdırlar. Təbriz kimi deyil ki, bu tərəfindən gedib o tərəfindən qayıdasan. Birdən əlində polaroid fotoaparatı olan bir fotoqraf gəldi. Müqəddəs əsgər forması ilə şəkil çəkdirmək niyyətim yox idi. Uşaqlar çəkdirdilər, mən də yüz rial cərimə müqabilində bir şəkil almağa nail oldum. Əvvəlcə özüm şəkildəkinin görkəmindən quruyub qaldım, o ki qala başqaları. Amma dedim ki, daha keçib, göndərərəm sənə, nə vaxt evə qonaq gəlsə, hovuzun yanına qoyarsan, balaca uşaqlar suya yaxınlaşmazlar; bu şərtlə ki, özün də hovuza düşməyəsən.

İndi isə hərbi xidmətdə çəkilmiş ilk mübarək Qulam şəklini şərh edim:

1. Şaha layiq müqəddəs palçığın arxasında gizlənmiş çəkmələrin bağı açıq idi. Mən haraya gedirdimsə, onlar da arxamca sürünürdülər ki, geri qalmasınlar.

2. Beli mənim belimdən iki dəfə böyük olduğuna görə şalvar əynimdə zorla, kəmərlərin köməyi ilə qalıb. Bel kəməri çiyin kəmərinin arxasında gizlənib. Çiyin kəmərinin üstündə də bir kəmər cibi var. Onun içindəki iki daraq patron da şəklin heybətini artırır. Bunu da qeyd edim ki, çiyin kəməri ikiqat fırlanıb və bundan artıq kiçiltməyə imkan yoxdur. Bəzən üstündən silah kəməri də asılır. Belə olanda qərblilərə bənzəyirəm. Çoxlu və yağlı xörəklər yeyəndə kəmər daralır. Çünki həyatın eniş-yoxuşları çoxdur!

3. Bu geyimin şah əsəri köynəkdir; olduqca geniş və enlidir. Məncə, bütün İlamı gəzsələr, bu köynək kimisini tapa bilməyib yenə öz yanıma gələrlər. Çünki hamı köynəyini ya kiçildib, ya da yenisini tikdirib, yalnız cəsarətli və laqeyd olan mən belə qalmışam. O açıq sinə də hərbi

qaydalara uyğun şəkildə örtülməlidir, amma daha bizdən keçib. Bölük komandirimə sürücülük vəsiqəmin olduğunu dedim, o da dördillik sürücülük stajımın olduğunu görüb dedi ki, yaxşıdır, saxlayarıq, amma bir qədər üst-başını səliqəyə sal. Biz də təsdiq əlaməti olaraq başımızı yellədik ki, doğrudur, əhsən!

Bu yeni köynəyin başqa bir xüsusiyyəti tikiləndən indiyə qədər yuyulmamasıdır. Gələcəkdən də heç kim xəbər verə bilməz. Əlbəttə, mötərizə arasında deyim ki, bu paltarlardan başqa bir dəstini zamanın və məkanın tələblərindən irəli gələrək qarnizonun dərzisinə on rial qarşılığında kiçiltməyə vermişəm. Dərzi təxminən mənim kimi olduğuna görə ölçü götürmədən dedi ki, get, öz ölçümə düzəldərəm. Onun ölçü götürməsinə hövsələm olmadığından sevinib məqbul saydım.

4. Saqqaldan və papaqdan isə danışmağa dəyməz. Mübarək saqqal təxminən üç aydır uzanır. Yavaş-yavaş əmmamə qoyub əziz zabit və əsgərlərə moizə oxuya bilərəm. Görkəmimdən nə mollaya, nə də əsgərə bənzəyirəm, amma papaq ordunun verdiyi əzik papaqdır. Hamı mülki papaq alıb, mənsə indiyədək bununla kifayətlənib dərviş yolunu tutmuşam. Lakin yenə də zamanın və məkanın tələblərindən irəli gələrək xalqın xəzinəsindən yüz əlli rial papağa ayırmalı olacağam. Bu papaq əyri-üyrüdür. Təzəlikcə yuyub günəşin altında qurutmuşam. Bu üsul ütüləməyi əvəzləyir, amma yenə şəkildə əyriliyi bilinir.

6. Silahımı kim görsə, elə bilər kauçukdandır, lüləsi də yoxdur. Halbuki Amerika istehsalı olan çox sağlam silahdır, kimsə qorxmasın deyə bir hissəsini gizlətmişik.

7. Hər bir hərbçinin adı və soyadı yazılan bir birkası olmalıdır. Allaha şükür olsun ki, soyadımı düzgün yazıblar, adımı isə yox. Dedilər ki, Qulamhüseyn adı böyükdür. İmamın adını yazıb, “qulam”ı sildilər. Sonra da düşündülər

ki, böyük qardaş olan yerdə kiçiyin adını yazmazlar. Buna görə də adımı Həsən Əfşurdi yazdılar. Biz də utancaq olduğumuzdan heç nə deməyib boyun əydik.

Nə isə. Bu məktubun köməyi ilə bugünkü 20 sentyabr günü də günorta oldu və bu, böyük nailiyyətdir. Hövsələn çatmasa, hamısını oxuma, mühüm deyil. Əsas odur ki, mənim vaxtım keçib və səninlə danışmışam. Sən mənə cavab versən də, verməsən də, mən öz cavabımı almışam. Anama salam söylə və de ki, bu şəkli yalnız gülmək üçün göndərmişəm, başqa bir nəticə almana razı deyiləm.

Hacı ağaya, ağa Məhəmməd xana və Əhməd Əfəndiyə də salamlarımı yetir. Hələlik İlamın özündə sürücülük edəcəyimi söyləyirlər. İnşallah, qarovulçuluqdan yaxşı olar; şəhərin daxilində və daha rahat. Ən azı, axşamlar bir məscidə namaza getmək imkanım olar. Pis cəhəti budur ki, icazəsiz aradan çıxma şansım olmayacaq. Nə etmək olar?!

Bütün qohumlara və dostlara salam söylə. Mənim bir əmrim yoxdur. Əgər sənin də yoxdursa, daha yazmağa bir şey qalmır. İnşallah, həzrət İmam Mehdinin (ə) dualarında olasınız!

Qulamhüseyn"[1]

1978-ci ildə İslam inqilabının irəlilədiyi zamanlarda Pəhləvi rejimi açıq siyasi mühit devizi arxasında gizlənməyə çalışaraq mətbuat haqda yeni qanun layihəsini müzakirəyə çıxardı. Tanınmış jurnalistlərin bir neçəsi bu barədə fikirlərini dərc etdirdilər. Qulamhüseyn də uyğun mövzuda bir məqalə yazıb Keyhan qəzetinə göndərdi və 05.10.1978 tarixində dərc olundu. O, öz məqaləsində qanun layihəsini jurnalistika və hüquq baxımından geniş tənqid edərək zəif və qaranlıq tərəflərini üzə çıxardı. Məqaləni oxuyanlar

[1] Həsən Baqirinin xatirələri, c. 1.

inanmırdılar ki, onun müəllifi mətbuat sahəsində peşəkar təcrübəsi olmayan 22 yaşlı bir gəncdir. Məqalədəki səlis qələm, təhlil və əsaslandırma onun mütaliə adətinin, yazıçılıq istedadı və həvəsinin nəticəsi idi. Bu xüsusiyyət onun gələcək həyatında mühüm rol ifa etdi. Qulamhüseyn Əfşurdi Həsən Əfşar imzası ilə yazdığı həmin məqalədə deyirdi:

"Mətbuat barədə yeni qanun layihəsi ilk növbədə hər kəsdə bəzi suallar yaradır. Öncə qeyd etmək lazımdır ki, İnformasiya naziri bu layihədə mətbuata dair öncəki qanunların bəzi sözlərini dəyişdirib adını yeni qanun layihəsi qoymuşdur. Qanunlarda çox da dəyişiklik edilməmişdir, layihə elə tərtib olunmuşdur ki, hər bir döngə və dalanda problemlə üzləşənlər yenə də cənab nazirə və ya onun əməkdaşlarına müraciət etməlidirlər. Bu layihəyə əsasən, bütün şikayətlərə baxan ali orqan Mətbuat komissiyasıdır, bütün qərarlar ona həvalə olunmuşdur. İndi görək bu komissiyanın üzvləri kimlərdir və necə seçilirlər? Layihənin doqquzuncu maddəsində göstərilir ki, komissiyanın sədri və əsas üzvü İnformasiya nazirinin müavinlərindən biridir və şəxsən nazir tərəfindən təyin olunur. İkincisi Tehran universitetinin müəllimlərindən biridir ki, universitetin rektoru tərəfindən seçilir. Yaxşı olardı ki, "seçilir" sözünün yerinə "təyin olunur" yazılaydı. Əlbəttə, ən yaxşısı bu idi ki, heç olmasa, onu mətbu orqanlarının baş redaktorları seçəydilər. Üçüncü üzv müvafiq rayonun prokuroru, dördüncüsü də şəhər əncüməninin sədridir. Göründüyü kimi, bu dörd nəfərin heç biri jurnalistlərin və media nümayəndələrinin vəziyyət və problemlərindən xəbərdar deyil. Formal olaraq mətbu orqanlarının baş redaktorlarından yalnız birini yenə də nazirin seçimi ilə təyin ediblər. Halbuki

fikir ayrılığı yarananda bu bir nəfərin etirazı komissiyanın qərarına heç bir təsir etməyəcək.

Cənab İnformasiya nazirinin bu layihəsinin ən müsbət tərəfi onun 28-ci maddəsidir. Bu maddəyə əsasən, ictimai və siyasi idarəçiliyin tənqidi azaddır. Lakin digər tərəfdən özü üçün başqa bir yoxlama və nəzarət yolu açıb. Belə ki 41-ci maddənin dördüncü bəndində qəzet və ya jurnalın bağlanmasının səbəblərindən biri kimi belə qeyd olunur: "Ölkənin rəsmi orqanlarına qarşı üsyana dəvət edildikdə, xaosa və ümumi təhlükəsizliyin pozulmasına səbəb olduqda". Bu layihədə hansı qayda göstərilir ki, bir yazar ona əsaslanaraq isbat etsin ki, filan tənqidi məqalədə məqsədim xaos yaratmaq, rəsmi dövlət qurumlarına qarşı üsyana çağırmaq olmayıb? Məgər onun tabe olduğu hökumət cari ilin 7 avqust qırğınında nəyə əsaslanırdı? Nümayəndələr o kütlənin arasında bir qrup vətənpərvər müsəlmandan başqa heç kimin olmadığını söyləyəndə onların törətdiklərinə bir fərq etdimi? Xeyr, çünki toyuğun bir ayağı vardı, o da marksistlərin mitinqdə iştirakı idi. Bu baxımdan, cənab İnformasiya naziri elə bir yerdə oturub ki, hətta stulunun altı da islanmasın.

Haqsızlığa məruz qalmış şikayətçiləri mətbuat cinayətlərinə qarşı qərarlara ümidvar edən başqa bir mühüm məsələ o şikayətləri araşdıran orqanla bağlıdır. Layihənin 30-cu maddəsinə əsasən, cinayət məhkəməsi konstitusiyanın 79-cu maddəsinə uyğun şəkildə və münsiflər heyətinin iştirakı ilə keçirilməlidir. Münsiflər heyəti isə jurnalistlərin problemləri ilə tanış olanlardan ibarətdir. Onlar jurnalistlərin problemlərini əsas götürərək məhkəmənin qərarını yüngülləşdirmək hüququna malikdirlər. Lakin 31-ci maddə göstərir ki, bu münsiflər heyəti də İnformasiya nazirinin əməkdaşları tərəfindən qəzetlərə başqa bir nəzarətçi rolunu

oynayır. Çünki bu heyətin iki ildən bir seçilməsi - yenə də yaxşı olardı ki, bu sözün yerinə "təyin olunması" ifadəsini işlədəydilər. Ümumiyyətlə, layihənin əksər yerlərində bu dəyişikliyi etmək reallığa daha uyğun olardı - İnformasiya nazirinin çağırışı, rayon məhkəmə və əncümən sədrlərinin iştirakı ilə baş tutur. Həmin üç nəfər istədikləri adamı seçə biləcəklər. Əlbəttə, otuz yaşın tamam olması, cinayət məsuliyyətinə cəlb olunmaması, doğruçu və yaxşı biri kimi tanınması şərtləri də vardır. Lakin bu üçüncü şərti kim təsdiqləyəcək? Yəqin ki onları seçən həmin üç nəfər. Başqa heç bir şərt yoxdur. Münsiflər heyəti üzvünün ən azı bir qədər jurnalistlik ixtisasının olması da şərt deyil. Halbuki bu heyət xüsusi bir peşə sahiblərinin şikayətlərini araşdırmalı olacaq.

Digər məsələ budur ki, İnformasiya naziri qəzet və jurnal baş redaktorlarının bütün bu təqiblərinə qarşı öz üzərinə heç bir məsuliyyət götürməmişdir.

Yaxşı olar ki, İnformasiya naziri jurnalistlərin əl-ayaqlarını bağlayacaq qanunlar yazmaq əvəzinə elə bir şərait yaratsın ki, baş redaktorların daxili imanı və məsuliyyət hissi qəzetlərin tam azadlığına səbəb olsun və bu azadlıq siyasəti onun təmsil olunduğu hökumət tərəfindən yaxşı şəkildə həyata keçirilsin. Hamıya aydındır ki, bizim əziz İranımızın bu vəziyyətə düşməsinin səbəblərindən biri düzgün informasiya çatdırmağa çalışan qəzet və jurnallara qarşı yaradılan maneələrdir. Ümidvarıq ki, gələcəkdə belə olmasın.

Həsən Əfşar – İlam”[1]

İmam Xomeyni 02.12.78 tarixində, məhərrəm ayının birinci günündə əsgərlərə müraciət edib hərbi hissələri tərk

---

[1] Yenə orada.

etmələrini söylədi. Bu əmri yerinə yetirən ilk şəxslərdən biri Qulamhüseyn oldu. O, hətta ondan öncə də orada könülsüz qalırdı. Bir tərəfdən də orada qalıb əsgərlərlə danışmaq, onları xalqa qarşı çıxmaqdan, xalqa silah tuşlamaqdan çəkindirmək istəyirdi. Həmin müddətdə imkan yaranan kimi əsgər yoldaşları ilə inqilab barədə danışmış, hərbi hissə rəhbərliyinin diqqətini də cəlb etmişdi. O, hərbi hissədən qaçandan sonra Tehrana getdi və digər gənclər kimi inqilabın qələbəsinə qədər proseslərdə iştirak etdi. O zaman bir neçə ay hərbi xidmətdə olmaq hərbi təcrübə sayılırdı. Bu baxımdan o, həzrət İmam Xomeynini qarşılama komitəsinə üzv oldu.

## *Qələbə*

Minlərlə tehranlı gənc kimi Qulamhüseyn də 10 fevral 1979-cu ildə küçələrdə idi; bu fərqlə ki, onun yazarlıq məharəti həmin tarixi günləri qeyd edirdi. Qulamhüseyndən yadigar qalmış bir yazı həmin təyinedici hadisələri canlı şahid kimi və bəzən də digərlərindən nəql edərək yazmışdır. Onun bəzi hissələrində belə deyilir:

"Cümə günü, 10.02.1979 tarixində öncədən elan etmişdilər ki, axşam İmam Xomeyninin gəlişinə dair təxminən bir saatlıq bir sənədli film göstərəcəklər. Lakin filmin nümayiş etdirildiyi zaman şah qvardiyası Hərbi Hava Qüvvələrinin Fərəhabadda yerləşən bazasına hücum edir. Axşam saat 9-da biz gələndən gecə saat 1-ə qədər nümayişçilərin səsi kəsilmədi. Fərəhabad bölgəsindən, Hərbi Hava Qüvvələrinin bazasının ətrafından və Vüsuq xiyabanı tərəfdən edilən müxtəlif telefon zəngləri güclü atışma səslərindən xəbər verirdi. Deyilənə görə, filmin yayımlandığı saatlarda bəzi humafərləri – HHQ-nin əsasən ABŞ-da təhsil almış və inqilab tərəfdarı olan hərbçi-texniklərini

öldürmüşdülər. Atışma gecə incəsənət işçilərinin televiziya zalından başlanmışdı. Filmdə İmam Xomeyninin adı çəkiləndə incəsənət işçiləri salavat çevirmişdilər və bu da qarşıdurma yaratmışdı. Gecə Hərbi Hava Qüvvələrinin şəxsi heyəti səhərə qədər qarovul xidməti vermişdi. Səhər təxminən saat 07:30-da bazaya gələn başqa bir şəxsi heyət incəsənət işçilərinin və digər əsgərlərin etirazını görüb onlara qoşulmuşdular.

Gündüz şübhəli xəbərlər gəlirdi, nə olacağı bəlli deyildi. Polis rəisi şah qvardiyasından kömək istəyir və qvardiyadan təxminən yeddi yüz nəfər ezam olunur. Təxminən səhər saat 08:30-da atışma başlayır, ön sıradan bir neçə nəfər ölür və yaralanır. Hələ heç birinin silahı yox idi, yalnız qvardiya silahlı idi. Onlar aksiyanı bazanın içinə çəkir və öz kazarmalarına tərəf gedirlər. Silah anbarı da orada imiş. Bu zaman bir silahlı zabit böyük rəşadət göstərir, anbarın qapısını açıb silahı şəxsi heyətə paylayır və bu, qələbənin ilk müjdəçisi olur. Digər silah anbarları da beləcə boşalır və qvardiya ilə döyüş başlayır.

Səhər saat 9-da qardaşımla və onun motosikleti olan bir dostu ilə birgə Fərəhabad xiyabanına yollandıq. Şərqi Tehranın hər yerindən Hərbi Hava Qüvvələrinə kisə göndərirdilər. Qəribə fəallıq vardı. Birtəhər xiyabana, hərbi bazanın önünə çatdıq. Orada atamı gördüm, o da başqa bir məhəllədən ağ bir pejo ilə gəlmişdi. Hərbi bazanın içindəki atışma səsləri aydın eşidilirdi. Camaat Hərbi Hava Qüvvələrin hospitalının qapısından içəri buz, pambıq və digər tibbi ləvazimat yollayırdı. Təcili yardım maşınları da gedib-gəlirdi. Hərbi Hava Qüvvələrində xidmət dövrünü bitirmiş əsgərlərdən içəridə qarovul və digər işlər üçün istifadə edirdilər.

Qərara gəldik ki, qayıdıb özümüzlə bir qədər buz və pambıq gətirək, heç olmasa, bir iş görmüş olaq. Qayıtdıq. Təxminən saat 10:30 idi. Bir serum aldıq, bir qədər də buz və pambıq götürdük. Yolda digərləri də oraya aparmaq üçün bizə müxtəlif ləvazimatlar verdilər. Yaralıların çoxu Buəli və Curcani xəstəxanalarında idilər. Hələ günorta olmamış o qədər yardım toplanmışdı ki, daha heç nə istəmirdilər. Yolda yüksək sürətdən və hamı kimi həyəcanlı olduğumuzdan üç dəfə qəzaya düşdük, amma heç kim yerə enmədi. Yeri deyildi. Nəhayət, bütün xəstəxanaları gəzəndən sonra Fövziyyə meydanına qayıdıb əşyaları İmam Hüseyn (ə) məscidinə təhvil verdik. Maşını bir küçədə saxlayıb Yeni Tehran xiyabanına yollandıq. Xiyabanın hər iki yüz metrliyində bir səngər qurulmuşdu. Meydana və xiyabana baxan damlarda da əsgər və zabitlər döyüşə hazır dayanmışdılar. Camaat süd, xurma, kompot, meyvə və peçenye gətirirdi, amma heç kimin yeməyə həvəsi yox idi.

Yanmış təkər qalıqlarından tüstü qalxırdı. Yorğun idim, azca başım da ağrıyırdı. Təxminən saat birdən sonra radiodan elan etdilər ki, 16:30-dan etibarən General Mehdi Rəhiminin rəhbərliyi ilə hərbi hökumətin qanunlarının icrasına başlanacaq. Təxminən saat 15:30-da İmam Xomeyninin hökmü yayıldı. Hökmdə deyilirdi ki, hamı evindən bayıra çıxsın və qorxulu çevriliş planı beşikdəcə boğulsun. Şah Rza xiyabanının şimal və cənubu arasındakı yolayrıclarının əksəri təxminən taxta körpüyə qədər bağlanmışdı. Həmin taxta körpüdən Şimiran darvazasına, Fəxrabada və çox qələbəlik olan Şəhidlər meydanına getdik. Oradakı Hərbi Hava Qüvvələrinin silahlıları Fövziyyə meydanındakından az idi.

Motosikletlə Vüsuq xiyabanına doğru getdik. Saat beşə az qalırdı. Hamı nə baş verəcəyini gözləyirdi. Şübhə və

çaşqınlığı hamının gözlərində görmək olurdu. Hərbi bazaya yalnız kartı olanları buraxırdılar. Xiyabanın sonlarında dedilər ki, qvardiya Vüsuqdan yola düşüb, amma camaatın vecinə deyildi. Əlbəttə, xiyabanın ortasını boş saxlamışdılar ki, bir hadisə baş versə, tələfat az olsun. Damlardakı silahlılar artırılmış, xiyabanın ortasındakı səngərlər böyüdülmüşdü. Yolda bir avtomobil üçün yol qoymuşdular, o da ziqzaq şəklində. Hərbi bazanın Mücahidlər xiyabanındakı şimal qapısının önündə ələ keçirilmiş bir tank görünürdü, üzərində və yanında adamlar vardı. Deyəsən, işləmirdi. Xiyabanın sonunda da bir-iki yanmış qvardiya maşını görünürdü və kiçik bir tank da vardı.

Günortadan etibarən hündürdən uçan helikopterlər görünməyə başladı. Onlar yaxınlaşanda camaat divarların kənarına sığınırdı. Xiyabanın kənarındakı divarlarda olan çoxlu güllə yerləri güclü atışmadan xəbər verirdi. Hərbi Hava Qüvvələrinin giriş qapısının önündəki xiyabanda get-gedə izdiham yaranırdı. Bu zaman Hərbi Hava Qüvvələrinin bazasından bir helikopter havaya qalxdı və bir zenitdən helikopteri vurmağa başladılar. Ona doğru təxminən 100-200 raket atdılar, amma hədəf hərəkətdə və uzaq olduğundan hamısı boşa getdi. Saat beşi ötmüşdü.

Biz Fövziyyəyə qayıtdıq. Orada bəziləri molotov kokteyli hazırlamaqdan ötrü sabun rəndələyirdilər. Demək olar ki, Hərbi Hava Qüvvələrinin qəhrəmanlarını məğlub etmək üçün Şərqi Tehranın şah damarı həmin meydan idi. Orada ağanın bəyanatını gördük; küçələrə çıxmağı və döyüşçülərlə əməkdaşlıq etməyi əmr etmişdi. Hətta piyada keçidi üçün nəzərdə tutulmuş körpünün üstündə də səngər qurmuşdular və hazır vəziyyətdə gözləyirdilər. Motosikletimizi söndürdük. Molotov kokteyli hazırlamaq üçün yolda çoxlu benzin vardı. Son qəhətlikdən sonra təxminən on gündür ki,

benzin çoxalıb. Yəni imam naibi Xomeyninin mübarək qədəmləri İrana dəyən gündən uzun benzin növbələri bitib.

Xorasan meydanına doğru baş aldım. Camaat küçələrin başında səngər qurub gözləyirdi. Təxminən saat beşdə evə çatdıq. Namazımızı qıldıq ki, birdən ölsək, ən azı, boynumuzda namaz borcu qalmasın. Uşaqlara nə qədər dedimsə, mənimlə getmədilər. Təxminən saat 19:30-da özüm bayıra çıxdım. Küçənin başından Cahanpaha, Qiyasiyə, Mütərcimüddövlə mədrəsəsinin arxasından da Mina xiyabanına getdim. Atışma səsi bir an da dayanmırdı. Şahnaz xiyabanına çatdım. Qəribə yorğunluq bütün vücudumu bürümüşdü. Hamı oraya toplaşıb gözləyirdi. Həm kalaşnikov, həm də J3 səsi gəlirdi".[1]

Qulamhüseyn həmin gecə çox yorğun olsa da, yata bilmədi.

**"10 fevralda gecə bizə gəlib dedi ki, sabun və şüşə verin. Molotov kokteyli düzəltmək istəyirdilər. Məhəllənin uşaqlarını toplamışdı. Qapıları döyüb deyirdik ki, qapılarınızı açıq qoyun, bu gecə böyük gecədir. Çox aktiv idi".**[2]

11 fevralda günortadan sonraya qədər hərbi hissələr bir-bir xalq tərəfindən ələ keçirildi. Hərbi hissələrdə hamı qənimət axtarır, silah götürməyə çalışırdı. Qulamhüseyn isə bu fikirlərdən uzaq idi.

**"Bağşah qarnizonuna girəndə silah anbarının qapısı açıq idi. Hamı silah götürüb gedirdi. Mərmi və patron qutuları ayaq altına düşmüşdü. Bir neçə nəfərlə birgə**

---

[1] Yenə orada.

[2] Qonşuları xanım Zəhra Rzayi ilə müsahibədən.

**məni çağırdı, partlayıcı maddə qutularını səliqə ilə kənara yığdıq ki, camaatın başına bir iş gəlməsin".**[1]

O, hərbi hissələrin vəziyyətinə narahat halda baxırdı. Elə həyəcanlı şəraitdə çox az adam bu məsələyə diqqət yetirərdi.

**"İnqilab qələbə çalandan sonra gecə evə gec qayıtdı. Dedi ki, solçular silah-sursatları aparırlar və bir gün əleyhimizə istifadə edəcəklər. Sonralar bizə sübut olundu ki, o, çox düzgün proqnoz veribmiş".**[2]

İnqilab qələbə çalandan sonra Qulamhüseyn qısa müddət Sədriyyə məscidində dostları ilə təşkil etdikləri İslam İnqilabı Komitəsində fəaliyyət göstərdi. Qardaşı Məhəmməd də orada idi. Bu iş çox çəkmədi. Məktəblər açılan kimi qardaşını məcbur etdi ki, silahı təhvil verib dərsə getsin.

**"Qardaşım mənə daha uzaq üfüqləri göstərməyə çalışırdı. Məktəbə getmək mənə çox çətin idi. Deyirdim ki, məktəbdə nə işim var, inqilab təhlükədədir. Deyirdi ki, indi hamı buradadır, ehtiyac olsa, köməyə gələcəklər. Məni dərsə göndərdi, dedi ki, cümə axşamı və cümə günləri qarovula çıxarsan. 1979-cu ilin 4 aprelindən məni ali məktəbə qəbul imtahanlarında iştirak etməyə məcbur etdi. Üç-dörd ay bütün vaxtımı dərslə doldurdu, başqa heç bir işə icazə vermədi".**[3]

Özü də eyni işi görməyə başladı, təhsilini davam etdirdi, ixtisasını dəyişdirib yayda ədəbiyyat üzrə attestat aldı. Dərhal qəbul imtahanlarında iştirak edib Tehran universitetinin hüquq fakültəsinə qəbul oldu. Qardaşı Məhəmməd də həmin il Politexnik universitetinin mexanika

---

[1] Qardaşı General Məhəmməd Baqiri ilə müsahibədən.

[2] Qonşuları xanım Zəhra Rzayi ilə müsahibədən.

[3] Qardaşı General Məhəmməd Baqiri ilə müsahibədən.

fakültəsinə qəbul olundu və sentyabrda hər ikisi universitetə getdi.

İnqilabdan sonrakı ilk dərs ili başlayanda terrorçu qruplaşmalar universitetlərdə geniş fəaliyyətə başladılar. Bu qruplaşmaların bir qismi ölkənin qərb, cənub, şimal və şərq bölgələrinin sərhəd şəhərlərində inqilab əleyhinə separatçı qiyamlara rəhbərlik edirdilər. Qulamhüseyn belə bir şəraitdə universitetə girdi, amma o, sakit qalan adam deyildi. Universitetin gərgin mühiti inqilabçı və hizbullahçı tələbələrin daha çox məsuliyyət hiss etmələrinə səbəb olurdu. Qulamhüseyn belələrindən, bəlkə də ən fəallarından idi.

**"Dini və siyasi mövzularda çoxlu mütaliələr etmişdi. Bu baxımdan, eklektik cərəyanları yaxşı tanıyırdı. İstedadlı və diqqətli idi. Mühüm məqamları cəld tutur və cavab verirdi. Bəzi məsələləri satirik dillə bəyan edirdi".**[1]

Müsəlman tələbələr hansı yolla olursa-olsun, universitetin xoşagəlməz mühitini İslam inqilabı ilə uyğunlaşdırmağa çalışırdılar. Çoxlu iclaslar keçirilirdi. Qulamhüseyn həmin iclasların daimi iştirakçısı idi. Bu fəaliyyətlər get-gedə həzrət İmam Xomeyninin 1980-ci ildəki novruz müraciəti ilə nəticələndi. İmam həmin müraciətdə buyurdu ki, universitetlər müstəmləkə vəziyyətindən çıxıb ideal İslam universitetlərinə çevrilməlidir. Bu müraciət universitetlərdə mədəni-ideoloji inqilabın əsasını qoydu. Universitetlərin müvəqqəti tətilə çıxmasından sonra Ayətullah Şəhid Doktor Behişti 1980-ci ilin yayında təklif etdi ki, Tehran universitetinin Hüquq institutunun bəzi inqilabçı tələbələri qısa kurs keçib prokurorluq işinə başlasınlar. İnqilab xəttində olan tələbələrin siyahısında Qulamhüseyn Əfşurdi də vardı.

---

[1] Qrup yoldaşı Piruz Səid Aslani ilə müsahibədən.

O, həmin kurslarda daim və intizamlı şəkildə iştirak edirdi. Ayətullah Cavadi Amuli, Ayətullah Musəvi Ərdəbili, Mühəqqiq Damad, Doktor Behiştinin özü və başqa iki hakim dərsləri keçir, İslam hüququnun əsaslarını öyrədirdilər. Lakin Qulamhüseyn Əfşurdi bu dərsləri çox da sevmədi".[1]

Qulamhüseyn belə işlər axtarmadığına və ya ümumiyyətlə, iş axtarmadığına görə həmin dərsləri buraxdı. Düşünürdü ki, elə həssas zamanda inqilabın onun düşüncəsinə və qələminə ehtiyacı var.

[1] Yenə orada.

# Macəra dolu jurnalist

Qulamhüseyn Əfşurdi ali məktəbə qəbul imtahanlarına hazırlaşdığı ərəfədə yeni təsis olunmuş İslam Respublikası qəzetində də işə başladı. Bu nəşriyyə sanki inqilab nəslinin ilk orqanı idi və dünyada İmam Xomeyninin qəzeti kimi tanınırdı.

**"İslam Respublikası qəzeti 1979-cu ilin iyununda təsis olundu. Az sonra arıq bir gəncin redaksiya uşaqlarına əlavə olunduğunu gördüm. Onun diqqəti cəlb edən ilk xüsusiyyəti çevikliyi idi. Yavaş-yavaş tanışlığımız başlandı və adının Qulamhüseyn Əfşurdi olduğunu öyrəndim. Əfşurdi, mən və başqa bir neçə nəfər redaksiyanın ən azyaşlıları idik. Sonralar get-gedə dostluğumuz gücləndi. Hərdən Qulamhüseyn Əfşurdinin məsum, amma ciddi üzünü görürdüm, başını aşağı salıb diqqətlə və səbirlə xəbərləri tərtib edirdi. Bəzən özü görünmürdü, amma qalın səsi redaksiyanın o başına çatırdı; ya telefonla danışırdı, ya hansısa xəbərin dərc olunub-olunmaması barədə uşaqların biri ilə söhbət edirdi. Hazırladığı xəbərlərdən bir jurnalist üçün vacib olan xüsusi cəsarətə sahib olduğunu duyurdum. İslam Respublikası qəzeti inqilabın övladı və sözçüsü idi. Bu qəzet bütün siyasi cərəyanlarla güc sınayırdı.**

**Qulamhüseyn inqilabın xidmətçisi idi, şübhəm yoxdur ki, qəzetdə ilahi niyyətlə işləyirdi. Əlbəttə, çoxları o qəzetə xidmət etmək üçün gəlmişdilər. Oraya heç kim peşə kimi gəlməmişdi. Ümumiyyətlə, ora peşə yeri deyildi".**[1]

---

[1] İslam Respublikası qəzetinin əməkdaşı Mürtəza Sərhəngi ilə müsahibədən.

İslam Respublikası qəzetində normal işəgötürmə qaydaları yox idi, işçilər inqilabi şəxsiyyətlərin təqdimatı ilə seçilirdilər. Qulamhüseyni də ağa Həsən Bəxşayiş[1] təqdim etmişdi.

O zaman bir dəfə evdə işdən söhbət düşdü. Anası Qulamhüseynin müəllim olmasını istəyirdi. Onun qəzetdə işə başladığını biləndə istəyini dilə gətirdi.

**"Qulamhüseyn dedi ki, müəllim olsam, iki yüz nəfəri yola gətirərəm, amma yaxşı bir məqalə yaza bilsəm, iki yüz min nəfəri".**[2]

Qulamhüseyn əvvəlcə adi bir müxbir kimi işə başladı. Elə ilk bir neçə gündən uşaqlar onun geniş mütaliəsinin olduğunu bildilər. Adları çəkilən çoxlu kitabları oxumuşdu, məzmunları və müəllifləri ilə tanış idi. Qısa müddət ərzində qəzetin baş redaktoru onun istedad və bacarığını görüb xəbər departamentinin Tehran bölməsini ona tapşırdı.

**"Elə əvvəldən Əfşurdinin fəal və xüsusi istedada sahib olduğunu bildilər. Buna görə də, qəzetin ən mühüm hissəsi olan Tehran xəbərlərini ona verdilər. Bölməni idarə etmək üçün Əfşurdinin yaxşı və geniş əlaqələri vardı. Bəzən qəzetə acı xəbərlər çatırdı; məsələn, deyilirdi ki, terrorçu qruplaşmalar filan rayonda inqilab əleyhinə işlər görmüşlər. O, telefondan xəbəri eşidəndə çox narahat olur, ah çəkir və deyirdi ki, yenə kommunistlər və ya münafiqlər filan yerdə filan işi gördülər. Çox hirslənəndə əlinin içini alnına möhkəm**

---

[1] 1957-ci ildə Ərcistanda doğulmuş Həsən Bəxşayiş inqilabçı mübarizlərdən idi, qələbədən sonra İslam Respublikası Partiyasına qoşuldu və 1981-ci ilin 28 iyununda partiyanın mərkəzi iqamətgahında baş vermiş partlayış zamanı şəhadətə qovuşdu.

[2] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

**vururdu. Heç vaxt ondan söyüş eşitmədim. Hətta münafiqləri və İslam düşmənlərini də söyməzdi.**

**Stul arxasında oturmağa adət etməmişdi. Birdən görürdüm ki, tələsik redaksiyadan çıxır. Gedib hadisələri öz gözləri ilə görüb qayıdırdı. Bəzən uşaqların birinin motosikletini götürüb gedirdi və ya kiməsə onu aparmasını söyləyirdi. Çevik və operativ adam idi".**[1]

Qulamhüseyn açar mövzular üzərində işləyirdi. İslam Respublikası qəzetinin arxivində mövcud olan yazıları öz dövründə milli və inqilabi dəyişikliyə, hərəkətə səbəb olmuşdu.

Yenicə qələbə çalmış inqilab hər gün bir böhranla üzləşirdi. Əks-inqilabçı qrupların, şah tərəfdarlarının və solçu təşkilatların sərhəd vilayətlərdə, xüsusən də Kürdüstanda başlatdıqları qiyamlar ölkəni parçalayacaq həddə ciddi təhlükələr sayılırdı. Qulamhüseyn qəzetdə işə başladıqdan az sonra Kürdüstana getdi. Məqsədi o zaman Kürdüstanın əhli-sünnə dini rəhbərlərindən olan Əhməd Müftizadədən müsahibə almaq idi. Qəzetin fotoqrafı Bəhram Məhəmmədifər də onunla getmişdi.

**"Əfşurdi ilə Sənəndəcə getdik. Müftizadədən müsahibə almaq istəyirdi. C-130 təyyarəsinə mindik. Məcid Həddad Adil**[2] **də bizimlə idi. Təyyarə yerə otura bilmirdi. Demokratlar və hörgütlər hava limanını raketlə vururdular. Təyyarə iki-üç dövrə vurdu, qayıtmaq istəyirdi, amma sonunda çətinliklə otura bildi. Əfşurdi öncədən bir nəfərlə danışmışdı ki, yerə enəndən sonra**

---

[1] İslam Respublikası qəzetinin əməkdaşı İsmayıl Ələvi Yeganə ilə müsahibədən.

[2] Məcid Həddad Adil o zaman radio müdiri idi, sonra Kirmanşahın valisi oldu. O, 1981-ci ilin 29 sentyabrında Saminül-əimmə əməliyyatından sonra Darxuində şəhadətə qovuşdu.

**bizi Müftizadənin evinə aparsın. O, Müftizadədən müsahibə aldı.**

**Axşam Sənəndəc teleradio şöbəsinə getdik. Orada cəmi dörd nəfər adam vardı, yalnız ümumrespublika televiziya yayımını tənzim edirdilər. Biri operator, biri köməkçi, biri səs redaktoru, biri də diktor idi, proqramların ortasında mətn və ya xəbər oxuyurdu. Ertəsi gün bəzi şəhidlər dəfn olunacaqdılar. Səhər çağı operator, mən, Əfşurdi və Məcid camaatın arasından gedən bir vanet yük maşınının arxasında dayandıq. Operator kamera ilə, mən də fotoaparatla çəkirdim. Mərasimdən sonra teleradio şöbəsinə getdik. Məcid xəbər montaj eləməyi və yazmağı bacarmırdı. Əfşurdi yazıb ona verdi. O da Əfşurdinin mətnini filmlə və fotolarla birgə oxudu. Gecə saat 3-də demokratlar və hörgütlər teleradio şöbəsinə hücum etdilər.**

**Yarım saatdan sonra atışma gücləndi. Zəng vurdular, peşmərgələr gəldilər, onlar qaçdılar. Səhər çağı Tehrana qayıtdıq".**[1]

Qulamhüseyn Əfşurdinin Əhməd Müftizadə ilə eksklüziv müsahibəsi 1979-cu ilin 9 sentyabrında dərc olundu. Kürd xalqı Əllamə Müftizadənin fikirlərini qəbul edirdi. O şəraitdə onun təxribatçılar əleyhinə ifşaedici sözləri böyük əhəmiyyət daşıyırdı. Müsahibənin bir hissəsində belə deyilir:

"Sual: Sizcə, bu gün Kürdüstanda baş verənlər nədən irəli gəlir və kimlərin planıdır?

Cavab: Kürdüstanda baş verənlər kürd xalqının deyil, bütün İrandakı əks-islamçı qüvvələrin, hətta regiondakı müstəmləkəçi dövlətlərin bütün imkanlarının səfərbər

---

[1] İslam Respublikası qəzetinin fotoqrafı Bəhram Məhəmmədifərdlə müsahibədən.

edilməsinin nəticəsidir. Onlar kürd paltarı geyinmişlər, amma əslində, fars, ərəb, türk, bəluc, hətta iraqlı və misirlidirlər. Bu yaxında İsraildən gəlmiş dörd casus tutuldu. Çox təəssüflü haldır ki, bu rəzil hərəkəti çox vaxt kürd xalqına aid məsələ kimi qələmə verirlər. Halbuki bu xalq keçmişdə həmişə məzlum olmuşdur. Əks-inqilabçı qüvvələr bu torpaqlardan öz məqsədləri üçün istifadə edirlər. İnqilaba qarşı çıxan, özlərini düşmən qarşısında hesab edən aldanmış adamlar çoxdur. Çoxları bu muzdur qüvvələrin hiyləsinə aldanaraq canlarını qurban verirlər. Bu məzlum xalqın çəkdiyi bütün məşəqqətlər fonunda bu vəziyyətin yaranmasında kürd xalqını günahlandırmaq insafsızlıqdır. Əslində, həmin qruplaşmalar İslam inqilabı əleyhinə birləşmişlər. Daha çox Kürdüstan Demokrat Partiyasının adının hallanması da Xalq Fədai partizanlarını, Azadlığı Müdafiə Cəmiyyətini və digər adları gizlətməkdən ötrüdür. Əks-inqilabçı müttəfiqlərin məqsədi bu qarşıdurmanı dünyaya kürdlərin siyasi məqsədlərinə görə İran dövləti ilə qarşıdurması kimi göstərməkdir. Təəssüf edirəm ki, bəzi məmurlar da bu hiyləni başa düşmür və yalnız Demokrat partiyasının adını çəkirlər".[1]

***

Qulamhüseyn elə kadrlardan idi ki, hər bir baş redaktor elə işçilərinin olmasını arzulayır. O, həmin bir-iki ayda elə uğurlu çıxış etdi ki, baş redaktor Əlcəzairə müxbir göndərmək üçün onu seçdi. Qulamhüseyn Əfşurdi həmin qəzet tərəfindən xarici ölkəyə göndərilən ilk jurnalist və inqilabdan sonra xarici ölkəyə ezam olunan ilk müxbirlərdən biri oldu. 1979-cu ilin noyabrında Mehdi Bazərqanın, İbrahim Yəzdinin və Doktor Çəmranın təmsil olunduğu, İran

[1] İslam Respublikası qəzeti, 09.09.79, s. 10

dövləti tərəfindən Əlcəzair Respublikasının Müstəqillik günü münasibəti ilə keçirilmiş mərasimə yollanmış heyətə Qulamhüseyn Əfşurdi jurnalist kimi qatıldı. Bu səfərin nəticəsi 2 noyabr 1979-cu ildə İslam Respublikası qəzetində dərc olunan bir məruzə oldu. O, Əlcəzairə səfəri barədə yazırdı:

**"İki ziddin bir araya gəlməsi, filosoflara görə, qeyri-mümkün olsa da, deyəsən, Əlcəzairdə bu, baş tutdu: Tədbirdə bir tərəfdən Corc Marşe, General Ziap və Fidel Kastronun qardaşı Raul Kastro iştirak edirdi, digər tərəfdən də bəzi kapitalist ölkələrin nümayəndələri ilə birgə Bjezinski. Bəzi siyasi müşahidəçilərin fikrincə, müsəlman Əlcəzair xalqının Fransa müstəmləkəsi üzərində qələbəsinin 25-ci ildönümü münasibətilə paytaxt Əlcəzair şəhərində keçirilən mərasimdə İranın yüksək rütbəli hərbi və siyasi heyətinin iştirakı mərasimin əhəmiyyətini və həssaslığını artırırdı. Çünki bu heyət heç bir xarici ölkəyə arxalanmadan ən az insani və maddi tələfatla imperialist ABŞ-nın zəhərli dişini qoparıb tullamış bir inqilabın nümayəndəsi sayılırdı. Əlbəttə, həmin dişin yeri hələ də ağrıyır və ölkə müəyyən mənada iltihab halındadır".**[1]

Qulamhüseyn Əfşurdi oteldə oturub yalnız rəsmi görüşlərlə kifayətlənən bir müxbir deyildi. O, həmin üçgünlük səfərdə bütün zamanını informasiya əldə etməyə sərf etdi, Əlcəzair əhalisinin maddi vəziyyəti ilə də maraqlandı.

**"Milli sosializmin iyirmi beş ildən sonra bu müsəlman ölkəsinin iqtisadi problemlərini həll etməyi bacarıb-bacarmaması geniş müzakirəyə açıq mövzudur. Lakin**

---

[1] İslam Respublikası qəzeti, 03.11.79, s. 12.

**bizim gördüklərimizin xülasəsi odur ki, əkinçilik və sənaye problemi hələ həllini tapmamışdır. Ətin kilosu 60-90 tümənd ir, pomidor tapılmır, ev problemi bunlardan daha betər, işsizlik isə hər üçündən pisdir. Bunu burada yaşayanlar deyirlər".**[1]

Onun Fidel Kastronun qardaşı Raul Kastro ilə də söhbəti olmuşdu.

**"Kubanın Müdafiə naziri Raul Kastro bu bayramda öz həyat yoldaşı ilə birgə iştirak edirdi. O mənimlə qısa söhbət zamanı İranla Kuba münasibətləri haqda danışdı və əlaqələrin daha da genişləndirilməsini arzuladığını söylədi. Sonra Raul Kastro inqilab barədə danışdı, ümid etdiyini bildirdi ki, məzlum İran xalqı öz problemlərini həll edə biləcək. Sonda İmam Xomeyniyə sağlamlıq və müvəffəqiyyət arzuladı".**[2]

Qulamhüseyn Əfşurdi yazının davamında ağa Bazərqanın ovaxtkı ABŞ prezidentinin Milli təhlükəsizlik üzrə müşaviri Bjezinski ilə görüşünə də işarə vurmuşdu:

**"Çərşənbə günü axşam Baş nazir Mehdi Bazərqan Əlcəzair prezidenti ilə mühüm görüş keçirdi, cümə axşamı isə Bjezinski onunla görüşdü. Bu görüş iranlı heyətin iqamətgahında yerli vaxtla 17:30-da başladı və 19:00-a qədər davam etdi".**[3]

Bu xəbər ölkədə böyük rezonans doğurdu. Ertəsi gün ABŞ səfirliyi İmam Xomeyni xəttinin davamçısı olan tələbələr tərəfindən casus yuvası elan olundu və ələ keçirildi. Bu hərəkət İmam Xomeyninin dəstəyini aldı. Onda İslam

---

[1] Yenə orada.

[2] Yenə orada.

[3] Yenə orada.

Respublikası qəzeti daha çox bu xəbərdən yazdı. Onların əsas tərtibatçısı və müəllifi isə Qulamhüseyn Əfşurdi idi.

***

Cümə günü, 26 aprel 1980-ci ildə Amerikanın İranda məxfi hərbi əməliyyat planı Təbəs səhrasında qum tufanı nəticəsində iflasa uğradı. Qulamhüseyn Əfşurdi hadisənin üstü açılandan bir neçə saat sonra Təbəsə yola düşdü və oraya çatan ilk jurnalist oldu.

**"Həmin gün günortadan sonra redaksiyaya yeni gəlmişdim. Baş redaktor məni çağırıb dedi: "Elə indicə fotoaparatını götür və Əfşurdi ilə get". Nə baş verdiyini soruşanda dedi: "Amerikalılar Təbəsə komando endiriblər".**

**Heç kimdə dəqiq məlumat yox idi. Bu zaman Əfşurdi də tələsik gəlib dedi ki, tez yola düşək. Bildim ki, məsələdən xəbərdardır. Qəzetin bir pikap avtomobili vardı. Əfşurdi silah saxlanan yerdən üç-dörd J3 silahı götürüb pikapın arxasına qoydu. Gülüb dedim: "Amerikalı komandolara qarşı bu silahlarla vuruşacaqsan?!" Dedi: "Heçdən yaxşıdır".**

**Yola düşdük. Sübh tezdən, havanın ala-toranlığında Robatxan adlı bir posta çatdıq. Jandarmeriya postu idi və bir leytenant əsgərləri sıraya düzmüşdü. Amerikalıların harada olduqlarını soruşanda dəqiq bilmədiyini söylədi. Təxmini istiqaməti göstərəndən sonra dedi ki, şəxsi heyəti oraya aparırıq.**

**Əsgərləri iki rio yük avtomobilinin arxasına mindirib yavaş-yavaş hərəkətə başladılar. Bir neçə dəqiqə arxalarınca getdik. Çox yavaş gedirdilər. Əfşurdi sürücüyə dedi ki, bunlarla işin olmasın, önə keç, tez çataq.**

Yol yaxşı deyildi, qumlu düzənlik idi. Maşın bir dəfə quma batdı, çətinliklə çıxardıq. Səhrada sağa-sola baxıb amerikalı komandoları axtarırdıq. Təxminən bir saatdan sonra gözümüz üstündən tüstü çıxan bir dəmir parçasına sataşdı. Yaxınlaşanda C-130 təyyarəsi olduğunu gördük. Üç helikopter sağlam düşmüşdü, iki-üçü isə yanmışdı. Onların yanında dəmirlərin üstünə iki cəsəd düşüb kömürə dönmüşdü. Papaqları sağlam qalmışdı, saatları alov əleyhinə olduğuna görə hələ də işləyirdi. Əfşurdidən nə baş verdiyini soruşdum. Onun beyni yaxşı işləyirdi. Dedi: "Bunlar şəxsi heyət endirənə oxşamırlar". Dedim ki, bəs helikopter və cəsədlər burada nə edirlər?

Ətrafda bir neçə yerli sakin vardı. Gedib onlardan sorğu-sual etdi. Öyrəndik ki, Yəzd korpusunun komandiri Məhəmməd Müntəzir Qaim bizdən bir neçə saat öncə orada olmuş və Hərbi Hava Qüvvələrinin bombardmanı zamanı şəhadətə qovuşmuşdur. Cəsədini aparmışdılar. Mən onun çantasını və kartını tapıb şəkillərini çəkdim. Əfşurdi dedi ki, bir neçə başqa helikopter də sağlam imiş, HHQ qırıcıları onları bombalayıb. Sağlam helikopterlərin birinin içinə girib şəkil çəkmək istədim. Əfşurdi mane olub dedi: "Getmə, bunlar minadır".

Helikopterlərin ətrafında yerə nə isə basdırılmış və simlə bir-birinə bağlanmışdı. Dedim ki, gəl, üstündən tullanaq. Dedi: "Sənə deyirəm ki, getmə, təhlükəlidir, içəridə də nəsə quraşdırmış ola bilərlər".

Əfşurdi də helikopterin içinə girmədi. Oranı üç-dörd saat yaxşıca gəzəndən sonra dedi: "Bəhram, səhrada heç bir amerikalı yoxdur. Amma bunlar bir müddət qalmaq üçün gəlmişdilər. Nə baş verdiyi və niyə qayıtdıqları isə məlum deyil". Dedim ki, hansı əsasla bu sözləri deyirsən?

**Generatora oxşayan böyük bir cihazı göstərib dedi: "Bu, su təmizləmə sistemidir. Bəhram, bunlar göstərir ki, onların planları varmış, bir müddət burada qalacaqmışlar". Orada çoxlu şokolad, peçenye, yemək və paltar da vardı. Gülüb dedim ki, təxəyyülün yaxşıdır. Dedi ki, bir azdan hər şey məlum olar.**

**Bir qədər irəlidə əyləncə mərkəzindəki elektrik maşınlara oxşayan bir neçə kiçik pikap avtomobili vardı. Torpaq rəngində idilər, zavoddan elə çıxmışdılar, yalnız iki nöqtə kimi işıqları bilinirdi. Ömrümdə elə maşın görməmişdim. Həmin rəngdə yeddi-səkkiz hündür yarış motosikleti də vardı. Onların da şəkillərini çəkib Əfşurdiyə dedim ki, tez qayıdaq. Mənə dedi ki, gərək postun komandirindən müsahibə alım. Gedib komandirlə və oradakı digər adamlarla danışdı".**[1]

Qulamhüseyn Əfşurdinin Təbəsdən ilk reportajı 27.04.1979 tarixində "ABŞ-ın hərbi hücumunun təfərrüatı" başlığı ilə İslam Respublikasının manşetinə çıxdı. Reportajın mətni qəzetin ikinci səhifəsində "Təbəsdən eksklüziv reportaj" adı altında dərc olundu. Həmin yazıda deyilirdi:

"Təyyarə və helikopterlərin endiyi bölgə Yəzddən təxminən 270, Təbəsdən də 160 km aralıda yerləşir. Bircənd jandarmeriyasının tabeliyində olan Robatxan postu oradan 40 km aralıdadır. Bölgənin müdafiə komandirinin dediyinə görə, ora tağut rejimi dövründə hava limanı olacaqmış. Hava limanının planı amerikalılar tərəfindən hazırlandığına görə onlar həmin bölgəyə yaxşı bələd imişlər. Əvvəllər oradan Amerikaya uran ixracı üçün də istifadə etmişlər. Qeyd etmək lazımdır ki, helikopterlərin endiyi yer 10 kv km-lik geniş bir

---

[1] İslam Respublikası qəzetinin fotoqrafı Bəhram Məhəmmədifərdlə müsahibədən.

düzənlikdir. Oraya çoxlu təyyarə və helikopterlərin enmə imkanı var. Komandir bizə bildirdi ki, amerikalılar hər şeyi dəqiq hesablayıbmışlar. Lakin Allah-Taala bu xalqın köməkçisi olduğuna görə düzənliyin qum səthi onların bütün planlarını alt-üst edib. ABŞ-ın Hərbi Dəniz Qüvvələrinə məxsus iki helikopter hələ partlamamışdı, yalnız bəzi təkərləri quma batmışdı. Onların biri yolun sağında, digəri də solunda dururdu. Yolun solunda başqa bir helikopter yanıb parçalanmışdı. Sağlam helikopterlərdən əlavə bir helikopter də Amerikanın C-130 təyyarəsi ilə toqquşmuş və hər ikisi yanmışdı".[1]

"Dördmühərrikli C-130 təyyarəsindən kömür təpədən və düzənliyə yayılmış alüminium ərintisindən başqa bir şey qalmamışdı. Təyyarə parçaları arasında ekipajdan ibarət beş yanmış cəsəd görünürdü. Bu təyyarə ilə toqquşmuş helikopter də partlamış və heç şübhəsiz, pilotları ölmüşdülər. Təyyarənin uçuş xüsusiyyətlərini və getdiyi yolu qeyd etmiş qara qutu da yanmış parçalar arasında idi. Həmin hərbçilərin ABŞ-ın regiondakı hansı muzdur ölkəsinin hərbi bazasından qalxdığını qara qutudan öyrənmək olar. Yerə çoxlu M-16 gilizləri və çoxlu çiyin kəməri səpələnmişdi. Kəmərlərin hər birində iki M-16 patron yeri, onların hər birində də üç ədəd iyirmilik daraq vardı. Amerikalılar onları özləri ilə aparmağa macal tapmamış, atıb qaçmışdılar. Hər yükün yanına bir qədər partlayıcı maddə qoymuşdular. Mən orada ağır durbinlər də gördüm, amma yanlarında partlayıcı maddələr quraşdırmışdılar. Onlar olduqca təhlükəlidir".[2]

Qulamhüseyn Əfşurdi sonrakı günlərdə də Təbəs hadisəsi haqda xəbər və reportaj hazırladı. O, Təbəsin Robatxan

---

[1] İslam Respublikası qəzeti, 27.04.80, s. 2.

[2] Yenə orada.

postunun komandiri, bölgənin müdafiə komandiri, yerli şahidlər və digər informasiya mənbələri ilə danışıb qaranlıq məqamları işıqlandırdı, Amerikanın hərbi hücumunun təfərrüatına, qum tufanına, C-130 təyyarəsinin bir helikopterlə toqquşmasına və amerikalı işğalçıların uğursuz əməliyyatına dair yeni məqamlara aydınlıq gətirdi. Əfşurdi həmçinin bir neçə telefon söhbəti ilə hadisənin deyilməyən tərəflərini qəzetə çıxardı.

Amerikalı xüsusi təyinatlılar Təbəs səhrasına enəndə Yəzddən Təbəsə gedən bir sərnişin avtobusu ilə rastlaşmışdılar. Qulamhüseyn Əfşurdi Yəzdin Avtoseyr şirkətinin sürücüsü Məhəmmədəli Əfzardan aldığı eksklüziv müsahibə ilə hadisəni təsvir etdi. Həmin müsahibə 1980-ci ilin 30 aprelində dərc olundu və sonradan sənədli və bədii filmlərin ssenarisində yer aldı.

**"24.04.80 tarixində günorta saat 3-də Yəzddən Məşhədə yola düşdük. Təxminən saat 20:30-da Robatda şam yeməyimizi yeyib saat 9-da yolumuza davam etdik. Robatdan təxminən 50 km aralanandan sonra yolun sol tərəfindən 50 metr aralıda dördmühərrikli bir hərbi təyyarə gördük. Köməkçim sükan arxasında idi, mən də yanında oturmuşdum. Birdən bir qrup hərbçi bizə dayanmaq işarəsi verdi. Bir qədər havaya atəş də açdılar. Sonra İran ordu formasını geyinmiş bir nəfər yaxınlaşıb farsca bizə enməyimizi əmr etdi. Avtobusdan enəndən sonra bir qrup qaradərili və bir qrup da üzlərini qaraltmış kürən və göygöz əsgərlər gördük. Əsgərlərin bir qismi avtobusun içinə girib hələ yerə enməmiş sərnişinləri vura-vura avtobusdan endirdilər. Sonra əllərimizi başımıza qoymağımızı söylədilər, üst-başımızı yoxlayıb yolun kənarında arxası təyyarəyə oturtdular. On beş dəqiqədən sonra həmin təyyarədən başqa biri,**

onun ardınca da altı başqa təyyarə və yeddi helikopter yerə endi. Hər təyyarədən təxminən altmış hərbçi düşdü. Hamısı tam silahlı idi, üzlərini bağlamışdılar və hərəsində bir durbin vardı. Bu yerdəyişmə təxminən bir saat yarım çəkdi. Onların işıqsız bir Amerika pikap avtomobilləri və bir qədər hündür yarış motosikletləri vardı. Bir qismi avtomobilə, bir qismi də motosikletə mindi. Qaradərili polislərdən təxminən otuz nəfəri bizə baxmaq üçün ayırdılar. Onlar bizi çox güclü nəzarət altında saxlayırdılar. Sonra avtobusumuzu yoldan çıxarıb sərnişinlərin əşyalarını boşaltdılar. Bir saatdan sonra həmin iranlı məni çağırıb nə zaman və haradan gəldiyimizi soruşdu. Dedim ki, günorta saat 3-də Yəzddən çıxmışam. Hara getdiyimi soruşanda dedim ki, Təbəsə. Sonra bizə dedi: "Bir-bir əşyalarınızı götürüb yolun sağ tərəfində oturun". Elə də etdik. Hansımızdan səs çıxsaydı, bir söz desəydik, hətta öskürsəydik də, vurmağa başlayırdılar. Sonra avtobusu gətirib dedilər ki, bir-bir minin. Avtobusun içində altı əsgər bizə göz qoyurdu ki, bir-birimizlə danışmayaq. Onda təxminən gecə saat 12 idi. Onların arasında birinin zahiri görkəmi iranlı tələbələrə oxşayırdı. Bizə dedi ki, ingilis və fransız dilini bilirsinizmi? Dedik ki, yox. Dedi ki, əgər səsiniz çıxsa, hamınızı güllələyəcəyik; yalnız bir-bir minməlisiniz. Sərnişinlərin çoxu yaşlılar idi, çox qorxurdular.

Nəhayət, bizi təyyarənin yanına apardılar. Təyyarənin içində zəif qırmızı işıq yanırdı. Onlar təxminən yeddi yüz nəfər idilər, həmin hissəni qoruyurdular. Hündür üçayaqlı dirəklərin üstünə projektorlar qoymuşdular və hər tərəfdən təxminən 6 km uzunluğuna qədər əraziyə nəzarət edirdilər. Bu zaman hansısa səbəbdən bizi

**yenidən avtobusumuza qaytardılar və minməyimizi söylədilər. Minəndən sonra avtobusu yolun sol tərəfinə apardılar, yenidən yerə endirib yolun kənarında oturtdular. Ayaqlarımızı uzatmış, əllərimizi başımıza qoymuşduq. Mən birinci sırada idim. Allahı bütün peyğəmbərlərə və dövrün imamına and verib dedim ki, İlahi, bu axşam bu səhrada Xomeynini bizə sübut elə. Birdən sağ tərəfdən, Məşhəd istiqamətindən yaşıl bir işıq qalxdı və Yəzd tərəfdə enib gözdən itdi. Bunu hamı gördü. Onlar işığı və bizim ürəkləndiyimizi görüb güldülər və imamın şəkillərini cırmağa başladılar. Yarım saatdan sonra yenidən bir-bir avtobusa minməli olduğumuzu söylədilər. Öncəki kimi beş-altı hərbçiyə bizə göz qoymağı tapşırdılar. Bu zaman onların biri sükanın arxasına keçib bizi mindirmək üçün bir təyyarənin yanına apardı. Orada bir qədər gözləməli olduq. Avtobusumuz təyyarədən çox da aralıda deyildi. Təyyarənin motoru işləyirdi, lakin birdən öz-özünə partladı. Qorxudan onlara dedik ki, indi yanacağıq. Biri dedi ki, siz narahat olmayın. Avtobusumuzun ön təkərlərindən birini vurub dəldilər, özləri yeddi təyyarəyə və iki helikopterə mindilər. Bizə dedilər ki, əgər günəş çıxmamış buradan tərpənsəniz, sizi bombalayacağıq. Qorxudan səhərə qədər orada oturduq, səhər açılan kimi yola düşdük. Əvvəlcə Robatxan postuna çatıb məsələni xəbər verdik. Bizə dedilər ki, qaçaqçılar imiş. Dedik ki, qaçaqçıların səkkiz təyyarəsi və yeddi helikopteri ola bilməz. Dedilər ki, tez gedin, Təbəs bölüyünə xəbər verin. Günorta saat 3-də Təbəsə çatdıq, General Qubadi Məşhəddən gəlib bizi dindirdi".**[1]

[1] İslam Respublikası qəzeti, 30.04.80, s. 2.

İnqilabçı quruluşun xarici siyasəti o dövrdə dünya səviyyəsində ortaya yeni söz qoymuşdu. Dünya məzlumlarını böyük istismarçı dövlətlərdən qorumaq devizi təxminən bütün ölkələrdə ajiotaj yaratmışdı. İslam inqilabından təsirlənən ən mühüm yerlərdən biri də Fələstin və Livan idi. Fələstinin azadlığı və Livan xalqının İsrail işğalından müdafiəsi İranın inqilabçı nəsli üçün ciddi məqsədə çevrilmişdi.

Qulamhüseyn Əfşurdi 1980-ci ilin iyulunda Livana ikihəftəlik səfərə getdi. O səfərin nəticəsi İslam Respublikası qəzetində dərc olunan beş reportaj oldu. Qulamhüseyn Əfşurdi bu reportajlarda Livanın bütün siyasi, ictimai, mədəni və digər məsələlərinə toxunmuşdu. Maraqlıdır ki, bütün bunların yanında ikinci dərəcəli məsələlər də onun gözündən qaçmamışdı. Bu yazılar peşəkarlıq baxımından qüsursuz bir mətbuat reportajının şərtlərinə malikdir. Livan səfərinin reportajları çox əhatəli idi, səlis üslubda yazılmışdı, ogünkü ədəbiyyata nisbətən diqqətəlayiq iş idi. Onun səfəri Livanda vətəndaş müharibəsi zamanına təsadüf edirdi. Qulamhüseyn Əfşurdi səfərinin ilk reportajında belə yazırdı:

"Beyrut hava limanından çıxandan sonra divarların güllə izlərilə dolu olduğunu görəcəksiniz. Onların hansı müharibədən qaldığını soruşsanız, deyəcəklər ki, bu, hər gün baş verən adi bir şeydir. Livan həqiqətən də qəribə haldadır. Ölkə müxtəlif partiya, cəmiyyət və qruplar arasında parça-parça olmuşdur. Ora uzun illər müxtəlif dövlətlərin müstəmləkəsi olmuşdur. Livanda yüzdən çox partiya və silahlı qruplaşma var, onlara hər gün yenisi əlavə olunur; ən sağçısından tutmuş ən solçusuna qədər. Livanda gəzəndə hamını silahlı görəcəksiniz. Hamının belində bir tapança, maşınında bir kalaşnikov avtomatı var. Şəhərin hər bir prospekti, yolun hər bir nöqtəsi bir qrupun nəzarəti

altındadır. Livandakı gərginliyin ən mühüm səbəblərindən biri həmin silahlı qüvvələrdir. Bu amil sıradan çıxmayınca Livan düzələn deyil".[1]

O, məqaləsinin davamında Livanda silahın geniş yayılmasını təhlil edərək yazırdı:

"Livanda kimi görsəniz, belində bir tapançası var. Onu bir nəfər tanıyırsa və yaxud siyasi bir cəmiyyətin üzvüdürsə, o zaman avtomobilində bir kalaşnikov avtomatı da olmalıdır. Bəlkə də dünyanın heç bir yerində bu kiçik Livan qədər silah işlədilmir. Silah çox yerdə oyun və əyləncə vasitəsinə çevrilib. Məsələn, bir məhəllədən keçəndə birdən atəş səsi hər yeri bürüyür, hamı səsə tərəf boylanır, sonra məlum olur ki, bir evdə toydur və qonşusu bəyin şərəfinə bir daraq patronu havaya boşaldıb.

Silah siyasi qruplar arasında qarşıdurmada itkilərin miqyasını artırmışdır. Beyrutda olduğumuz bir neçə gündə hər ikisi məsihi qruplar olan Falanj və Əhrar yaraqlıları arasındakı bir neçə saatlıq atışmada 340 nəfər öldü və təxminən 700 nəfər yaralandı. Halbuki bu qədər itki iki böyük ölkə arasındakı bir müharibədə baş verə bilərdi.

Müstəmləkəçilərin təxribatçı məqsədlərini ifşa edən amil budur ki, onlar bütün qruplara yalnız yüngül silahlar verirlər. Orada ağır silahlar yoxdur. Misal üçün, Livanın cənubunda fələstinli solçuların müxtəlif təşkilatları var ki, Rusiya, Rumıniya, Kuba, Liviya və digər ölkələrdən pul və silah alırlar. Həmin cənub bölgə hər gün İsrailin hücumuna məruz qalır. Bu təşkilatların, habelə ən mühüm Fələstin təşkilatı olan Fəthin İsrail təyyarələrini vurmaq üçün ağır texnika və silahları yoxdur. Bu günə qədər bu təşkilatlar cənubda hətta bir İsrail qırıcısını da vura bilməyiblər. Zenit raketləri varsa

---

[1] İslam Respublikası qəzeti, 26.07.80, s. 12.

da, çox köhnədir, onları tənzim edənə qədər İsrail təyyarələri hər yeri bombalayıb gedir. Livanın bütün antiimperialist təşkilatlarının himayədarı kimi çıxış edən Rusiya hətta Fəth təşkilatına da bir Strela-2 raket kompleksi vermir. Tapança, avtomat və qumbaraatanla İsrailin tank və təyyarələrinin qabağına çıxmaq olmaz. Deməli, yalnız bir-biri ilə vuruşmağa yarayır. Bu səbəbdən elə bir gün yoxdur ki, hətta Fələstinin iki solçu təşkilatı Livanda bir-biri ilə vuruşmasın və kimsə ölməsin.

Təşkilatların silahlı olduğuna görə adi camaat da öz təhlükəsizliyini qorumaqdan ötrü ən azı evlərində silah saxlamağa məcburdur. Livanda ən çox pul xərclənən sahə silah alveridir. Bəzən dəllallar qara silah bazarı da təşkil edirlər. Livanın şimalında bir kənddə təxminən 14 yaşlı bir yeniyetmə ilə rastlaşdıq. Məktəbli idi, amma silahı vardı. Silahı altıpatronlu revolverə oxşayırdı, gücü az və gülləsi xırda idi, amma hər halda, silah idi. Şəxsi silaha həvəs get-gedə uşaqlıqdan onların beynində yer açır. Əgər bu rəqabət genişlənsə, gələcəkdə hər evdə RPG qumbaraatanı, zenit, mina və raket də görəcəyik".[1]

O, yazılarında xalqın yaşayış tərzini də diqqətdə saxlayırdı. Livanda əhalinin gündəlik həyatını araşdırır, küçə və bazarlarda müşahidə aparırdı.

"Livan cəmiyyəti tamamilə istehlakçı bir cəmiyyətdir. Hətta indiki müharibə şəraitində də məhsul çatışmazlığı müşahidə olunmur, lakin mühüm məhsulların əksəri xarici ölkələrdən idxal olunur. Livan müxtəlif ölkələrin məhsullarının supermarketinə çevrilib. Çox bahalıqdır. Misal üçün, ətin kilosu 800 rial, çörək 30 rial, pomidor 120 rial,

[1] Yenə orada.

şəkər 90 rialdır. Halbuki bunların çoxu Livanın özünə məxsusdur, xarici məhsullar isə olduqca bahadır".[1]

Qulamhüseyn Əfşurdi Livandan reportajının ikinci hissəsində ƏMƏL təşkilatı haqda məlumat vermişdir. ƏMƏL – Livan Müqavimət Dalğaları təşkilatı 1974-cü ildə İmam Musa Sədr tərəfindən və Şəhid Doktor Mustafa Çəmranın əməkdaşlığı ilə yaradılmışdı. Bu təşkilat tədricən daxili problemlərlə üzləşdi, 1990-cı ildə parçalandı və öz yerini Hizbullah təşkilatına verdi. Qulamhüseynin öz məqaləsində ƏMƏL-in gələcəyi barədə xatırlatdığı bəzi məqamlar onun dərin düşüncəsini göstərir.

"ƏMƏL təşkilatı çox diqqətli və uzaqgörən olmalıdır ki, qərb və şərq müstəmləkəçilərinin tələlərinə düşməsin. Əgər bir neçə il öncəyə qədər Texasın vestern filmləri yeddipatronlu tapançalarla məşhur idisə, indi Livan daha layiqli davamçı olmuşdur. Yəni qərb imperializmi İsrailin vasitəsilə birbaşa və dolayısı ilə bəzi təşkilatları silahlandırır. Digər tərəfdən şərq imperializmi də solçu təşkilatları özünümüdafiə və imperializmlə mübarizə adı altında silahlandırır. Haradan gəldiyi bilinən bir qığılcımla qarşıdurma və müharibə başlayır. Əgər müstəqil bir təşkilat varsa da, bu qurama oyunlara çəkilir; öz təhlükəsizliyi üçün silah alır, təlimə vaxt sərf edir və nəticədə, başqa həyati işlərdən qalır.

Xalqı hərbçi xarakterlərinə sürükləmək lazım deyil. Livanın cənubundan şimalına qədər müsəlman və qeyri-müsəlmanlarla söhbətlərimizdən bu nəticəyə gəldik ki, hamı təhlükəsizlik və əmin-amanlıq istəyir. Bir təşkilatı dəstəkləmələri də həmin təşkilatın onların təhlükəsizliyini dəstəklədiyindən irəli gəlir. Bu baxımdan, müsəlman xalqın

---

[1] Yenə orada.

ƏMƏL-ə rəğbətinin onun hərbi dəstəyinə və islamçılığına görə olduğunu nəzərə alsaq, ƏMƏL xalqla əlaqəsini hərbi əsaslardan çox İslam əsasında təyin etməlidir. Bundan ötrü İranın inqilab üsulunu rəhbər tutmaq olar. Həmin ordu xalqın özüdür. Bu təklifi ƏMƏL-in hərbi qanadının rəhbərinə özüm verdim, amma təəssüf ki, İran kimi canlı nümunəni görmədiyinə görə dəqiq təsəvvür edə bilmədi. Yəni İranda bütün xalqın hərbi təlim gördüyü və hərbçiliyin xüsusi bir qrupa məxsus olmadığı kimi, onlar da qoca və gəncliyindən asılı olmayaraq, bütün müsəlmanlara hərbi təlim keçməlidirlər. ƏMƏL daha çox islamçı kimi düşünməlidir, ərəb kimi yox. Bu, çox mühüm məsələdir və üzərində çox dayanmaq lazımdır. Ərəb və ya livanlı olmaq üstünlük sayılmamalıdır".[1]

Qulamhüseyn bu reportajlarında Livan xalqının İmam Xomeyni və İranın yeni İslam inqilabı ilə həmrəyliyindən tez-tez söz açmışdır. O, Beyrutun müsəlmanlar yaşayan Bürc əl-bəracinə rayonu barədə yazırdı:

"Məhəlləyə girən kimi divarlardakı şüar və şəkillər diqqəti cəlb edir. Çox maraqlıdır ki, İran İslam Respublikasının gerbinin qəbul olunmasından yalnız bir neçə ay ötür, hələ ölkəmizin idarələri öz binalarının və rəsmi sənədlərinin üzərinə bu gerbi vurmayıblar, bizim Livana getdiyimiz pasportda da şahənşah gerbi vardı, amma Beyrutda müsəlmanlar yaşayan bir bölgədə İran İslam Respublikasının gerbini pulverizatorla divarlara çəkmişlər. Başqa bir məsələ xalqın İslam inqilabının rəhbəri İmam Xomeyni ilə həmrəyliyidir. Hər yerdə İmam Musa Sədrin şəklinin yanında İmam Xomeyninin şəkli var".[2]

---

[1] İslam Respublikası qəzeti, 29.07.80, s. 3.
[2] İslam Respublikası qəzeti, 06.08.80, s. 3.

O, Tir şəhərinin Kəfər-Tibnit kəndində gördükləri haqda yazırdı:

"Bir kəndli qarıdan İmam Xomeynini və İranı tanıyıb-tanımadığını soruşduq. Dedi ki, məgər İmam Xomeynini tanımayan bir müsəlman var?! İmam Xomeynidən nə kimi gözləntisi olduğunu soruşanda isə belə cavab verdi: "Heç nə. Onun sağlam olması mənə kifayətdir. Mən ona Allahdan can sağlığı diləyirəm". Bunu dərk etmək asan məsələ deyil. O qədər problemlərin içində yalnız imamın sağlamlığını istəyir! Biz bu səhnələrdən dərs almalıyıq".[1]

Qulamhüseyn nəticə olaraq yazırdı:

"Mənim bu görüşlərdən aldığım nəticə odur ki, müsəlman Livan xalqı ilə mübariz və müsəlman İran xalqı arasında çox dərin bağlar var. Xüsusən Livan müsəlmanları İmam Xomeynini çox sevirlər. Lakin İran tərəfdən Livana çox da diqqət olunmur. Burada yalnız maddi köməkdən söhbət getmir. Çünki bütün ərəb ölkələri müxtəlif tayfalara kömək edirlər. Ərəbistan bütün tərəflərə maddi yardım edir; şiə və sünnilərdən tutmuş məsihilərə qədər. Lakin bizim diplomatik korpusumuz indiyədək bu məsələyə lazımi diqqət ayırmayıb. Hətta bəzi məsuliyyətsiz çıxışlar vəziyyəti bir az da pisləşdirib. Önəmli olan İslam inqilabının ideoloji ixracıdır. İmam Xomeyninin buyurduğu kimi, bu inqilab haraya ixrac olunsa, problem qalmayacaq".[2]

Qulamhüseyn Əfşurdi öz reportajlarında Livanın qədim abidələrini də diqqətdən qaçırmamışdı, ozamankı inqilabçı bir gəncin tənqidi baxışları həmin abidələrin sahiblərini - qədim şahları hədəf seçmişdi:

---

[1] İslam Respublikası qəzeti, 27.08.80, s. 6.

[2] İslam Respublikası qəzeti, 30.08.80, s. 10.

"Bəəlbək şəhərində yaşı iki mindən yuxarı olan olduqca əhəmiyyətli qədim tarixi abidələr var. Zahirən gözəl və çox möhtəşəm əsərlərdir. Tarixin yazdığına görə, romalılar Livanı miladdan 64 il öncə zəbt etmiş, miladdan 57 il sonra isə bu gün tarixi abidələrə çevrilmiş həmin məbədləri tikməyə başlamışlar. Orada bir-birinin yanında Yupiter (Günəş tanrısı) məbədi, Baxus (Şərab tanrısı) məbədi və Venera (Gözəllik tanrısı) məbədi adlı üç məbəd tikilmişdir. Yupiter məbədinin uzunluğu 300 metrdir. Həmin üç məbədin tikilişi 250 ildən çox sürmüşdür. Oradakı möhtəşəmliyi görəndə insan həqiqətən də şəhid müəllim Doktor Şəriətini və onun "Bəli, belə idi, qardaş" yazısını xatırlayır. Tərcüməçiyə dedim bələdçiyə söyləsin ki, buranı hansı padşahın tikdiyi bizə önəmli deyil; önəmli olan odur ki, neçə min zavallı bu şeytani məqsədlərə qurban gedib. Bələdçinin dediyinə görə, bu məbədlərin tikilişində təxminən yüz min insanın şəhid olduğu təxmin edilir. Bu rəqəmi eşidəndə insanı dəhşət bürüyür və bütün o möhtəşəmlik çirkin görünür. Ancaq nə etmək olar ki, bu, reallıqdır və hələ də dünyada belə işlər baş verir.

Deyilənə görə, məbədlərin 90 faizi daşdan, 10 %-i isə Misir qranitindən sütunlardır. Qranit sütunları Nil çayının kənarındakı Asvan şəhərindən gəmi ilə İsgəndəriyyəyə, oradan Tripoli limanına aparmışlar. Diametrləri bəzən bir metrdən böyük olan bu sütunların Tripoli limanından Bəəlbəkə gətirilməsi də maraqlıdır. Çünki həmin ərazi dağlıq bölgədir. Onlar dağların yamacından 300 km yol açıb sütunları qullar vasitəsi ilə Bəəlbəkə itələmişlər. Çox ağır olan daş sütun bəzən yamaclarda birdən geriyə qayıdır və

onu itələyənlərin hamısı daşın altında qalıb tələf olurmuş. Bütün bu haqsızlığı təsəvvür etmək belə çox ağırdır".[1]

## *Kod adı: Həsən Baqiri*

İslam Respublikası qəzeti bir gün də Qulamhüseyn Əfşurdinin yazı, xəbər və ya reportajı olmadan dərc olunmadı. İş o qədər çox idi ki, zəhmətkeş və yorulmaz bir müxbirin bütün vaxtını alırdı. Lakin redaksiyada çalışanlar onun bundan başqa bir fəaliyyətinin də olduğunu bilmirdilər.

Qulamhüseyn fikirləşirdi ki, inqilaba bundan da artıq kömək edə bilər. O günlərdə təhlükəsizlik bərbad durumda idi, hər gün bir terror xəbəri yayılırdı, hər gün yeni bir silahlı qruplaşma meydana çıxırdı. Xəbərlərin çoxu çapolunası deyildi. Qulamhüseyn bilirdi ki, İslam İnqilabı Keşikçiləri Korpusunun Təhlükəsizlik şöbəsi var. Onun işlədiyi qəzet İslam Respublikası Partiyasının idi. Partiyanın bütün üzvləri tanınmış inqilabçılar idilər. Qulamhüseyn korpusa yazılmaq üçün partiyanın əsas funksionerlərindən birinə müraciət etdi. Korpusun Təhlükəsizlik şöbəsinin sədri Möhsün Rzayi idi. O, bu şöbəni korpusun əsas binasının üç otağında üç nəfərlə birgə yaratmışdı. Terrorçu Furqan təşkilatı[2] məhv ediləndən sonra inqilabın böyükləri bu şöbəni gücləndirmək qərarına gəldilər.

---

[1] İslam Respublikası qəzeti, 27.08.80, s. 6.

[2] Əkbər Qudərzi adlı bir şəxsin başçılıq etdiyi Furqan terror qrupu inqilabın əvvəlində mühüm şəxsiyyətləri öldürməyə başladı. Bu təşkilatın üzvləri 1980-ci ilin yanvarında ələ keçdilər və bir qədər sonra edam edildilər. Ayətullah Mürtəza Mütəhərrinin, Ayətullah Məhəmməd Müfəttihin, Ayətullah Qazi Təbatəbainin, General Qərəninin, Mehdi İraqinin və onun övladının şəhadəti bu təşkilatın cinayətlərinin bir hissəsidir.

"İstedadlı kadrlar axtarırdıq. Həzrət İmam Xomeyni, Seyid Əli Xamenei, Haşimi Rəfsəncani, Şəhid Behişti və digər yüksək vəzifəli dövlət rəsmiləri istedadlı kadrları mənə təqdim edirdilər. Çoxlu könüllü gənclər də əməkdaşlıq üçün qeydiyyatdan keçirdilər. 1980-ci ilin ilk aylarında bir gün Seyid Əli Xamenei mənə zəng vurub dedi ki, İslam Respublikası qəzetində istedadlı bir müxbir var, təhlükəsizlik sahəsində işləmək istəyir, onunla danışın. O, yanıma gəlib dedi: "Mən İslam Respublikası qəzetinin müxbiri Əfşurdiyəm. Kömək etməyə gəlmişəm. Görürəm ki, əks-inqilabçı qüvvələr terror törədir, əmin-amanlığı pozurlar. Ölkənin təhlükəsizliyi üçün əlimdən gələni etməyə hazıram".

Elə ilk söhbətdə axtardığımız adamlardan olduğunu bildim. İstedadlı idi, ölkənin siyasi vəziyyətini yaxşı təhlil edirdi. Dostlarımıza kod adı verirdik. Ona Həsən Baqiri adını seçdik. Oradaca dedim ki, əks-inqilabçı təşkilatlar, milli cəbhə və şah tərəfdarları üzərində işləsin. Ruhiyyə və xarakterlərinə görə bu işin öhdəsindən daha yaxşı gələcəyini düşündüm. Nizam-intizamlı adam olduğunu da həmin gün bildim. Marksistlər, münafiqlər və dövlətlə qarşıdurma ehtimalı olan digər qruplaşmalarla bağlı araşdırma aparmaq, informasiya toplamaq işini bəzi əməkdaşlarımıza tapşırmışdıq, amma hələ boşluğumuz vardı.

O zaman öz kadrlarımıza həddən artıq güvənirdik. Bugünkü kimi idari məsələlər yox idi. Sanki bütün kadrlar qüsursuz idilər. Bizim təhlükəsizlik və informasiya ənənəmiz digər təhlükəsizlik təşkilatlarından və SAVAK-dan fərqli idi. Düşünürdük ki, xalqın özü təhlükəsizlik işləri görməli, əks-inqilabçıları tutub bizə təhvil verməlidirlər. Əvvəldən informasiya xidmətimiz

**vardı, insanlar tez-tez zəng vururdular. Bəzən bir ata gəlib oğlunun cinayətlərini xəbər verirdi. Xalq inqilabı bütün vücudu ilə özününkü bilirdi, inqilaba bağlılıq hissləri uşaqlarına, ailələrinə, mal-mülklərinə bağlılıqdan çox idi. İmam Xomeyni deyirdi ki, iyirmi milyonluq təhlükəsizlik əməkdaşınız olmalıdır. Mən də bu fikirdə idim. Düşünürdüm ki, texniki işlərdən, informasiya toplamaqdan, dinləməkdən, təqib və nəzarətdən əlavə xalqdan da geniş istifadə etməliyik. Həsən Baqiri də eyni fikirdə idi".**[1]

Qulamhüseyn Əfşurdinin gecə-gündüzü yox idi. O, qəzetə xəbər və reportaj hazırlamaqdan əlavə korpusun Təhlükəsizlik şöbəsinə də məruzələr hazırlayırdı.

**"Həmişə vaxt çatışmazlığı vardı, qaçhaqovda idi. Bir yerdən gəlib tez başqa bir yerə gedirdi. Onu heç vaxt bekar görmədim".**[2]

Qulamhüseyn Əfşurdinin artıq Həsən Baqiri adlı bir dublikatı vardı, korpusdakı əməkdaşlarından başqa heç kim, hətta ailəsi də ondan xəbərsiz idi. Lakin yaxın zamanda baş verəcək böyük bir hadisə həmin adı dillər əzbəri edəcəkdi.

***

Nəhayət, 1980-ci ilin 22 sentyabrı gəldi, günorta Tehranda bir neçə partlayış səsi eşidildi. Əhali belə səslərə öyrəşdiyinə görə bəlkə də onları ciddiyə almadı. Lakin Qulamhüseyn və qəzetin digər əməkdaşları ümumi xəbər yayılmazdan öncə bilirdilər ki, əsl müharibə başlanmışdır. Qulamhüseyn iki-üç yerlə əlaqə saxladı. Redaksiyadan çıxmaq istəyəndə qəzetin fotoqrafı Seyid Sadiqini gördü. O,

---

[1] General Möhsün Rzayi ilə müsahibədən.

[2] İslam Respublikası qəzetinin əməkdaşı İsmayıl Ələvi Yeganə ilə müsahibədən.

seyidlə birgə çoxlu qarşıdurma yerlərində olmuşdu. Qulamhüseyn Səidi həmişə fiziki qarşıdurmalara qarışmaqdan çəkindirir, onun yalnız fotoqrafçılıq və müxbirlik işi ilə məşğul olmasını istəyirdi. İndi isə ölkə xarici bir işğalçı ilə üzləşmişdi. Onlar ertəsi günə vaxt təyin edib səhər tezdən Əhvaza yola düşdülər.

**"Mənə zəng vurub dedi ki, iraqlılar hava limanını, başqa bir neçə yeri bombalayıblar. Axşam evə gələndə narahat idi, dedi ki, Əhvaza getmək istəyirəm. Səbəbini soruşanda dedi: "Müharibə başlayıb, gərək gedək, görək nə edə bilirik. Bəlkə bir köməyimiz dəydi".**

**Mənə ağır idi. Qardaşım yox idi. Böyük oğlum idi, onu olduqca çox sevirdim. Evə girəndə elə bilirdim ki, bütün dünyanı mənə gətiriblər. Boy-buxununa baxıb Allaha şükür edirdim. Hər halda, getdi".**[1]

Onlar Əhvaza çatdılar. Qarşıdurmanın mərkəzi Xürrəmşəhr və Abadan idi. Ancaq Qulamhüseyn dedi ki, Əhvaz korpusunda işi var.

**"Qulamhüseyn Əhvazda qaldı, mənsə Xürrəmşəhrə getdim. Orada şəkil çəkir, döyüşçülərə kömək edirdim. Təxminən on gündən sonra Əhvaz korpusuna onun yanına getdim. Qapının ağzında çoxlu adam vardı, mülki şəxsləri içəri buraxmırdılar. Qapıçıya dedim ki, ağa Əfşurdi ilə işim var. Dedi ki, burada elə adam yoxdur. Başqa bir neçə nəfərdən də soruşdum. Onu öz adı ilə tanımırdılar. Bir qədər gözləyəndən sonra onun bir toyota pikapından endiyini gördüm. Yanında bir nəfər vardı və tələsirdilər. Məni görüb yaxınlaşdı, hal-əhval tutduq. Dedim ki, burada heç kim səni tanımır. Dedi ki, məni Həsən Baqiri kimi tanıyırlar. Dedim ki, Həsən**

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

**Baqiri nə deməkdir? Gülümsəyib dedi: "Sən redaksiyaya qayıt, mən qalası oldum".**

**Qəzetin fotoaparatı onda idi. Mənə verib dedi: "Gələn dəfə gələndə zəhmət olmasa, evdən mənim fotoaparatımı gətirərsən".**[1]

Qulamhüseyn ondan öncə də müxbir kimi bir neçə yerə ezam olunmuşdu. Redaksiyadakı uşaqlar bir müddət onun yoxluğundan şübhələnmədilər, elə bilirdilər ki, bir-iki həftəyə qayıdar. Lakin belə olmadı.

**"Müharibə başlayanda elektrik enerjisi tez-tez və uzun müddətə kəsilirdi. Redaksiyada şam yandırırdıq. Oraya get-gəl çox idi. Həmin qaranlıqlarda Əfşurdini görmədiyimi hiss etdim. Bir müddət belə davam etdi. Bildim ki, qəzetdən gedib. Xəbər departamentinin uşaqlarından soruşanda dedilər ki, cəbhəyə yollanıb".**[2]

Qulamhüseyni tanıyanlar həm də onun zahiri görkəminə görə elə bilirdilər ki, cəbhədə dini-ideoloji işlərlə məşğuldur. Nəhayət, bir dəfə Səid Sadiqi cəbhədən gəlib dedi ki, Əfşurdi müharibənin əsas fiqurlarından birinə çevrilib və onu Həsən Baqiri adı ilə tanıyırlar. Qulamhüseyn öz adını və qəzeti həmişəlik tərk etdi, qalan ömrünü Həsən Baqiri kimi yaşadı. Bu ad müharibə ilə sıx bağlandı və çox tez bir zamanda döyüşçülərin, komandirlərin və yüksək rütbəli hərbi məmurların dillər əzbəri oldu.

1980-ci ilin 20 sentyabrında axşamüstü Əhvaz korpusunun komandiri Əli Şəmxaninin telefonu zəng çaldı. Zəng vuran Möhsün Rzayi idi. O, Həsən Baqirini təqdim

---

[1] Səid Sadiqi ilə müsahibədən.

[2] İslam Respublikası qəzetinin əməkdaşı Mürtəza Sərhəngi ilə müsahibədən.

edib dedi ki, kömək üçün oraya gəlir. Həsən Baqiri ertəsi gün Əhvaz korpusunda Əli Şəmxani ilə tanış oldu.

**"Cənub korpusu təkbaşına vuruşa bilmədiyinə görə ərazini genişləndirməli idik. Hər gələnə bir yer verirdik. Həsəni korpusun Təhlükəsizlik şöbəsindən göndərdiklərinə görə onu kəşfiyyata göndərdik, Həmid Müinian kimi şəxsləri ona təhvil verdik".**[1]

Həmid Müinianla Rza Rəzəvi Xuzistan korpusunun ən nümunəvi kəşfiyyatçıları idilər. Müharibə başlayandan sonra Rəzəvi beşinci kolona qarşı işlə məşğul olmağa başlamışdı. Partlayışlar azalandan və İraqın sərhəddə birbaşa müdaxiləsi artandan sonra Müinian kəşfiyyat məlumatları hazırlamağa başladı. O, artıq beynində yeni fikirlər olan bir adamla tanış olmuşdu.

**"Müharibə başlayandan sonra qardaşımız Həsən Baqiri ilə tanış oldum, kəşfiyyat-diversiya adlı bölümdə işləməyə başladım. Bu bölümün işinin nədən ibarət olduğunu bilmirdim. Sonralar eşitdim ki, düşmənə dair informasiya toplamalıyıq. O vaxta qədər müharibənin çox uzanacağını da bilmirdim. Bəziləri elə bilirdilər ki, İraq tərəfi sərhəddə bir təxribat törədib və çox tez bir zamanda məsələ həllini tapacaq. Lakin Həsən Baqiri əvvəldən uzunmüddətli düşüncə və proqramlarla maraqlanır, müharibə yükünü yüngülləşdirməyə çalışırdı. O, müharibənin tez bitəcəyini və təşkilat yaratmağa ehtiyacın olmayacağını düşünmürdü. Halbuki o zaman korpusda hərbi təşkilat barədə məlumat yox idi, yeni yaranmışdı və bu işlərə macal tapmamışdı".**[2]

---

[1] Xuzistan korpusunun ozamankı komandiri admiral Əli Şəmxani ilə müsahibədən.

[2] Şəhid Həmid Müinianla müsahibədən. O, 1956-cı ildə Əhvazda anadan olmuş və 1986-cı ilin 26 dekabrında Kərbəla-4 əməliyyatında şəhadətə

Əhvaz korpusunun şəxsi heyəti çox tez bir zamanda yeni kadrla tanış oldu. Həmin pasdarlardan biri də Mehdi Sabuni idi.

**"Biz xuzistanlılar qarabuğdayıyıq. Müharibənin ilk günlərində ağüzlü bir gəncin ərəb paltarında bir neçə nəfərlə birgə bölgəyə gəldiyini gördük. Kim olduğunu soruşanda dostlarımızdan biri dedi: "O, Həsən Baqiridir, yanındakılar da kəşfiyyatçılardır".**

**Kəşfiyyat sözü mənə tanış deyildi. Ertəsi gün yanıma gəlib dedi: "Siz ağa Sabunisiniz?" Dedim ki, bəli. Dedi: "Bizimlə işləmək istəyirsiniz?" Dedim ki, qulluğunuzda hazıram. Həsən Baqirini kim görürdüsə, ilk ünsiyyətdən ürəyində ona rəğbət yaranırdı".**[1]

Həsən Baqiri Əhvaz korpusunda tez bir otaq hazırladı. Həmin otaq yeni yaradılmış kəşfiyyat-diversiya bölüyünün ilk beşiyi oldu. O, bacarıqlı kadrları toplamağa başladı və işini günbəgün genişləndirdi.

**"Çaharşir meydanındakı korpus binasının yanında bir evdə kəşfiyyat işlərini idarə edirdik. Müharibə başlayanda Həsən Baqiri oraya gəlib dedi: "Sərhəd və ətraf kəndlər barədə kimin məlumatı var?" Məni Seyid Faris çağırırdılar. Ona demişdilər ki, Seyid Faris bilir. Sərhəd bölgələrini ona izah edəndə bizim komandirimiz Rza Rəzəviyə dedi: "Kəşfiyyat-diversiya bölüyü yaratmaq istəyirik. Seyid Farisi bizə verin". O, qəbul etməyib dedi: "Əgər seyid getsə, bizim işimiz axsayar. O sizə ancaq kömək edə bilər".**

---

qovuşmuşdur. Həmid Müinian kəşfiyyat-diversiya bölüyü yaradılandan bir müddət sonra Həsən Baqirinin müavini oldu.

[1] Həsən Baqiriyə dair kəşfiyyat məruzələrinin tənzimlənməsinə və sənədlərin arxivləşməsinə məsul şəxs olan General Mehdi Sabuni ilə müsahibədən.

**İraqlılar Hüveyzəyə yaxınlaşmışdılar. Təmas xəttini və düşmən mövqelərini yaxından görmək üçün Həsən Baqiri, Şəhid Cavad Dağəri və Məhəmməd Bilali ilə birgə Kərxəkura getdik. Bir peykan avtomobilinə minmişdik. Kərxə döngəsinə girdik. Torpaq yolun kənarında bir çala vardı, üzərini kol-kos örtmüşdü. Maşını oraya saldıq. Ağa Cavad və Bilali ağacın başına çıxıb düşmən tanklarının bizə doğru gəldiyini gördülər. Tanklar kolluğu atəşə tutdular. Həsənlə birgə çalanın içinə uzandıq. Atəş o qədər güclü idi ki, kolların başını qoparıb üstümüzə tökürdü. Hətta saçımıza bir neçə güllə də dəydi. Tanklar yerləşəndən və səs-küy yatandan sonra avtomobilə minib yola düşdük. Yolda çoxlu döngələr vardı. Sonuncu döngədən keçib çaya çatanda iraqlıların çayda çimdiklərini gördük. Onlar sudan çıxıb paltarlarını geyinənə qədər təxminən 1 km uzaqlaşdıq. Bu zaman bizə doğru güclü atəş yağmağa başladı. Həsən Baqiri ilə həmin ilk tanışlıqdan bildim ki, dözümlü və cəsur adamdır".**[1]

Onun çalışqanlığı və aktivliyi Əhvaz korpusunda hamının diqqətini cəlb etmişdi.

**"İlk gündən onda qəribə davranışlar görürdüm. Azyaşlı görünüşünə baxmayaraq, çox zirək və cəld idi. Yenicə gəlməsinə, müharibəyə dair heç bir təcrübəsi olmamasına baxmayaraq, uşaqlarla birgə kəşfiyyata gedirdi. İşləri nizam-intizama salmaqda xüsusi məharəti vardı. Şəxsi heyətin bir qismini bölgülərə ayırdı. O**

---

[1] Müharibə başlayan zaman Həsən Baqirinin kadrlarından olmuş Seyid Faris ləqəbli Seyid Səd Hüseyni ilə müsahibədən.

**vaxtdan bildim ki, onda olan məlumat, təcrübə və istedad zahirdə göstərdiyindən çoxdur".**[1]

Hüseyn Dəqiqi müharibədən öncə Xuzistana Ərəb Xalq Təşkilatının terrorçuları ilə vuruşmağa getmiş komandirlərdən idi. O da İraqın hücumunu müvəqqəti sərhəd qarşıdurması hesab edirdi. Lakin müharibənin üçüncü günündə Əhvazda Xuzistan korpusunun komandirlərinin iclasında fərqli bir təhlil eşitdi.

**"Müharibənin üçüncü günü tabeliyimdə olan qüvvələrlə birlikdə Əhvaza getdim. Orada komandirlərin iclasında Həsən Baqiri ilə tanış oldum. Müharibənin elə geniş şəkildə başlandığını düşünməzdik. Elə bilirdik ki, İraq dövləti Ərəb xalq qruplaşmasını dəstəkləmək və onların sərhəddəki mövqelərini bərkitmək üçün əməliyyatlar keçirir. Həsən Baqiri iclasda deyilənləri yazırdı. O, sonra təhlil etməyə başlayıb dedi: "İraq məsələsi daha geniş məsələdir. Onlar ən azı sərhəd şəhərlərimizi işğal etməyi düşünürlər".**

**Ondan sonra hamı qəbul etdi ki, İraq tərəfi münafiqləri və Ərəb Xalq Təşkilatının üzvlərini qorumaqdan daha geniş məqsəd güdür. Həsən Baqiriyə dedim ki, düşmənin qarşısını almaq üçün nə etməliyik? Mənə dedi: "Gərək diversiya əməliyyatları və müdafiə mövqeləri yaratmaqla onları durduraq".**[2]

Müharibə başlayandan sonra bəzi komandirlər öz şəhərlərindən Əhvaza yollandılar. Onlardan biri də İsfahan korpusunun komandanlıq şurasının üzvü Seyid Məhəmməd

---

[1] Xuzistan korpusunun əsasını qoyanlardan biri olan General Əhməd Qulampurla müsahibədən. O, 1983-cü ildən müharibənin sonuna qədər Kərbəla qərargahının komandiri oldu.

[2] Gəçsaran korpusunun ozamankı komandiri General Hüseyn Dəqiqi ilə müsahibədən.

Hicazi idi. O, müharibənin ikinci günü İsfahanın təlim keçmiş pasdarlarından iyirmi nəfəri toplayıb Əhvaz korpusuna apardı. Bir-iki gün araşdırdı ki, necə kömək edə biləcəklərini öyrənsin. Heç kim onlara aydın bir cavab vermirdi. Nəhayət, Həsən Baqiri ilə tanış oldu.

**"Əhvaz korpusunun əməliyyat otağında bir gənci gördüm. Görkəmindən çox cavan görünürdü. Danışmağa başlayanda məəttəl qaldıq. Səsi güclü və cəlbedici idi, çöhrəsinə uyğun gəlmirdi. Bir nəfərin tapılıb bölgənin vəziyyətini izah etməsi bizə maraqlı idi. Fikirləşdim ki, bizim nə etməli olduğumuzu söyləyəcək ən uyğun adam budur. Ona dedim: "Partizan təlimi keçmiş bir qrupumuz var. Əməliyyat keçirmək istəyirik". Dedi ki, əvvəlcə kəşfiyyata gedin, sonra əməliyyata. Haraya getməli olduğumuzu soruşanda dedi: "Birlikdə gedərik".**

**Ertəsi gün Həsən Baqiri və başqa iki nəfərlə birgə kəşfiyyata getdik. Həsən üstünə qırmızı xətt çəkilmiş ağ chevrolet blazerlə gəlmişdi. Əynində uzun ərəb paltarı vardı. Əvvəlcə bizi Həmidiyyəyə apardı. Orada Həmidiyyə korpusunun komandiri Əli Haşimi ilə tanış olduq. Çöhrəsi, xarakteri və danışıq tərzi ürəkaçan idi. Süsəngirdə doğru yola düşdük. Təxminən 5 km-dən sonra çaya gedən bir yola çatdıq. Körpüdən keçdik. Çayın o tərəfində heç kim yox idi. İraq hərbi birləşmələri hələ tam yerləşməmiş, düzənliyə səpələnmişdilər. Bir qədər irəliləyəndən sonra maşınımızı görüb raket atmağa başladılar. Tez maşını buraxıb çayın yanındakı çalada gizləndik. Onlar əl çəkmir, atəş açırdılar. Yaxınlığımıza bir neçə mərmi düşdü. Hələ raket atəşi görməmişdik, yanımıza mərmi düşməmişdi, raket səsini və alovunu təcrübə etməmişdik. Oranın yeri kül kimi yumşaq idi. Raket düşəndə tüstü və toz-torpaq hər tərəfi bürüyürdü.**

**Üzümüzü torpaq örtdü, gülməli hala düşdük. Bir qədər sonra atəş səngidi və Həsən Baqiri dedi: "Mən maşını götürüb qaçacağam". Dedim: "Ağa Baqiri, getmə, onlar sizi görüb yenə atəş açacaqlar". Dedi ki, sizin işiniz olmasın, mən gedirəm, siz də çayın kənarı ilə paralel şəkildə geri qayıdın, o tərəfdə görüşərik.**

**Bir anın içində çayın yanından qalxdı, blazerə oturub mühərriki işə saldı və qaza basdı. Birdən avtomat və raket atəşləri başlandı. Həsən çox sürətlə getdi. Biz də bir saat piyada gedəndən sonra ona çatdıq. Maşın dəlik-deşik olmuş, amma bakı və motoru sağlam qalmışdı".**[1]

Həsən Baqiri tərəfindən Əhvaz korpusunda görülən sistemli işlərdən biri döyüş bölgələrinə dair gündəlik məruzənin yazılması idi. Abadan, Xürrəmşəhr, Mahşəhr, Həmidiyyə, Süsəngird, Şuş, Dezful, Əndimeşk və Dehloran korpusları da Xuzistan korpusuna tabe idilər. Onlardan əlavə, şəhərlərin polisi və jandarmeriyası da informasiyalarını Əhvaz korpusuna göndərirdilər. O, müharibənin ikinci günündən onlara təlim keçməyə başladı. Sentyabrın 27-də 24 saatlıq hadisələrin ilk məxfi bülleteni hazırlanıb korpus və ordu rəhbərliyinə göndərildi. O zamandan onlar bütün cəbhə istiqamətlərinin vəziyyətindən xəbərdar oldular. Həsən Baqiri bununla cəbhələrdə informasiya bloku yaratdı. O, müqəddimədə şəxsi heyətin müqavimətinə dair xəbərləri bülletenin mənfi cəhəti hesab edib yazırdı:

**"Bu bülleteni hazırlayarkən əməliyyat bölüyünün vəziyyətini tam dərc edə bilmədik. Ümidvarıq ki, növbəti**

---

[1] Cənub əməliyyat qərargahında cəbhəyə ilk ezam müdiri General Seyid Məhəmməd Hicazi ilə müsahibədən.

**günlərin bülletenlərində əməliyyat bölüyündəki qardaşların köməyilə bu nöqsanı aradan qaldıracağıq".**[1]

Bu nöqsan sonrakı günlərdə aradan qaldırıldı. Həsən Baqirinin ilk xəbər bülletenlərindən iki nümunəsi belə idi:

"Hərdan kəndi - Verilən informasiyalara görə, İraq hərbi qüvvələri bu gün səhər çağından Əhvazın cənub-qərbindən təxminən 20 km aralıda yerləşən Hərdan kəndinə daxil olmuş, tank və artilleriyalarını oraya yerləşdirmişlər. Topları Əhvazın cənub-qərb hissəsini atəşə tutmuş və mühüm itkimiz olmuşdur. Tankların sayı 50-80 arasında təxmin edilir.

Dezful – Saat 16:00-da Dezful korpusu xəbər verdi ki, iraqlılar Əndimeşkin 10 km-liyinə çatmışlar. İraq topları Dezfula çatır. Saat 17:00-da korpusdan xəbər verildi ki, şəhəri və bazanı raket atəşinə tutmuşlar, raketlər bazaya düşüb. Korpusun RPG-7 silahına ehtiyacı var".[2]

Bir neçə gündən sonra pasdarların və könüllü qüvvələrin sayı elə bir həddə çatdı ki, daha Əhvaz korpusu elə geniş fəaliyyəti əhatə edə bilmədi. Sentyabrın 28-də Müharibə qərargahı Əhvaz şəhərindən kənarda qolf meydanı adlı bir yerə köçdü. Oranı amerikalılar qolf oyunu üçün düzəltmişdilər. Qərargaha rəhbərlik Davud Kərimiyə tapşırılmışdı. Hacı Davud da Həsən Baqiri kimi müharibənin ilk günündə Əhvaza getmişdi. Onlar ikisi və Seyid Məhəmməd Hicazi Cənub əməliyyat qərargahının qurucuları idilər. Hicazi cəbhəyə ezam və şəxsi heyətin bölgüsü işlərinə baxırdı. Həsən Baqiri də kəşfiyyat və informasiya məsələləri ilə ciddi məşğul idi. Qolf qərargahı əksərən gəlmələrdən təşkil olunsa da, o, daha çox Əhvaz korpusu və xuzistanlı

---

[1] Həsən Baqirinin xatirələri, c. 1.

[2] Yenə orada.

uşaqlarla işləyirdi. Həmin günlərdə Həmid Təqəvini öz bölüyünə qəbul etdi. Təqəvi Xuzistan korpusunun kəşfiyyat bölüyündə xidmətə başladı.

**"Həsən Baqiri ilə müxtəlif istiqamətlərə, xüsusən də Süsəngird və Turrah istiqamətinə kəşfiyyata gedirdik. Bir dəfə bir universalla gəldi və birlikdə Turraha getdik. Bölgədə heç kim yox idi. İraqlılara o qədər yaxınlaşdıq ki, qorxuya düşüb bizə doğru bir raket atdılar. Qəlpələr maşının şüşələrinə dəydi. Həmin istiqamət üçün başqa komandalar da yaradıldı. Bizim bölüyə heç kimi yuxarıdan göndərmirdilər, hamı müstəqil şəkildə və bölüyün ehtiyacına uyğun olaraq adam tapır, üzv qəbul edirdi".**[1]

O, hər bir istiqamət üzrə üç-dörd kəşfiyyat qrupu yaratmışdı.

**"Bir qrup Darxuin, bir qrup Əhvaz, bir qrup da Dezful cəbhələrində kəşfiyyat aparırdı. Bu kəşfiyyatlar hər gün Cənub qərargahının kəşfiyyat-diversiya bölüyünə məruzə olunurdu".**[2]

Müharibə müdafiəçi tərəfin hazırlıqlı və nizamlı ordu qarşısında çaşqınlığı şəraitində başlandı. Səddam öz hərbi qüdrətini artırmaqdan ötrü uzun müddət öncədən hazırlıq görmüş, İrana böyük hücum üçün bütün imkanlarını səfərbər

---

[1] General Həmid Təqəvi ilə müsahibədən. O, 1959-cu ildə Əhvazda doğulmuşdu, Xuzistan korpusunun qurucularından idi, müharibənin ilk altı ayında Həsən Baqiri ilə yaxın əməkdaşlıq etmişdi. Həmid Təqəvi 1979-82-ci illərdə Süsəngird və Əhvaz kəşfiyyatına rəhbərlik etmiş, Həmidiyyə və Şadqan korpuslarının komandiri olmuşdu. 1982-ci ildə Ramazan qərargahına getdi, sonra isə Qüds korpusunda fəaliyyətə başladı. General Həmid Təqəvi 2015-ci ilin 27 dekabrında Samirə şəhərində cinayətkar İŞİD terrorçuları tərəfindən şəhid edildi.

[2] Şəhid Həmid Müinianla müsahibədən.

etmişdi. İraqlılar özlərinin tam təchiz olunmuş 12 diviziyalarından əvvəlcə 5 zirehli və mexaniki diviziyanı 3 xüsusi təyinatlı və 1 zirehli batalyonla birgə Xuzistan vilayətini tutmağa göndərdi. Onlar Xürrəmşəhrin, Abadanın və digər sərhəd şəhərlərinin gözlənilməz müqaviməti ilə üzləşəndə əlavə iki diviziyanı da öz qüvvələrinə artırdılar. Başqa sözlə desək, Bəəs ordusu Xuzistanı işğal etmək üçün yüz mindən çox canlı qüvvə və üç mindən artıq tankla beş istiqamətdən hücuma keçdi. Xuzistandakı pasdarların ümumi sayı dörd min nəfərə çatmırdı. İraqlılar ilk hücumlarında 100 km-lik bir ərazini seçdilər, Kərxə və Karun çaylarına qədər irəliləyib dayandılar. Dayanmalarına səbəb əhalinin və xuzistanlı gənclərin döyüşçülərin yanında qalıb müqavimət göstərmələri idi. Təbii ki, bəzi bölgələri tutmuşdular.

Bəəsçilər sentyabrın 29-da Bostandan və Süsəngirddən keçib Həmidiyyəyə çatdılar. Vəziyyət çox böhranlı həddə idi, artıq Əhvaz darvazası təhlükə altında idi. Həmin axşam Əli Qəyurəsli Əhvaz pasdarlarının bir qismini toplayıb Həmidiyyədə bir əməliyyat həyata keçirdi. Bundan sonra işğalçılar Bostan şəhərinə qədər geri çəkildilər. Əli Qəyurəsli inqilabdan öncə Yusif Kolahduzla birgə ordunun qvardiya qüvvələrindən olmuş, inqilabdan sonra Əhvaza gedib pasdarlara hərbi təlim keçməyə başlamışdı. Həmin əməliyyatı Qəyurəslinin qəhrəmanlığı kimi xatırlayırlar. Həsən Baqiri həmin gün o hadisəni belə məruzə etmişdi:

## *Əhvaz korpusundan mərkəzi komandanlığa*

"Əhvaz üzrə əməliyyat komandiri qardaş Səyyafzadənin bildirdiyinə görə, 01.10.1980 tarixində gecə saat 02:00-da əhvazlı pasdar qardaşlardan otuz nəfər Həmidiyyənin ətraf postlarını işğalçı düşməndən azad etmək üçün özlərini şəhidliyə tam hazırlamışdılar. Onlar gecə ikən düşmənin

içinə girmiş, sübh namazından sonra əl silahları və qumbaraatanla hücuma başlamış və düşmənə ağır zərbə vurmuşlar. Bu hücumda düşməndən iyirmi iki tank və iki yük maşını qumbaraatan sursatı ələ keçirilmş, on iki nəfər əsir tutulmuşdur. Lakin öncədən Həmidiyyədə düşmən tərəfindən əsir tutulmuş dörd pasdar əl-ayaqları bağlı şəkildə güllələnmişlər. Düşmən qaçdığından və həmin yerin koordinasiyasını bilmədiyindən raketlə atəş açmağa başlamış, qumbaraatan sursatının yükləndiyi yük maşınlarından biri və iki tank partladılmış, qardaş Mahmud Murad İsgəndəri də şəhid olmuşdur. Təəssüf ki, bütün məruzələri Xuzistan valisinə verməyimizə baxmayaraq, radio və televiziya əsla bu barədə xəbər vermədi. Əməliyyat Həmidiyyə qarnizonu ilə razılaşdırılsa da, orada otuz əhvazlı pasdardan başqa heç kim iştirak etməmişdir. Xahiş edirik ki, bu fədakar insanları ruhlandırmaqdan ötrü radio və televiziyadan adları çəkilsin."

## Həsən Baqiri, 01.10.1980, saat 21:00[1]

Əhvaz korpusunun ozamankı əməliyyat komandiri Əhməd Səyyafzadənin sözlərindən bəlli olur ki, Həsən Baqiri Qəyurəslinin əməliyyatından sonra bölgədən aldığı məhdud informasiyalara əsaslanaraq, yeni bir əməliyyata başlamaq qərarına gəlir.

**"Həsən Baqiri o günlərdə Əhvaz korpusunun əməliyyat bölüyünə gəldi. Onun tərifini eşitmişdim, amma üzünü ilk dəfə idi görürdüm. Arıq adam idi, əynində adi şalvar və korpus köynəyi vardı. Mənim əməliyyat komandiri olduğumu bilirdi. Soruşdu: "Nə**

---

[1] Həsən Baqirinin xatirələri, c. 1.

**qədər canlı qüvvən var?" Dedim ki, bir avtobus pasdarım var.**

**Məhəmməd Hicazi də İsfahandan iki avtobus pasdar gətirmişdi. Hüseyn Ələmülhuda dedi ki, mənim də bir qədər adamım var. Həmidiyyə korpusunda Əli Haşiminin də bir dəstəsi vardı. Həsən Baqiri Dubb-Hərdanla Həmidiyyə arasındakı bölgəyə dair kəşfiyyat məlumatlarını topladıqdan sonra bu qərara gəlmişdi ki, həmin dəlikdən Əhvaz-Xürrəmşəhr magistralını kəsmək olar. Hətta Doktor Çəmran da həmin magistralı kəsmək fikrində idi”.** [1]

Əhvaz korpusundakı ərəblərin çoxu Həsənlə işləyirdi. Onlar Dubb-Hərdanın ətrafında Seyid Yusif adlı bir yer tapmışdılar, oradan düşməni tələyə salmaq mümkün idi. Onlar iki avtobusla, biz də bir avtobusla yola düşdük. Oraya avtobusla getmək və orada dayanmaq bizim səkkizillik müharibə tarixində ən savadsız hərəkətimiz idi. Əgər gecə yola düşməsəydik və oradan qayıtmasaydıq, düşmən avtobuslarımızı görəcəkdi. İşin nəticəsi haqda əsla fikirləşmirdik, yalnız İraq tərəfə keçmək istəyirdik. Heç Qəyurəsli də nəticə barədə düşünməmişdi.

Əhvaz korpusundan əlli, isfahanlılardan altmış nəfərlə, habelə Əli Haşiminin və Ələmülhüdanın adamları ilə birgə yüz əlli nəfərə çatırdıq. Həsən Baqiri kəşfiyyat zamanı bəzi istiqamətləri öyrənmişdi. O dedi: "Düşmən çox açıq dayanıb,

---

[1] Doktor Çəmran Xürrəmşəhr magistralını Kəmbuə istiqamətindən kəsib Həmid qarnizonuna çatmaq istəyirdi. Ağa Səyyafzadə deyir: "Bir dəfə əlli pasdarla Kəmbuəyə getdim. Böyük Rəhbər Ayətullah Xamenei də hərbi geyimdə orada idi. Ağa Çəmran mənə dedi ki, uşaqlar kəşfiyyata gediblər, əgər əlidolu gəlsələr, sizin şəxsi heyətlə hücuma keçərik. Səhərə qədər orada qaldıq. Ağa Çəmran dedi ki, uşaqlar keçidləri tapa bilməyiblər. Əməliyyat olmadı və biz geri qayıtdıq".

zəif yeri çoxdur. Nə olacağını bilmirik, ancaq onların bizi görməməsi və tankların arasına girməyimiz kifayətdir. Əl qumbarası ilə tanklara hücum edib onları əsir tutarıq”.

Mən Həsən Baqiri və Hüseyn Ələmülhuda ilə bir maşında getdim. Avtobuslar bizim arxamızdan gəlirdi. Onları Seyid Yusif yolundan içəri apardıq. Haraya getməli olduğumuzu Həsən deyirdi. Seyid Yusif yolu Kərxəkura gedirdi. Orada bir İraq briqadası yerləşmişdi. Gecə qaranlıq vaxtı əməliyyata başlamaq istəyirdik. Qəyurəslinin hücumu da gecə baş tutmuşdu. Həsən tankların sayını bilirdi. O dedi: "Bir diviziya briqadası buradadır. Əgər onların içinə girə bilsək, bir briqadanı məhv etmiş olarıq və bu, İraq tərəfi üçün sıradan bir zərbə deyil. Diviziyanın bir briqadası məhv edilsə, bir tərəfi boşalar”.

Şəxsi heyət sübh azanına qədər körpüləri tapa bilmədi. Kərxə çayı üzərində iki körpü vardı. Onların üzərindən avtobusla keçmək istəmirdik, amma şəxsi heyəti aparmalıydıq. Buna görə əməliyyat baş tutmadı və biz geri qayıtdıq. Çünki belə təhlükəli idi.

Əhvaz korpusunun bəzi qüvvələri Kürdüstanda idilər, müharibə başlayanda qayıtmışdılar. Həsən Baqiri onları götürdü və yenidən oraya getdik. Gördük ki, düşmən körpüləri uçurub. Yerli körpülərimiz dururdu, onlardan keçə bilərdik. Çaylar da Kərxədən ayrılan böyük qollar idi, enləri təxminən yeddi metrə çatır, əkinçilərə bol su gətirirdi. Onlardan piyada keçmək olmurdu. Onikimetrlik bir ağac gövdəsi tapıb gecə Seyid Yusifdən keçdik. Həmin gecə də əməliyyat olmadı. Gecə işləmək çox çətin idi. Vaxt da az idi, axşam çox vaxt itirdi. Təmas xəttində olmaq ayrı cürdür, bizsə Əhvazdan getmişdik. Axşamüstü Çaharşirdən yola düşmüşdük, magistrallara qədər çox vaxtımız getmişdi. İkincisi budur ki, hücum nöqtəmiz yox idi. Əgər istehkam

olsaydı, növbəti gecəyə qədər onun arxasında qalardıq. Bundan sonra Həsən oraya canlı qüvvə aparmağın asan olmadığını bildi. Dedi ki, belə olmaz, gərək daha yaxşı təşkil edək və daha yaxşı şəraitdə gedək.

Seyid Yusifə o qədər gedib-gəldik ki, axırda əməliyyat oldu. İki şəhid verdik və bir qədər düşməni məhv edə bildik. Torpaq da almadıq. Sonra gördük ki, hər əməliyyatda ancaq şəhid veririk. Bildik ki, düşməni bu üsullarla geri oturda, yaxud briqada və diviziya məhv edə bilmərik. Canlı qüvvəmiz az idi. Düşmənin yanına çatanda yorğun olurduq, hücuma keçib partladırdıq, amma düşmənə çox da təsir etmirdi. Bu nəticəyə gəldik ki, hətta bir batalyon həddində əməliyyat üçün də yaxşı plan hazırlamaq lazımdır".[1]

Bir dəfə də Davud Kərimi ilə Həsən Baqiri əməliyyata təşəbbüs göstərdilər, amma uğursuz oldu.

**"Həsən Baqiri ilə ikimiz kəşfiyyata gedirdik ki, harada işləməyin mümkünlüyünü öyrənək. Bir gecə onunla Dubb-Hərdan istiqamətinə getdik. Həmidiyyənin komandiri Şəhid Əli Haşimi idi. Məqsədimiz diversiya əməliyyatı idi. Özümüzlə qumbaraatan götürmüşdük. Əli Haşiminin uşaqlarının çoxu bizimlə idilər. Bir kəndə çatdıq. Orada bəlkə də otuzdan çox it arxamızca düşdü. Bir-iki saat yalnız onları qovmaqla məşğul olduq. Biz iraqlılar tərəfə keçən kimi itlər də arxamızca gəlirdiər. Özümüzü iraqlılara çatdıranda sübh yaxınlaşdı, hamını yuxu tutdu. Boş bir evə girdik. Uşaqlara dedim ki, siz yatın, mən keşik çəkəcəyəm.**

---

[1] Xuzistan korpusunun əsasını qoyanlardan biri və Əhvaz korpusunun əməliyyat komandiri General Əhməd Səyyafzadə ilə müsahibədən. Müharibə əlili olan Əhməd Səyyafzadə 2012-ci ildə yanvarın 21-də həzrət Peyğəmbərin (s) və İmam Həsənin (ə) vəfat axşamında müharibədə aldığı yaralardan şəhadətə qovuşdu. Ruhu şad olsun!

**Hava soyuq idi, titrəyirdik. Uşaqlar namazlarını qılıb yatdılar. Həmin gecə əməliyyat baş tutmadı. Ağa Şəmxani bir yolla bu tilsimin sınmasını gözləyirdi. Səhər vaxtı iclasda belə məruzə etdik: "İtlər bizə mane oldular, gecənin yarısına qədər vaxtımızı aldılar. Deyəsən, iraqlılarla əlbir idilər".**[1]

Həsən Baqiri bildi ki, belə vuruşmaq olmaz. Ondan sonra kəşfiyyat işlərini gücləndirdi. Başa düşdü ki, yalnız dəqiq və yetərli informasiya ilə uğurlu əməliyyat həyata keçirmək olar. Bəzi şəhər və kəndlər düşmən tərəfindən döyüşsüz işğal olunmuşdu. İraqlılar Hur, Hur əl-əzim, Hur əl-Hüveyzə, Bostanın qərbi, Süsəngirdin qərbi kimi yerlərdən və Mışdağ təpələrinin ətrafından keçmişdi; o bölgələrin bəzi ərəb əhalisi hələ orada yaşayırdı. Gənclər, kişi və qadınlar bölgədən çıxmışdılar, qoca və yeniyetmələr isə qalmışdılar. Oradakı qəbilə və tayfa başçıları İslam Respublikasını sevdiklərinə görə bəzi vasitələrlə korpusa xəbər göndərirdilər ki, bizi silahlandırın, bizə təlim keçin və işğalçıları qovmaq üçün nə etməli olduğumuzu söyləyin. Həsən Baqiri kəşfiyyat zamanı və düşmənin informasiyalarını toplamaq üçün onlardan kömək alırdı. Əhvaz ətrafındakı Xəlifə Heydər kəndində müəllim olmuş Əbdülhəsən Ariannejad Ərəb xalq terrorçuları ilə mübarizədə korpusla əməkdaşlıq etmişdi. Kəşfiyyat-diversiya bölüyü yaradılandan sonra o da Həsən Baqirinin qrupuna qoşuldu. Ariannejad ilk kəşfiyyatda Dubb-Hərdandakı düşmən mövqelərini Həsənə məruzə etmək üçün Kərxəkura və Həmid qarnizonunun arxasında 16 km əraziyə qədər getmişdi.

---

[1] Tehran korpusunun Mərkəzi Heyətinin üzvü, Qolf meydanı və ya Şəhadəti gözləyənlər adlı Cənub əməliyyat qərargahının ilk komandiri Şəhid Davud Kərimi ilə müsahibədən.

**"Düşmən pusqu qurmuş, pusqunun önünə də patrul qoymuşdu. Yerli camaat bizi gizlədirdi. Düşmənin mövqeyinə çatmazdan öncə yolun kənarında bir qarını gördüm. Ona dedim: "Gecə buradan keçən maşınları saya bilərsənmi?" Dedi ki, hə.**

**Qayıdanda yadıma düşdü ki, maşınların hərəkət istiqamətini ona deməmişəm. Öz-özümə dedim ki, məgər bu qoca qadın neçəyə qədər saya bilər?! Ertəsi gün səhər onun yanına gedəndə gördüm ki, qarşısına iki küp daş qoyub. Dedi ki, bu daşlar o tərəfə gedənlərdir, bu daşlar da bu tərəfə gedənlər. Hər iki istiqaməti saymışdı. Dedi ki, gecə səhərəcən oturub onları saydım.**

**Həmişə ondan məlumat öyrənirdim. Bu arıq qarının özü birnəfərlik bir diviziya demək idi. Bir dəfə qayıdanda arxamca bir ekvalipt budağı ilə yeri süpürdüyünü gördüm. Maraqlanıb nə etdiyini soruşanda dedi: "Bir neçə gün öncə iraqlılar gəlib sənin motosikletinin izini gördülər. Nə olduğunu soruşanda dedim ki, bir nəfər buradan keçdi. Ondan sonra hər dəfə sən gələndə bu budaqla motosikletinin təkərlərinin izini silirəm. Dedim ki, Allah atana rəhmət eləsin. Budağı alıb motosikletin arxasına bağladım ki, təkərlərin izi qalmasın".**[1]

Çox keçmədən yerli sakinlərdən çoxlu adam Həsən Baqirinin informasiya mənbəyinə qoşuldu və bunun nəticələri çox keçmədən özünü göstərdi.

---

[1] Kəşfiyyat-diversiya bölüyündə Həsən Baqirinin əməkdaşlarından olmuş Əbdülhəsən Ariannejadla müsahibədən.

# *Su döyüşü*

O zaman əsas problem İraq ordusunun irəliləməsi idi və hamı düşməni dayandırmağa bir yol axtarırdı. İraq tankları Xuzistanın hamar çöllərində irəliləyib üç gün ərzində Əhvazın yaxınlığına çatmışdı.

1980-ci ilin fevralında Xuzistana böyük sel gəlmişdi. Müharibənin əvvəllərində hələ bəzi bölgələrdə su qalmışdı. İraq tanklarının bir qismi birinci gün bataqlığa batdı. İslam Respublikası xəbər agentliyi 23 sentyabrda xəbər yaymışdı ki, Əhvazın 80 km-liyində, Şələmçə və Hüseyniyyə bölgələrində çoxlu İraq tankı palçığa batıb və ekipajları əsir tutulub.

Həmin günlərdə Nizamsız döyüşlər qərargahında Doktor Çəmranın, Doktor Abbaspurun, General Fəkurinin və General Fəllahinin iştirakı ilə iclas keçirildi. Xuzistanın su və elektrik stansiyasının müdiri müharibə başlayanda öz postunu tərk edib Əhvazdan getmişdi. Doktor Abbaspur Energetika nazirliyinin Mahab şirkətinin müdiri Mühəndis Cəmşid Sərdarini iclasa çağırmışdı. Onu Xuzistanın su və elektrik stansiyasının müdiri təyin etmək istəyirdi. İclas iştirakçılarının hamısı bir müddət su vasitəsi ilə İraq ordusunun qarşısını almaq istəyirdi.

**"Hamı bu məsələyə kömək etmək istəyirdi. Xuzistan su və elektrik stansiyasının əməkdaşları, xüsusən də motorlarda çalışanlar çox zəhmət çəkdilər. Şəhid Fəkuri bir dəfə motorları təmir etdirməkdən ötrü otuz milyon tümən pul verdi. Şəhid Fəllahi bəzi avadanlıqları almağa maddi kömək edirdi. Lakin ən mühüm məsələ düşmənin hərbi birləşmələrinin yerinə dair məlumat toplamaq, müxtəlif yerlərin dolanbaclarını və eniş-yoxuşlarını bilmək idi.**

**Su döyüşü mürəkkəb işdir. Düşmənin hücum istiqaməti cənubdan şimala və qərbdən şərqə idi. Xuzistan torpağının yoxuşu isə şimaldan cənuba və şərqdən qərbə idi; Karun çayı şimaldan cənuba axır, Kərxə çayı şərqdən qərbə. Və bu, iraqlıların hərəkətinin tam əksi demək idi. Əgər xüsusi kanalları su motorları ilə aktivləşdirə bilsəydik, suyu asanlıqla düşmənə doğru yönəldərdik".**[1]

6 oktyabr 1980-ci ildə Mühəndis Sərdariyə verilən məlumat məsələni həll edə bilərdi. Məlumatı Həsən Baqiri vermişdi.

**"Kərxə çayının Həmidiyyədən keçən qolu ətrafındakı kəşfiyyat əməliyyatlarının nəticəsinə əsasən, Kərxə çayının altındakı kəndlərdə yerləşmiş düşmən qüvvələrinə istiqamətlənən bir qədər quru kanal var. Bizimkilər bu kanalı düşmənin üzünə aça və Hüveyzə yolundan onlara hücum edə bilərlər. Sözügedən kəndlər bunlardır: Dubb-Hərdan, Səhn, Beyt-Şələmi, Əbudə, Məhəmməd Xüşeyr, Şələbiyyə, Seyid Həmid. 06.10.1980, Cənub əməliyyat qərargahı, Həsən Baqiri".**[2]

Bu məlumat Mühəndis Sərdarini Həsən Baqiri ilə tanış olmaq üçün qolf meydanına apardı. Bilmək istəyirdi ki, digər boş kanallar barəsində də onun kəşfiyyatlarına bel bağlamaq olarmı?! İlk görüşdə Həsənin səmimiliyi və gülərüzlüyü Sərdarinin diqqətini cəlb etdi. Kərxə və Karun çaylarının qollarından və susuz arxlarından söhbət düşəndə isə ondan belə məlumatlar alacağını təsəvvür etmirdi.

---

[1] Xuzestan su və elektrik şirkətinin ozamankı müdiri Cəmşid Sərdari ilə müsahibədən.

[2] Həsən Baqirinin xatirələri, c. 1.

**“Həsən Baqiri Xuzistanın su axını barədə təcrübəli bir ekspert qədər məlumatlı idi. Buna təəccübləndim. Dubb-Hərdan çökəklikdə yerləşirdi. İraqlılar sudan qaçmaq üçün hündür yer seçmişdilər. Kərxəkur suyunu onlara tərəf yönəltdiyimizdə tanklarının bir qismi bataqlığa batdı və suyun qorxusundan təxminən 5 km geri çəkildilər. Seyid Tahirdə də yolu kəsdilər ki, su cənuba gedib Karun çayına tökülsün. Maraqlıdır ki, bizimkilər də Dəhtəpə kəndini xilas etməkdən ötrü suyu Karuna yönləndirmişdilər. Həsən bunun düzgün olmadığını bildiyi üçün tez əmr etdi ki, uşaqlar suyun önünü açsınlar və su aşağıya Maridə qədər getsin. O dedi ki, suyun Karuna getməsi iraqlıların məqsədidir, onlar Karunun aşağısından keçmək istəyirlər. Həsən Baqirinin ağıllı işlərindən biri bu idi".**[1]

Həsən Baqiri kanalların vəziyyətini öyrənmək üçün öz adamlarını kəşfiyyata göndərirdi.

**"Onun adamları kəşfiyyat zamanı hətta yaralanmışdılar. Su müdafiəsində açar məsələlərdən biri motorların daim işləməsi idi. Tez-tez Əhvazdan dizel gətirirdik ki, motorlar sönməsin. Bu işdə də Həsən Baqirinin rolu vardı".**[2]

Əli İshaqi müharibənin ikinci həftəsindən Həsən Baqiri ilə əməkdaşlığa başlamışdı. O, uşaqlıq və yeniyetməlik çağını İraqın Kazimeyn şəhərində keçirdiyi və ərəb dilini yaxşı bildiyi üçün Həsən Baqiridən İraq ərazisində tapşırıq istədi. Lakin Həsən dedi ki, düşmənin hərbi birləşmələrinə yaxınlaşıb onların yeri barədə məlumat öyrənsin. Ona

---

[1] Xuzistanın su və elektrik stansiyasının ozamankı sədri Cəmşid Sərdari ilə müsahibədən.

[2] Yenə orada.

həmçinin düşmənə yaxın quru kanalların yerini öyrənməyi də tapşırdı.

**"Suyun idarəsi ilə Hüveyzə bölgəsi, Süsəngirdin şimalı, Həmidiyyənin cənub bölgələri və Karunun qərbi suyun altında qaldı, düşmən daha heç bir hərbi birləşmə ilə oraya girə bilmədi. Biz orada Həsən Baqirinin zəkasının dərinliyini anladıq. Süsəngirdin Həmidiyyə tərəfdən cənub bölgəsi və onun qərbi iraqlıların əlində idi. Düşmən Həmidiyyə tərəfdən və Həmid stansiyasının ətrafından Əhvaz-Xürrəmşəhr magistralını təhdid edirdi. Həsən Baqiri Süsəngird kəşfiyyatının uşaqları ilə əlaqə yaradandan sonra bölgənin son vəziyyəti haqda məlumat toplamağı mənə tapşırdı. Kəşfiyyata dair məruzəni verəndən sonra bütün məruzələrlə birgə araşdırıb Xuzistan su və elektrik stansiyasının müdiri Mühəndis Sərdariyə bir layihə təqdim etdi. O, düşmən zirehlilərinin bir qisminin yerləşdiyi bölgəni xəritə üzərində Sərdariyə göstərib ondan soruşdu: "Dez bəndindən Neysan və Hüveyzə bölgələrinə axıb Karuna tökülən suyu düşmənin hərbi birləşmələrinin şimalına doğru yönəldə bilərikmi?"**

**Kəşfiyyatçılardan, su idarəsinin əməkdaşlarından və cənab Mühəndis Sərdaridən ibarət bir komanda dərhal bu məsələ üzərində işləməyə başladı. Karun çayının Hüveyzə və Həmidiyyə bölgəsinin şimalına yönləndirilməsi tez bir zamanda həyata keçdi. Bu layihə bölgənin bir hissəsində düşmənin hərəkətini dayandırdı".**[1]

---

[1] Əli İshaqi ilə müsahibədən. O, müharibə başlayandan sonra İsfahandan Xuzistana gedən iyirminəfərlik qrupda idi, qolf meydanında Həsən Baqiri ilə tanış oldu və 7 oktyabr 1980-ci ildən onunla əməkdaşlığa başladı.

Müharibə başlayandan bir qədər sonra Möhsün Rzayi bir nəfəri kəşfiyyatçı kimi Həsən Baqiriyə təqdim etdi. Sonralar diviziya komandiri olan həmin şəxs Mehdi Zeynəddin idi. Zeynəddin Həsən Baqirinin ilk cümlələrindən birini həmişə xatırladırdı. Kəşfiyyat-diversiya bölüyünün kiçik otağında ona demişdi ki, bu bölük işə başlayanda siz müharibənin nəticəsinə təsir edə biləcəksiniz.

**"Kəşfiyyatın necə vacib olduğunu əvvəldən bilir və ondan ötrü əlindən gələni edirdi. O, kəşfiyyatçılardan izah istəyir, lazımi yerə çatmadıqlarını biləndə məsələ ilə maraqlanırdı. Bəzən onları danlayıb deyirdi ki, gərək nəzərdə tutulmuş yerə çatasınız. Müharibənin əvvəlində canlı qüvvəmiz olmayanda sudan istifadə barədə tez-tez Mühəndis Sərdari ilə danışırdı, yerin bir metr, yarım metr alçaq-hündürlüyünü də hesablayırdı ki, suyu yönləndirərkən düşmənin önünü kəssin".**[1]

---

[1] Şəhid Mehdi Zeynəddinin sözlərindən. Mehdi Zeynəddin 1984-cü ilin noyabrında qardaşı Məcidlə birgə Sərdəşt-Banə magistralından keçərkən inqilab düşmənlərinin pusqusuna düşdü və 25 yaşında şəhadətə qovuşdu.

# Plan otağı

Həsən Baqiri qolf meydanında sonralar "Müharibə otağı" adlandırılan bir plan otağı ayırdı. Bu gün cəbhə bölgələrini ziyarət edənlər həmin otağa da baş çəkirlər. Həsən Baqiri otağın divarlarını Xuzistan cəbhələrinin xəritə və planları ilə doldurmuşdu, müxtəlif istiqamətlərə dair kəşfiyyat əməliyyatlarının məruzələrinə əsasən onların üzərində qeydlər edir, düşmənin və öz qüvvələrimizin mövqelərini cızırdı.

**"Müharibənin əvvəlində xəritə və plandan istifadə edən yeganə şəxs Həsən idi. O, yalnız mövcud planlarla kifayətlənmirdi, yerlərə gedib onları dəqiqləşdirirdi. Müharibənin əvvəlində heç kim plana ciddi yanaşmırdı, hətta ona istehza edirdilər. Amma o, heç vaxt incimirdi, xoş dillə başa salıb onları utandırırdı".**[1]

Köməyə gəlmiş yeni qüvvələr hələ harada olduqlarını və ətraflarında hansı hərbi birləşmələrin mövcudluğunu bilmirdilər. Müharibə başlayanda Fars vilayətindən də Xuzistana yollandılar. Onların komandiri Cəfər Əsədi idi. O, Əhvazın Farsiyyat bölgəsində müdafiə mövqeyi yaratdı. Bir dəfə qolf meydanına gedəndə gözü arıq bir gəncə sataşdı; ayağının altına stul qoyub divara plan yapışdırırmış. Öz-özünə düşündü ki, bu cavan özünü müharibədə hiss edir, amma əlinə silah götürmək yerinə divara kağız yapışdırır. O, Həsən Baqirini ilk dəfə görürdü.

**"Müharibə və Farsiyyat cəbhəsi, habelə kəşfiyyat və diversiyanın rolu barədə danışanda təhlillərindən çox dərin adam olduğunu bildim. Mənə dedi: "Mənə hər gün**

---

[1] Şəhid Mehdi Zeynəddinlə müsahibədən.

**bir məruzə verin, Farsiyyat barədə hər şeydən xəbərdar olaq".**

**Farsiyyat barədə verdiyimiz məlumatları planların üzərində qeyd edirdi. Sonra bizi xorasanlı uşaqlarla barışdırdı! Onlar Əhvazın Nord cəbhəsinin önündə, biz də Farsiyyatda üz-üzə dayanmışdıq və bir-birimizi iraqlı sanıb atəş açırdıq. Onda bildik ki, Həsən Baqiri həmin otaqda xəritə üzərində hər şeyi görür, bizsə təmas xəttində görə bilmirik. Ondan sonra hər gün vəziyyəti Həsən Baqiriyə məruzə etməyə başladıq".**[1]

Məlumatsızlıq üzündən Cəfər Əsədinin şəxsi heyətinə atəş açan xorasanlıların komandiri Bəhruz İhmirari idi. Həsən Baqiri onun yerləşdiyi yeri və müdafiə istiqamətini də plan üzərində qeyd etmişdi. O, qolf meydanının plan otağında bildi ki, Cəfər Əsədinin şəxsi heyətini düşmənlə səhv salıb atəşə tutur.

**"Ağa Əsədinin şəxsi heyəti Məlihan çayının o tərəfindən bizi vururdu, biz də onları iraqlı sanıb gecədən səhərə qədər atəş yağdırırdıq. Qolf meydanının plan otağında bundan xəbər tutduq. Cəfər Əsədi dedi: "Rəhmətliyin oğlu, bizim atamızı yandırdın, bir həftədir səhərə qədər yatmırıq".**

**Dəqiq məlumatımız olmadığına görə düşmənlə özümüzünküləri ayırd edə bilmirdik. Həsən Baqiri gələndən sonra isə plan və xəritənin nə olduğunu bildik".**[2]

Xuzistanlı komandirlərdən olan Məhəmməd Bilali müharibədən öncə Kürdüstanda idi. O, İraqın hücumundan

---

[1] Sonralar əl-Mehdi diviziyasının komandiri olmuş General Cəfər Əsədi ilə müsahibədən.

[2] Müharibənin ilk ayında Əhvazın ətrafındakı Dubb-Hərdan və Teymur suyu istiqamətlərinin komandiri olmuş Bəhruz İhmirari ilə müsahibədən.

xəbər tutan kimi adamları ilə birgə Əhvaza təcavüzkar düşmənlə vuruşmağa qayıtdı. Digər komandirlər kimi Bilali də ona düşmən mövqelərini izah edəcək adam axtarırdı. Nəhayət, qolf meydanında Həsən Baqiri ilə tanış oldu.

**"Bizə düşmən qüvvələrinin və özümüzünkülərin yerləşdiyi bölgələr haqda məlumat verən ilk şəxs Həsən Baqiri oldu. O, Xuzistanı və oraya girmiş düşməni yerli əhalidən də yaxşı tanıyırdı. Biz Kürdüstanda nizamsız döyüşlərdə olmuşduq, nizam-intizamlı düşməni öyrənmək isə çətin idi. Geniş bir cəbhədə düşmənin məlumatlarını öyrənmək üçün geniş və mürəkkəb bir təşkilata ehtiyac vardı. Həsən Baqiri kiçik bölüyü və yaxşı təşkilatçılığı ilə bu məlumatları Xuzistana gələnlərin hamısının ixtiyarına verirdi".**[1]

Abbas Səmədi müharibə başlayanda Xuzistan bəsicinin komandiri olmuşdu. O, Cənub əməliyyat qərargahının iclaslarında Həsən Baqiri ilə tanışlığını belə xatırlayır:

**"Həmin iclaslarda bir nəfər əvvəldə istiqamətlərin məruzəsini alıb qeyd edirdi. O, düşmənin ən kiçik hərəkətlərini də bilir və kompleks şəkildə açıqlayırdı. Zahiri görkəmi fərqli idi; üzünün forması, boyu, arıq bədəni və qalın səsi onu digərlərindən fərqləndirirdi. Onun səsi iclasda sükut və rahatlıq yarada bilirdi. Yaxşı Tehran ləhcəsi, hündür və qalın səsi vardı".**[2]

İraqın üçüncü zirehli diviziyasına Xürrəmşəhr və Abadanı işğal etmək və Mahşəhrlə əlaqəni kəsmək tapşırılmışdı. İkinci istiqamət Təlaiyyə idi, beşinci mexaniki diviziya Cüfeyrdən keçib Əhvaza çatmalı idi. Digər tərəfdən,

---

[1] General Məhəmməd Bilali ilə müsahibədən.

[2] Xuzistan korpusunun qurucularından olan General Abbas Səmədi ilə müsahibədən.

doqquzuncu zirehli diviziya Çəzzabə sərhədindən hücuma keçməli, Bostanla Süsəngirdin şimalından keçib Həmidiyyə-Əhvaz yolunda beşinci diviziyaya birləşməli idi. Dördüncü istiqamət İraq ordusunun birinci diviziyasına tapşırılmışdı. Onlar Fəkkə sərhədindən Şuşa getməli, Dezful-Dehloran yoluna girməli idilər. Nəhayət, beşinci istiqamət onuncu zirehli diviziyaya tapşırılmışdı. Onlar da Şərhani zastavasından, Eyn-Xoş boğazından və Abbas düzündən keçib Nadiri körpüsünə çatmalı, birinci diviziya ilə birlikdə Kərxə çayını keçib Dez çayının arxasında Xuzistan vilayətini İrandan qoparmaq layihəsini tamamlamalı idilər. O zaman Bəəs ordusunun bu işğalçı planından heç kimin xəbəri yox idi. Ali Baş Komandan Əbülhəsən Bəni-Sədrdən tutmuş digərlərinə qədər heç kim bilmirdi ki, düşmənin nə qədər hərbi birləşməsi hansı potensial və hansı döyüş düzülüşü ilə geniş Xuzistan torpaqlarının cənubundan şimalına qədər hərəkətə başlayıblar və başlarında hansı xəyallar dolaşır.

Həsən Baqiri başa düşdü ki, cəbhələrdə əsas boşluq düşmənin məqsədləri barədə məlumatın olmamasıdır. Bildi ki, orduda və korpusda heç kimin iraqlıların hərəkətlərini təhlil edəcək dəqiq informasiyası yoxdur. O, bu haqlı fikirlə dəqiq kəşfiyyatlara başladı, bütün istiqamətlərə yerli sakinlərdən ibarət kəşfiyyat qrupları yolladı; şəhid Məhəmmədhüseyn Namdar Məhəmmədi, Əhməd Füruzəndə, Əhməd Əmiri və Həmid Təqəvi kimi şəxsləri müxtəlif istiqamətlərə kəşfiyyat-diversiya komandirləri təyin etdi və onlardan gündəlik məruzə istədi. Həsən Baqiri kəndlərdəki müəllimlərlə görüşür, yerli əhalidən, qoca və gənclərdən kömək alırdı. O, kəşfiyyata hamıdan çox özü gedirdi, bütün istiqamətlərə və İraq hərbi birləşmələrinin yerlərinə nəzarət edirdi. Nəhayət, iki aydan az bir zaman ərzində düşməni öyrənə bildi.

"Həsən Baqiri əvvəlcə bir otaq ayırdı, jurnalist keçmişindən ilham alıb xəbər masası düzəltdi, adamlarını ona məlumat gətirməyə göndərdi. O, məruzələri cədvəl kimi bir-birinin yanına düzüb əvvəlcə bir təmas xətti cızdı, Karun çayından Məlihanın və Nordun qarşı tərəfinə, Süsəngirdə, Hüveyzəyə, Bostana, Şuşa, Dezfula və müqavimətin baş tutduğu digər yerlərə qədər bütün düşmən mövqelərini çəkdi. Bundan sonra o, düşmənin hərbi potensialının hansı həddə olduğunu və harada yerləşdiyini bilmək istəyirdi. Öyrəndi ki, İraqın 3, 5, 6, 9, 10 və 11 saylı diviziyaları Xuzistanın işğalına cəlb olunublar. İrəliləmə və geriləmələrdə onlardan bəzi əsirlər tutuldu. Həsən onlardan məlumat öyrənib hərbi birləşmələrinin necə yerləşdiklərini dəqiqləşdirməyə başladı".[1]

O, məqsədinə asanlıqla nail olmadı. Bundan ötrü bacarıqlı kadrlardan əlavə yarış motosikleti, durbin, gecə və gündüz görən binokl, kompas və digər kəşfiyyat avadanlıqları almağa başladı. Motosiklet müharibədə çox işə yaradı. Korpusun təchizat bölməsinin rəisi Möhsün Rəfiqdost tərəfindən çoxlu yarış motosikletləri alındı. Onların çoxu kəşfiyyat-diversiya bölüyünə verildi.

"Müharibədən öncə Həsən Baqirini İslam Respublikası qəzetinin müxbiri kimi tanıyırdım. Müharibə başlayandan bir qədər sonra isə zəng vurub məndən hündür yarış motosikleti istədi. Dedi ki, indi uşaqlarımıza motosiklet hər şeydən vacibdir. Dərhal adam göndərib Məşhəddən çoxlu cross motosikleti aldırdım. Sayını bilmirəm, amma iki gün keçmədən ona göndərdim. Motosikletləri təyyarə ilə Tehrana gətirdilər, Tehrandan da təyyarə ilə cəbhəyə göndərdik. Sonralar, səhv etməsəm, Saminül-əimmə əməliyyatında yenə

---

[1] Əhməd Səyyafzadə ilə müsahibədən.

zəng vurub 200 ədəd sıçrayışlı motosiklet istədi. Dedim ki, göndərəcəyəm. Yaponiyada Akbanu adlı bir özəl şirkət açmışdım. Korpusa aid deyildi. Şirkətin rəhbərinə dedim ki, tez 200 sıçrayışlı motosiklet al. Tokioya bir boeing 747 göndərdim ki, motosikletləri yükləyib birbaş Əhvaza aparsın. 48 Saat keçmədən yapon istehsalı olan 200 sıçrayışlı motosikleti uşaqlara çatdırdıq ki, işlərini görə bilsinlər".[1]

Bir dəfə Həsən Baqiri kəşfiyyat uşaqlarından birini bir məktubla Hacı Möhsün Rəfiqdostun yanına göndərdi. Məktubda ondan gecə durbini, kompas və digər xarici avadanlıqlar istəmişdi.

**"Elə oradaca bir qədər dollar verib dedim ki, get xaricə, tez bunları al və Həsənə çatdır. Müharibədən sonra Məhrumlar fondunun sədri işləyəndə Ukraynaya getmişdim. Ukraynadakı səfirimiz ağa Məzahiri məni görəndə soruşdu: "Hacı, məni tanıyırsan?" Dedim ki, yox. Dedi: "Mən Həsən Baqirinin adamlarından idim. Müharibənin əvvəlində siz Əhvazda idiniz. Şəhid Baqiri sizə bir məktub yazmışdı. Siz mənə dollar verdiniz, xaricə gedib lazımi avadanlıqları aldım". Dedim ki, hə, indi yadıma düşdü. Mənə dedi: "Mən milyonda bir faiz də ehtimal verməzdim ki, Həsən Baqirinin məktubunu verən kimi əlinizi cibinizə salasınız. Hətta qəbz də almadınız, dediniz ki, tez get, al və Həsən Baqiriyə çatdır, vəssalam".**[2]

Həsən hər istiqamətə bir kəşfiyyat komandiri təyin etmişdi və hər gün onlardan məruzə istəyirdi. Tabeliyində olanlara xüsusi üsul və məqsədlərlə kəşfiyyat işləri

---

[1] İslam İnqilabının Keşikçiləri Korpusunun qurucularından olan Hacı Möhsün Rəfiqdostla müsahibədən.
[2] Yenə orada.

görmələrini öyrədirdi. O, düşmənin texnikasını, məsafəsini və gücünü öyrənməklə yanaşı kəşfiyyatçılara tapşırırdı ki, onların qalmaq niyyətində olduqlarını, yoxsa irəliləmək istədiklərini də öyrənsinlər. Əgər istehkam düzəltsəydilər, deməli, qalmaq istəyirdilər.

**"Elə bilirdim ki, mən yalnız düşmənin harada olduğunu və hansı texnikaya sahib olduğunu öyrənməliyəm. Həsən Baqiri isə deyirdi ki, əvvəlcə görün əllərində nə var, sonra nə etmək istədiklərini təxmin edin. Görün qalmaq istəyirlər, yoxsa hücuma keçmək? Yüklərini boşaltmayıb harasa birləşmək istəyirlər, yoxsa oturmuşlar və səngərlərini dərinləşdirirlər? Yalnız nə gördüyünə fikir vermə, hərəkətlərini təhlil et və fikir yürüt. Gör düşmən orada rahatdır, yoxsa qorxu içindədir; qalmaq istəyir, yoxsa daşınmağa hazırlaşır?"**[1]

Genişmiqyaslı hücumdan sonra İraqın daimi mövqeyi yox idi, istehkamdan istifadə etmirdi, sərhədlərdən çox içəri girmiş və hələ yerini bərkidə bilməmişdi. Həsən Baqirinin şəxsi heyəti işğal olunmuş bölgələrin bəzi yerlərindən girib informasiya öyrənirdilər. Onun özü də çox zaman yerli sakinlərlə birgə kəşfiyyata gedirdi. Onlar çayları, dərə-təpələri tanıyırdılar. Həsən informasiyaları qarşılaşdırmaq və eyniləşdirmək üsulunu ixtira etdi. O, qolf meydanında bazar ertəsi günləri keçirilən həftəlik iclaslarda şəxsi heyətinin işini dəyərləndirirdi.

**"İclasa gedəndə bütün cənub cəbhələrindən xəbərdar olurduq. Söhbətlər bitəndən sonra Həsən Baqiri taktiki suallara başlayırdı: Nə üçün filan yerdən kəşfiyyata getmirsən? Nə problem var? Görün düşmən orada kanal açıb, yoxsa yox? Mina basdırıb, yoxsa yox? İnformasiya**

---

[1] Əbdülhəsən Ariannejadla müsahibədən.

**baxımından bir qədər yönləndirib tədbirlərini deyirdi, informasiya ehtiyaclarını bildirirdi və biz qeyd edirdik. Bir müddət cəbhədə sakitlik oldu, düşmənin hərəkəti dayandı. Bir gün Həsən Baqiri gəlib dedi: "Ağa Nasiri, nə üçün hesabat vermirsən?" Dedim ki, heç bir xəbər yoxdur, sakitlikdir". Mənə dedi: "Ağa Nasiri, sakitliyin olması bəlkə sizin üçün adi bir şeydir, amma mənim üçün çox əhəmiyyətli bir məruzədir. Onu yaz və mənə göndər". Dedim: "Bu hesabat Həmidiyyədən Əhvaza göndərilməyə dəyərmi?!" Dedi: "Bəli, sizdəki sakitliyi Şuş və Dezful cəbhələrinin vəziyyəti ilə müqayisə edəndə düşmənin gələcəkdə nə iş görəcəyini başa düşürəm. Məruzə yazmağınız üçün düşmənin mütləq iki tank gətirməsi və ya canlı qüvvə əvəzləməsi lazım deyil. Adi vəziyyəti də yaz. Həm sizin kəşfiyyata getdiyinizi biləcəyəm, həm də düşmənin hansı vəziyyətdə olduğunu".**[1]

Yerli sakinlərdən olan kəşfiyyatçılar iraqlıların nə etdiklərinə və hansı texnikaya sahib olduqlarına dair tez-tez xəbər gətirirdilər. Həsən Baqiri isə bunlarla kifayətlənməyib düşmən qərargahlarının bütün xırdalıqlarını öyrənirdi. Bəzi kəşfiyyatçılar şifahi məruzə edirdilər. Onlar yalnız Həsənin özü ilə əlaqədə idilər, yazılarda adları çəkilmirdi. Bostan ətrafındakı Əyaşi kəndində hamının iraqlıların beşinci kolonundan olduğunu düşündükləri bir şəxs Həsənlə əlaqədə idi və ona məlumat ötürürdü. Süsəngird, Həmidiyyə və digər sərhəd şəhərlərdən də yerli sakinlər İraqa gedib ona xəbər gətirirdilər. Onlar saysız-hesabsız istiqamətlərdə kəşfiyyata yollanırdılar, düşmənin içinə girməkdən ötrü boş kanallardan

---

[1] Əli Nasiri ilə müsahibədən. Əli Nasiri 1985-ci ilin oktyabr ayında Bostanın qərbində bir döyüş zamanı yaralanıb əsir düşdü və 1990-cı ilin 21 avqustunda vətənə qayıtdı.

istifadə edirdilər, gecələr arxların içi ilə dizə qədər suyun içində km-lərlə yol gedirdilər. Arx və kanallar ot-ələflə, ilan və həşəratla dolu olurdu. Düşmən o kanallardan kiminsə arxaya keçəcəyini düşünmürdü.

Kəşfiyyat ağır iş idi. Kəşfiyyatçılar gecə vaxtı, hamı istirahət edəndə əməliyyata başlayırdılar. Əldə olan məlumatlar çox dəyərli idi, çünki kəşfiyyatçı onlardan ötrü canını təhlükəyə atmışdı. Həsən Baqiri məruzələri oxuyub dəyərləndirirdi. Özü hamıdan çox kəşfiyyata gedirdi, bütün istiqamətlərə və İraq hərbi birləşmələrinin arxasındakı bölgələrə baxış keçirir, sabit gözətçilər qoyurdu. O, müharibənin ilk iki ayında gecələr yatmadı, bütün vaxtını qoyub işğalçı ordunun Xuzistandakı hərəkətlərini, taktikasını və hərbi birləşmələrinin döyüş düzülüşünü öyrəndi.

**"Həsən Baqiri cəbhələrə kompleks şəkildə baxırdı. Biz düşməni görəndə deyirdik ki, filan yerdə on tank var. Həsən Baqiri isə oradakı hərbi birləşmənin adını, filan diviziyadan orada filan qədər batalyonun olduğunu və diviziyanın qalan şəxsi heyətinin harada olduğunu bilirdi. O, bizim və düşmənin mövqelərini xəritə və plan üzərində qeyd edirdi. O zaman heç birimizdə təcrübə yox idi, hərbi iş görməmişdik. Həsən Baqiri fitri istedadına görə çox tezliklə müharibənin vəziyyətini təhlil edə bildi. Biz cəbhələri ayrı-ayrılıqda görürdük, o isə məcmu halında. O, düşmənin necə yerləşməsindən bilirdi ki, haraya və hansı məqsədlə hərəkət edəcək. Bu, çox əhəmiyyətli idi; zaman strateji baxışımız yox idi, Həsən Baqiri isə belə baxışa malik idi. O, düşmənin hərəkətindən, döyüş düzülüşündən, sayından və toplanışından nə etmək istədiyini anlayırdı".**[1]

---

[1] Seyid Məhəmməd Hicazi ilə müsahibədən.

Həsən Baqiri tez bir zamanda elə bir mövqeyə sahib oldu ki, Möhsün Rzayi onun məlumatlarına arxalanaraq Ali Müdafiə Şurasının iclaslarına gedirdi. Möhsün Rzayi Ali Müdafiə Şurasının üzvü deyildi, amma korpusun kəşfiyyatına rəhbərlik etdiyinə və cəbhələrə dair məlumatlarına görə orada iştirak edirdi.

**"Digər yerlərin xəbərlərini tez-tez ona göndərirdim. O da hər gün mənə məruzə edirdi. Ali Müdafiə Şurasında Həsənin məlumatlarından istifadə edir və müharibənin vəziyyətini şərh edirdim. Məsələn, deyirdim ki, diqqətinizi toplayın, düşmən Dezfulda nəsə edəcək və ya yenidən Abadana hücuma keçəcək.**

**O zaman Ali Müdafiə Şurasında söylədiklərimin böyük qismi Həsən Baqirinin göndərdiyi hesabatlar əsasında idi. Onlar mənim həmişə zəngin informasiyalarla getdiyimi görürdülər".**[1]

Müharibənin ikinci ayında Həsən Baqirinin adamlarına yeni kadr əlavə olundu. Fətulla Cəfəri müharibə başlayanda dəstəsi ilə birgə Kürdüstanda idi. Tapşırığı bitəndən sonra Əhvaza qolf meydanına getdi. Orada Həsən Baqiri ilə ilk görüşündə eşitdiyi sözlər diqqətini cəlb etdi.

**"İlk dəfə qolf meydanında səsini eşitdim. Hüseyniyyəyə təxminən yüz nəfər toplaşmışdı, onlarla danışırdı. Səsi güclü əks-səda verirdi. Əməliyyata gedəndə səngər düzəltməyi öyrədirdi. Deyirdi ki, səngərinizdə bir dəlik açın, əl qumbarası atsalar, içinə girsin və siz ziyan görməyəsiniz; səngərinizdə bir arx qazın ki, yağış yağsa, su basmasın. O deyirdi: "Bizim canlı qüvvəmiz azdır, gərək özünüzü qoruyasınız, düşmənə qarşı vuruşasınız, silahınızı daim təmizləyəsiniz.**

[1] General Möhsün Rzayi ilə müsahibədən.

**Bura Xuzistandır, silahların içi nəmlənir və paslanır. Patronlarınızı çıxarın və təmizləyin".**

**Onun dediyi bir cümlə mənə çox maraqlı gəldi: "Gərək düşməni tanıyaq. Əgər tanımasaq, onunla vuruşa bilmərik". Sözünü bitirəndən sonra dəhlizə çıxdı. Onun kim olduğunu soruşanda bir nəfər dedi ki, döyüş komandiri Həsən Baqiridir. Təəccübləndim. Onu döyüş komandiri bilirdilər. Müdafiə xəttindəki döyüşçülərin onun barəsində təsəvvürləri belə idi. Çünki o daha çox komandirlərlə işləyirdi və çox vaxt mövqelərə baxış keçirirdi".**[1]

Cəfəri cəbhəyə Mərkəzi vilayətin əməliyyat komandiri kimi, vilayətdən ezam olunan şəxsi heyətin lazımı işlərini görməyə getmişdi. O, Həsən Baqirini ikinci dəfə bir neçə gündən sonra Abadanın Çəvibdeh yolunda gördü, torpaq istehkam sözünü ilk dəfə həmin görüşdə ondan eşitdi.

**"Ağ bir blazerlə gəldi. Maşından iki-üç nəfər düşdü. Yerdə oturub xəritəni çıxardı. Bütün komandirlər dövrəsində oturdular. Həsən Bənadiri, Mürtəza Qurbani, Əli Fəzli, Yədullah Kəlhur və Hüseyn Dəqiqi də orada idi. Xəritə üzərində onlara bölgəni başa salırdı. Öz-özümə dedim ki, bunlar bölgədədirlər, amma başa salan odur. Torpaq istehkam sözünü ilk dəfə orada Həsənin dilindən eşitdim. Mürtəza Qurbani dedi ki, torpaq depolayarıq. Həsən dedi depo yaxşı söz deyil, ona torpaq istehkam (xakriz) deyin.**

**Onlar Abadanın Zülfüqariyyə bölgəsində düşmənin hücumunun qarşısını almış və 42 əsir tutmuşdular. Deyirdilər ki, düşmən Mədən təpələrindən və yoldan bizi vurur. Həsən dedi: "Neft şirkətinin yararsız təkərlərini**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**oraya tökün. Qəlpələrin qarşısını alar. Yansa da, onların arasından keçib işləyərsiniz. Gərək kanal qazaq. Bura düzənlikdir; gərək ya istehkam qurasınız, ya da kanal qazıb içindən keçəsiniz".**

**Güman ki kanalı Livanda görmüş, ya da İkinci dünya müharibəsinə dair kitablarda oxumuşdu. Geniş mütaliəsi vardı. Biz neft şirkətinin borularının yanından keçirdik. Bu isə təhlükəli idi. O demişdi ki, kanalın içindən keçin. Raketin fiti gələndə uşaqlar kanalın içində uzanırdılar və heç kim xəsarət almırdı".**[1]

Fətulla Cəfəri 1979-cu ilin oktyabrından İmam Xomeyninin evinin mühafizəsinə başçılıq etməyə başlamış, 1980-ci ilin iyununda Mərkəzi vilayətin pasdarlarından 64 nəfərlik bir qrupu Kürdüstana aparmış və müharibə başlayana qədər çoxlu döyüşlərdə təcrübə toplamışdı. O, daha böyük bir müharibədə isə Həsənin söz və davranış tərzindən elə təsirləndi ki, bütün keçmişini görməzdən gəlib onun bölüyünə qoşuldu.

**"Çoxları ilə işləmişdim: Məhəmməd Bürucerdi, ağa Rəhim, Kürdüstan korpusunun komandiri Rəsul Yahi, Banə korpusunun komandiri Xadimi, Saqqız korpusunun komandiri Baba Məhəmməd Rüstəmi, kürdüstanlı uşaqlarla, Əbülfəz Rəfii, Hacı Əli Əkbəri... Amma gördüm ki, bu adam başqadır, gördüklərimin hamısından fərqlənir. Kürdüstanda güclü döyüşlər görmüşdük. Güllə və raket bizə yad deyildi. Həzrət imamın evində olmuşduq. İmamın şəxsiyyəti ilə müqayisədə hamı mənə adi görünürdü. Komandir də görmüşdüm. Amma Həsənin əxlaqi xüsusiyyətləri çox cəlbedici idi. Onun sözlərindən, müxtəlif situasiyalarda**

---

[1] Yenə orada.

**rəftarından necə dərrakəli və bilikli olduğunu tez anlamaq olurdu. Bu söhbətlərdə məndə ona böyük rəğbət yarandı. Vəzifələrimizə görə onunla yaxın münasibətdə deyildim. Həmin gün isə onunla işləmək qərarına gəldim".**[1]

Müharibənin əvvəlindən sonuna qədər bütün əməliyyatlarda iştirak etmiş komandirlərdən biri də Mürtəza Qurbanidir. O, Həsən Baqiri ilə Abadanda tanış olmuşdu.

**"Xürrəmşəhr işğal ediləndən sonra Abadana yerləşdik. Həsən Baqiri Abadana gəlib bizimlə iclas keçirirdi. O zaman bildik ki, onun bölgəmiz haqda məlumatı bizdən də çoxdur. Qardaşların məlumatı baxış hədlərinə qədər idi. Həsən Baqiri isə təmas xəttindən korpusun qərargahına qədər düşməni öyrənir və təhlil edirdi. O, cəbhələr haqda elə dolğun informasiyaya sahib idi ki, elə bilirdik bütün bölgələrdə və İraq ordusunda adamları var. Həsən Baqiri təlimə əhəmiyyətli yanaşırdı, bizim Abadan istiqamətinin komandiri olaraq məlumatlı olmağımızı istəyirdi. Onun təklifi ilə Abadan cəbhəsində kəşfiyyat bölüyünün əsasının qoyulduğu ilk iclasda kəşfiyyat və diversiyanın müharibədə hansı rola malik olduğunu yavaş-yavaş öyrəndik. Ondan sonra əməliyyatlarımız kor-koranə və düşməndən xəbərsiz olmurdu. Abadanın vəziyyətini də hər gün Həsən Baqiriyə məruzə edirdik".**[2]

Həsən Baqiri müharibə başlayandan əlli gün sonra inqilab böyüklərinə müraciətlə 7 səhifəlik və 17 bəndlik geniş bir məruzə yazdı. O, ordunun işğalçı Bəəs ordusuna qarşı

---

[1] Yenə orada.

[2] Həsən Baqirinin şəhadətinin qırxı münasibəti ilə 1983-cü ilin martında Kərbəla qərargahının Təbliğat bölməsinin Mürtəza Qurbani ilə müsahibəsindən.

uğursuzluqlarının səbəblərini saymaqla yanaşı müharibənin ilk əlli gününün acınacaqlı vəziyyətini də təhlil etmişdi. Xatırlatmışdı ki, İraqın İranla sərhədində müharibədən səkkiz ay öncədən geniş hərbi yerdəyişmələr başlanıbmış, amma aidiyyəti orqan və məmurlar heç bir tədbir görməmişlər.

**"Hətta ən sadə hərbi maneələr olan mina basdırmaq, sərhəd zastavalarını gücləndirmək, tank əleyhinə xəndəklər qazmaq kimi işlər də görülməmiş və kafir düşmən öz tanklarını asanlıqla geniş Xuzistan çöllərinə sala bilmişdi".**[1]

Həsən Baqiri həmin məruzədə düşmənlə mübarizə üçün heç bir kompleks layihə hazırlanmadığını tənqid edərək Silahlı Qüvvələrin Müştərək Qərargahının 19.10.80 tarixində Xuzistan valiliyində keçirilmiş iclasına işarə vurmuşdu.

**"İclasda diviziya komandirindən layihə istədilər, o isə layihənin olmadığını və hazırlayandan sonra Ayətullah Xameneiyə verəcəklərini söylədi. Ağa Doktor Çəmran bildirdi ki, Dezfulda Hərbi Hava Qüvvələrinin pilotları ondan müharibə layihəsi barədə soruşublar, onun isə cavabı olmayıb. Həmin iclasda ağa Xamenei Zəhirnejada etiraz etdi ki, nə üçün bizim tanklarımızı iraqlılar kimi səngərdə gizlətmirlər? Zəhirnejad dedi ki, ekskavatorumuz yoxdur. Ağa Xamenei isə Tehranda 70 ədəd yeni ekskavator görmüşdü".**[2]

O, öz məruzəsində müharibə layihəsinin olmamasını kor müdafiə əməliyyatlarının və əksər artilleriya atəşlərinin hədər getməsinə səbəb kimi göstərmiş, ordu, korpus və

---

[1] Həsən Baqirinin xatirələri, c. 1.

[2] Yenə orada.

pərakəndə qruplar arasında müştərək komandanlığın yaradılmasını zəruri sayaraq yazmışdı:

“Ağa Sadiq Xalxali və Hadi Qəffari kimi bəzi məsul şəxslər qaydasız olaraq və razılaşdırmadan bəzi qrupları cəbhəyə gətirirlər. Bu isə praktik olaraq bütün cəbhədə işlərin hədər getməsinə səbəb olur. Cəbhədə müştərək komandanlıq yoxdur, qruplarda nizam-intizam və əmrə tabeolma zəifdir. Buna görə də tələfat çox olur. İkinci dünya müharibəsində dörd ordu arasında müştərək komandanlıq vardı, bizdə isə qərb və cənub cəbhələri arasında yoxdur, düşmənin strateji və taktiki addımları araşdırılmır".[1]

## *İki iyirmi şöbəsi*

15.11.80 tarixində saat 18:00-da qolf meydanından dövlət məmurlarına bir xəbər ötürüldü. Həsən Baqirinin imzası ilə göndərilən telefonoqramda Süsəngird-Hüveyzə yolunun işğalından və Süsəngirdin tam mühasirəsindən ibarət acı və narahatedici bir xəbər verilirdi.

"İraq tankları şəhərin girişinə çatmışlar. Güman ki xəbər çatdırılana qədər şəhərə girmiş olacaqlar. Şəhid və yaralıların sayı olduqca çoxdur. Yaralı qardaşları nə müalicə etməyə imkan var, nə də şəhərdən çıxarmağa. Polislər və korpusdakı qardaşlar Hüveyzədə mühasirəyə düşmüşlər. Bölgədəki zirehli qüvvələr indiyədək şəhərin müdafiəçilərinin xeyrinə heç bir müdaxilə etməyiblər".[2]

Həmin axşam İsmayıl son dəfə Süsəngirddən Davud Kərimi ilə əlaqə saxlayıb bir neçə dəqiqə danışdı, korpusun binasını partlatdığını, yaralıları məscidə qoyduğunu və məscidin ətrafındakı evlərdən müqavimət göstərdiklərini

---

[1] Yenə orada.

[2] Yenə orada.

söylədi. O, "haqqınızı halal edin" cümləsi ilə sözünü bitirdi. Bundan sonra Hacı Davud səhərə qədər telefonun yanında oturub faciə barədə İranın cümə imamlarına məlumat verdi. Təbrizin cümə imamı Ayətullah Mədəni səhər saat 6-da Tehrana getdi və saat 8-ə qədər Həsən Baqirinin telefonoqramını İmam Xomeyniyə çatdırdı. İmam xəbəri oxuyan kimi General Fəllahi ilə Zəhirnejadı çağırıb dedi: "Mən Süsəngirdi istəyirəm. Əks-təqdirdə, özüm oraya gedəcəyəm". Saat 8-də ordudan Davud Kəriminin yanına nümayəndə gəldi.

**"Səhər çağı bizi müharibə otağına dəvət etdilər. Halbuki bir müddət idi bizi oraya buraxmırdılar. Həsən Baqiri ilə birgə getdik. Onun məlumatlarına və düşüncələrinə o qədər güvənirdim ki, özümlə başqa heç kimi, hətta əsas əməliyyat komandirlərini də aparmadım. Gördüm ki, hamı oturub, Ayətullah Xamenei də oradadır. Onun yanında oturdum. Doktor Çəmran, ağa Qərəzi, General Fəllahi, General Zəhirnejad, Polkovnik Qasimi və digər ordu komandirləri də iclasda idilər. Ağa Zəhirnejad otağın ortasında gəzişirdi. Fikirli idi. Bir neçə dəqiqə gəzişdi. Hamı onun qərarını gözləyirdi. Birdən ucadan qışqırdı: "İkinci şöbə". Bir mayor içəri girib hərbi salam verdi və dedi: "Bəli, qurban!" Dedi: "Xəritəyə yaxınlaş və düşmənin vəziyyətini məruzə elə".**

**Mayor bizim tərəfin məlumatları haqda danışmağa başladı. Allah rəhmət eləsin, ağa Zəhirnejad nə qədər deyirdi ki, irəli get, getmirdi. Axırda ağa Zəhirnejad əsəbiləşib dedi: "Get, otur". O anda uca səslə dedi: "İki iyirmi şöbəsi!" Həsən Baqiri dedi: "Bəli, hacı!" Dedim: "Xəritəyə yaxınlaş".**

**Həsən daim bölgədə ora-bura getdiyinə görə həmişə korpus şalvarı geyinir, köynəyini şalvarın üstünə salırdı.**

**Orada 25 yaşlı bir gənc həmin şalvar-köynəklə xəritəyə yaxınlaşdı. O yaşda bir gəncin İmam Xomeyninin nümayəndəsinin və bütün generalların iştirak etdiyi iclasda danışması üçün kifayət qədər özünəinam, yüksək əhval-ruhiyyə, məlumat və düşüncə lazım idi. Həsən bir-bir bütün istiqamətləri izah etməyə başladı. Öz mövqelərimizdən tez keçib iraqlılar barədə informasiya verdi, nə etməli və nə etməməli olduğumuzu söylədi. Hamısını şərh edirdi. İclasın ab-havası tamamilə dəyişdi. Zavallı dövlət nümayəndələri sevindilər. Həsən bütün məlumatları tam şəkildə izah etdi. Əməliyyat qərarı verildi. Ayətullah Xamenei dedi: "Korpusun yaxşı kadrları var". Soruşdular ki, bəs bu İki iyirmi şöbəsi nə demək idi? Ucadan dedim: "İki istehkam arasındakı məsafənin piyada gediş zamanı iyirmi dəqiqədir".**

**Həsən Baqirinin çox mühüm səciyyələrindən biri yaddaşının güclü, özünün cəsur və qorxmaz olması idi. O, zehnindəki məlumatları tez toplayır, iclasda neçə generalın, neçə polkovnikin və hansı şəxsiyyətlərin olmasına baxmadan, özünü itirmədən müharibənin vəziyyətini, çıxış yollarını və canlı qüvvənin döyüş düzülüşünü izah edirdi".**[1]

Qolf meydanındakı komandirlər bir müddət zarafata Həsən Baqirini cənab İki iyirmi çağırdılar. Həmin iclasın şahidlərindən biri də Möhsün Rəfiqdost idi.

**"İclasda Ayətullah Xamenei iştirak edirdi. Ordu və korpusun komandirləri də orada idilər. Həsən Baqiri xəritəyə yaxınlaşdı. Mən xəritənin altında oturmuşdum. Yanımda ordudakı qardaşlardan bir neçə nəfər də əyləşmişdi. Onlarla dostluğumuz hələ də davam edir.**

---

[1] Şəhid Davud Kəriminin sözlərindən.

**Yüksək rütbəşli bu hərbçilərin yaşı Həsənin yaşından iki dəfə böyük idi. Üstəlik, o, zahiri görünüşünə görə yaşından da az görünürdü. Həsən "Bismillahir-Rəhmanir-Rəhim" deyib sözə başladı, öz cəbhəmizin və düşmən cəbhəsinin vəziyyətini izah etdi, sonra isə dəqiq hərbi yol göstərdi. İlk iki-üç dəqiqədə hamı özünü yığışdırdı. Ondan sonra ordudakı qardaşlar Həsəni hərbi strateq kimi qəbul etməyə başladılar".**[1]

Həmin iclas Həsən Baqirinin həyatının dönüş nöqtələrindən biri oldu. O, həmin iclasda parladı və Süsəngirdin azadlıq layihəsi onun məlumatları əsasında ərsəyə gəldi. Orada qərara alındı ki, 92 saylı zirehli diviziyanın ikinci briqadası tank əleyhinə silahlanmış 120 nəfərlik korpus heyəti ilə birgə Süsəngirdin mühasirəsini yarıb şəhərin ətrafını təmizləsin. Nizamsız döyüş qüvvələrinə Doktor Mustafa Çəmran başçılıq edirdi, Bəsic də cəbhənin təchizat yolunu təmin etməyi, arxa və yan cəbhəni qorumağı üzərinə götürdü. 17.11.80 tarixi, səhər saat 05:00 əməliyyat zamanı təyin olundu. Lakin 16 noyabr gecə saat 12-də Xuzistanın ovaxtkı valisi Mühəndis Qərəzi Davud Kərimiyə xəbər göndərdi ki, prezident Bəni-Sədrin əmrilə ikinci briqada əməliyyatda iştirak etməyəcək. Hacı Davud məsələni telefonla İmam Xomeyninin nümayəndəsi Ayətullah Xameneiyə bildirdi. O da dərhal 92 saylı zirehli diviziyanın komandirinə xəbərdarlıq məktubu göndərdi:

"Bazar ertəsi, 17.11.80, saat 01.10 dəqiqə

Əhvazın 92 saylı zirehli diviziyasının komandiri cənab Polkovnik Qasimi

Salam

---

[1] Hacı Möhsün Rəfiqdostla müsahibədən.

General Zəhirnejad telefonla sizə cənab prezidentin əmri olmadan ikinci briqadanın sabahkı əməliyyatda iştirak etməməsini tapşırmışdır. Mən dünənki qərardan imtinanı düzgün saymıram. Bu, sabahkı əməliyyatı ləğv etmək və ya iflasa uğratmaqdan başqa bir şey deyil. Düşmənin potensialını nəzərə alsaq, iki piyada bölüyü onun qarşısında davam gətirə bilməz. Briqada müdaxilə etməsə, deməli, hücum baş tutmayacaq. Əgər son qərardan ötrü sabah General Zəhirnejadın işə çıxmasını da gözləsək, gec olacaq. Gənclərimiz Süsəngirddə uzaqbaşı sübhə qədər müqavimət göstərə bilərlər. Biz səhər tezdən düşmənin təzyiqini azaltmasaq, hamısı həlak olacaqlar və şəhər tam süqut edəcək. Qısası, bizim fikrimiz budur ki, planda dəyişiklik edilməsin və briqada sabahkı əməliyyata hazır olsun. Əks-təqdirdə, Süsəngirdin süqutunun məsuliyyəti bu qərardan daşınan hər kəsin üzərinə düşəcək.

Seyid Əli Xamenei"[1]

Məktubun qətiyyəti öz təsirini göstərdi. Çox keçmədən General Zəhirnejad Polkovnik Qasimi ilə əlaqə saxlayıb dedi ki, prezidentlə danışıb və lazım olsa, ikinci briqada əməliyyatda iştirak edə bilər.

Süsəngirdin azadlığı əməliyyatının xülasəsi Həsən Baqirinin məktubunda belə təsvir olunurdu:

"İraqlılar 17.11.80 tarixində gündüz yenidən şəhərə girdilər. Şəhərdəki İslam müdafiəçiləri saat 10-da came məscidinin yüzmetrliyində iki İraq tankını partlatdılar. Şəhərin qərbində isə əlbəyaxa döyüş davam edirdi. Korpusun silah-sursatı bitmək üzrə idi. Yaralılar məsciddə idilər, uşaqlar bir-birinə vəsiyyət edirdilər. Hətta məscidin tavanının küncünə bir top mərmisi düşmüş, divarın yanında

[1] Həsən Baqirinin xatirələri, c. 1.

oturmuş polis zabiti yaralanmışdı. Nəhayət, saat 13:30-da korpusun və könüllü qüvvələrin irəliləməsi və ikinci briqadanın dəstəyi ilə şəhər fəth olundu və qardaşlar bir-birlərini qucaqladılar".[1]

Həsən Baqiri bu məruzədə Bostan və Süsəngird hadisələrini müharibənin əvvəlindən 17 noyabr əməliyyatının nəticəsinə qədər təfərrüatı ilə qeyd etmişdir. Süsəngird şəhəri Əhvazın şimal-qərbindən 60 km aralıda yerləşir. Süsəngirddən sonra Subələ sərhəd zastavasının 12 km-liyində Bostan şəhəri yerləşir. Səddam Süsəngirdə ərəb sözü olan Xəfaciyyə adını vermişdi. Həsən öz məruzəsinin bir hissəsində Süsəngirdlə Bostanın əhəmiyyətini təhlil etmişdir. Bu onun bölgənin coğrafiyasına elmi-tədqiqi baxışını göstərir. O yazırdı:

"Xuzistan vilayəti təbii baxımdan açıq düzənlikdir, azca yağışla orada sel axır və yollar keçilməz olur. Muzdur qüvvələr buna görə həmişə iki strateji məqsədə nail olmağa çalışmışlar:

a) Əlaqə yollarımızı bağlamaq və ələ keçirmək;

b) Yağış fəsli gəlməzdən öncə yüksək yerləri tutmaq.

Maraqlıdır ki, Həmidiyyə-Süsəngird-Bostan istiqaməti hər iki məqsəd üçün əlverişli yerdir. Əvvəla, Əhvaz İraq tərəfdən mühasirəyə düşsə, bu yol ən yaxşı əlaqə yolu ola bilər. İkincisi, son 60 ildə aparılan araşdırmalara görə, sel nə qədər güclü olsa da, bu istiqamət həmin müddətdə heç vaxt su altında qalmayıb. Buna görə də, düşmən əvvəlcə Süsəngirdi ələ keçirməyə çalışır ki, sonra Həmidiyyəni işğal edə və öz məqsədlərinə çata bilsin. Həmçinin başqa bir hücumla Həmidiyyənin şimalından 10 km aralıda yerləşən Azadeqan düzü qarnizonunu tutmaq istəyəcək. Əgər bu

[1] Yenə orada.

məqsədlərə çatsa, düşməni oradan qovmaq çox çətin olacaq. İraq ordusu bir dəfə cari ilin 30 sentyabrında Bostanı və Süsəngirdi işğal etdi, hətta oraya beşinci kolonundan icra hakimi təyin etdi, Həmidiyyənin 2 km-liyinə qədər irəlilədi, amma korpusdakı qardaşların qəfil hücumu nəticəsində çoxlu tank və maşınları partladıldı, Allah-Taalanın köməyi ilə Süsəngird azad olundu, düşmən sərhədə qədər geri çəkildi, Bostan da o kafirlərin murdar ayağından təmizləndi. Düşmən geri çəkiləndən sonra Süsəngirdin cənub qərbindən 10 km aralıda yerləşən Hüveyzə də normal vəziyyətinə qayıtdı. Birinci işğalla sonrakı mühasirə arasındakı 45 gündə dəfələrlə orduya və məsul şəxslərə deyildi ki, Süsəngird yolu həyati əhəmiyyətə malikdir və onu qorumaq üçün qəti addımlar atılmalıdır".[1]

Süsəngird əməliyyatından sonra Həsən müharibə otağında özünə yer açdı. Müharibə otağı Ali Müdafiə Şurası tərəfindən orduya həvalə olunmuşdu. O zaman korpus oraya yalnız məruzə göndərməklə kifayətlənirdi. Lakin informasiya sahəsində öncüllüyünü göstərə bildi. Kim inanardı ki, bir neçə aylıq əsgərlikdən başqa hərbi təcrübəsi olmayan gənc bir tələbə və müxbir müharibədə üç ay iştirak edəndən sonra belə bir yüksək məqama nail olacaq, ordunun müharibə otağında yüksək rütbəli hərbçilər, İmam Xomeyninin nümayəndəsi və Ali Müdafiə Şurasının yüksək rütbəli üzvləri ona ən dəqiq informasiyalara sahib olan, çıxış yolu göstərə bilən biri kimi baxacaqlar?!

***

Tehranda ata-anası onu üç ay idi görmürdülər və cəbhədə nə iş gördüyündən xəbərsiz idilər.

---

[1] Yenə orada.

**"Həsən Müinian Tehrana Həsən Baqirigilə getmişdi. Həsənin atası ona demişdi ki, üzr istəyirəm, siz Həsənlə bir yerdə xidmət edirsiniz? O deyir: "Dedim ki, bəli, mən Həsənin müaviniyəm". Kişi təəccübləndi: "Müavini?! Həsən nəçidir ki, müavini var?" Dedim ki, necə məgər? Dedi: "Biz Həsəndən korpusda nə iş gördüyünü soruşanda deyir ki, yer süpürürəm. Bəs siz nə iş görürsünüz?" Ona dedim: "Həsən doğru deyir; o süpürür, mən də arxasınca döşəməni silirəm".**[1]

***

Bazar ertəsi günlərində müxtəlif istiqamətlərdən qolf meydanına iclasa gedən komandirlər Həsən Baqirinin təhlillərini həvəslə gözləyirdilər. Hərə öz əməliyyat zonası barədə fikir bildirirdi. Həsən ayrı-ayrı xəbərlərdən kompleks və praktik məlumatlar çıxara bilirdi. Həmin iclaslarda iştirak edənlər onu həmişə gümrah və enerjili görürdülər.

**"Bütün rəftarı pozitiv enerji qaynağı idi. Mümkün deyil ki, kimsə Həsənlə münasibətdə olsun, ancaq ondan müsbət enerji almasın. İclasda, yol yeriyəndə, avtomobilin içində onu sakit görməzdin. Yadımdadır, Həsənlə bir land cruiserdə idik. Yanımda yatmışdı. Kələ-kötür yollardan keçəndə başı oyan-buyana aşırdı. Yəni yatması da sakit deyildi: başı 30 sm bu tərəfə gəlir, 20 sm o tərəfə gedirdi; yuxarı qalxır, aşağı düşürdü. Belə vəziyyətdə necə yatdığına təəccüb edirdim".**[2]

---

[1] Əli Nasiri ilə müsahibədən.

[2] Müharibənin ilk aylarında Süsəngird və sonra Dezful korpuslarının komandiri olmuş Əlirza Əndəliblə müsahibədən. O, 1982-ci ildə Nəsr qərargahında Həsən Baqirinin müavini təyin olunmuşdu.

## *Uğursuz əməliyyat*

Ordunun hərbi birləşmələri 05.01.81 tarixində Nəsr adlı bir əməliyyat keçirdilər. Bu əməliyyatda Qəzvin diviziyasının üç briqadası Həmidiyyə-Süsəngird yolunun cənub istiqamətindən, Kərxəkurun şimalından və Hüveyzənin cənubundan hücuma keçməli, Kərxəkurun şimal və cənubundakı düşmən qüvvələrini məhv edəndən sonra Cüfeyrdən keçib Təlaiyyə sərhədinə çatmalı idilər. Digər tərəfdən, qərara gəlmişdilər ki, eyni zamanda Əhvazın zirehli diviziyasının bir briqadası Farsiyyat bölgəsində Karundan keçib Əhvaz-Xürrəmşəhr magistralının 3 km-liyinə qədər irəliləsin və magistralı təhdid altında saxlasın. Bundan əlavə, 10 yanvar üçün də Təvəkkül adlı başqa bir əməliyyat planı hazırlanmışdı. Nəsr əməliyyatı uğurlu olduğu təqdirdə şəxsi heyət Mahşəhr və Abadan səmtindən Xürrəmşəhrə çatmalı və sonda düşməni beynəlxalq sərhədlərə qədər qovmalı idi. Lakin hər iki əməliyyat ilk mərhələlərində məğlubiyyətlə üzləşdi və bütün bu gözəl arzular puç oldu. Birinci əməliyyat yanvarın beşində səhər saat 10-da ordu artilleriyasının atəşləri ilə başlandı, sonra tanklar irəliləməyə başladılar. Özünü itirmiş düşmən ağır zərbə aldı, bir zirehli briqadanı və iki piyada batalyonu itirdi, aralarında çoxlu zabit olmaqla 800 əsir verdi. Ertəsi gün düşmən əks-hücuma keçdi və bizimkilər məğlub olub geri çəkilməyə məcbur qaldılar. Həsən Baqiri yanvarın yeddisində dəqiq və sənədli informasiya və müşahidələrə əsaslanaraq Ali Müdafiə Şurasına geniş məruzə yazıb əməliyyatın uğursuzluğunun səbəblərini açıqladı. O, qeyd edirdi ki, iraqlılar gecə əks-hücuma hazırlaşanda bizimkilər heç bir iş görməyiblər, hətta sağlam tank və topları da bölgədən çıxarmayıblar. O yazırdı:

"Əgər müdafiə xətti güclü olsaydı, düşmən irəliləyə bilməzdi. Çaşqınlığın əsas səbəbi təmas xəttində və əsas

bölgədə yaxşı bir komandirin olmamasıdır. O, təyin etməli idi ki, bu anda canlı qüvvə geri çəkilməlidir, yoxsa yox".[1]

O, məruzənin bir hissəsində əməliyyat planının nöqsanları barədə yazırdı:

"Plan tam şəkildə və bütün xırdalıqları ilə yazılmamışdı, düşmən qüvvələrinin özlərini itirdikləri birinci gecə heç kim bilmirdi ki, sabahkı vəzifəmiz nədir. Halbuki bütün ehtimallar tam şəkildə proqnoz edilməli idi".[2]

O həmçinin mühəndis-istehkam bölüyünün nöqsanını xatırladırdı:

"Mühəndis-istehkam bölüyü öz rolunu ifa etmədi. Ümumi planda səngər qazmaq və şəxsi heyəti yerləşdirmək barədə düşünülməmişdi. Əgər birinci gecə səngər qazsaydılar, ikinci gün müdafiə mümkün olar və qələbə tamamlanardı".[3]

Həsən Baqiri 6 yanvarda Süsəngirdə getmişdi. Düşmən Hüveyzədən dövrə vurub Süsəngirdə doğru gəlirdi. Süsəngirdin kəşfiyyat-diversiya komandiri Mehdi Zeynəddin də onun yanında idi.

**"Süsəngirdin müdafiəsi barədə fikirləşirdik. Qardaş Həsən gəldi və birlikdə getdik. Təxminən yüz düşmən tankı gəlirdi. O qədər tankdan qorxmadan dayanmışdı və mənə deyirdi ki, bir şey düşünmək lazımdır. Mən oradaca silahlarımızı götürüb irəliləmək istəyirdim. O bizi çəkindirib deyirdi ki, Süsəngirdi qorumaq lazımdır, amma çıxış yolu tapmalı və şüurlu şəkildə hərəkətə keçməliyik. Gələcəyə baxış Həsənin mühüm**

---

[1] Həsən Baqirinin xatirələri, c. 1.
[2] Yenə orada.
[3] Yenə orada.

**xüsusiyyətlərindən idi. O, ən ağır şəraitlərdə də emosiya və əsəblərinə nəzarət edə bilirdi".**[1]

O, həmin ağır günlərdə kömək istəmək üçün Qəzvin diviziyasının ovaxtkı komandiri Polkovnik Sirus Lütfinin yanına getmişdi. Polkovnik Lütfi Nəsr əməliyyatının iflasından və hərbi birləşmələrin geri çəkilməsindən sonra müdafiə mühəndisliyinə və ya su müharibəsinə üz tutdu. Su bəzi yerlərdə düşmənin qarşısını ala bilərdi. Lakin hərbi müharibə kimi bu işin də öz üsulları vardı.

**"Bütün şəxsi heyəti mümkün qədər geri çəkdik. Düşmən körpünü tutmuşdu və aşağını vura bilirdi. Tanklarımızın az olduğunu görüb qərara gəldim ki, düşmənin bundan artıq irəliləməməsi üçün bir iş görməliyik. İngiltərə istehsalı olan böyük su motorları ilə Kərxə çayının suyunu düşmənə yönləndirdik. Həsən Baqiri gəlib dedi: "Özünüzü yormayın. Nə qədər su göndərsəniz də, başqa yerə gedəcək".**

**Sonra Karunun suyunu kanalın içinə vurmağa başladılar. Su Karundan vurulur və düşmən qüvvələrinin yerləşdiyi yerin aşağısına gedirdi. Biz bununla vaxt qazanır, canlı müqavimətə qənaət edirdik. Həsən Baqiri deyirdi ki, harada quşlar toplanıbsa, orada nəsə var.**

**Layihə Həsən Baqirinin informasiyaları əsasında icra olundu. Səhər gördük ki, düşmənin bütün tankları suda qalıb və ekipajlar qaçıblar. Bundan sonra üstünlük əldə etdik".**[2]

---

[1] Şəhid Mehdi Zeynəddinlə müsahibədən.

[2] Müharibə başlayanda Qəzvinin zirehli diviziyasının komandiri olmuş General-mayor Sirus Lütfi ilə müsahibədən.

O vaxta qədər İraqın doqquzuncu zirehli diviziyası Çəzzabə-Bostan-Süsəngird istiqamətində, beşinci mexaniki diviziyası da Təlaiyyə-Cüfeyr-Kərxəkur istiqamətində idilər və bir-birləri ilə quru əlaqələri yox idi. Həsən Baqiri Nəsr əməliyyatından sonra düşmənin planını duydu, ordu və korpus komandirlərinin iclasında tam qətiyyətlə proqnoz etdi ki, bu yaxında İraq ordusu Kərxəkur, Neysan və Sabilə çaylarının üzərindən körpü salıb Cüfeyrlə Bostanı birləşdirəcək. Bununla həm özünün iki cinahını İslam döyüşçülərinin hücumundan qoruyacaq, həm də bizim torpaqlarımızdakı fəaliyyətlərinə lazımi dəstəyi verəcək. Bu proqnoz bir həftə ötmədən həyata keçdi və hamını heyrətə saldı.

**"Bu proqnoz hətta bizi də təəccübləndirdi. Çünki öncədən bizə deməmişdi. Düşmən bir həftə ötmədən mövqelərini birləşdirməyə başladı, Kərxəkur, Neysan və Sabilə çayları üzərində çoxlu hərbi körpülər saldı. Qardaş Baqirinin bütün proqnozu düz çıxdı və hamı onun hərbi istedadını alqışladı".**[1]

Bir müddətdən sonra Qulaməli Rəşid qolf meydanındakı komandirlərə qoşuldu. O zaman Cənub əməliyyat qərargahında dəyişiklik baş verdi: Davud Kərimi qərbə getdi, Rəhim Səfəvi Darxuindən qolfa gəlib cənub əməliyyatlarına rəhbərlik etməyə başladı, Qulaməli Rəşid də Dezfuldan qolf meydanına gedib Rəhim Səfəvinin müavini oldu. Həsən Baqiri isə hələ də kəşfiyyat-diversiya işlərinə rəhbərlik edirdi. O, Cənub əməliyyat qərargahında hamıdan çox Rəhim Səfəvi ilə həmfikir idi.

---

[1] Müharibə başlayanda Cənub əməliyyat qərargahının komandir müavini və 1983-cü ildə korpusun Quru Qoşunlarının qurucularından olmuş General Qulaməli Rəşidlə müsahibədən.

**"Müxtəlif istiqamətlərə baş çəkəndə hamıdan çox Həsən Baqiri mənimlə gedirdi. Həsən mömin, cəsur, ağıllı insan idi, şəriət hökmlərinə əməl edirdi, istedad və uzaqgörənlik baxımından misli yox idi. O, olduqca aktiv idi. Qolf meydanında sönən sonuncu işıq onun otağının işığı olurdu. Adətən səhərlər onu mən oyadırdım, çünki gecə daha tez yatırdım, o isə hələ yazıb-oxuyurdu".**[1]

Ağa Rəşid də ilk tanışlıqda onun fəal zehninin dərinliyini dərk etdi.

**"Həsən Baqiri iclasda danışmayınca, fikirlərini güclü məntiqlə əsaslandırmayınca heç kim onun çox bacarıqlı və dərrakəli olduğuna inanmazdı. Otağına girəndə görürdün ki, adamları ilə birgə ciddi məşğuldur. Adam geniş, böyük bir idarə və təşkilatla üzləşəcəyini gözləyirdi, amma elə deyildi. Qardaş Həsən çox vaxt üz-başı tozlu halda, amma qiymətli məlumatlarla əməliyyat istiqamətlərindən dönürdü".**[2]

Rəhim, Rəşid və Həsən Baqiri tez bir zamanda cəbhələrdə mühüm dəyişikliklərin əsasını qoydular.

## *Dalandan çıxış*

1981-ci ilin novruzu elə bir halda gəldi ki, məğlubiyyət və uğursuzluqlar cəbhələrdə məyusluq yaratmışdı. Ozamankı Ali Baş Komandan Bəni-Sədr və ordu komandirləri İraq ordusuna məğlubedilməz bir kabus kimi baxırdılar. Bu zaman Həsən Baqiri döyüş taktikasını dəyişdirməyin

---

[1] General Rəhim Səfəvi ilə müsahibədən. O, müharibə dövründə müxtəlif vəzifələrdə xidmət edəndən sonra 1997-ci ildən etibarən on il Keşikçilər korpusunun baş komandanı oldu. Sonra isə Ali Baş Komandan olan Böyük Rəhbərin ali hərbi müşaviri təyin edildi.

[2] General Qulaməli Rəşidlə müsahibədən.

vacibliyini söylədi. O bu təklifi əvvəlcə 1981-ci ilin martında komandirlərin iclasında dedi. Qeyd dəftərindəki qısa bir cümləsi həmin iclasın xülasəsidir: "Özümüzə cürət verməliyik. Belə vuruşmaq işə yaramır, döyüş strategiyası dəyişməlidir!"[1]

Həmin ilin novruzunda dövlət rəsmlərinin əksəri cənub cəbhəsinə getmişdi. Həsən şəraiti münasib görüb görüşdüyü hər kəsə döyüş üsulunu dəyişdirməyin vacibliyini və Bəsic – yəni xalq könüllüləri müharibədə aktiv iştirak etməyincə dalanın açılmayacağını söyləyirdi. Məsul şəxslər məsələyə tərəddüdlə yanaşırdılar. Hətta imam xəttinin davamçısı olan inqilabçı qüvvələr də buna hazır deyildilər.

**"Əminliklə deyə bilərəm ki, o vaxt heç kim bu sözləri söyləməyə cürət etmirdi. Düşmənin 15 min kvadrat kilometrdən böyük bir ərazini işğal etdiyi, artilleriyası sərhəd şəhərləri vurduğu, Əhvaza hücum etdiyi, Dezfulun daim bombalandığı, qırıcıların mərkəzi şəhərləri hədəfə aldığı və daxili böhranın mövcud olduğu bir şəraitdə bir nəfərin ortaya çıxıb hər şeyi yenidən başlamaq istəməsi çox cəsarət tələb edirdi. Həsən strategiyanı dəyişmək barədə əminliklə danışırdı. Ayağa qalxıb bu sözü demək üçün cəsarətli bir bayraqdar lazım idi və bunu Həsən Baqiridən başqa heç kim bacarmazdı".**[2]

Ayətullah Xamenei döyüş strategiyasını dəyişdirmək təklifini dəstəkləyib buna dair qısamüddətli və uzunmüddətli proqram istədi. O, İmam Xomeyninin Ali Müdafiə Şurasındakı nümayəndəsi kimi məsələni ona söylədi. İmamın cavabı belə olmuşdu: "Əməliyyatlara başlayın,

---

[1] Şəhid Həsən Baqirinin gündəlik qeydlərindən.
[2] Fətulla Cəfəri ilə müsahibədən.

ancaq məhdud!" Bu, məhdud əməliyyatlardan ötrü ilk addım oldu. Döyüş strategiyasını dəyişməkdən ibarət inqilabi hərəkət bəzi məhdud əməliyyatların uğurla başa çatmasına və hamının düşmənlə vuruşmağın mümkünlüyünə inanmasına səbəb oldu.

**"Məhdud əməliyyatlar kəşfiyyat-diversiya bölüyünün və səhnədə olan bütün şəxslərin məlumatları əsasında baş tuturdu, lakin ayıq və aydın bir komandir tərəfindən. O nə iş görmək istədiyini bilirdi, öz sözü ilə desəm, çaşbaş qalmamışdı. Bilirdi ki, şəxsi heyəti çoxlu iş deyil, çaşqınlıq yorur.**

**Məhdud əməliyyatlar istiqamət komandirləri tərəfindən həyata keçirildi. Əbdülməhəmməd Raufi Dezfulun qərbində, Məcid Bəqai və Mürtəza Səffari də Şuşda əməliyyat həyata keçirirdi; Əli Haşimi öz cəbhəsində əməliyyat tədbiri görürdü, Əziz Cəfəri, İshaq Əzizi, İsmayıl Dəqaiqi, Məsud Səfayi və digərləri Süsəngirddə hücuma keçirdilər. Bütün bunların ana fikri, layihəsi və proqramı isə qolfdan – Həsən Baqiri, ağa Rəşid və ağa Rəhimdən gəlirdi. Harada məhdud əməliyyat planı vardısa, bu üç nəfər səhnədə idi".**[1]

1981-ci ilin yaz və yayındakı məhdud əməliyyatlar müharibəni dalandan çıxardı. Deyirlər ki, uğurlu insanlar üçün dalan olmur; onlar yolu ya tapırlar, ya da açırlar. Həsən Baqiri də belələrindən idi.

**"Ağa Möhsün Rzayinin sözü ilə desək, Həsən bir od parçası idi, onu əldə saxlamaq mümkün deyildi; hərarətli və enerjili idi. Bəlkə buna görə ağa Möhsün deyir ki, Həsən Baqiri dalanları açırdı. Sokrat deyir: "Mənim anam mamaça idi, mən də mamaçayam. O, uşaq**

---

[1] Yenə orada.

**doğururdu, mənsə düşüncə doğururam". Həsən də bir növ Sokrat idi".**[1]

1981-ci ilin ilk məhdud əməliyyatı aprelin 14-də Şuşun qərbində həzrət İmam Mehdinin (ə) adı ilə baş tutdu. Bu əməliyyatda Şuş cəbhəsindəki korpus və Bəsic qüvvələri Həmzə diviziyasının iki taqımı ilə birgə təyin olunmuş mövqeləri ələ keçirdilər. Nəticədə düşməndən yüz nəfər öldürüldü, iyirmi dörd nəfər əsir tutuldu, otuz bir tank və bir helikopter yandırıldı və çoxlu silah-sursat qənimət götürüldü. Həsən Baqiri əməliyyat zamanı Şuş cəbhəsində idi.

**"Mürtəza Səffari Ənkuşda həyata keçirmək üçün bir əməliyyat planı gətirdi. Həsən Baqiri planı diqqətlə oxuyub bəzi düzəlişlər etdi. Əməliyyat zamanı Həsən Baqiri ilə Şuş cəbhəsinə getdik. Kərxə çayına tərəf qayıdanda birdən yaxınlığımıza bir raket düşdü. Tüstü və toz-torpaq arasında Həsəndən nigaran qaldım. Toz-duman yatandan sonra gördüm ki, Allaha şükür, salamatdır".**[2]

Məhdud əməliyyatlara dair ilk təcrübə ordu komandirlərini inandırdı ki, korpus da əməliyyat planı və hücumu təşkil edə bilir. Onlar gördülər ki, xalq könüllüləri ilə əməliyyata gedib qələbə çalmaq mümkündür, korpus və Bəsic orduya dəstək ola bilərlər. Daha əhəmiyyətlisi budur ki, korpusla ordu arasında müştərək əməliyyatlara zəmin yarandı. Növbəti əməliyyat 15 mayda Abadanın şimalındakı Mədən təpələrini ələ keçirmək məqsədilə baş tutdu. Düşmən o təpələrdən bizim döyüşçülərimizi görür və vururdu. Razılaşdırılmış plana əsasən, ordu, Bəsic və korpus qüvvələri əməliyyatın ilk saatlarında təpələri azad etdilər.

---

[1] Əlirza Əndəliblə müsahibədən.

[2] General Qulaməli Rəşidlə müsahibədən.

Düşmən əks-hücum həyata keçirib təpələri geri aldı, lakin bizimkilər yenidən hücum edib düşməni qovdular və təpələrdə yerləşdilər. Bu əməliyyatda düşmənin on tankı məhv edildi, yetmiş döyüşçü əsir tutuldu, üç tank, çoxlu yüngül və nisbətən ağır silah qənimət götürüldü. O zaman Seyid Məsud Hicazi Abadan korpusunun 56 nəfərlik bir bölüyünün komandiri idi və onları Mədən cəbhəsinə aparmışdı.

**"Əməliyyat əmrini Cənub əməliyyat qərargahı tərəfindən Həsən Baqiri verdi. Mədən əməliyyatından sonra iraqlılar Zülfüqariyyədən geri çəkildilər. Onlar çox irəliləmişdilər. Bu irəliləmə aypara şəklində Abadan-Mahşəhr magistralından dövrə vurub yenidən magistrala qayıdırdı. Bəəsçilər bu əməliyyatdan sonra geniş bir ərazini boşaltdılar, yalnız Mahşəhr magistralının cənub-şərqində 5 km-lik bir bölgəni saxladılar. Bəlkə də qərargahın bu hücumda məqsədi Saminül-əimmə (səkkizinci imam) adlı böyük əməliyyat üçün bir növ sınaq idi. İlk aydın məqsəd kimi hamı torpaqları geri almağı göstərə bilərdi. Lakin bu məqsədin strategiyaya və ondan da çox istedadlı bir beyinə ehtiyacı vardı. Mən qətiyyətlə deyə bilərəm ki, Həsən kimilər çox deyildilər".**[1]

Həsən Baqiri bir məruzədə Mədən əməliyyatını araşdırmış və girişində yazmışdı:

“Əməliyyatın plan və icrasına dair müxtəlif mərhələlərində bəzi qüsurlar vardı. Onları diqqətlə araşdırıb yeni təcrübələr öyrənmək, mənfi cəhətləri azaldıb müsbət cəhətləri artırmaq olar".[2]

---

[1] Seyid Məsud Hicazi ilə müsahibədən.

[2] Həsən Baqirinin xatirələri, c. 2.

Həsən Baqiri məruzədə mənfi cəhətləri geniş şəkildə sayandan sonra layihənin müsbət cəhətlərini də yaddan çıxarmamışdı. O, məruzənin davamında gələcək əməliyyatlarla bağlı doqquz təklif irəli sürürdü. Bu təkliflər onun əməliyyat yerlərinə dair hərtərəfli məlumatını göstərir. Bu, onun yaratdığı kəşfiyyat-diversiya bölüyünün fəaliyyətlərindən və bütün cəbhələrdə düşməni araşdırmasından qaynaqlanırdı. Kəşfiyyat-diversiya komandirləri öz bölgələrinə aid məruzələrini davamlı olaraq qolf meydanına göndərirdilər. Həsən Baqiri onları həftədə bir dəfə müharibə otağında toplayıb çıxış yolu göstərirdi. Onların hamısı ilə birbaşa əlaqəsi vardı. O, komandirlərdən məlumatlar alırdı, hətta onların tabeliyində olanları da diqqətdən qaçırmırdı.

**"Həsən Baqirinin 20×80 ölçüsündə bir gecə durbini vardı, növbə ilə bütün cəbhələrə verirdi. Biz Kərxəkurun şimalında Məra kəndi istiqamətində idik, növbəmizin çatmasını səbirsizliklə gözləyirdik. Komandamızdan Əziz Ənsari dedi: "Əli, bu əziz Baqiri 20×80-i bizə nə vaxt verəcək?" Dedim ki, hələ növbəmiz deyil. Dedi: "Mənim tərəfimdən Həsənə de ki, ağa Baqiri, o durbini mənə verin, sizə neçə iraqlının bığlı, neçəsinin bığsız olduğunu deyim".**

**Əziz Ənsarinin sözünü çatdıranda Həsən Baqiri dedi: "Ağa Nasiri, biz düşməndən məlumat istəyirik, neçəsinin bığlı, neçəsinin bığsız olması hansı işimizə yarayar?!" Sonra durbini verib dedi: "İndi ona de ki, bığlıların sayını yaddan çıxarmasın".**[1]

O, kəşfiyyat bölgəsini və istiqamətləri yoxlayır, şəxsi heyətinə dəqiq planlar verirdi. Planlar o qədər dəqiq olurdu

---

[1] Əli Nasiri ilə müsahibədən.

ki, bölgəyə gedəndə heç bir şeyin nəzərdən qaçmadığını görürdülər. O, iş əsnasında həm də öyrədirdi, onlara necə və harada müşahidə aparmalarını, nələri görməli olduqlarını deyir və məruzələrin xırdalıqlarına fikir verirdi.

**"Bir dəfə Həsənə məruzə etdim ki, bizimkilər bir anbar düşmən sursatını məhv etdilər, təmas xəttində saatlarla yandı. Mənə dedi: "Bu nədir yazmısan?! Axı düşmən silah anbarını təmas xəttində yerləşdirər?!"**

**Nə deyə bilərdim?! Dedim ki, düz deyirsiniz. Mənə dedi: "Üzərindən götürülsün deyə, məruzə yazırsan".**

**Deməyə söz tapa bilmədim. Həsən Baqiri ilə dəqiq danışmalı, sözümüzü əsaslandırmalı idik. Heç nəyi asanlıqla qəbul etmirdi".**[1]

***

Əməliyyatların ilk mərhələsində əldə olunan qənimətlər arasında Həsən Baqiri hər şeydən çox sənədlərə diqqət yetirirdi.

**"O zaman heç kim iraqlıların sənədlərinə əhəmiyyət vermirdi, kağız parçası kimi ayaqlar altda qalırdı. İlk dəfə Həsən Baqiri onların dəyərli olduğunu söylədi. Hamıya tapşırmışdı ki, iraqlılara aid sənəd tapsaq, dərhal Cənub əməliyyat qərargahına göndərək. İlk dəfə sənəd tapanda tez bir neçə nəfərə onları tərcümə etməyi tapşırdı və kəşfiyyat-diversiya bölüyündə tərcümə şöbəsini yaratdı. O, dinləməyə də çox əhəmiyyətli yanaşırdı. Əvvəldən qardaşlara demişdi: "Əgər imkan olsa kiçik bir ratsiya təşkil edin və iraqlıların nə danışdıqlarını dinləyin".**[2]

---

[1] Fətulla Cəfəri ilə müsahibədən.

[2] Əhməd Qulampurla müsahibədən.

Bəlkə də jurnalist keçmişindən irəli gələrək öz üsulu ilə iraqlı əsirlərlə danışır, İraq ordusunu öyrənməyə kömək edən məlumatlar toplayırdı.

**"O, zabitlərdən gizir və əsgərlərlə necə rəftar etdikləri haqda soruşurdu, qida məsələsində zabitlərlə gizirlər arasında hansı fərqlərin olduğunu öyrənməyə çalışırdı, əsgərlərin yeməyi, meyvəsi, deserti, siqareti ilə maraqlanırdı, zabitlərin onlarla rəftarına dair suallar verirdi. Məzuniyyət barədə soruşurdu ki, komandirlərin neçə günlük məzuniyyət haqları var, yüksək rütbəli komandirlər nə zaman məzuniyyətə çıxırlar: ayın əvvəlində, ortasında, yoxsa sonunda? Yoxsa xüsusi bir zamanı yoxdur? Çavuş və gizirlərdən onların əsgərlərlə hansı fərqlərinin olduğunu soruşurdu, onları pulla, məzuniyyətlə, rütbə ilə, yoxsa ordenlə həvəsləndirdiklərini öyrənir, hər birinin təfərrüatı ilə maraqlanırdı".**[1]

Həsən Baqiri düşmənə dair ümumi məlumatlardan əlavə İraq komandirləri adlı bir qovluq açdı, Səddamdan tutmuş Müdafiə naziri Adnan Xeyrullaha, qərargah rəisi Əbdülcabbar Xəlilə, istixbarat rəisi Əbdülcavad Zənuna, korpus, diviziya, briqada, batalyon, bölük və taqım komandirlərinə qədər hamısını araşdırmağa başladı. O, Səddamın və Bəəs ordusunun yüksək rütbəli komandirlərinin çıxışlarını diqqətlə dinləyirdi, onların sözlərinin arasında mühüm məqsədlərini və lazımi informasiyaları öyrənməyə çalışırdı. O, bütün imkanlardan bəhrələnirdi, peyk fotosundan, dinləmədən, sənədlərdən, əsirlərlə və İraq hərbi birləşmələrinə nüfuz etmiş şəxslərlə söhbətlərdən məlumatlar toplayırdı.

---

[1] Fətulla Cəfəri ilə müsahibədən.

**"İraq ordusunda onun iti gözlərindən qaçan bir şey yox idi. İraqın bölgədə irəliləmə sisteminin necə olduğunu, hansı korpusunun hansı əraziyə nəzarət etdiyini, diviziya və briqadalarının harada yerləşdiyini bilirdi. İraq ordusunun zirehli birləşmələrini onun qədər heç kim tanımırdı. O, tankların növünü, topların, zenit raketlərinin və yüngül silahların sayını və modelini, batalyonların silah-sursat imkanlarını bilirdi. İraq ordusunu tam öyrənmişdi".**[1]

Həsən Baqiri düşməni tanımaqdan ötrü tez ərəb dilini öyrəndi. Onun kəşfiyyatçılarından olan Müəyyid Rizvani 1981-ci ilin ilk aylarında Həmid Müiniyan tərəfindən təqdim olundu və qolf meydanında sənədlərin tərcüməsi işinə başladı. Həsən Baqiri ondan ərəb dilini öyrənmək üçün də kömək alırdı.

**"Bir gün mənə dedi: "Ərəbcə danışmağı o qədər istəyirəm ki, balıq kimiyəm". Soruşdum ki, yəni necə? Dedi: "Balıq suda nə deyir?" Dedim ki, məgər balıq nəsə deyir? Dedi: "Balığın ağzına baxsan görərsən ki, "ab" (su) deyir. Bu onu göstərir ki, həmişə su istəyir. Mən də balığın su istədiyi qədər ərəb dilini öyrənmək istəyirəm".**

**O qədər çalışdı ki, axırda ərəbcəsi yaxşılaşdı və əsirlərlə asanlıqla danışmağa başladı".**[2]

Məhdud əməliyyatlar başlayandan sonra korpus qüvvələri və xalq könüllüləri ölkənin müxtəlif şəhərlərindən cəbhələrə yollandılar, Cənub əməliyyat qərargahı tərəfindən planlaşdırılan və icra olunan əməliyyatlarda iştirak etməyə başladılar. Bu əməliyyatlar əvvəldə ordunu və Ali Baş

---

[1] Yenə orada.

[2] İraqlıların sənədlərinin tərcüməsi üçün Həsən Baqirinin tabeliyində xidmət etmiş Müəyyid Rizvani ilə müsahibədən.

Komandan olan prezident Bəni-Sədri razı salmasa da, ordunun inqilabçı qüvvələri könüllü şəkildə əməliyyatlarda iştirak etdilər və yaxşı uğurlar əldə olundu. Get-gedə ordu və hətta Ali Baş Komandanın özü də Həsən Baqirinin məlumatlarından istifadə etməyə başladı. Haranın vəziyyətini öyrənmək istəyirdilərsə, Həsən Baqiri oraya dair dəqiq informasiya verirdi. Sözləri doğru və dəqiq olduğuna görə hamı ona inanırdı, sonradan haqlı olduğunu da görürdülər. Düşmən artilleriyasının filan kənddən Əhvazı vurduğunu söyləyirdisə, əsir tutanda məhz elə olduğunu öyrənirdilər. Məhdud əməliyyatlar orduda ümid yaratdı.

1981-ci ilin 21 mayında ordunun bəzi hərbi birləşmələrinin iştirakı ilə eyni zamanda İmam Əli (ə) və İmam Mehdi (ə) adlı üç əməliyyat həyata keçirildi. Süsəngirdin şimalındakı Allahu-əkbər təpələrində həyata keçirilən İmam Əli (ə) əməliyyatı 92 saylı diviziyanın və korpusun ayrı-ayrılıqda hər birinin üç batalyonu və Nizamsız döyüş qərargahından 400 nəfərin iştirakı ilə baş tutdu. Bu əməliyyatda Allahu-əkbər təpələri və azad zonanın 21 kv km ərazisi ələ keçirildi, İraqın 35 saylı zirehli briqadası məhv edildi. Süsəngirdin qərbində həyata keçirilən İmam Mehdi (ə) əməliyyatı da korpus və 55 saylı aviabriqada tərəfindən baş tutdu. Eyni adlı üçüncü əməliyyat Şuşun Ənkuş bölgəsində Şuş korpusu və 21 saylı Həmzə diviziyasının dəstəyi ilə baş tutdu. Bu üç əməliyyatda düşmənin canlı qüvvəsindən 844 nəfər əsir tutuldu. Onların 19 nəfəri zabit idi. Bundan əlavə, 45 tank, çoxlu yüngül silah, bir neçə sedan, SUV və təcili yardım avtomobili və bir qədər fərdi sursat qənimət götürüldü. Həsən Baqiri İmam Əli (ə) əməliyyatı barədə yazdı:

"Bütün hərbçilərin etiraf etdiyi kimi, bu hücum çox çətin və düşmən mövqeləri güclü idi. Eyni zamanda bizim

planımız da yeni idi və düşmən onu asanlıqla dəf edə bilmədi".[1]

Məruzənin başqa bir yerində isə belə yazdı:

"Bu müharibə istedadların inkişafı üçün bizə çoxlu qızıl imkanlar yaratmışdır. Qüvvələrimiz inqilabçı cəhətlərinə görə göz və qulaqlarını bağlayıb xaricdən gələn qanunlara tabe olmurlar, stereotiplərdən çıxır və kreativ beyinləri ilə elə üsullar ixtira edirlər ki, düşmən özünü müdafiə edə bilmir".[2]

Bu bir həqiqətdir ki, İraq ordusu və Səddamı müdafiə edən qərb və şərq supergücləri bizim ordumuzun quruluşundan və hərbi bacarıqlarından tam xəbərdar idilər. Belə olan halda yeni üsullar ixtira eləmək düşməni aldada bilərdi. Həsən Baqiri müharibənin əvvəlindən bunun zəruri olduğunu başa düşdü və öz planlarında tətbiq etdi.

**"Bəlkə də o şəraitdə işləyənlərin, Həsən Baqirinin məhdud əməliyyatlar barədə öyrətdiyi şəxslərin çoxu bu gün aramızda deyil, amma onun qələmi ilə yazılmış sənədlər çox böyük əhəmiyyət kəsb edir. O, informasiya öyrənir, əməliyyat planı hazırlayır və əməliyyatların məruzəsini yazırdı. Onlar milli sərvətlərimizdən biri kimi yadigar qalmışdır".**[3]

## *Komandirlik*

Prezident Əbülhəsən Bəni-Sədrin siyasəti, xüsusən də münafiqlərlə əlbir olması ölkədə böyük xaos yaratmışdı. Bu vəziyyət 1981-ci ilin iyununda pik həddə çatdı. Böhran ciddiləşəndə İmam Xomeyni təşəbbüsü ələ aldı və 11 iyun 1981-ci ildə gecə saat 12-də Bəni-Sədri Ali Baş

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

[2] Yenə orada.

[3] Fətulla Cəfəri ilə müsahibədən.

Komandanlıqdan azad etdi. O zaman Rəhim Səfəvi, Həsən Baqiri və Rəşid gecə saat 03:30-da baş tutacaq İmam Hüseyn (ə) adlı bir əməliyyat hazırlamışdılar. Bəni-Sədrin Ali Baş Komandanlıqdan uzaqlaşdırılmasından sonra əməliyyatın adını "Xomeyni Ruhullah, Ali Baş Komandan" qoydular. Əməliyyatın məqsədi Darxuində, Karun çayı ilə Əhvaz-Abadan magistralı arasında 3 km irəliləmək idi. Xürrəmşəhrin işğalından sonra Səddamın ordusu Abadanın şimalına qədər irəliləmiş, Karun çayından keçib Abadan-Əhvaz və Abadan-Mahşəhr magistrallarını ələ keçirmiş, Abadanı mühasirəyə almışdı. Bu əməliyyat Abadanın mühasirəsini yarmağa kömək edə bilərdi. Hücumda korpus qüvvələrindən 350 nəfər, Xorasan diviziyasından bir tank bölüyü və 16 top iştirak edəcəkdi. Əməliyyata Rəhim Səfəvi rəhbərlik edirdi.

**"Əməliyyat başlandı və biz təxminən 3 km irəlilədik. İraqın üçüncü diviziyasının mexaniki briqadasının üçüncü batalyonu tamamilə məhv edildi. Çoxlu əsir tutduq, tanklar ələ keçirdik. İraqlılar sayca çox idilər, bir-birinin ardınca əks-hücuma keçir, hətta istehkamın arxasına qədər gəlirdilər. O qədər yaxınlaşırdılar ki, onlara tərəf əl qumbarası atırdım. Əməliyyatın əvvəllərində başıma bir raket qəlpəsi dəydi. Qanı dayandırmaq üçün başımı çəfiyə ilə bağladım, amma qan dayanmadı. Başım gicəllənirdi. Özümə gələndə Darxuində təcili yardım məntəqəsində idim. Məndən sonra komandirliyi Həsən Baqiri üzərinə götürmüşdü".**[1]

Rəsul Kamal Rəhim Səfəvini təmas xəttinə aparmış və buna görə Həsən Baqiri tərəfindən danlanmışdı.

[1] General Rəhim Səfəvi ilə müsahibədən.

**"Ağa Səfəvi yaralananda başını çəfiyə ilə bağlayıb irəlidəki komandir qərargahına apardım. Həsən Baqiri bunu görüb dedi: "Kim dedi ki, onu əməliyyat yerinə gətirəsiniz?" Dedim ki, özü dedi. Həsən Baqiri məni bərk danlayıb dedi: "Böyük səhv etmisən. Əgər o, 3 km irəliləməkdən ötrü şəhid olsaydı, dövlətə nə cavab verərdik?!"**[1]

Rəhim Səfəvi düşmənin güclü əks-hücumları zamanı yaralanmışdı. Düşmən elə müqavimət göstərirdi ki, bəzi komandirlər geri çəkilməyi təklif edir və deyirdilər: "Burada qalsaq, düşmən bizi dövrəyə alar, döyüşçülərimiz ya şəhid olarlar, ya da əsir düşərlər. Bu itkinin qarşısını almaq üçün taktiki olaraq geri çəkilməliyik".

Bu mübahisə tibb məntəqəsinə qədər gedib çıxdı. Çoxlu qan itirdiyinə görə ağa Rəhimin vəziyyəti yaxşı deyildi.

**"Ağa Rəhim yaralanandan sonra onu Darxuinə tibb məntəqəsinə apardım. Düşmən çox güclü əks-hücumlara keçirdi. Gənc ordu komandirləri və Bəsic üzvləri müharibə ilə çox da tanış deyildilər. Onlar çıxış yolu tapmaq üçün tibb məntəqəsinə ağa Rəhimin yanına gəldilər. O mənə bir məktub verib Həsən Baqiriyə çatdırmağımı söylədi. Ağa Rəhim məktubda mərhələ-mərhələ minimum geri çəkilməyi əmr etmişdi. Təmas xəttinə gedib məktubu Həsən Baqiriyə verdim. Məktubu oxudu. Məni həmişə adımla çağırırdı. Dedi: "Hüseyn, məktubu oxudun?" Dedim ki, bəli. Dedi: "Bu məsələ barədə heç kimlə danışma. Bunu yalnız mən biləcəyəm, sən və ağa Rəhim. Başqa heç kim xəbər tutmamalıdır". Dedim ki, baş üstə.**

---

[1] Müharibənin əvvəllərində Darxuində xidmət etmiş Rəsul Kamalla müsahibədən.

**Düşmənin qarşısından geri çəkilmədi və bu bizim ilk əməliyyatımızın xüsusi qələbə ilə nəticələnməsinə səbəb oldu".**[1]

Bu hadisə Həsən Baqiriyə başqa bir yol açdı. O, komandir kimi də öz bacarığını sübuta yetirmiş oldu.

**"Güclü istedadı, analiz qabiliyyəti və böhranlı anlarda operativ qərar çıxara bilməsi Həsən Baqirini böyük bir müharibə komandirinə çevirdi. Darxuin döyüşündəki komandirliyi onun düşmənə, coğrafi şəraitə və öz imkanlarımıza dair dəqiq məlumat dolu doqquzaylıq təcrübəsinin nəticəsi idi".**[2]

**Onun komandirliyi sayəsində düşmənin beş əks-hücumu dəf edildi və İslam döyüşçüləri ələ keçirdikləri mövqelərdə qala bildilər.**

**"Düşmən bizə doğru eyni zamanda iki yüz katyuşa raketi atırdı, artilleriyası bir an da dayanmırdı. Bizim sağ tərəfimizdən, yəni Karun çayının qərbindən beş dəfə əks-hücuma keçdilər, amma Həsən o şəraitdə şəxsi heyəti idarə edib mövqeləri saxlaya bildi".**[3]

Əməliyyata rəhbərlik Həsən Baqiriyə tapşırılandan sonra o, təchizat işlərinə kömək etmək üçün Seyid Məhəmmədəli Şeyxülislamı qolfdan oraya çağırdı.

**"Mənə dedi ki, necə olursa-olsun, buz tapmalıyıq. Ona bir qədər buz tapıb gətirdim. Dedi ki, irəliləyəndən sonra səngərlərə taxta lazım olacaq. Gecə ikən Darxuin atom enerji şöbəsinə gedib bir qədər taxta gətirdik. O əməliyyatda həmişə yanında idim; çox əziyyət çəkdi. Ratsiya əlindən düşmürdü, plan da qabağında idi. O**

---

[1] Hüseyn İshaqi ilə müsahibədən.

[2] General Fətulla Cəfəri ilə müsahibədən.

[3] Şəhid Həmid Müinianla müsahibədən.

**halda, atışmanın ortasında başqa bir əli ilə qələm tutmuşdu, plan üzərində koordinasiyaları çəkib atəş yerlərini göstərirdi. Mənə də nə etməli olduğumu yazırdı. Arabir yanındakı quru çörəkdən bir tikə götürüb yeyirdi. Yemək yeməyə vaxtı yox idi. O, bir komandanın işini təkbaşına görürdü. Həsən Baqiri bacarığına və yaradıcılığına görə kəşfiyyat-diversiya rəhbərindən tam bir döyüş komandirinə çevrildi".**[1]

Həmin əməliyyatın komandirlərindən biri də Məhəmmədəli Səbur idi.

**"Həsən Baqiri demişdi ki, Səburu göndərin. Məndən başqa on üç komandir də vardı. Həsən o qədər dəqiq məlumat verirdi ki, gecələr iraqlıların yanında, gündüzlər bizim tərəfdə olduğunu düşünürdük. Düşmənin hərbi arsenalı və zirehli texnikası haqda məlumat verirdi. Mən hərbi məsələləri ehtiyat qüvvələr həddində bilirdim, bəzi terminləri işlədəndə uşaqlar təəccüblənirdilər ki, şah vaxtı bunları necə öyrənmisən. Lakin Həsən Baqiri onları əməli surətdə həyata keçirirdi. O, bizə söyləyirdi ki, bu, düşməndir, bu, düşmənin potensialıdır, ehtiyat briqadası var; yerlərini plan üzərində göstərirdi. Güclü beyni var idi".**[2]

Üç gün ağır döyüşdən sonra "Xomeyni Ruhullah - Ali Baş Komandan" əməliyyatı sona çatdı. Bəəs ordusu 15 iyunda altıncı dəfə əks-hücuma keçmək istəyirdi, amma İslam döyüşçüləri təşəbbüsü ələ aldılar və düşmən məğlubiyyətlə barışıb üçüncü istehkamın arxasında müdafiə mövqeyi seçdi. Bu əməliyyatda on beş tankdan, çoxlu ağır və yüngül

---

[1] Müharibənin əvvəllərində Süsəngird korpusunun Təchizat bölməsinin komandiri olmuş Seyid Məhəmmədəli Şeyxülislamla müsahibədən.

[2] Dezfulun Vəliəsr diviziyasının komandirlərindən General Məhəmmədəli Səburla müsahibədən.

silahdan əlavə 239 əsir də ələ keçirildi. Mexaniki briqadanın üçüncü batalyonunun komandiri Polkovnik-leytenant Adil Abbas Əhməd də əsirlərin arasında idi. Bu əməliyyatda döyüşçülərimiz ilk dəfə irəliləyib torpaq tutdular və istehkam qurdular. Həsən Baqiri bu əməliyyata dair məruzəsinin girişində yazırdı:

"Əgər bir hizbullahçı əvvəldə döyüş biliklərinə malik deyildisə də, İslam inqilabına qarşı ürək yanğısından, İslama imanından irəli gələrək ilahi niyyətlə, vətənə və imama sevgi ilə qısa müddət ərzində elə hərbi bacarıq əldə edib ki, asanlıqla əməliyyat planı hazırlaya bilir. Korpusdakı hizbullahçı qüvvələrimizin çoxunda güclü hərbçi potensialı var və mahir bir komandir kimi düşünürlər".[1]

Bu cümlələr əslində, onun özünə aid idi. Hərbçilik təcrübəsi olmayan, döyüş elmlərini bilməyən Qulamhüseyn Əfşurdi qısa müddətdə əməliyyat komandiri Həsən Baqiriyə çevrilməyi bacarmışdı.

**"Həsən Baqiri döyüş əməliyyatı sahəsində sözün əsl mənasında bir dahi idi. Onun fikirləri hamını qane edir, qabiliyyəti, düşüncəsi, rəftarı və təklifləri hamını razı salırdı. Mən inqilabın ilk günündən ağa Rəhim Səfəvi ilə birgə İsfahan korpusunda olmuş, Kürdüstanda və digər yerlərdə onunla birgə vuruşmuşdum, amma Həsənin fikirlərini daha çox qəbul edirdim. Düzdür, o zaman ağa Rəhim də çox bacarıqlı idi, Kürdüstanda böyük təcrübə toplamışdı, amma Həsən fərqli idi".[2]**

Həsən Baqirinin təklif etdiyi yeni döyüş strategiyası İmam Əli (ə) və sonra Ali Baş Komandan əməliyyatında həyata keçdi, iman və aşura mədəniyyəti Qərb və Şərqin

---

1 Həsən Baqirinin xatirələri, c. 2.

2 Seyid Məhəmməd Hicazi ilə müsahibədən.

müharibə qaydaları qarşısında öz gücünü göstərdi. O bu barədə yazırdı:

"Bu əməliyyat Quranın bu ayəsinə canlı nümunə idi: "O qədər olub ki, azsaylı dəstə Allahın izni ilə çoxsaylı dəstəyə qalib gəlib".[1] Bu əməliyyat Amerika hərbi strateqlərinin hərbi akademiyalarda tədris etdikləri döyüş qaydalarının üstündən xətt çəkdi, Allaha inam və etimad hisslərini onların yerinə qoydu. Çünki bizim silahlı və mömin qüvvələrimiz kafir düşmənə hücum etmək qərarına gələndə Allaha təvəkkül edir, şəhadət eşqi ilə ölümə gedirlər: "Qəti qərara gəldinsə, Allaha təvəkkül et!"[2] Və iki qələbədən birinin onlara nəsib olacağına əmindirlər".[3]

Həsən Baqiri məruzəsinin sonunda müharibə tarixinin gələcək nəsillərə ötürülməsinə dair həvəsini bu cümlələrlə bəyan edirdi:

"Ümidvarıq ki, İslamın ən dəyərli övladlarının qanı bahasına əldə olunan bu dəyərli təcrübələri dəqiq təhlil və xüsusi incəliklərlə gələcək nəsillərə ötürək, bu barədə kitab yazmaqla, hərbi institutlarda tədris olunacaq dərs vəsaitləri hazırlamaqla borcumuzun kiçik bir hissəsini ödəmiş olaq".

## *Müharibə elçiliyi*

Ailə qurmaq hər bir gəncin həyatında ən mühüm hadisədir. Həsən Baqiri üçün də belə idi. Ali Baş Komandan əməliyyatından sonra prezident Bəni-Sədr İrandan qaçdı və ölkədə məyusluq yarandı. Bu ab-hava cəbhələrdə də durğunluğa səbəb oldu. Həsən Baqiri bu fürsətdən istifadə edib anası və bacısı ilə izdivac haqda danışdı.

---

[1] Bəqərə, 249.

[2] Ali-İmran, 159.

[3] Həsən Baqirinin xatirələri, c. 2.

**"Bir neçə qızla maraqlandıq. Bəzilərinin düşüncəsi bizimlə uyğun idi, amma onun cəbhə həyatına və hər bir hadisənin mümkünlüyünə görə razılaşmadılar. Bir dəfə hörmətli və inqilabçı bir ailəyə müraciət etdik, onu da apardıq. O, istəklərini kiçik bir kağız parçasına qeyd etmişdi. Elə bizim yanımızda təxminən iyirmi dəqiqə danışdılar. Qohum qızlarla danışanda həmişə mənə, ya da bacısına baxardı. Orada da eyni işi gördü. Qızın ailəsinin çox xoşu gəldi. Qızın anası axşam mənə zəng vurub dedi: "Bu izdivac baş tutsaydı, bizim üçün böyük şərəf və iftixar olardı, ancaq qızım deyir ki, oğlunuz ona bəzi suallar verib... Onun şəxsiyyəti və düşüncəsi ilə uyğun olmadığını düşünür".**[1]

Bu izdivac baş tutmadı. Onun həyat yoldaşı olmaq xanım Daipurun qisməti imiş. Əhvazda doğulmuş xanım Daipurun ata-babaları Dezful seyidlərindən idilər. Atası Tehranda məişət avadanlığı zavodunun icraçı direktoru idi. Xanım Daipur yeddinci sinfə qədər Tehranda oxumuşdu. Atası vəfat edəndən sonra anası Xürrəmşəhrdə qardaşının yaxınlığında yaşamaq qərarına gəlmişdi. O, 1978-ci ildə Xürrəmşəhrdə orta məktəbi bitirib konkursda iştirak etdi və Əhvaz Dövlət Universitetinə qəbul oldu. İnqilabın qələbəsindən sonra dindar və inqilabçı tələbələrlə birlikdə İslam birliyində fəaliyyət göstərməyə başladı.

1980-ci ilin yayında Əhvaz tələbələrinin İslam birliyinin əməkdaşlığı ilə müəllimə yetişdirmək işinə başlandı. Bu kurslara birliyin ən yaxşı üzvlərindən altmış nəfər dəvət olundu. Xanım Daipur da onların arasında idi. O, kursları bitirəndən sonra müəllimə kimi fəaliyyətə başladı. 1980-ci ilin sentyabrına qədər orada təxminən min şagird təhsil aldı.

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

Onlar 22.09.80 tarixində Əhvazın Təxti adına stadionunda son təlimlərini keçərkən müharibə başlandı.

**"Müharibənin ilk iki-üç günündə hər şey alt-üst olmuşdu. Üçüncü gün korpusa gedib dedim: "Biz kurs keçmişik, kömək edə bilərik". Hirslə dedilər: "Gözləyirsiniz ki, sizə silah verib döyüşə göndərək?!" Dedim: "Yox, amma silah anbarında işləyə, cəbhəyə kömək edə və ya tibbi yardım işləri görə bilərik". Sözüm bitməmiş daha sərt cavabla üzləşdim".**[1]

Onlar korpusdan universitetin İslam birliyinə getdilər. Orada da uyğun cavab ala bilmədilər. Bu zaman başqa bir yol tapmaq üçün universitetin yataqxanasına toplaşdılar.

**"Dedim ki, qardaşlar bizə ehtiyaclarının olmadığını düşünürlər. Biz özümüz bir mərkəz yaratmalıyıq. Adını qoyduq "İslam İnqilabının Qadın Keşikçilərinin Müqavimət Mərkəzi". Başçı olmaq fikrim yox idi, kimsə də məni yuxarıdan təyin etmədi, öz aramızda razılığa gəldik. Digərlərinə nisbətən daha ciddi idim və sözümü eşidirdilər. İşləri böləndə mərkəzin sədri seçildim".**[2]

Mərkəzi dəstəkləyən ilk şəxs Hüseyn Ələmülhuda oldu. Onun tövsiyəsi ilə mərkəzin yaradılması rəsmi şəkildə radiodan elan olundu. Pasdar Xanımların Müqavimət Mərkəzi əvvəlcə informasiya və təbliğat sahəsində fəaliyyətə başladı.

Bəzi bölgələrin işğalından sonra əhali Əhvaza köçmüşdü. Mərkəz onların ərzaq və yaşayış yeri təminatını öz üzərinə götürdü. Çox böyük və ağır iş idi. O zaman bütün xəstəxanalar, hətta Əhvazın bəzi hotelləri müharibə yaralıları ilə dolu idi. Bu ehtiyac xanım Daipurun başçılıq etdiyi

---

[1] Həyat yoldaşı xanım Pərvin Daipurla müsahibədən.

[2] Yenə orada.

xanımların tibb bacısı kimi fəaliyyətə başlamalarına səbəb oldu. Belə bir şəraitdə heç kəsin xanım Daipura deməyə macal tapmadığı, bəlkə də cürət etmədiyi yeganə məsələ izdivac idi. Lakin qolf meydanındakı iclasların birində baş tutmuş söhbət Xanımların Müqavimət Mərkəzinə və xanım Daipura çatdı.

**"Döyüşçülər arasında belə bir fikir yayılmışdı ki, əgər kamil dinlə şəhadətə qovuşmaq istəyirsinizsə, ailə qurmalısınız. Bu səbəbdən şəhərdə qızların izdivac yaşı azalmışdı. Onların bəziləri 15-16 yaşlarında gəlin köçür, çox yaxşı döyüşçü uşaqlarla ailə qururdular. Onlar ruhiyyə və düşüncə baxımından böyük olan azyaşlı xanımlar idilər.**

**Mən izdivac söhbətlərinin mərkəzimizə keçməməsinə çalışır, kiminsə mərkəz vasitəsilə özünə həyat yoldaşı tapmasına imkan vermirdim. Kübra Samaram müharibənin əvvəllərində ailə qurub getmişdi. Birliyin dəyərli üzvlərindən olan Rərvin Şəriəti də bir vasitə ilə çox sakit şəkildə Abbas Ustadan adlı bir ağa ilə ailə qurdu. Ona dedim ki, çalış gəlin ruhiyyəni mərkəzə gətirmə. Ağa Ustadan Yəzddən idi, Əhvaz universitetində təhsil alırdı. O, müharibə otağının qolf meydanında keçirilən iclaslarında valiliyin nümayəndəsi kimi iştirak edirdi. Həsən Baqiri onu həmin iclaslarda görürdü və şəhər qızlarından biri ilə ailə qurduğunu eşitmişdi. Ona demişdi ki, əgər münasib qız olsa, ona xəbər versin. O da demişdi ki, mənim yoldaşım yaxşı bacıların toplaşdığı bir təşkilatdadır. Ustadan məsələni yoldaşı xanım Şəriətiyə danışmış, o da Həsən Baqiri haqda eşitdiklərindən sonra mənim adımı vermişdi".**[1]

---

[1] Yenə orada.

Ağa Ustadanın bir neçə günlük israrından sonra xanım Şəriəti məsələni xanım Daipura söyləmək qərarına gəldi.

**"Günortadan sonra işimiz bir qədər azalanda mətbəxə su içməyə keçdim. Şəriəti mənimlə təklikdə danışmaq üçün arxamca gəldi. Mənə dedi: "Pərvin, bir nəfər var..." Sözünü kəsib dedim: "Özünü yorma, mənim əsla ailə qurmaq fikrim yoxdur". Dedi: "Qulaq as, gör nə deyirəm, sonra qərara gəl". Dedim ki, yaxşı. Dedi: "Qolf meydanında bir nəfər var, evlənmək istəyir..." Dedim ki, bu qədər qız var, hələ mənim izdivac vaxtım deyil". Dedi ki, fikirləşərsən. Dedim ki, fikirləşmək belə istəmirəm, mənim adımın üstündən xətt çək.**

**İki-üç dəqiqəlik bu söhbət oradaca bitdi. Heç oğlanın adını da soruşmayıb mətbəxdən çıxdım. Sonra bir-iki dəfə də yaxınlaşıb bu haqda danışmaq istədi. Axırda ona ciddi şəkildə dedim: "Özün bilirsən ki, işim çoxdur. Ümumiyyətlə, şəxsi həyat mənim üçün mənasızdır".**[1]

Cavab o qədər qəti idi ki, xanım Şəriəti daha bu haqda söhbət açmadı. Nəhayət, başqa bir hadisə baş verdi.

Bir gün xanım Daipurla xanım Şəriəti piyada mərkəzə gedərkən göydə bir düşmən qırıcısı peyda oldu və güclü partlayış səsi hər tərəfi bürüdü. Partlayış yeri yaxında idi. Onlar bir neçə dəqiqədən sonra özlərini oraya çatdırdılar.

**"Mağazaların qapıları qopub yerindən çıxmışdı. Bir SUV avtomobili də yanırdı. Yerdə bir cəsəd vardı, üzərinə köhnə bir parça çəkmişdilər. Yalnız ayaqları görünürdü. Yadımdadır, çəkələklərindən biri bayıra düşmüşdü. Yerli sakinlərdən idi, əynində kürd şalvarı vardı. Öz-özümə dedim ki, yazıq bəlkə də çörək almağa gəlibmiş, düşünmədiyi yeganə şey burada həyatının**

---

[1] Yerə orada.

**bitməsi imiş; həyat necə də dəyərsizdir! Bu səhnəni görəndə beynimə belə bir fikir gəldi ki, vəzifəsini yerinə yetirib ailə qurmaq istəyən o adam da hər an bu şəkildə ölə bilər. Partlayış yerindən gələndə bu fikirlər içində müqəddiməsiz olaraq Pəri Şəriətiyə dedim: "O qardaşın adı nə idi?" Dedi ki, hansı qardaş? Dedim ki, dediyin o qardaş. Pəri yerində donub qaldı, təəccüblə dedi: "Həsən Baqiri". Soruşdum ki, ağa Ustadanın fikri nədir? Dedi: "Deyir ki, çox yaxşı oğlandır və komandirlərdəndir". Mən o qədər komandir görmüşdüm ki, bunu üstünlük saymırdım. Dedim ki, yaxşı, onunla danışaram".**[1]

Görüş 17 ramazana xanım Şəriətinin evinə təyin olundu. Avqust ayı, hava çox isti və uzun idi. Görüş axşamı çatdı. Xanım Daipur ağır bir iş günündən sonra sabahkı görüş barədə fikirləşmək üçün mərkəzin həyətindəki bağçaya girdi. O, sabaha söz hazırlamalı idi. Fəaliyyətlərini önəmli göstərmək istəyirdi. Qərara gəldi ki, görüşdə elçinin üzünə baxmasın. Çünki zahiri görkəm ona mühüm deyildi və qərarına təsir etməsini istəmirdi. O, xanım Şəriətigilə vaxtından tez getdi. Kiçik bir otaq hazırlanmışdı.

**"Pəri Şəriətiyə dedim ki, mən otaqda oturacağam, sonra o ağa gəlsin. Nəhayət, vaxt çatdı və otağa girdi. Üzümü tutmuşdum, təxminən heç nə görünmürdü. Gözlərimi bağladım və heç nə görmədim. Yan-yana oturduq. Əvvəlcə o danışmağa başladı. Yalnız səsini eşidirdim. Qalın səsi vardı. Dedi ki, adım Həsən Baqiri deyil, Qulamhüseyn Əfşurdidir, kəşfiyyatçı olduğuma görə məni Həsən Baqiri adı ilə tanıyırlar.**

**Bir kağız çıxarıb nə isə yazdı və dedi: "Əgər araşdırmaq istəsəniz, evimizin ünvanı budur". Sonra**

---

[1] Yenə orada.

**keçmişi haqda iki məsələni danışdı. Səmimi və doğruçu adam olduğunu hiss etdim. Sözündə çox açıq idi və bu mənə yaxşı təsir etdi. "Yox" cavabı verməkdən ötrü işimdən danışdım, bacıların mənə ehtiyaclı olduqlarını və həyatımı müharibəyə həsr etdiyimi söylədim. Ona bildirmək istəyirdim ki, mən onun axtardığı evdar tiplərdən deyiləm. Mən iş və məşğuliyyətlər haqda nə deyirdimsə, o daha artığını söyləyirdi; deyirdi ki, bunlar bir şey deyil, sizin baxışınız çox məhduddur, gərək İran darvazalarının o tərəfi haqda da düşünəsiniz. Nə deyirdimsə, ya həvəsləndirirdi, ya da daha üstün bir gözlənti söyləyirdi. Təxminən iki saat danışdıq, hamısı iş barəsində oldu. İftar vaxtı gəldi. Pəri sadə bir xörək hazırlamışdı. O gedib ağa Ustadanla iftar etdi, mən də Pəri ilə birgə. Gedəndən sonra Pəri soruşdu: "Ona baxdın?" Dedim ki, yox. Dedi: "Heç bir dəfə də baxmadın?" Dedim ki, yox, gözlərimi bağladım ki, görməyim. Dedi ki, kaş bir dəfə baxaydın.**

**Pəri onu görmüşdü. Mənim iyirmi yaşım olsa da, yaşımdan böyük görsənirdim, onda isə əksinə, yeniyetmə üzü vardı. Pəri təkidlə deyirdi ki, gərək baxaydın. Dedim ki, zahiri görkəmi önəmli deyil. Məncə, həmin axşam onu görsəydim, dərhal "yox" cavabı verərdim.**

**Maraqlı idi ki, onun barəsində fikirləşəndə beynimdə çox qara bir görüntü canlanırdı, yalnız sözlərini və səsini xatırlayırdım. Bunu sevirdim, çünki yalnız onun daxili aləmi barədə fikirləşirdim. O da mənim zahiri görkəmimi görməmişdi, yalnız səsimi və sözlərimi eşitmişdi".**[1]

[1] Yenə orada.

İkinci görüş bir həftə sonraya təyin edildi. Xanım Daipur bu dəfə daha çox özü haqda danışmaq istəyirdi. Xanım Şəriətinin israrlarına baxmayaraq, yenə də qərara gəlmişdi ki, elçinin üzünə baxmasın.

**"Yenə söhbətə başladıq. Keçmişim haqda danışdım, dedim ki, modern ailədənəm, düşündüyünüz qədər dindar deyildim. O da dedi ki, bizim hamımız inqilabda yetişmişik, bu inqilaba borcluyuq və keçmiş meyar deyil. O da öz keçmişi haqda danışdı, dedi ki, mən də çox inqilabçı deyildim, ailəm ortababdır, bir bacım və bir qardaşım var. Bildim ki, İslam Respublikası qəzetində işləyərkən həm də hüquq fakültəsində təhsil alırmış. Dedim ki, istəsəniz, mənim barəmdə araşdırma aparın. O da dedi ki, siz də mənim barəmdə araşdırın.**

**Gördüm ki, işin çoxluğundan araşdırmaq mümkün deyil. Anama xəbər verdim. Anam təhsilə əhəmiyyətli yanaşdığına görə dedim ki, Tehran universitetinin hüquq fakültəsində Qulamhüseyn Əfşurdi adlı bir tələbə var, müharibəyə görə ezamiyyətə gəlib və bu yaxınlarda ailə qurmuş dostum Pəri Şəriətinin vasitəsi ilə onunla danışdım. Anam qardaşım Məhəmmədi onların məhəllələrinə, Sədriyyə məscidinə göndərmişdi ki, qonşulardan və dükan sahiblərindən sorğu-sual etsin. Qardaşımla aramızda on səkkiz ay yaş fərqi var. Qardaşımın görkəmi ogünkü hizbullahçı görkəmindən fərqli idi. Həm də o zaman mücahidlərin terrorlarının qızğın çağı idi. Məhəllədə parçasatan Rəhim ağa onun fərqli görkəmini görüb yanlış cavab vermişdi. Başqa bir neçə nəfər də belə etmişdi. Onlar hacıxanıma demişdilər**

**ki, qeyri-dindar görkəmli bir oğlan sizin oğlunuz barədə sorğu-sual edirdi".**[1]

Məhəmməd Daipur araşdırmadan əliboş qayıdandan sonra xanım Daipurun araşdırmağa başqa bir yolu qalmamışdı. O, bir dəfə təsadüfi olaraq iş yoldaşı xanım Paknejadın həyat yoldaşı Həmid Müinianın Həsən Baqiri ilə işlədiyini öyrəndi. Xanım Paknejad Xanımlar mərkəzində fəaliyyət göstərirdi. Xanım Daipur məsələni ona söylədi.

**"Xanım Paknejad Həmid Müiniana demişdi ki, Həsən Baqiri ilə xanım Daipur izdivac üçün araşdırma aparırlar. Müinian demişdi ki, Həsən çox yüksək səviyyəli birisidir, əgər qəbul etsə, Daipur bacının bəxti gətirmiş olar. Xanım Paknejad da demişdi ki, əgər xanım Daipur qəbul etsə, ağa Baqirinin bəxti gətirmiş olar. Gördüm ki, daha heç kimə söyləyə bilmərəm. O da tez-tez xəbər yollayırdı ki, anam gəlmək istəyir. Bir gün zəng vurub dedi ki, Allaha təvəkküllə bir sözüm yoxdur, fikrim müsbətdir. Gerisini də mənə tapşırdı. Mən də telefonla cümə imamının dəftərxanasında istixarə etdirdim. Dedilər ki, yaxşıdır. İstixarədən sonra ona zəng vurdum və Allaha təvəkküllə razılığımı verdim".**[2]

Qulamhüseyn fikrini bildirməzdən öncə anası ilə məsləhətləşmişdi.

**"Xanım cənubun əsil-nəsəbli Təbatəbai ailələrindən möhtərəm bir şəxsdir. O, Əhvaz universitetinin tələbəsi idi, müharibə başlayandan sonra iki-üç dindar xanımın köməyi ilə Əhvaz Xanımlar Bəsicini yaradıb, onun rəhbəri və birbaş inqilabi işlərlə məşğul olub. Oğlum onunla həmfikir olduğuna əmin olandan sonra qərarını**

---

[1] Yenə orada.

[2] Yenə orada.

**verdi. Mənimlə məsləhətləşdi, dedi ki, belə bir xanım var, məsləhət versəniz, ailə qurmaq istəyirəm. Mən də razılıq verdim".**[1]

Xanım Daipurun müsbət cavabından sonra Qulamhüseyn təklif etdi ki, Tehrana gedib ailələri ilə danışsınlar. Hər ikisi ailələrinin fikrinə əhəmiyyətli yanaşırdı. Razılığa gəlmiş olsalar da, ailələrinin hörməti onlara önəmli idi və bunu bildirmək istəyirdilər. Qərara gəldilər ki, Tehran səfərini razılaşdırmaqdan ötrü görüşsünlər. Həmin gün xanım Daipur ilk dəfə Qulamhüseynin üzünü gördü.

**"Fikirləşdim ki, bu dəfə ona baxa bilərəm. Düzü, yerimdə donub qaldım. Pərinin sözləri yadıma düşdü; israrla ona baxmağımı istəyirdi. Məndən beş yaş böyük idi, 25 yaşı vardı, amma üzündən 17-18 yaşlı bir gənc kimi görünürdü. Məsum və zərif üzü vardı. Həmin gün ağ köynək və sarımtıl şalvar geyinmiş, köynəyini şalvarın üstünə salmışdı. Təəccübüm iki-üç dəqiqədən çox çəkmədi və tez özümü yığışdırdım. Öz-özümə dedim ki, sən bu adamda elə bir şey görmüsən ki, ona arxalana bilərsən".**[2]

28 İyun hadisəsindən qırx gün ötürdü. Mərkəz xanımları Şəhid Behiştinin qırx mərasimində iştirak etmək və həyat yoldaşı ilə görüşmək üçün Tehrana gedəcəkdilər. Hər ikisi üçün əlverişli şərait yaranmışdı. Xüsusən də xanım Daipur mərkəzdə fəaliyyət göstərən xanımların məsələdən tez xəbər tutmalarını istəmirdi.

"Qırx mərasimindən sonra uşaqlar istirahət yerlərinə getmək üçün avtobusa oturdular. Mən Aminə Bəratiyə dedim ki, sizdən ayrılıb evə gedəcəyəm. Aminə elə bildi ki, anamı

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

[2] Həyat yoldaşı xanım Pərvin Daipurla müsahibədən.

görməyə gedirəm. Ona dedim: "Aminə, nişanımı yola verib gəlirəm”. Həm təəccübləndi, həm də sevindi. Dedim: “Bir nəfərlə ailə qurmaq barədə danışmışıq. İki-üç gün Tehranda qalacağıq, nişan bitən kimi qayıdacağam. Çalış, mən qayıdana qədər uşaqlar xəbər tutmasınlar”.

Evə getdim. Qulamhüseyn zəng vurub Tehrana çatdığını və məni anasının yanına aparmaq istədiyini söylədi. Mənə çox çətin idi; döyüş bölgəsindən gəlmişdim, adi həyatdan çox uzaqlaşmışdım. Gəldi və birlikdə Xorasan meydanına getdik. Oranı ilk dəfə idi görürdüm. Oraya çatanda günəş batmışdı. Yalnız hacıxanım evdə idi. O, çox ciddi və rəsmi şəkildə oturdu. Tez-tez mənə baxırdı. Qulamhüseyn çox çalışırdı ki, zarafatla münasibətimizi səmimiləşdirsin. Danışmağa nə mənim sözüm vardı, nə də hacıxanımın. İki saat orada qaldım. Anası bir neçə sual verdi, aramızda bir neçə sözlük söhbət baş tutdu. Ağır görüş idi. Onu başa düşürdüm, hansı oğlan və ya qız evə bir nəfəri gətirib ailə qurmaq istədiyini söyləsə, hər bir anaya pis təsir bağışlayar. Xüsusən də hacıxanım onu çox sevir, ona xüsusi məhəbbətini açıq bildirirdi. Qulamhüseyn onun sevimli övladı idi. Bunu onun qardaş və bacıları – Məhəmməd, Əhməd və Bətul da bilir və etiraz etmirdilər. Çünki onlar da Qulamhüseyni çox sevirdilər. Hacıxanım həmin axşam yad bir qızın birdən oğlu ilə evə gəldiyini gördükdə çətin duruma düşsə də, bunu büruzə vermədi. Mən əd çox pis vəziyyətdə idim. Çünki, ağır bir şəraitə düşmüşdüm və çətin anlar keçirirdim. Hacıxanım şam yeməyinə kotletlə kartof qızartması bişirmişdi. Sadə, amma olduqca dadlı xörək idi. [1]

Qərara gəldilər ki, ertəsi gün elçilik mərasimi baş tutsun. Xanım Daipur anasına xəbər verdi, amma anası çox ciddi

---

[1] Yenə orada.

şəkildə xatırlatdı ki, bəzi şərtlər həyata keçməyincə izdivaca razılıq verməyəcək və onların razılaşmasının heç bir əhəmiyyəti qalmayacaq.

"Hacıxanım, Bətul xanım və Qulamhüseyn bir gül buketi və şirniyyatla elçiliyə gəldilər. Ataları Təbrizdə idi. Anam, bacım və xalam bizdə idilər. Bətul xanım danışmırdı. Hacıxanım ənənəvi sözləri söylədi. Daha çox Qulamhüseyn danışdı, həm də çox yaxşı. O, ailələrin hörmətinin bizim üçün böyük əhəmiyyət daşıdığını vurğuladı. Öz anasına və mənim anama işarə ilə dedi ki, sizin fikrinizə tabeyik və hansı qərara gəlsəniz, bizə möhtərəmdir. Anam sakit qalmışdı, nə qədər baxırdımsa, heç nə danışmırdı. Mehriyyədən də söz düşmədi. Hacıxanım dedi ki, yüngül bir alış-verişə gedək. Onlar sağollaşıb gedəndən sonra anama dedim: "Bəs nə oldu? Nə üçün danışmadın?" Dedi: "Bilmirəm. Qəribə idi. Bu oğlan qapıdan içəri girən kimi məndə ona hörmət yarandı, dilim-ağzım bağlandı".[1]

Xanım Daipur Qulamhüseynlə və anaları ilə birgə bazara getdi. Alış-veriş də normal toy alış-verişi kimi olmadı.

**"Bir neçə yerdə ayaqqabılara baxdıq. Axırda bir cüt qara zamşla məsələ həll olundu. Digər şeylərə baxmağa başladıq. İstəyirdim ki, tez bitsin və işimizə qayıdaq. Hər ikimiz bezmişdik. Mənə dedi: "Gəldik ki, rahatlığımıza səbəb olan bir iş görək, daha pis ilişdik". Mən dedim: "Mən bunu əsla istəmirəm, elə bildim siz israr edirsiniz". Dedi: "Anam əmr etdi, mən də gəldim".**

**Güzgü və şamdan axtarmağa başlayanda dedim ki, hacıxanım, süfrə və mərasim olmayacaq. Çadra axtaranda dedim ki, öz çadram kifayət edər, o**

---

[1] Yenə orada.

**həngamədə çadranı neyləyirəm?! Paltar da həmçinin. Dedilər ki, ən azı, üzük alaq. Sadə bir üzük seçdim".**[1]

Qulamhüseyn istəyirdi ki, nikah əqdlərini İmam Xomeyni oxuyub kəbinlərini kəssin, lakin imkan olmadı. Danışdı ki, ovaxtkı parlament spikeri ağa Haşimi Rəfsəncani kəbini kəssin. 12.08.81 tarixində xanım Daipur qardaşı Məhəmmədlə və Qulamhüseynlə birgə İslami Şura Məclisinə getdi.

**"Spikerin ofisində təxminən üç saat oturduq. Mühüm bir iclas gedirdi. Hava yavaş-yavaş qaralırdı. Arabir ofisdən gəlib üzr istəyirdilər. Ağa Haşimi iclasın uzandığını görüb ağa Musəvi Xueynidən və ağa Bəyatdan kəbini kəsmələrini xahiş etdi. Ağa Musəvi mənim, ağa Bəyat da onun vəkili oldu və kəbin kəsildi. Nişan mərasimi belə sadə şəkildə baş tutdu və üç saat saxladığımız şirniyyat qutusunu açdıq".**[2]

Kəbin kəsiləndən sonra Qulamhüseynin atasıgilə yollandılar. Yolda baş vermiş bir hadisə xanım Daipurun yadından çıxmır.

**“Xorasan meydanına tərəf gedirdik. Xiyabanda çoxlu adam vardı. Qulamhüseyn birdən əyləcə basdı və heç bir söz demədən cəld maşından endi. Gördüm ki, maşın bir arabaçıya dəyib. Ona yaxınlaşıb dedi: "Necəsən? Qalxa bilirsən?" İnsanlara qarşı mehribanlığını gördüyüm yerlərdən biri ora idi. Hətta nişan gününün olması da diqqətini yayındırmırdı".**[3]

Toy mərasimi Qulamhüseynin atasıgildə sadə bir qonaqlıq şəklində keçirildi.

---

[1] Yenə orada.

[2] Yenə orada.

[3] Yenə orada.

**"Anamgilin evi kiçik olduğuna görə qonaqlıq iki axşam davam etdi, dostlar və qohumlar ayrı-ayrılıqda dəvət olundular. Ertəsi gün Qulamhüseyn mənə dedi: "Birgünlüyə şimala gedirik". Dedim ki, bal ayına? Güldü. Dedim ki, sağ-salamat gedin. Dedi: "Allaha and olsun, əgər bizimlə gəlməsən, maşını döndərib gedəcəyəm Əhvaza". Dedim: "Sən təzə gəlinlə 24 saatlıq səfərə çıxırsan, mən hara gəlim?!" Dedi ki, gərək gələsən. Xülasə, zorla oğlum Əli və yoldaşımla birgə onlarla getdik. Bizi Çalus korpusunun qərargahına apardı. Komandir olsa da şam yeməyimiz dörd kartof, dörd yumurta və bir çörəkdən ibarət oldu. Vəzifəsindən sui-istifadə etməyi sevmirdi. Səhər çağı qərargahdan çıxanda dedi: "Sən xaş yeməyi sevirsən, Pərvin də ciyər".**

**Bizə yaxşı səhər yeməyi təşkil edib axşamkının əvəzini çıxdı. Axşam Tehrana qayıtdıq. Bizi evimizə apardı. Nə qədər israr etdiksə, evə gəlmədi. Dedi ki, tez Əhvaza qayıtmalıyıq".**[1]

Onlar Əhvaza qayıdanda hələ ailə həyatları üçün evləri yox idi.

**"Mərkəz uşaqlarından üç-dördü özlərinin və ya qohumlarının evlərini təklif etdilər. Onların biri xanım Rükni idi. Onun iki bacısı mərkəzdə fəaliyyət göstərirdi. Xanım Rükninin Kavə bazarında bir mansardı vardı, girişi ayrı idi. Evin iki otağı, bir kiçik mətbəxi və tualet-hamamı vardı. Bizim mərkəzimizlə ondəqiqəlik məsafədə olduğuna görə oranı bəyəndim".**[2]

[1] Bacısı xanım Bətul Əfşurdi ilə müsahibədən.

[2] Həyat yoldaşı xanım Pərvin Daipurla müsahibədən.

Otaqlara palaz döşədilər, bir qaz ocağı və kiçik bir soyuducu aldılar. Hacıxanım Əfşurdi də bəzi vacib əşyaları alıb Əhvaza göndərdi. Müştərək həyata beləcə başladılar.

**"Oğlumun yoldaşı ilə münasibəti çox yaxşı idi. Xanımı da ona çox yaxşı həyat yoldaşı oldu. Xanımlar necə həyat yoldaşı olmağı ondan öyrənə bilərdilər. Oğlum bir neçə gecədən bir evə gedirdi. Xanımı tək qalırdı. Bir dəfə Bəsicdən gələndə evin işığının yandığını və ərinin gəldiyini görür. O qədər narahat olur ki, bunu çox acı bir hadisə kimi danışırdı. Deyirdi ki, evə ondan sonra getdiyimə görə çox pis oldum".**[1]

Gəlinin mehri iyirmicildlik "Vəsail əl-Şiə" kitabı idi. Qulamhüseyn onu dərhal alıb xanım Daipura verdi.

**"Qulamhüseyn İslam kitablarını çox sevirdi. Yadımdadır, bir müddət "Vəsail əl Şiə" kitabının nikah bölməsini oxuyurdu. Dəftərində bəzi qeydlər də var. O cümlədən Peyğəmbərin bu hədisini yazıb: "Əgər kişi xanımına onu sevdiyini söyləsə, o kişinin sevgisi heç vaxt xanımın qəlbindən çıxmaz".**[2]

İzdivac macərası Tehrana gedəndən Əhvaza qayıdana qədərki bir həftədə həll olundu. Bu, Qulamhüseyn Əfşurdinin şəxsi bir işdən ötrü yeganə məzuniyyəti idi. Ondan sonra cəbhəyə qayıtdı və ömrünün sonuna qədər oradan ayrılmadı.

---

[1] Anası xanım Kübra Əfşurdi ilə müsahibədən.

[2] Həyat yoldaşı xanım Pərvin Daipurla müsahibədən.

# *Müharibədə böyük yenilik*

Bəni-Sədrin gedişi ordu ilə korpusun bir-birinə yaxınlaşmasına səbəb oldu. "Allahu-əkbər" və "Ali Baş Komandan" kimi müştərək əməliyyatların uğurlu təcrübəsi daha geniş miqyasda davam edə bilərdi. Komandirlər ilk böyük əməliyyat üçün Abadanın mühasirəsinin yarılmasını təklif edirdilər. Xürrəmşəhrin işğalından sonra Səddamın ordusu Abadan şəhərinin yaxınlığına qədər gəlmişdi. Onlar korpusun, ordunun və xalq könüllülərinin müqaviməti ilə üzləşəndə geri çəkilməyə məcbur oldular, amma Abadan-Əhvaz və Abadan-Mahşəhr magistrallarının ətrafına yerləşdilər. Abadan 270 dərəcə formasında düşmənin mühasirəsində idi. Abadana yeganə yol dənizdən və Mahşəhr limanından idi.

Abadan şəhəri İraqla 12 min kv. km. uzunluğunda bir sərhədə malik olmaqla Xürrəmşəhrdən sonra ikinci mühüm şəhər idi. Digər tərəfdən, İmam Xomeyninin 5 noyabr 1980-ci ildə Abadanın mühasirəsinin yarılmasına dair fərmanı komandirlərə dini vəzifə sayılırdı. Lakin o günə qədər gecikirdi və ilk fürsətdə həyata keçməli idi. Buna əsasən, ölkə siyasətindəki dəyişiklikdən sonra cəbhələrdə də dəyişiklik yaratmaqdan ötrü hamının diqqəti Abadana yönəldi. Abadanın mühasirəsini yaran Saminül-əimmə əməliyyatı Həsən Baqirinin ulduz kimi parladığı növbəti əməliyyat oldu.

**"Saminül-əimmə əməliyyatında Həsən Baqiri üç mühüm rol ifa etdi: Biri budur ki, bütün əməliyyat bölgəsini, düşmənin harada olduğunu və zəif nöqtələrini çox yaxşı şəkildə öyrəndi. İkinci rolu əməliyyat planının hazırlanmasına aid idi: Əməliyyat Marid körpüsündən olsun, yoxsa Darxuin səmtindən? Yoxsa Mahşəhrə doğru gedək və əsas yer ora olsun? Yenə də Həsən Baqirinin**

**fikirləri çox təyinedici oldu. Həsən düşünürdü ki, əgər Karunun kənarındakı bu iki körpü istiqamətindən irəliləyib bir-birimizə yaxınlaşsaq, düşmən çox tezliklə məğlub olar. Bəzi komandirlər bu fikri bölüşmürdülər, amma əməliyyatdan sonra düzgünlüyü sübuta yetdi. Həsən Baqirinin üçüncü rolu bu idi ki, özü qalxıb mərkəzi qərargahdan çıxdı, üç cəbhədən birinə rəhbərliyi üzərinə götürdü. Yəni əməliyyatın icrasında və rəhbərliyində də müsbət rolu oldu. Bu üç rol Həsəni əməliyyatın mühüm fiquruna çevirdi".**[1]

Həsən Baqiri Abadan cəbhəsinin müxtəlif istiqamətləri və əməliyyat bölgəsində yerləşmiş düşmən hərbi birləşmələri haqda tam informasiya toplamışdı. Onun özü kəşfiyyatçı komandalarla birgə düşmən mövqelərinə gedirdi. Kəşfiyyatçılar onun rəhbərliyi və təlimi altında düşməni öyrənir, ən xırda məlumatları, hətta təmas xəttində və daha irəlidə olan səngərlərin və ağır texnikanın sayını qeyd edirdilər.

Saminül-əimmə əməliyyatının plan, manevr və digər iclasları yüksək rütbəli komandirlərin iştirakı ilə Xorasan diviziyasının qərargahında keçirilirdi. Həsən Baqiri o iclaslarda kəşfiyyat-diversiya komandiri və istiqamətlərdən birinin başçısı kimi iştirak edirdi. Onun eyni səviyyədə durduğu adamların bir qismi yüksək hərbi təlimlər keçmiş və onun yaşı qədər təcrübə toplamışdı. General-mayor Əzim Əzgəmi Saminül-əimmə əməliyyatı zamanı 77 saylı diviziyanın komandiri idi. Onun diviziyası 1981-ci ilin fevralında cənuba, Abadana köçürülmüşdü. O, 1932-ci ildə Somiəsəranın Əzgəm kəndində doğulmuş, Həsən Baqirinin dünyaya gəldiyi 1955-ci ildə hərbi akademiyaya daxil

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

olmuşdu. Əzgəmi Həsən Baqiri ilə həmin əməliyyatda tanış oldu.

**"Saminül-əimmə əməliyyatı üçün plan hazırlığına başlanmışdı. Şəhid Kolahduz, Şəhid Namcu, Şəhid Fəllahi, mərhum Zəhirnejad və korpus komandirləri qərargaha gəlirdilər və iclas keçirirdik. Həsən Baqirini ilk dəfə əməliyyat planına dair iclasda gördüm. O, iclasda ideal bir hərbçi kimi çox yaxşı məruzə etdi, düşmənin imkanlarını təfərrüatı ilə açıqladı. Elə oradaca qəlbimdə ona hörmət yarandı. O, tam informasiya ilə əməliyyatda iştirak edən hərbi birləşmələri yaxşı məlumatlandıra, əməliyyatın qələbəsində mühüm rol oynaya bildi. Bizimlə həmişə gülərüzlə danışırdı. Bu onun ordu zabitləri arasında xüsusi sevilməsinə səbəb olmuşdu".**[1]

Əməliyyat vaxtı çatdı. Komandirlər irimiqyaslı əməliyyatların birincisi olan Saminül-əimmə əməliyyatının son iclasında iştirak etmək üçün qərargaha yollandılar. Bu əməliyyat ölkənin ozamankı böhranlı siyasi şəraiti üçün böyük əhəmiyyət kəsb edirdi. Həsən Baqirinin istedad və bacarıqlarına şübhə etməyən ordu və korpus böyükləri onun əməliyyat barədə fikrini gözləyirdilər.

**"Həsən Baqiri həmin iclasda düşmənin vəziyyəti, coğrafi şərait, keçid və yollar barədə geniş məlumat verdi. Hətta bir növ əməliyyat qaydalarını diktə edirdi. İclas iştirakçıları onu heyrətlə dinləyirdilər. O, plan və icra baxımından əməliyyatın gedişini dəyişdirdi. İclasın ab-havası da tamam dəyişdi. Həsən Baqirinin təklifləri Saminül-əimmə əməliyyatında əsas kimi qəbul olundu".**[2]

---

[1] General-mayor Əzim Əzgəmi ilə müsahibədən.

[2] Cənub əməliyyat qərargahının Ərvənd qərargahındakı ozamankı nümayəndəsi Əmir Həyat Müqəddəmlə müsahibədən.

Həsən Baqiri düşmən komandirlərini yaxşı tanıyırdı. Onun təklifi ilə əməliyyatı Darxuindəki cəsur İraq komandirlərindən birinin məzuniyyətə çıxacağı günə saldılar.

**"Onun düşmənin briqada və batalyon komandirlərinə, Bəəs ordusunun strukturuna və hərbi potensialına dair məlumatları əməliyyat planını hazırlamağa kömək edirdi. Düşmən Darxuin istiqamətində yeddi müdafiə cərgəsi qurmuşdu və onlara güclü nəzarət edirdi. Həsən Baqiri 6 saylı zirehli briqadanın komandirinin məzuniyyətə çıxacağını öyrəndi və bu, əməliyyatı həyata keçirməyə əlverişli imkan yaratdı".**[1]

Abadanın mühasirəsini yarmaq üçün planlaşdırılan Saminül-əimmə əməliyyatı 1981-ci ilin 27 sentyabrında korpusun doxsannəfərlik 11 bölüyü və ordunun üçyüznəfərlik 2 batalyonu tərəfindən həyata keçirildi. Əməliyyat bölgəsi üç istiqamətdən ibarət idi: Həsən Baqirinin başçılıq etdiyi Darxuin cəbhəsi, Rəhim Səfəvinin başçılıq etdiyi Fəyyaziyyə cəbhəsi və Qulaməli Rəşidin başçılıq etdiyi Stansiya cəbhəsi. Həsən Baqiri öz istiqamətini azad edəndən və tapşırıqlarını bitirəndən sonra Rəhim Səfəvi ilə Rəşidin istiqamətinə köməyə getdi.

**"Ən mühüm və fəal istiqamət Darxuindəki şimal istiqaməti idi. Qardaş Baqiri onun məsuliyyətini qəbul etdi, əməliyyatdan öncə oraya yollandı, bütün xırdalıqları araşdırdı. Qardaş Həsənin tövsiyələri ilə həmin istiqamətə ən yaxşı yol tapıldı, nəinki düşmənin zirehli diviziyasının gücləndirilmiş mexaniki briqadası tamamilə mühasirəyə alınıb məhv edildi, hətta onun**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**başçılıq etdiyi şəxsi heyət digər iki istiqamətə kömək də etdi. Bütün bunlar qardaş Həsən Baqirinin zəhmətinin bəhrəsi idi".**[1]

Həsən Baqiri 1981-ci ilin oktyabrında qolf meydanındakı jurnalistlə müsahibədə Saminül-əimmə əməliyyatının detallarını şərh etmişdi. Həmin müsahibədən onun düşmənin vəziyyətinə və əməliyyat yerinə dair nə qədər məlumatlı olduğunu anlamaq mümkündür.

**"Düşmən bizim hücum edəcəyimizi və Darxuinin əsas hücum istiqaməti olacağını bilirdi. Buna görə də, şəxsi heyəti ayrı-ayrı cərgələrə bölmüşdü. Səkkizinci briqadanın tankları birinci cərgənin önündə tank və adam əleyhinə minalar basdırıb tikanlı məftillər çəkmişdi. Başqa bir mexaniki batalyon ikinci cərgədə, zirehli batalyon da üçüncü cərgədə yerləşmişdi. Biz bu nəticəyə gəldik ki, gərək düşmənə arxadan hücuma keçək. Çünki öndən 6 km uzunluğunda bir yoldan irəliləmək çətin olardı. O düzənlikdə ən yaxşı keçidlərdən biri olan Şadqan kanalından kəşfiyyat əməliyyatı həyata keçirildi.**

**Düşmən təhlükənin mümkünlüyünü duyub əvvəlki əməliyyat zamanı Darxuində darmadağın edilmiş üçüncü batalyonu bərpa etmiş və hücumdan 18 gün öncə üçüncü ən güclü ehtiyat istehkamında yerləşdirmişdi. Həmçinin əməliyyatdan üç gün öncə iki yeni istehkam qurmuş, səkkizinci briqadanın bir tank bölüyünü iki cərgə ilə oraya yerləşdirmişdi. Bu dəyişikliklərə baxmayaraq, bizim planımızda heç bir dəyişiklik baş vermədi, eyni zamanda düşmənin hər üç qüvvəsinə hücum olundu. Döyüşçülərimiz gecə saat 1-də düşmən istehkamına**

[1] General Qulaməli Rəşidlə müsahibədən.

**hücuma keçəcəkdi. Allahın köməyi ilə qardaşlar görünmədən düşmənin Səlahəddin istehkamının 200-300 metrliyinə qədər irəlilədilər. Həmçinin korpusun mühəndis-istehkam bölüyündəki qardaşlar çox zəhmət çəkib düşmənin yeddi mina sahəsini açdılar.**

**Düşmən zirehli və piyada birləşmələri ilə bir neçə dəfə əks-hücuma təşəbbüs göstərdi, amma hər dəfə İslam döyüşçülərinin müqaviməti ilə üzləşib geri çəkildi. Belə təkrar əks-hücumların bəzisi o qədər güclü olurdu ki, döyüşçülərimiz bir qədər geri çəkilir və xəsarət alırdılar.**

**Qardaşlar 7 km irəliləyib doqquz cərgəli istehkamdan keçdilər. Düşmən qüvvələri bölgəyə səpələnib nəzarətdən çıxdığından tanklarla körpü yollarını açmaq üçün təzyiq göstərirdilər. Bizim döyüşçülərimiz Həffar və Qəsəbə körpüləri arasında dəfələrlə mühasirəyə düşdülər. Arabir bir neçə tank hücuma keçir, bizimkilərin müdafiəsi ilə üzləşəndən sonra geri qayıdırdı və başqa tanklar gəlirdi. Əvvəlcə oradakı batalyon komandiri təslim oldu, sonra otuz tankdakı çoxlu düşmən hərbçisi. Nəhayət, düşmən mövqeləri müxtəlif cəbhələrdə süqut edəndən və aralarındakı əlaqə itəndən sonra işğalçı qüvvələr məğlubiyyəti qəbul etdilər".**[1]

Bu əməliyyatda Həsən Baqiri kreativ bir tədbirə əl atdı. O, əməliyyatdan öncə neft şirkətinin əməkdaşları ilə danışmışdı ki, neft boruları ilə Karun çayına çoxlu xam neft axıtsınlar. Bir-iki santimetr qalınlığında neft Karunun şimalından cənubuna doğru axırdı. O qədər neft yanmağa başlayanda isə tüstü düşmənin gözünün önünü tutdu.

**"Bütün əməliyyat zonasını qara tüstü bürüdü. Bu, düşmənin ürəyinə vahimə salmaqla bərabər onu əməllicə**

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

**çaşdırdı. Bu tədbir işə yaradı. Həmin gün ratsiyaları dinləyirdim. Zirehli bir birləşmənin komandiri öz komandirinə deyirdi: "Bura elə zülmətdir ki, yolu itirmişəm". Bu, Həsən Baqirinin kreativ təbdiri idi. O, əməliyyat mütəfəkkiri idi".**[1]

Əsgər Kazimi Saminül-əimmə əməliyyatında batalyon komandiri idi. O, korpusun yarandığı ilk günlərdən ona qoşulan şəxslərdəndir. Kazimi 1981-ci ilin əvvəllərində Şəhid Səyyad Şirazinin başçılığı altında təlim keçdiyinə görə Saminül-əimmə əməliyyatında korpusla ordu arasında əlaqələndirici idi. O, Həsən Baqirini hər bir məsələyə çıxış yolu tapan bir şəxs kimi xatırlayır.

**"Biz ordu hərbçilərinin "plan oxumaq" və "peyk fotosu" kimi bəzi ifadələrini başa düşən ilk pasdarlardan idik. Həsən Baqiri problemləri həll etmək qabiliyyətinə malik idi. Mən bir dəfə də görmədim ki, hansısa bir idarə və ya əməliyyat işi barədə Həsənə müraciət edək və o, məsələnin həllindən ötrü bizə düstur verməsin. Misal üçün, kiçik bir xəritəni böyütmək istəyirdik. Zahirdə sadə görünən bu məsələ üçün də Həsən yol göstərdi: "Xəritəni böyütməkdən ötrü pantoqrafdan istifadə edin".**

**O vaxta qədər belə bir söz eşitməmişdik. Araşdırıb bildik ki, bir-birinə yapışdırılmış və bir başında iynə olan iki xətkeşdən ibarət bir alətdir. Hətta sadə idari məsələlərdə də aktiv beynindən kömək alırdıq".**[2]

---

[1] Abadanın ovaxtkı əməliyyat qərargahının komandiri Əbdülhəsən Bənadiri ilə müsahibədən.

[2] Müharibə illərində Fəth, Kərbəla, Xatəmül-ənbiya, Ramazan və Nuh qərargahlarının əməliyyat komandiri olmuş General Əsgər Kazimi ilə müsahibədən.

Saminül-əimmə əməliyyatında bir qədər düşmən tankı ələ keçirildi. Korpus qüvvələri əməliyyat bitəndən dərhal sonra bütün qənimətləri geriyə - Darxuinə apardılar. Bu işə Fətulla Cəfəri rəhbərlik edirdi. O bu barədə Həsən Baqirinin fikrini öyrənmək istəyirdi. Həsənin fikri bu idi ki, həmin texnika və silahlar anbara yığılmasın, planlı şəkildə lazımi yerlərdə istifadə olunsun. Cəfəri bu barədə bir təklif hazırlayıb qolfa yola düşdü.

**"Müharibə otağına Həsən Baqirinin yanına getdim. Otağa və xəritələrə baxmağa başım qarışdı. Həsən diqqətimin başqa yerdə olduğunu görüb bir bəhanə ilə bayıra çıxdı ki, rahat baxa bilim. On dəqiqədən sonra gəlib dedi: "Yaxşı, nə etmək istəyirsən?"**

**Bir planımın olub-olmadığını bilmək istəyirdi. Sözümü deməyə şərait yaratdı. Dedim ki, biz də bir zirehli batalyon yaradaq, korpusun da zirehli hərbi birləşməsi olsun və ordudan asılı olmayaq. Deyəsən, "ordudan asılı olmayaq" sözündən xoşu gəlmədi. Sonralar öyrəndim ki, belə sözləri xoşlamır, işi ixlasla və ilahi niyyətlə gördüyünü anlayanda yaxşı qarşılayır. Dedi ki, get, yenə bir qədər fikirləş, növbəti iclasda danışarıq.**

**Növbəti iclasda soruşdu: "Nə hazırladın? Layihən hanı?" Dedim ki, layihə üzərində fikirləşdim. Dedi: "Gərək kağız üzərində gətirəsən. Yazılmamış layihə barədə danışa bilmərik". Soruşdu ki, de görüm nə etmək istəyirsən? Dedim ki, düşməndən götürdüyümüz tanklardan növbəti əməliyyatda istifadə edək.**

**Bu sözdən xoşu gəldi. Mənə dedi: "Seyid Əli Hüseyni ilə əməliyyat bölgəsinə get. Bu əməliyyat barədə heç kimə bir söz deməyin. Get, oranı dəqiq öyrən, gör bu texnika hansı hissəsində işə yarayar".**

**Seyid Əli Hüseynini tanıyırdım, Məşhəddən idi, bölgəni yaxşı tanıyırdı. Həsənin yetirməsi olan çox yaxşı, məlumatlı və həvəskar bir gənc idi. Yanında xorasanlı uşaqlardan üç nəfər də vardı. Birlikdə yumşaq qumlu bölgəyə getdik. Ayaqqabılarımızın içi qumla doldu. Ayaqqabıları çıxarıb uzun yol getdik. Ayaqlarımız qumda yeyilirdi. İki gün orada kəşfiyyatla məşğul olduq. Mənim üçün dəyərli təcrübə idi. Əvvəl elə bilirdim ki, orada əməliyyat keçirmək imkansızdır. Həsən deyirdi: "Düşmən də belə fikirləşir və buranı yaddan çıxarır".**[1]

Fətulla Cəfərinin getdiyi yer Bostan şəhərinin şimalındakı qum təpələri idi. Onun əhəmiyyəti iki aydan sonra Qüds yolu ("Təriq-əl Qüds") əməliyyatında özünü göstərdi.

## *Qüds yolu qalasının açarı*

1981-ci ilin oktyabrı İmam Xomeyninin hərbi sahəyə dair iki fərmanı ilə yadda qaldı: Möhsün Rzayi Keşikçilər korpusunun baş komandanı, Əli Səyyad Şirazi də Müdafiə nazirliyinin Quru Qoşunlarının komandanı təyin olundu. Möhsün Rzayinin 27, Səyyad Şirazinin də 36 yaşı vardı və Quru Qoşunların ozamankı yüksək rütbəli komandirlərindən çox gənc idi. İmam Xomeyninin gənclərə etimadı özünün ilk parlaq nəticəsini iki aydan sonra, Saminül-əimmə əməliyyatından daha böyük və daha geniş bir əməliyyatda göstərdi.

Möhsün Rzayi Baş komandanlığının ilk günlərində ordunun Quru Qoşunlarına bir təklif irəli sürdü və Səyyad Şirazi bunu yüksək qiymətləndirdi. Təklif belə idi ki, biri korpusdan, biri də ordudan olmaqla iki plan qrupu böyük əməliyyat layihələri hazırlasınlar, onların araşdırmalarının

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

nəticələri korpusun Baş komandanı və ordunun Quru Qoşunlarının komandanı tərəfindən müzakirə edilib qərar çıxarılsın. Həsən Baqiri, Rəhim Səfəvi və Qulaməli Rəşid korpusun, Polkovnik Musəvi Qəvidel, Polkovnik Müfid və hərbi akademiyanın üç müəllimi ordunun Quru Qoşunlarının plan qrupunu təşkil etdilər.

Xuzistana genişmiqyaslı hücumun əvvəlində İraq ordusunun yollarından biri sərhəd zastavasından Çəzzabəyə gedən yol idi. Onlar Çəzzabədən sonra Bostana doğru gedərək onu da işğal etmişdilər. Əməliyyat planı hazırlayanların məqsədi Bostanın, Çəzzabənin və ətraf kəndlərin birillik işğalına son qoyub rəsmi sərhədə qədər irəliləmək idi. Bu məqsəd həyata keçsəydi, düşmən mövqelərinin bir-birilə əlaqəsi itəcək və işğal təhlükəsi Əhvazdan birdəfəlik uzaqlaşacaqdı. Əvvəldə əməliyyatın adını Vəliyyullah qoymuşdular.

**"Planın adı Vəliyyullah idi. Həsən Baqiri ordu və korpusun müştərək şurasında dedi ki, ona Kərbəla adını qoysaq, daha yaxşı olar. Bu təklif ordunun Quru Qoşunlarının komandanı Səyyad Şirazi tərəfindən dərhal qəbul olundu. O, əlavə etdi ki, cənub və qərb cəbhələrində düşmən əleyhinə çoxsaylı əməliyyatlar planlaşdırıldığına görə onlara say da əlavə etmək lazımdır".**[1]

Həmin iclasdan sonra növbəti əməliyyat Kərbəla-1 əməliyyatı adlandı. Lakin sonra bu ad da dəyişdi. Bu əməliyyat İslam döyüşçülərinin sərhədə çatacaqları ilk əməliyyat olduğuna, düşməni İraq torpaqlarında da təqib edəcəyinə görə düşmən bu addan İran İslam Respublikası əleyhinə əks-təbliğat məqsədilə istifadə edə bilərdi. Bu

---

[1] General-mayor Sirus Lütfi ilə müsahibədən.

baxımdan, Əli Şəmxaninin və Qulaməli Rəşidin təklifi ilə əməliyyata Qüds yolu adı verildi.

Həsən Baqiri əməliyyatdan altı ay öncə Bostanda və Süsəngirdin qərbində qısa kəşfiyyat əməliyyatlarına başladı. O, Bostanın şimalındakı qum təpələrinə dəfələrlə getdi. Nəbəə adlanan təpələr təxminən 60 metr hündürlüyündə üç əsas təpədən ibarət idi və Çəzzabənin şimalına qədər davam edirdi. Həsən əməliyyat başlayan kimi düşmənin Çəzzabədəki dəstək yolunu bağlamağa yol axtarırdı. Fikirləşdik ki, həmin təpələr bu taktikanı həyata keçirməyə yaxşı vasitə ola bilər. O, Seyid Əli Hüseyniyə yolu dəqiq öyrənməyi tapşırdı. Seyid Əli Hüseyni tabeliyində olan kəşfiyyatçılarla birgə Həsən Baqirinin nəzarəti altında gecə-gündüz işləməyə başladı. Onun kəşfiyyatçılarından biri Məcid Təvəkküli idi.

**"Şəhid Seyid Əli Hüseyni ilə işləyirdim. Qüds yolu əməliyyatı ərəfəsində üç ay Həsən Baqirinin nəzarəti altında Bostanın şimalında Bostan və Mışdağ qumları üzərində, düşməndən 25 km arxada kəşfiyyat əməliyyatları keçirirdik. Bu müddətdə bircə dəfə də geri qayıtmadıq. Yavaş-yavaş əməliyyat şəraitinə yaxınlaşdıq. Həsən Baqiri deyirdi: "Topladığımız informasiya o qədər dəqiqdir ki, göydən çəkilmiş fotolarla eynidir".**[1]

Onlar Həsən Baqirinin tövsiyələri ilə qumlu bölgənin 25 km-liyində gizli müşahidə yerləri yaradıb düşmən mövqelərini nəzarətə götürə bilmişdilər. Müşahidə yerləri düşmənin Çəzzabədən Bostana qədər bütün hərəkətlərini görürdü. Həsən Baqiri bu yol barədə Rəhim Səfəvi və Qulaməli Rəşidə məlumat verdi. Növbə ordu ilə korpusun

---

[1] Qüds yolu əməliyyatında xorasanlı döyüşçülərin kəşfiyyat-diversiya komandirinin müavini Məcid Təvəkküli ilə müsahibədən.

müştərək qərargahında son planlamaya çatdı. Korpus qumlu bölgədən istifadə edib düşmənə arxadan hücuma keçməyi təklif etdi. Plan ilk baxışdan yanlış görünürdü. Ordunun plan qrupunun bəzi üzvləri tərəddüd etdilər, bəziləri də qəbul etmədilər. Həsən Baqiri öz təklifi üzərində israr edir, amma ordu nümayəndələrinin əksəri razılaşmırdı. Həsən Baqiri təklif etdi ki, 92 saylı zirehli diviziyanın komandiri Polkovnik Məsud Münfərid Niyakini qumlu bölgəyə və gizli müşahidə yerlərinə baxmağa aparsın; o, əmin olsa, əməliyyat planı qəbul olunsun. Polkovnik Səyyad Şirazi bu təklifi dərhal qəbul edib Polkovnik Niyakiyə müvafiq göstəriş verdi. Qulaməli Rəşid də onlarla getdi.

**"Bir SUV avtomobili ilə yola düşdük. Avtomobili Həsən Baqiri idarə edirdi. Hərdən maşın quma batırdı və onu itələyirdik. Nəhayət, gizli müşahidə yerlərinə çatdıq. Seyid Əli Hüseyni yerdən, Həsən Baqiri də həm yerdən və həm plan üzərindən vəziyyəti açıqlamağa başladı. Polkovnik Niyaki gizli müşahidə postundan durbinlə düşmənə, onun imkanlarına və döyüş düzülüşünə baxdı. Düşmən mövqelərinin içində olan və ümumi Çəzzabə boğazı bölgəsinə nəzarət edən üçüncü posta çatanda Polkovnik Niyaki bölgəyə baxmadan geri döndü və arxası qumlara doğru yarımqalxmış vəziyyətdə dedi: "Qardaş Rəşid, qəbul etdim".**

**Axşam müştərək qərargaha getdik və baxışın nəticəsi məruzə olundu. Polkovnik Niyaki Polkovnik Səyyad Şiraziyə eynilə bu cümləni söylədi: "Qurban! Korpusun təklif etdiyi əməliyyat planı uğurludur".**[1]

Bu məruzədən sonra hamı əmin oldu və əməliyyat planı qəbul edildi. İclas iştirakçılarından biri də General Lütfi idi.

---

[1] General-leytenant Qulaməli Rəşidlə müsahibədən.

**"Həsən Baqiri planı biryönlü manevrdən əhatəli manevrə dəyişdi. Niyaki məruzəyə gələndə o qədər heyrət içində idi ki, gözləri bərəlmişdi. O, tez-tez təkrarlayırdı ki, mən qalib gələcəyimizə əminəm. Ondan soruşdum ki, nə oldu, orada nə gördün. Mənə dedi: "Qardaşlar məni düz düşmən qoşunlarının arxasına apardılar. Biz hətta az canlı qüvvə ilə də hücuma keçsək, düşmənin işi bitəcək". Bu kəşfiyyatdan sonra Müdafiə nazirliyinin hərbçiləri ilə korpus hərbçiləri arasında əlaqə daha da gücləndi".**[1]

Bu layihədə mühüm məsələ tankları qum təpələrindən keçirmək idi. Saminül-əimmə əməliyyatından sonra Fətulla Cəfəri oraya bir qədər tank aparıb yoxlamışdı. Bəzi tanklar təpələrin arasından keçir, amma yamacda tırtılları qırılırdı. Seyid Tağı Rəzəvi, Seyid Məhəmməd Laləzar və Əbülfəz Həsənbəyi kimi mühəndislər qumların arasından 20 km uzunluğunda torpaq yol saldılar.

Əməliyyatın zəruri işlərindən biri döyüş düzülüşünü təşkil etmək və könüllü döyüşçüləri idarə etmək idi. Möhsün Rzayi bu işi Həsən Baqiriyə tapşırdı. Həsən əvvəldə beş briqada hazırlamağı planlaşdırdı, amma axırda üç briqada yarandı. O, başqa briqadalar da yaratmaq istəyirdi, onlara rəhbərlik üçün bəzi şəxsləri dəyərləndirirdi. Korpusun ilk briqadalarının adları da bədahətən beyninə gəldi. Fəyyaziyyə cəbhəsində rabitə bölüyünün ovaxtkı komandiri Əlirza Rəzm Hüseyni bunu Həsən Baqiridən eşitmişdi.

**"Əməliyyatdan bir qədər öncə Həsən Baqiri məni çağırıb dedi: "Əlirza, korpusa batalyon yaradırıq, onlara rabitəçi hazırla". Dostlarım Məhəmmədəli İranmənеş və Əlirza Qüdsiməabla Həsən ağanın batalyonlarına rabitə sistemi hazırlamağa başladıq.**

---

[1] General-mayor Sirus Lütfi ilə müsahibədən.

**Bir gün onunla birlikdə Süsəngirdə gedəndə dedi: "Qərargahın iclasında hərbi qüvvələrin birləşdirilməsindən söhbət düşdü. Ordudakı qardaşlar dedilər ki, bizim briqadamız var, sizin nəyiniz var ki, birləşdirmək istəyirsiniz? Orada fikirləşdim ki, biz də briqada yaradaq. Aşura günləri olduğuna görə tez dedim ki, bizim də üç briqadamız var: Kərbəla, Aşura və İmam Hüseyn (ə)".** [1]

Həsən Baqiri əməliyyatdan bir gün öncə Nəbəə təpələrinə getmək üçün Seyid Sədun Musəvinin yanına yollandı. Seyid Sədun onda 13 yaşlı bir çoban idi. Müharibə başlayandan sonra gecələr döyüşçüləri iraqlıların mövqelərinə aparır, orada diversiya əməliyyatı keçirəndən sonra geri qaytarırdı. Həsən Baqiri Seyid Sədunla o günlərdə tanış olmuşdu. O, nənəsi ilə birgə Bostanda yaşayırdı, orada və Süsəngirddə düşmənə nəzarət edir, Həsən Baqiriyə məlumat ötürürdü. Yaşı az olduğuna görə iraqlılar ondan şübhələnmirdilər.

Əməliyyat ərəfəsində Həsən Baqiri əməliyyat yolunu son dəfə nəzərdən keçirmək üçün Seyid Sədunu özü ilə apardı.

**"Hava soyuq idi, sısqa yağış yağırdı. İkimiz də motosikletə mindik. Təpələrin üstündə yaxşı sürdüyümə görə motosikleti mən idarə edirdim. Darəlşiya yaxınlığında motosikleti təpənin aşağısına qoyub piyada qalxdıq. Kalaşnikov avtomatı və üç daraq patronumuz vardı. Həsən Baqirinin əlində yalnız plan vardı. O, təpənin üstünə uzandı, durbini götürüb iraqlılara tərəf baxmağa başladı. Onunla işim yox idi, ətrafa göz qoyurdum. Birdən ona baxanda ağladığını gördüm. Təəccübləndim. Ağlamalı bir şey yox idi. Dedim ki, ağa**

---

[1] Saminül-əimmə və Qüds yolu əməliyyatlarının rabitə komandiri olmuş Əlirza Rəzm Hüseyni ilə müsahibədən.

**Baqiri, nə üçün ağlayırsan? Durbini əlimə verib dedi: "Bax".**

**İraqlılarla məsafəmiz çox deyildi. Gördüm ki, qalın bığlı bir iraqlı əsgərlərə səngərin üstünə sellofan çəkmələrini əmr edir. Məni gülmək tutdu. Dedim ki, ağa Baqiri, ağlamalı bir şey yoxdur. Dedi ki, nə isə, mühüm deyil. Dedim: "Ağa Baqiri, nə üçün ağladığını bilmək istəyirəm". Yenə dedi ki, mühüm bir şey deyil.**

**Onda uşaq idim, Həsən Baqirinin necə böyük komandir olduğunu bilmirdim. Dedim ki, mən silahlıyam, sənsə silahsız; gərək deyəsən. Dedi: "Bu, başqa məsələ. Mən təslim!"**

**Mənimlə zarafat edirdi. Dedim ki, de görüm, nə üçün ağladın? Dedi: "Ağa Seyid, durbinlə baxdığın iraqlılardan ötrü ağlayırdım. Bu gecə onların hamısı öləcək. Bizim ilk hücumçularımız əvvəlcə bunların üstündən keçəcəklər, bunlarsa özlərini yağışdan qoruyurlar".**

**Həqiqətən, çox təsirləndim, kövrəlib onu öpdüm və dedim: "Əgər sən əməliyyat komandiri olsan, yüz faiz qələbə çalacaqsan və Bostan azad olunacaq". Mənə dedi: "İnşallah azad olunacaq, ağa seyid, Allahın köməyi ilə".**

**Qayıdanda məni komandir qərargahına apardı. Əməliyyat gecəsi idi, məxfi iclas keçirilirdi. Bütün komandirlər orada idilər. Onlar dedilər ki, bu, məxfi iclasdır, bu uşaq içəri girməməlidir. Həsən dedi: "Bu seyid bölgəni tanıyır, qoyun fikirlərindən istifadə edək". Məndən soruşdu: "Ağa seyid, şəxsi heyətin itməməsi üçün yolda necə nişan qoya bilərik?" Dedim: "Ağa, nişan işə yaramaz, düşər. İp də olmaz". Dedi ki, bəs nə lazımdır? Dedim: "Vallah, biz lampadan istifadə edirik, siz də ondan istifadə edin". Dedi ki, salavat deyin.**

**Biz sürünün yolunu tapmaqdan ötrü lampadan istifadə edirdik. Əməliyyatda da lampadan istifadə etdik, Mışdağın cənubundan Bostana qədər hər 500 metrdən bir kolların altına bir lampa qoyduq".**[1]

1981-ci ilin 29 noyabrında gecə yarısı komandirlərin ratsiyası səsləndi və "Ya Hüseyn" parolu ilə Qüds yolu əməliyyatı başlandı. Döyüşçülər Allahu-əkbər, Seyid Casim və Çəzzabə boğazı istiqamətlərindən əməliyyata başladılar. Lakin düşmənin tam mühasirəyə düşdüyü yer şimal istiqaməti, yəni Çəzzabə boğazı idi. Korpusun zirehli texnikası və piyada qüvvələr əməliyyatın ilk dəqiqələrində Çəzzabə boğazına çatıb düşməni mühasirəyə aldılar. Həsən Baqiri əməliyyatdan iki həftə öncə yeni yaradılmış zirehli hərbi birləşmənin komandiri Fətulla Cəfərini çağırıb hazırladığı son plan üzərində ona vəzifələrini tapşırmışdı.

**"Həsən Baqiri 1981-ci ilin 13 noyabrında dedi: "Əməliyyat başlayan kimi tanklarını Nəbəə təpələrindən Çəzzabə boğazına aparmalı, tankların top və pulemyotları ilə boğazı bağlamalısan. İkincisi isə İraqın İmam Əli (ə) tank batalyonunu ələ keçirib Əbu Çəlaç körpüsündə öz zirehlilərimizə əlavə etməlisiniz".**

**Plan üzərində həmin batalyonun imkanlarını göstərib əlavə etdi: "26 Saylı zirehli briqadanın komandiri Tariq Feyzidir. O, dayanıb müqavimət göstərən adam deyil; onun mövqeyinə gedə bilərsiniz. Lakin düşmənin yeganə keçidi Çəzzabə olduğuna görə orada sizinlə vuruşacaq. İşi elə qurmalısınız ki, duruş gətirə biləsiniz".**[2]

Nəbəə qum təpələrinə ayaq dəyməmişdi. Düşmən qumları keçilməz hesab edirdi. Elə bilirdilər ki, İslam döyüşçüləri

---

[1] 1969-cu ildə Bostanda doğulmuş Seyid Sədun Musəvi ilə müsahibədən.
[2] General Fətulla Cəfəri ilə müsahibədən.

Bostana getmək üçün Süsəngird-Sabilə magistralından, Çəzzabəyə getmək üçün də Allahu-əkbər, Yaşıl və ya Seyid Xələf təpələrindən keçəcək. Bu, hərbi baxımdan daha əlverişli idi. Düşmən düşünməzdi ki, iranlı döyüşçülər qum təpələrindən Çəzzabəyə girib onları mühasirəyə alarlar.

**"İyirmi tankla, yəni iki bölüklə boğaza girdik. Sakitlik idi. Mən tankların birində idim. Sürücü ağa Kərbasiyə dedim ki, irəlilə, onlarla vuruşaq. Digər tanklar arxamızca gəldilər. Düşmən tanklarının arasına girmişdik və onlar bizi özlərindən sayıb heç bir reaksiya vermirdilər. Piyada qüvvələrimiz də "Allahu-əkbər" qışqırıb hücuma keçdilər və oradakı iraqlılar qaçdılar.**

**Sübh çağı oraya təmiz bir SUV avtomobili gəldi. Sürücü bizi özlərindən zənn etdi, yaxınlaşanda isə korpus nişanını görüb qışqırdı: "İranlı!" Qaçmaq istəyəndə uşaqlar onu tutdular. O, İraqın 26 saylı zirehli briqadasının maliyyə işləri üzrə komandir müavini idi, üstündə bir çanta pul vardı. Başqa iki-üç maşın da xəbərsiz gəldi və içindəkilər əsir alındılar".**[1]

Əməliyyat planlaşdırıldığı kimi ilk məqsədlərinə nail oldu. Əməliyyatdan bir neçə saat sonra döyüşçülər Bostan şəhərinə girdilər və digər bölgələri azad etməyə zəmin yarandı. Əməliyyat komandiri Qulaməli Rəşid, müavini Həsən Baqiri olsa da, hərbi birləşmələri faktiki olaraq Həsən idarə edirdi.

**"Qüds yolu əməliyyatında mən komandir, Həsən isə müavinim olsa da, ratsiya onda idi. Görürdüm ki, daha qaneedici danışır, mənsə quru və ciddi idim".**[2]

---

[1] Yenə orada.

[2] General-leytenant Qulaməli Rəşidlə müsahibədən.

Komandir səngərində əməliyyatın bütün mərhələlərini izləyən Möhsün Rzayi Həsən Baqirinin rəftarlarını yaxından müşahidə edir, bacarıqlarını görüb vəcdə gəlirdi.

**"Gördüm ki, Həsən bir il öncəki Həsən deyil. O zaman mənə məlumat verir, məruzə göndərirdi. Bu Həsən isə kəşfiyyat bacarıqlarından əlavə çox yüksək əməliyyat rəhbərliyi qabiliyyətinə yiyələnmişdi. Ratsiyadan danışanda müavin kimi danışmırdı, söhbət tərzi əsl komandir kimi idi. Həmin əməliyyatda məni sevindirən amillərdən biri də Həsənin bu inkişafı idi. Bundan olduqca həzz alırdım, fikirləşirdim ki, Allaha şükür, güclü kadrlarımız var. Mən iki ay idi Baş komandan olmuşdum və elə adamlar axtarırdım".**[1]

Əməliyyatın üçüncü axşamı xəbər verdilər ki, iraqlılar ratsiyadan Sabilə körpüsünü ələ keçirməkdə olduqlarını məruzə edirlər. Bostanın cənub-qərb istiqamətindəki bu körpü ön xətt hesab olunurdu, komandir qərargahından 7 km aralıda yerləşirdi. Həsən Baqiri Sabilə körpüsünə çox əhəmiyyətli yanaşdığına görə dərhal bir avtomobilə minib oraya yola düşdü. Maşınlar gecələr təmas xəttində işıqlarını yandırmırdılar. Həsən oraya baş çəkəndən və lazımi tövsiyələrini verəndən sonra qayıdanda bir su maşını ilə toqquşub yaralandı. Qardaşı Məhəmməd onu Əhvaz xəstəxanasında görə bildi.

**"Başı dərindən yarılmışdı. Onu Tehrana göndərmək istəyirdilər. Yaşayıb-yaşamayacağı bilinmirdi. Birdən özünə gəldi. Gördüm ki, çətinliklə nəsə demək istəyir. Qulağımı ona yaxınlaşdırdım. Dediyi ilk söz bu idi: "Sabilə körpüsü nə oldu?" Mən dedim: "Sən hələ istirahət elə, yaxşı deyilsən".**

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

**Qolunda serum iynəsi vardı, tez-tez huşunu itirir və özünə gəlib deyirdi: "Uşaqlar o üçbucağı bərkitsinlər. İraqlılar oranı tutsalar, körpünü yenidən alacaqlar". Üç dəfə təkidlə tapşırdı: "Get, ağa Rəşidə de ki, diqqətiniz orada olsun".**[1]

Həsən Baqiri yaralanandan bir gün qabaq həyat yoldaşına zəng vurmuş, söhbət əsnasında demişdi ki, döyüşçülərin duaya daha çox ehtiyacları var. Xanım Daipur Xanımlar mərkəzinin üzvlərini toplamışdı və Təvəssül duası oxumuşdular. Bununla yanaşı, vücudunu qəribə həyəcan bürümüşdü, pis bir hadisə baş verdiyini hiss edirdi.

**"Evə getdim. Sakitləşmədiyimi görüb namaz qılmağa başladım. Dua və ibadət zamanı ürəyimdən qəribə bir dilək keçdi. Dedim: "İlahi! Onun şəhidliyinə mane olmaq istəmirəm, amma şəhid olacaqsa, ondan bir övladım olmasını istəyirəm. Övladını görsün, sonra getsin!"**

**Belə dualardan sonra gecənin yarısı yata bildim".**[2]

Sonradan məlum oldu ki, onun dua etdiyi an Həsənin yaralandığı an imiş. Xanım Daipur həmin həyəcanlarına görə bacılara tapşırmışdı ki, Həsən Baqirini gətirsələr, tez ona xəbər versinlər. Çox çəkmədən hadisənin xəbəri gəldi.

**"Sübh namazı vaxtı mərkəz uşaqlarından Zöhrə Şəhabi xəstəxanadan zəng vurub dedi ki, gəl, gətirdilər. Soruşdum ki, necədir? Dedi: "Beyni zədələnib, durumu naməlumdur".**

**Maşınım yox idi. Piyada yola düşüb özümü xəstəxanaya çatdırdım. Məhəmməd ağa orada idi. Məni görən kimi yol açdı. Başının üstə gedib salam verdim.**

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

[2] Həyat yoldaşı xanım Pərvin Daipurla müsahibədən.

**Məni adımla çağırdı. Salamımı cavablayandan sonra beyninin sağlam olduğuna əmin olub rahatlaşdım".**[1]

Həsən alnından dərin yara almışdı. Həkimlərin tövsiyəsi ilə onu İsfahana, sonra da Tehranın Şəriəti xəstəxanasına apardılar. Bu hadisə ilə eyni zamanda düşmən Bostanın cənubunda güclü hücuma başladı, Sabilə körpüsündən keçib Çəzzabə boğazını kəsdi. Möhsün Rzayi çox narahat oldu.

**"Düşmən cənubdan şimala, Həsən Baqirinin nəzarətində olan yerə keçib oranı tutmağa çalışırdı. Orada yolu aça biləcək şəxs Həsənin özü idi. Dostlara dedim ki, görün vəziyyəti necədir, xəstəxanadan çıxa bilər, yoxsa yox. Həkimlə birlikdə olsa da, gətirin, qərargahda otursun. Orada yaxından nəzarət və idarə edə bilsə, problemin həllinə kömək edər".**[2]

Həsən Baqiri də xəstəxanada qərarsız idi. Möhsün Rzayinin mesajını alan kimi dərhal ayağa qalxdı. Həkimlər deyirdilər ki, ən azı bir ay istirahət etməli, beyin sümüyü birləşməlidir, yoxsa daim başağrıları olacaq. O, həkimləri qane etdi ki, istirahət və müalicəsini qərargahda davam etdirəcək.

**"Qərargahdan hadisələri izləyirdi. Elə arıq və yaralı bədəni ilə çəkdiyi zəhmət insan təsəvvürünün fövqündə idi. Uzun müddət işlədiyinə və yuxusuz qaldığına görə bədəni dözmür, şəkəri düşürdü. Serum qoşandan bir neçə dəqiqə sonra cana gəlirdi, qolunda serum iynəsi olduğu halda deyirdi ki, bu işi görün, o işi görməyin".**[3]

Düşmən Sabilənin önündən geri çəkildi və Qüds yolu əməliyyatı tam qələbə ilə başa çatdı. Bütün müsbət

---

[1] Yenə orada.

[2] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

[3] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

nəticələrindən əlavə, bu əməliyyat sübut etdi ki, yaradıcılıq qüvvəsi ilə dəmir divarları aşmaq mümkündür.

**"Beynəlxalq sərhədlərə çatdığımız ilk bölgə Qüds yolu əməliyyat bölgəsi idi. Düşmən orada bacardığı qədər mina, kanal, tikanlı məftil və zirehli silahlardan ibarət dəmir divar çəkmişdi, onu aşmaq olduqca çətin idi. O qalanı yalnız kreativ bir fikirlə açmaq olardı. Biz onu "İmam Əlinin (ə) Xeybər zəfərindəki kreativliyi" adlandırdıq. O zaman Allah Rəsulunun (s) bütün komandirləri Xeybər qalasını aça bilməyəndə növbə Əmirəl-mömininə (ə) çatmışdı. Ondan soruşmuşdular ki, siz digərlərinin görmədiyi hansı işi görmək istəyirsiniz? İmam buyurmuşdu ki, mən bir yolla gedəcəyəm. Əksəri gülməyə başlamışdı. Bəziləri demişdilər ki, o, İslam döyüşçülərinin olan-qalanını da ölümə verəcək, İslam döyüşçülərindən heç birinin belə bir yolla Xeybər qalasına çatması mümkün deyil. Orada elə dərələr vardı ki, onlardan keçmək üçün saatlarla vaxt lazım idi. Biri də zarafata demişdi ki, oranın əqrəbləri Əlinin qoşununu sıradan çıxarmağa yetər. İmam Əli (ə) qətiyyətlə və ağıllı fikirlə Xeybər qalasını elə yerdən açdı ki, düşmən əsla nə baş verdiyini duymadı. Qaladakılar bir də başlarını qaldıranda İslam qoşununun başlarının üstündən qalaya girdiklərini gördülər. Qüds yolu əməliyyatı da belə oldu. Əgər döyüşçülərimiz cənub cəbhəsindən, Bostandan və ya Süsəngird istiqamətindən hücuma keçsəydilər, bir keçid də açıla bilməzdi. Bu, əməliyyatdan sonra bizə aydın oldu. Həsən Baqiri elə qumlu bölgə seçmişdi ki, yeriyəndə dizə qədər batırdın. Quruculuq cihadı təşkilatının uşaqları qum döşənəcəklər ixtira etmişdilər. Onlar torpağı qumla qarışdıraraq elə yol çəkmişdilər ki, düz hədəfə doğru gedirdi və göydən çəkilmiş fotolarda da**

**görünmürdü. Bütün bu işlərin əsas yükü Həsən Baqirinin üzərinə düşürdü".**[1]

***

Qüds yolu əməliyyatından sonra növbəti addımın dəfələrlə böyük olacağını hamı bilirdi. Korpus getdikcə böyüyür, yeni hərbi birləşmələrə komandirlər seçilirdi. Bu seçim zamanı problem yaranırdı. Onlar komandirlik məsuliyyətini qəbul etmir, deyirdilər ki, xalqın övladları bizim əlimizin altında şəhid olacaqlar, biz bu məsuliyyəti qəbul edə bilmərik. Onlar deyirdilər ki, biri komandir olsun, biz də ona kömək edərik. Həsən Baqiri bu barədə Möhsün Rzayi ilə danışdı. Sonda qərara gəldilər ki, komandirlər İmam Xomeyni ilə görüşsünlər. 1982-ci il yanvarın 16-da Həsən Baqiri və digər komandirlər Tehrana yola düşüb ertəsi gün səhər çağı korpusun baş qərargahına çatdılar.

**"İçəri girmək üçün korpus rəhbərliyindən qapıçıya icazə verilməli idi. Dedik ki, Həsən Baqiri və Rəşid korpus komandirləridir. Qapıçı dedi ki, komandir və qeyri-komandir fərq etmir. Bu zaman qapının altından korpusun binasına bir pişik girdi. Həsən qapıçıya dedi: "Pişik icazə almadan korpusa girdi!" Hamımız gülüşdük. Nəhayət, qapıçıya xəbər verildi və əməliyyat şöbəsində bir saat istirahət etdik. Baş komandanın əməliyyat üzrə müavini Hüseyn Kəlanimüqəddəm, ağa Rəhim və ağa Möhsün gəldi və Cəmarana yola düşdük. Oraya çatanda korpusun Ali Şurasının üzvlərinin və Kürdüstandan Nasir Kaziminin də gəldiyini gördük".**[2]

İmam Xomeyninin otağına təxminən iyirmi nəfər girdik. İmamın Qüds yolu əməliyyatı barədə ətraflı məlumatı vardı.

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

[2] General Fətulla Cəfəri ilə müsahibədən.

Bununla yanaşı, qərara gəldilər ki, bir nəfər əməliyyat barədə məruzə etsin. Bu iş Həsən Baqiriyə həvalə olundu. Cəld bir ağ kağız üzərinə əməliyyat planını çəkib imama izah etdi. İmam ona bir neçə sual verdi, Həsən də cavabladı. Sonra Möhsün Rzayi danışmağa başladı:

**"Ağa Möhsün imama dedi ki, əməliyyatlarda böyük uğurlar əldə olunub, biz artıq irimiqyaslı əməliyyatlara başlamaq istəyirik. Xalq könüllüləri yaxşı dəstək verirlər, təşkilat genişlənib, amma komandirlər tabeliklərində olan uşaqların şəhid olmalarından narahatdırlar. Onlar komandir yerinə sıravi döyüşçü olmaq və ya təhsillərini davam etdirmək istəyirlər. İmam Xomeyni buyurdu ki, bu işin sizin əlinizlə baş tutduğuna görə Allaha şükür etməlisiniz. Allah bu işdən ötrü sizi seçib. Şəhidlərin adları Allahın dəftərindədir. Siz kimin şəhid olduğu, kimin olmadığı ilə maraqlanmayın. Lakin ağılla, düşüncə ilə hərəkət edin. Özünüzü boşuna ölümə verməyin. Unutmayın ki, cəsarət başqa şeydir, dəlilik başqa şey.**

**İmam Xomeyni "Kaş mən də bir pasdar olaydım" cümləsini həmin görüşdə söylədi və əlavə etdi: "Siz nə edirsiniz, mən nə edirəm! Siz gedib İslam düşmənləri ilə vuruşursunuz, mənsə burada qalmışam, vuruşa bilmirəm. Öz qədrinizi bilin. Əsas odur ki, niyyətiniz ixlaslı olsun və Allaha şükür ki, belədir. İyirmi yaşlı bu gənclərin ruh yüksəkliyi insanı heyran edir. Məqsədimiz budur ki, Qərbin və şah sisteminin iflic etdiyi bu ölkəni İslama qaytaraq. Bundan başqa məqsədimiz yoxdur".**

**İmamın evini mühafizə etdiyim dövrdə olduğu kimi, yenə onun yanında dayandım. Uşaqlar bir-bir imamın əlini öpdülər. Həsən Baqiri dedi ki, dua edin, şəhid olaq. İmam buyurdu: "Dua edəcəyəm ki, qalib olasınız".**

**Axırda mən də imamın əlini öpəndə ağa Möhsün dedi: "Bu, bizim zirehli briqadanın komandiridir".**

**İmam gülümsədi. Bayıra çıxanda Həsən Baqiri dedi: "Sən imama təqdim etdiyimiz yeganə briqada komandirisən. Bunun qədrini bil".**

**Komandirlər imamla görüşdən və onun sözlərindən çox ruhlandılar, tərəddüdləri aradan qalxdı".**[1]

Görüşün sonunda Həsən Baqiri yadigar şəkil çəkdi.

**"Həsən Baqiridə həmişə fotoaparat olurdu. O, İmam Xomeyniyə dedi: "İcazə verirsiniz sizinlə bir şəkil çəkdirək?" İmam buyurdu: "Problem yoxdur".**

**İmam oturmuşdu. Uşaqlar cəld onun başına yığışdılar. Ağa Möhsün dedi: "Bəsicibazlıq eləməyin, bir az yavaş!" İmam buyurdu: "Eybi yoxdur!** [2]

## *Çəzzabə döyüşü*

Komandirlər İmam Xomeyni ilə görüşdən sonra daha böyük bir əməliyyata hazırlaşmaq üçün cəbhəyə qayıtdılar. Lakin bu zaman Çəzzabədən pis xəbərlər gəldi. İslam döyüşçülərinin tezliklə böyük bir əməliyyat keçirəcəklərinə əmin olan düşmən onları qabaqlamağa çalışaraq Çəzzabədə geniş bir hücuma başlamışdı. İraqlıların məqsədi Bostan şəhərini, başqa sözlə desək, heysiyyətlərini qaytarmaq idi. Onlar bu məqsədə çatmaqdan ötrü əsas zərbəni aldıqları yolu seçmişdilər. Çəzzabənin şimalında yerləşən və bundan öncə iraqlılar üçün əhəmiyyətsiz olan Nəbəə təpələri onların hücum hədəfi oldu.

---

[1] Yenə orada.

[2] Qüds yolu əməliyyat istiqamətlərindən birinin komandiri Hüseyn Kənani Müqəddəmlə müsahibədən.

**"İraqın 26 saylı zirehli briqadasının komandiri Tariq Feyzi Qüds yolu əməliyyatında mövqeyini tərk edib qaçmışdı. Onu edam etmək istəyəndə demişdi ki, mən Bostanı geri almağın yolunu bilirəm. O, əvvəlcə Çəzzabə və Nəbəəni, sonra da Bostanı ələ keçirmək istəyirdi".**[1]

İraq ordusu 1982-ci ilin 6 fevralında Çəzzabəyə doğru hücuma başladı, Nəbəə təpələrinin bəzi hissələrini ələ keçirdi və Mehdi Xadimüşşəriətin başçılıq etdiyi xorasanlı döyüşçülərin güclü müqaviməti ilə üzləşdi. Onlar ertəsi gün bütün təpələri ələ keçirib Bostana doğru irəliləməkdən ötrü Nəbəəyə mərmi və raket yağdırmağa başladılar.

**"Atəş o qədər güclü idi ki, heç kim tərpənə bilmirdi. Döyüşçülər bir səngərdən o birinə çətinliklə keçirdilər. Mövqe komandiri Həsən Əlimərdani birinci gün günortadan sonra şəhid oldu. Düşmənin hücumu get-gedə güclənirdi. Hər batalyon bir gündən artıq davam gətirmirdi. Müharibənin əvvəlindən o günə qədər düşməndən elə atəş görməmişdik. Gözəl və işıqlı Nəbəə qumları barıt və partlayışlardan qara təpəyə çevrildi, üzərində bitmiş gözəl yaşıl ağaclar quruyub yandı, ayaqyalın gəzdiyimiz təpə isti və iti qəlpələrlə doldu. Düşmən təpələrin başını ələ keçirmişdi, yamacda da səngərimiz yox idi. 7 Fevralda Nəbəədə təxminən 300 şəhid və yaralı verdik".**[2]

Oraya qida məhsulları və silah-sursat çatdırmaq, habelə şəhid və yaralıları oradan çıxarmaq mümkün deyildi. Düşmən yüksəkliklərdən yolları görür, tankları və təcili yardım maşınlarını vururdu. Xoşbəxtlikdən, buludlu hava onlara havadan bombardman imkanı vermirdi. Hamı

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

[2] Yenə orada.

gözləyirdi ki, axşam olsun, maşınlar qaranlıqda yemək və silah-sursat gətirib şəhid və ya yaralıları aparsınlar. Lakin düşmən əl çəkmir və nəyin bahasına olursa-olsun, Bostanı almağa çalışırdı.

Komandir qərargahına biri o birindən sonra acı xəbərlər gəlirdi. Nəhayət, Nəbəə yüksəklikləri düşmənin əlinə keçdi və vəziyyət olduqca ağırlaşdı. Həsən Baqiri döyüş yerinə gedib vəziyyəti yaxından dəyərləndirmək qərarına gəldi.

**"Qardaş hələ yaralı idi, kəllə sümüyü sınmışdı. Həkimlər ona operativ fəaliyyəti qadağan etmişdilər. O isə dözmədi. Bütün komandirlər onun qarşısını almağa çalışdılar, amma məhəl qoymayıb getdi. Bir neçə saatdan sonra qayıdıb oranın vəziyyətini açıqladı. Dedi ki, əgər bu yüksəklik iraqlıların əlində qalsa, çoxlu itki ilə bu cəbhəni boşaltmağa məcbur olacağıq və Qüds yolu əməliyyatının bütün əziyyətləri hədər gedəcək".**[1]

Həsən Baqiri düşmənin daha ağır hücumlara hazırlaşdığını bilirdi. O bilirdi ki, həmin gün düşmənin hərəsində 6 ədəd 108 topu olmaqla 18 artilleriyası eyni zamanda bizə doğru atəş açır. O, şəxsi heyətə təhlükəsiz sığınacaq düzəltməyin vacibliyini vurğuladı, göstəriş verdi ki, döyüş yerinə kisə göndərsinlər və yeni gedənlər qum kisələri ilə özlərinə səngər düzəltsinlər. Həmçinin Quruculuq cihadı təşkilatının mühəndislərindən yolun kənarında torpaq istehkam düzəltmələrini istədi. 8 Fevralda hələ hava işıqlanmamış korpusun yeni qüvvələri döyüş yerinə yollandılar və əvvəlkilər istirahət üçün piyada geri çəkildilər.

Ötən gecə düşmən də bekar oturmayıb mövqelərini bərkitmiş, canlı qüvvəsini və artilleriyasını artırmışdı. Hava işıqlanandan sonra düşmənin atəşləri başlandı. Atəş o qədər

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

güclü idi ki, heç kim hərəkət edə bilmirdi. Qəlpələr qum kisələrinə dəyir, kisələr cırılır, qumlar tökülür və səngər sıradan çıxırdı. Döyüşçülər çarəsiz qalıb təxminən 200 metr geri çəkildilər.

**"Güclü atəş altında birdən üstüaçıq bir SUV avtomobili peyda oldu. Bizə doğru gəlirdi. Təəccübləndik. Hətta düşmənin pulemyotu da bir an dayanmırdı. Bu səhnə yəqin ki onlara da qəribə gəldi. Yaxınlaşanda sükanın arxasında Həsən Baqirini gördük. Tez maşından endi, əyilmədən birbaş birinci istehkama gəldi. Məsud Pişbahar və Əlirza Rəzm Hüseyni də yanında idi. Onlar mövqeyi idarə etmək üçün ikinci istehkamda qaldılar. Həsən Baqiri şəhidlərə yaxınlaşdı, 15-16 yaşlı bir şəhidin yanında dayandı, gözləri doldu və dodaqaltı dua oxumağa başladı.**

**Döyüş yerinə gəlidiyinə görə narahat olduq. Batalyon komandirləri də etiraz etdilər. O, soyuqqanlılıqla səngərdə oturdu, oradakı komandirlərə düşmənlə mübarizə barədə məlumatlar verdi. Bölük komandirlərindən biri dedi: "Qardaş Baqiri, hansı şəxsi heyətlə vuruşaq?! Məndə heç kim qalmayıb". Təbəssümlə dedi: "Sizin bölüyə üç nəfər əlavə olundu".**

**Həsən Nəbəənin yaxşı göründüyü bir yerdə dayanıb dəstək atəşini düşmənin müşahidə və pulemyot səngərlərinə yönləndirdi. Atəş təsirli oldu və düşmənin atəşi azaldı. Onun gəlişi də şəxsi heyəti ruhlandırdı.**

**Həsən Baqiri oradakı batalyon komandiri ağa Pərviz Şərifi çağırıb dedi: "Düşmən işğal etdiyi təpədən bizim şimal bucağımızı təhlükə altında saxlayır. Ən yaxşı müdafiə hücumdur. Biz bu təpəni geri almalıyıq ki, ən azı Nəbəənin şimalından keçib yaralıları geri göndərə bilək".**

**O, bir manevr planı hazırladı, yerdə qumla Nəbəə təpəsinin və digər kiçik təpələrin maketini düzəltdi. İki cığır çəkib batalyon komandirinə dedi: "İki taqıma tapşır, bu cığırdan təpənin o biri tərəfinə keçsinlər və sakitcə oraya yerləşsinlər. Siz qarşıdan hücuma keçib döyüşə başlayanda onlar da arxadan hücum etsinlər".**

**Yaxşı plan idi. Batalyon komandiri həvəsləndi. Həsən Baqiri əlini onun çiyninə qoyub dedi: "Ən cəsur uşaqları seç, bu cığırdan təpənin şimalına keçib hücum etsinlər, ikinci taqım da düşmənin başını qarışdırsın. Əgər bunu etməyib eləcə istehkamın arxasında qalsanız, axşama qədər bütün şəxsi heyəti əldən verəcəksiniz".**

**Öz ratsiyasını, batalyon və taqımların ratsiyalarını bir ferekans üzərində tənzimləyib dedi: "Allaha təvəkkül edin, Ondan kömək istəyin".**

**Bəlkə də bütün döyüşçülər gənc olduqlarına görə Həsən Baqiri o əməliyyatı həzrət Əli Əkbərin (ə) şərəfinə "Ya Əli ibn Hüseyn" parolu ilə başladı. Həsən Baqirinin ruh yüksəkliyi şəxsi heyəti həvəsləndirdi. Həsən onlara təpənin şimalından yaxşı bir yol göstərmişdi. Bəəsçilərin döyüş düzülüşü şərqə doğru olduğuna görə bu onları çaşdıra bilərdi. İyirmi iki nəfərlik taqımlardan bəzi döyüşçüləri seçib iki yeni taqım yaratdılar: bir taqım şərqdən müdafiə və vuruşmaq üçün, digəri də təpənin şimalından hücuma keçmək üçün. Həsən dedi: "Yaxşı qumbaraatanlardan üçünü götürün, Nəbəənin aşağısından keçəndə yaxındakı düşmən səngərlərini vursunlar".**

**Döyüş bir saat davam etdi. Həsən Baqirinin ratsiya danışığından bildik ki, döyüşçülərimiz səhər işğal olunmuş təpənin üstünə çıxıblar. Təkbir səsləri bütün bölgəni bürüdü. Düşmənin məğlubiyyətindən sonra**

**atəşlər azaldı. Həsən Baqiri dəqiq müşahidəçi idi və atəşi yaxşı yönləndirirdi. Bizim minaatanlarımızın atəşləri də öz bəhrəsini verdi".**[1]

Üç gün də keçdi. İraq ordusu oraya çoxlu canlı qüvvə topladı. Bir batalyon səhər gəlib mövqeyi təhvil alır, axşam da yerini təzə nəfəsli bir batalyona verirdi. İraqlılar əməliyyatı dayandırmaq fikrində deyildilər. Həsən Baqiri qərara gəldi ki, şəxsən özü kəşfiyyata gedib bu böhranı sonlandırmağa bir yol tapsın. Əlimərdaninin şəhadətindən sonra Nəbəə mövqeyinə rəhbərliyi üzərinə götürmüş Fətulla Cəfəri bu əhəmiyyətli kəşfiyyatda Həsən Baqirinin yanında idi.

**"Həsən fevralın 12-də səhər tezdən qapısız, pəncərəsiz və üstüaçıq SUV avtomobili ilə döyüş yerinə gəldi. Maşının arxasındakı uzun anteni açıb yerinə qısa bir anten bağladı. Oturacağı qaldırdı, altında qısa qundaqlı bir kalaşnikov avtomatı vardı. Onu yoxladı, yanına bir neçə daraq patron, bir dördlitrlik qabda su, iki lobya konservi və bir qədər quru çörək qoydu. Bölgənin göydən çəkilmiş fotosunu və planını götürdü. Haraya hazırlaşdığını bilmək istəyirdim. Bunlar kəşfiyyat avadanlıqları idi. Danışıb dəvət etməsə də, mən də maşına oturdum. Heç bir söz deməyib yola düşdü. Onun Sədə boğazına gedəcəyini düşünürdüm, amma Çəzzabə boğazına doğru getdi. Qumluğa girdi və açdığımız yoldan keçdi. Həmin yol bir cərgə tank əleyhinə, bir cərgə sıçrayan minalarla dolu sahədən, bir cərgə də tikanlı məftillərdən keçirdi. Oradan Nəbəə təpələrinə qədər təxminən 6 km məsafə vardı. Nəbəənin şərqindən, ona paralel şəkildə gedirdik. Nəbəədən keçib düzənliyə**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

çatdıq. Sonra Nəbəənin şimalına doğru döndü. Dərənin içindəki yoldan və bir təpəcikdən cığıra girib dövrə vurdu. Nəbəə təpələrinin şimalında idik, getdikcə onlardan uzaqlaşırdıq. Hər iki tərəf təpə olduğuna görə heç bir yeri görmürdük. O, yolu yaxşı tanıyırdı, haradansa öyrənmişdi. Arxayın şəkildə sürür, dodaqaltı zikr deyirdi. Bir ağacın yanına çatdıq. Oraya qədər nə mən danışdım, nə o. Onunla getdiyimə görə sevinirdim. O da narahat görünmürdü. Avtomobilin təkərləri qumların üstündə xüsusi səs çıxarırdı.

Nəbəədəki atışmaların səsi uzaqdan eşidilən bir yerə çatdıq. Maşını oraya qoydu, planı, silahı, durbini, kompası və fotonu götürdü. Mən də silahımı çiynimə keçirdim, 1 km piyada yol getdik. Oranı tanımırdım, heç nə bəlli deyildi. İri addımlarla tez-tez yeriyirdi. Bir qum təpəsinin üzərində oturdu. Ətrafda heç nə görünmürdü. Durbini mənə verib dedi: "Bax, bir şey görünürmü?" Özü fotonu və planı açdı, qələmini çıxarıb işarə qoymağa başladı. Gəldiyimiz yol və cığırları xətlədi. Bildim ki, əvvəl də burada işləyib. Durbinlə baxıb İraq artilleriyasının Nəbəə səmtinə atəş açdığını gördüm. Maşınlar get-gəl edirdi, düşmən istehkamı yaxşı görünürdü. Soruşdu ki, nə görürsən? Dedim ki, iraqlıları. Zarafata dedi: "Doğru deyirsən?!"

Nişanları qoyandan sonra qollarını çırmayıb durbini götürdü və təxminən bir saat ətrafa baxdı. Qolu yorulmurdu. Subələ zastavasından Nəbəəyə qədər hər yerə baxırdı. Ondan sonra başqa bir yolla təxminən 800 metr də irəli getdik. İraqlıların önündə idik, ehtiyatla gedirdi. Başqa bir qum təpəsinə çatdıq. Orada da təxminən bir saat durbinlə baxıb işarə qoydu. Sonra bir qədər geri qayıdıb başqa bir cığıra girdik. Günorta oldu.

**İki saat yarım idi oralarda idik. Həsən namaz qıldı, mən də ona iqtida etdim. Qumun üzərinə səcdə edirdim. İki ikirəkətli namaz qıldıq. Səcdə, rüku və qünutu uzun oldu. Qünutda Kumeyl duasının bəzi hissələrini oxuduğunu eşitdim. Namazdan sonra maşına doğru getdik. Konservləri açıb quru çörəklə yedik. Mən üstündən bir stəkan su içdim. Dedi ki, xörəyin üstündən su içmə. Dedim: "O qədər susuzam ki, məkruhlar yadımdan çıxıb".**

**Yenidən başqa bir yolla hərəkət etdik. Təyyarədən çəkilmiş fotonu orada da önünə qoydu və bəzi şeylər yazdı. Alnının hələ tam sağalmamış yarası məzlum simasını gümrah göstərirdi.**

**Ondan sonra iki başqa yerə də getdik. Yenə fotonu çıxarıb nişanlar qoyur və yazırdı. Namazdan sonrakı yerlər də təxminən üç saat vaxt aldı. Oradan şərqə doğru getdik. Təxminən 1 km irəliləyib orada bir saat dayandıq. Günbatana yaxın əşyaları toplayıb dedi ki, gedək. Dedim ki, yenə başqa bir cığıra? Dedi ki, yox.**

**Həmin yolla qayıdıb Mehdi qərargahına çatdıq. Dedim ki, məni apardığına görə çox təşəkkür edirəm. Dedi ki, mən aparmadım, özün gəldin".**[1]

Fevralın 16-da Haşimi Rəfsəncani Bostana getdi. Bu, Səddamın Bostanın fəthinə dair iddialarına qarşı təbliğat səfəri idi. Onun gəlişi döyüşçülərin əhval-ruhiyyəsinə yaxşı təsir etdi. Lakin düşmənin amansız hücumları səngimək bilmirdi. Korpus və ordu komandirləri Ayətullah Haşimi Rəfsəncani ilə iclas keçirdilər. Hamı bu fikirdə idi ki, İraqın hücumları bizim növbəti əməliyyatlarımıza mane olmaqdan ötrüdür. Komandirlər Fəthülmübin əməliyyatından ötrü

---

[1] Yenə orada.

böyük zəhmət bahasına hazırladıqları bütün canlı qüvvəni oraya gətirmək istəmirdilər. Həsən Baqiri təklif etdi ki, Çəzzabənin azadlığını özü üzərinə götürsün və digər komandirlər Dezfulun qərbində işləsinlər.

Həsən Baqiri 18 fevralda axşam vaxtı komandirləri Mehdi qərargahına toplayıb iclas keçirdi. Kəşfiyyatçılar ən yeni xəbərlərini məruzə etdilər. Ertəsi gün səhər çağı əməliyyat zonasını son dəfə nəzərdən keçirmək üçün Nəbəəyə getdi. Xatirə dolu bu səfərdə Fətulla Cəfəri də iştirak etmişdi.

**"Təmas xəttinə doğru gedirdik. Elə bir yerə çatdıq ki, düşmən bizi görürdü və vura bilərdi. Bu zaman Nəbəənin üstündən avtomobilimizə doğru pulemyot atəşləri yağmağa başladı. Fikirləşdim ki, belə güclü atəşdən sonra qayıdar. Lakin mənə dedi: "Başını yandan bayıra çıxar, önə bax, təpələrə vurmayım".**

**Özü də digər tərəfdən başını çıxarıb baxır və sürürdü. Həmişəki kimi avtomobili qapı-pəncərəsiz və üstüaçıq idi. Qapının yerindən yola baxırdı. Pulemyot atəşləri altında təxminən 200 metr sürdü. Güllələr maşının yanından keçirdi. Nəbəənin aşağısına çatanda avtomobili ikinci mövqeyin arxasında qoydu və birinci mövqeyə qədər piyada getdik. Ağa Pərviz Şərif, Nurəli Şüştəri və xorasanlı döyüşçülər orada idilər. Onlarla danışıb dedi: "Bir müdafiə batalyonu hazırlayın, bir batalyonu da geri aparın ki, axşamkı əməliyyat üçün istirahət etsinlər".**[1]

Həsən Baqiri Mehdi qərargahına qayıdıb bir tərəfdə oturdu, planı və göydən çəkilmiş fotonu önünə qoydu, əməliyyat planı hazırlamağa başladı. Həmin gün axşamüstü iclas keçirildi. O, əməliyyatdan ötrü dörd batalyon hazırladı: Biri Nəbəədə əməliyyata, biri Nəbəənin yamacına, biri də

---

[1] Yenə orada.

Çəzzabəyə təyin olundu. Dördüncü batalyonun komandirliyini də öz üzərinə götürdü.

**"O zaman ən azı diviziya komandiri kimi işləyirdi, on beşdən çox batalyon onun əmri ilə hərəkət edirdi. Qardaşımın xarakteri belə idi ki, vəzifəsini yerinə yetirməyi ən vacib işi hesab edirdi, rütbə və vəzifə onun üçün əsla önəmli deyildi. Üç batalyon hazırlayıb dedi ki, dördüncü batalyonu da özüm idarə edəcəyəm. Hamı dedi ki, bu nə qərardır; sənin yol yeriməyə də taqətin qalmayıb. O isə sözünün üstündə durdu, Nəbəənin ən çətin bölgəsini ələ keçirəcək batalyona rəhbərliyi öz üzərinə götürdü. Bir ket tapıb geyindi və getdi".**[1]

Əməliyyatda hər birində 282 nəfər olmaqla üç batalyon iştirak edəcəkdi. Lakin orada başqa bir problem yarandı. Həsən Baqirinin batalyon komandiri olduğunu eşidən hər kəs onun batalyonuna düşməyə çalışırdı. İmam Rza (ə) briqadasının döyüş xəttindən istirahətə çıxmış komandir və döyüşçüləri əməliyyatda iştirak etmək üçün geri döndülər. Birdən batalyonun şəxsi heyəti 400 nəfərə çatdı. Həsən Baqiri xatırlatdı ki, batalyon döyüşçülərinin sayı bəllidir, heç kim əlavə olunmasın. Lakin hamı onun yanında vuruşmaq istəyirdi. Həsən Baqiri onları qane etməli idi. O, Kərbəlanı yada saldı, həzrət Əbəlfəzdən danışıb dedi ki, İmam Hüseynin (ə) tərəfdarları arasında ən cəsur komandir olsa da, imam ona xəncər vermədi, tuluq verib su gətirməyə yolladı. Ona kömək etməyə gəlmiş komandir və döyüşçülər bundan sonra qayıtdılar.

Həsən Baqiri əməliyyata hazırlaşan döyüşçülərlə də danışdı; dedi ki, Səddam Bostanı almaq istəyir, Ayətullah Haşimi Rəfsəncani isə Bostana gəlib orada çıxış etdi.

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

Quruluşun heysiyyəti təhlükədədir. Sonra dedi ki, gərək Aşurada olduğu kimi vuruşasınız. Həmişə arzuladığınız Aşura bu gecədir. Həmin əməliyyat təqvalılar mövlasının adından ibarət parolla başladı.

**"Batalyon komandirlərinin rabitəçiləri vardı. Ratsiyanı bir nəfərin kürəyinə bağlayır, dəstəyilə danışırdılar. Həsənsə ratsiyasını öz kürəyinə bağlayıb batalyon komandirlərinə ferekans verdi. Öz ratsiyasının ferekansını da tənzimlədi. O, həmin əməliyyatda 44 kodu ilə danışırdı.**

**20 Fevral 1982-ci il daxil olandan bir neçə dəqiqə sonra ratsiyadan Həsən Baqirinin səsi eşidildi. Batalyon və taqım komandirlərini çağırıb "Ya Əli, ədrikni" sözlərindən ibarət əməliyyat parolunu söylədi. Qərb istiqamətindən mülayim bir külək əsirdi. Bölgədə sakitlik idi. Birdən Nəbəə təpələrinin yamacından atəş səsləri gəldi. Düşmənin üzü Bostana doğru idi. Həsən Baqirinin batalyonu onlara arxadan hücum etdi. İraq hərbi birləşmələri arxa tərəfdən hücum gözləmirdilər. Onların döyüş düzülüşü şərqə və Bostana doğru idi, bizimkilərsə qərbdən onlara hücum etdilər, geriyə yolu bağladılar və 30-45 dəqiqə ərzində cəld Nəbəə təpəsini ələ keçirdilər. Təpədə İraqın 31 saylı briqadasının xüsusi təyinatlı bir batalyonu vardı. Həsən Baqiri digər üç batalyonu Nəbəə mövqeyinə yönləndirmədi, təpənin cənub küncündən bir dəlik açıb düşmən istehkamının arxasına göndərdi, şərq yerinə onlara şimaldan hücuma keçdilər. Yəni onlara qarşıdan deyil, dövrə vurub digər tərəfdən hücum etdilər. Döyüş sübh namazına qədər davam etdi. Hələ**

**hava işıqlanmamış döyüşçülərimiz Nəbəə təpələrini ələ keçirdilər".**[1]

Əməliyyat qələbə ilə başa çatdı. Hələ müalicə dövründə olan Həsən Baqiri Nəbəənin üstündə rahat nəfəs aldı. Kəşfiyyatçı uşaqlar ratsiyanı kürəyindən açdılar, qolundan tutub qum təpələrindən endirdilər.

**"Günəş yenicə çıxmışdı ki, onu taqətsiz halda gətirdilər. Ayaq üstə dayana bilmirdi, amma işini görmüşdü. Allahın lütfü ilə Çəzzabə problemi həll olundu və biz Fəthülmübin əməliyyatına hazırlaşmağa başladıq".**[2]

Təqvalılar mövlası əməliyyatı Qüds yolu əməliyyatından az əhəmiyyətli deyildi. İraqın dördüncü korpusunun komandiri General-leytenant Hişam Sabah Fəxri Çəzzabəyə hücumuna və İran mövqelərini keçib Nəbəəni tutduğuna görə Səddamdan medal almışdı. 26 Saylı zirehli briqadanın komandiri Tariq Feyzi Qüds yolu əməliyyatında döyüş yerindən qaçdığına görə edam ərəfəsində idi. O, ölümdən qurtulmaq üçün Bostanı geri alacağına söz vermişdi, amma Təqvalılar mövlası əməliyyatında yaralandı. İraqın 33 saylı xüsusi təyinatlı briqadasının da əməliyyatda böyük rolu olmuşdu və sonda onun bir batalyonu tamamilə məhv edildi.

## *Böyük zəfər*

İraq ordusunun əks-hücumlarını dəf etməkdən ötrü Nəbəədə və Çəzzabə boğazında baş tutan Təqvalılar mövlası əməliyyatından sonra komandirlərin iclasında Qüds yolu əməliyyatını davam etdirmək məsələsi gündəliyə çıxdı. Onlar bu nəticəyə gəldilər ki, əməliyyat üçün ən uyğun yer

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

[2] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

Şuş və Dezfulun qərbidir. Nəzərdə tutulan bölgə 3400 kv km olmaqla Qüds yolu əməliyyat zonasından təxminən iki dəfə böyük idi. Həsən Baqiri Qüds yolu və Çəzzabə əməliyyatlarını keçirərkən də növbəti əməliyyatları unutmamışdı. O, bir aydan qısa müddət ərzində Fəthülmübin bölgəsinə dair məlumatlarını təkmilləşdirdi, kəşfiyyat əməliyyatlarının dəqiq məruzələrini, habelə ordu və korpus komandirlərinin fikirlərini toplayaraq son əməliyyat planını hazırladı. O bu barədə deyirdi:

**"Əməliyyatın orada keçirilməsinin əsas səbəbi İraq ordusunun döyüş xəttindəki 1 və 10 saylı diviziyalarının arxadan dəstəklərinin olmaması idi. Onlar həm Şuşda, həm də Dezfulun qərbində bütün briqadalarını təmas xəttinə yerləşdirmişdilər. Biz xətti yara bilsəydik, düşməni məhv etmiş olardıq. Planlama işlərinin getdiyi bir vaxtda korpus bir layihə hazırladı. Bu layihə ordudakı qardaşlarla müzakirə olundu və məsləhətləşmələrdən sonra ordu və korpus tərəfindən müştərək plan təqdim olundu. Planın əsas xətti korpusdakı qardaşlara məxsus idi.**

**Korpus Dezfulun qərb bölgələri üçün təxminən beş briqada nəzərdə tutdu: Eynxoş bölgəsinə İmam Hüseyn (ə) briqadası, İmamzadə Abbas bölgəsinə Sarəllah briqadası, Girehzəd bölgəsinə Həzrət Rəsul (s) briqadası, Şəhidlər, Nadiri körpüsü və Kərxə istiqaməti bölgələrinə təxminən iki briqada gücündə olan Dezful Vəliəsr briqadası. Aşağı bölgələrdə də Radar istiqaməti üçün üç briqada, Riqabiyyə və Dusilk bölgələri üçün iki briqada, ehtiyat üçün də əlavə bir briqada nəzərdə tutuldu. Yəni**

**korpus bu əməliyyatda on bir briqada ilə iştirak edəcəkdi".**[1]

Fəthülmübin əməliyyatında korpusun on bir briqada ilə çıxış etməsi o demək idi ki, o, bir ay ərzində öz hərbi imkanlarını təxminən üç dəfə artırmışdır. Korpusun baş komandanının istəyi ilə Həsən Baqiri briqadanın idarəsində əsas rolu ifa edirdi.

**"Həsən Baqiri kəşfiyyat və diversiya sahəsində püxtələşsə də, döyüş əməliyyatı və hərbi təşkilatçılıq işini də çox yaxşı bacarırdı. Fəthülmübin əməliyyatında Həsənə dedim ki, batalyon və bölüklərin təşkilinə dair layihə yazıb gətirsin. Bütün briqada və diviziyalar həmin layihə əsasında hərəkət etdilər. Əməliyyatlarda Həsən Baqirinin fikirlərindən istifadə edirdik, amma daha çox briqadaların kəşfiyyat və təşkilati işlərini ona taşpırırdıq".**[2]

Fəthülmübin əməliyyatı ərəfəsində yaradılmış briqadalardan biri də 27 saylı "Məhəmməd Rəsulullah (s)" briqadası idi. Bu briqada yaradılan gündən iki qüdrətli və bacarıqlı komandiri ilə parladı. Hacı Əhməd Mütəvəssilian və Hacı Məhəmməd İbrahim Himmət bu briqadanı yaratmazdan öncə Kürdüstanda olmuşdular. Onlar Həsən Baqiri haqda eşitmişdilər. Nəhayət, tale onları bir-birləri ilə tanış etdi.

**"Həzrət Rəsul (s) briqadasını 7 fevralda yaradacaqdıq. İclasda oturduğumuz yerdə divara bir xəritə vuruldu. Qardaş Baqiri xəritəyə yaxınlaşıb danışmağa başladı. Qardaşımız Hacı Əhməd Mütəvəssilian mənə dedi: "Hacı, bunlar xəritə üzərində**

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

[2] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

**vuruşurlar, yoxsa cəbhədə? Bəlkə burada, cənubda kağız üzərində vuruşurlar?!"**

**Biz döyüşdə xəritə və plandan az istifadə etdiyimizə görə əməliyyatdan öncə belə hazırlıqlara alışmamışdıq. Fəthülmübin əməliyyatından öncə onun dəfələrlə gəlib baş çəkdiyini və məruzə aldığını görmüşdük. Sonra tapşırıqlarını verirdi. Qətiyyətindən və düşüncəsindən müharibənin gedişinə müsbət təsir edəcəyi bəlli idi.**

**Komandirin xüsusiyyətlərindən biri də onun fikir və düşüncəsidir. İnsani və dini məsələlərindən əlavə döyüş tərzində təcrübəli və planlı olan, fikir və düşüncələri cəbhəyə cəmləşən, özünü düşmənlə vuruşmağa gəlmiş sıravi əsgərin və könüllü döyüşçünün yerinə qoymağı bacaran, planı reallığa uyğun olan, bürokratiyadan uzaq duran, ağılla, düşüncə ilə, reallıqla hərəkət edən komandir ən yaxşı komandirdir. Allah şahiddir ki, qardaşımız Şəhid Baqirinin ağlı, düşüncəsi və təşkilatçılıq qabiliyyəti misilsiz idi".**[1]

Korpusun 30 saylı zirehli briqadası İraq ordusundan alınmış müxtəlif tanklardan yaradılmış hərbi birləşmə idi. Həsən Baqiri bu briqadanın yaradılmasını Fətulla Cəfəriyə tapşırmışdı. Ən gec iki ay ərzində 150 tank hazırlanmalı və Fəthülmübin əməliyyatında iştirak etməli idi. Tankların çoxu Rusiya və Fransa istehsalı idi, İran ordusunun texnikləri onlarla tanış deyildilər. Belə qısa müddətdə uyğun kadrlar hazırlamaq da imkansız idi. Həsən Baqiri bu problemə də çıxış yolu tapdı. O, qolf meydanında düşmən əsirlərinin və İrandan sığınacaq almış iraqlıların şəxsi işlərinə dair bir arxiv hazırlamışdı. Əsirlərlə danışarkən onların bacarıqlarını öyrənir, faydalı olanları əsir düşərgəsinə göndərmir,

[1] Şəhid Məhəmməd İbrahim Himmətin sözlərindən.

Əhvazda saxlayırdı. Həsən İraq ordusunun zirehli hərbi birləşmələrində xidmət etmiş 80 əsirin adını Fətulla Cəfəriyə verdi. Dünənə qədər İraq tankını idarə etmiş bir əsir bu gün İslam döyüşçülərinə qoşulacaqdı.

**"Tank təmiri, optik sistem, elektrotexnika, radiorabitə və elektronika, motor, ağır texnika və silahlar üzrə ixtisaslaşmış əsirlərin və siyasi mühacirlərin siyahısını verdi. Əsirlər könüllü şəkildə əməkdaşlıq edir, bizim kimi bəsici paltarı geyinir, yavaş-yavaş fars dilini öyrənirdilər. Əksəri şiə olsa da, aralarında əhli-sünnə məzhəbindən olanlar da vardı. Əsasən Bəsrə, İmarə, Kufə, Nəcəf, Nasiriyyə, Bəqubə və Kazimeyn şəhərlərindən idilər. Onların bəziləri elə müharibə dövründə İranda ailə qurdular - biz ailə qurmalarına kömək etdik. Bəzilərinin ata-babaları iranlı idilər, İranda qohumları vardı. Onların bəziləri sığınacaq almaq üçün 30 km piyada yol gəlmişdilər. Gülləsi qurtarandan sonra əsir düşənlər də vardı. Biri deyirdi ki, elə bildim, əsir düşsəm, məni öldürəcəksiniz. Onları korpusdan qorxutmuşdular. Bizim rəftarımızı görəndə isə ürəklərində böyük rəğbət yaranırdı.**

**Onları müxtəlif hissələrə böldük. Onların köməyilə İraq tanklarını tam öyrəndik və döyüşdə onlardan istifadə etməyə başladıq. Hətta Həsən Baqiriyə təklif etdim ki, onların bir neçəsini bölük və taqım komandiri təyin edək, amma razılaşmadı".**[1]

Fəthülmübin əməliyyatına 12 briqadanın 35-dən çox yeni batalyonu hazırlaşdı. Cəbhələrə qırx mindən çox könüllü bəsici gəlmişdi. Həsən Baqiri korpusun yeni strukturunu yaratmaqdan ötrü yeni komandirlərlə iclas keçirir, yeni

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

briqadaları idarə edirdi. Azərbaycanlı uşaqların Aşura, şirazlı uşaqların İmam Səccad (ə), kirmanlı uşaqların Sarəllah, xorasanlı uşaqların İmam Rza (ə), Dezful, Əndimeşk, Şüştər və Lorustanın bəzi bölgələrindən olan uşaqların da Vəliəsr briqadaları vardı. Həsən batalyonlara həssas yanaşırdı, əməliyyat zamanı əsas işi batalyon komandirlərinin gördüklərini düşünürdü. O, xalqı cəbhələrə cəlb etməkdən ötrü elə sistem qurmaq istəyirdi ki, növbəti dəfə cəbhəyə gələnlər yenə öz hərbi birləşmələrinə getsinlər.

**"Həsən Baqiri iclasda deyirdi: "Uşaqlar Aşuranı, həzrət İmam Hüseyni (ə), həzrət Əbəlfəzi, həzrət Əli Əkbəri və Əli Əsgəri çox sevirlər, briqadaya İmam Hüseynin (ə) adını qoyuruqsa, batalyonlara da o imamın tərəfdarlarının adlarını verək. Əgər briqadaya Peyğəmbərin (s) adını veririksə, batalyonlarına da Peyğəmbər (s) köməkçilərinin adlarını verək. Bu zaman əhali batalyonlarını tanıyacaq. Məsələn, Fəcr-Behbahan batalyonunu bütün behbahanlılar tanıyırlar. Musa ibn Cəfər (ə) batalyonunu İsfahanda, Aşura batalyonunu da Kaşanda hamı tanıyır. Bu adlar get-gedə şəhərlərə yayılır. Hamı bilir ki, şəhərlərinin bir batalyonu var, cümə imamı batalyon üzvlərini tanıyır və xalq həmin batalyona kömək edir".**[1]

Fəthülmübin əməliyyat zonası Kərxə çayının qərbindəki bəzi yerləri, Dezful, Əndimeşk və Şuş şəhərlərinin arasını əhatə edir, sonu Azadeqan düzünə çatırdı. Fəthülmübin əməliyyatı üçün Kərbəla qərargahı əvvəlcə Fəcr, Fəth və Nəsr adlı üç qərargahdan təşkil olundu. Cənub cəbhəsi Fəth qərargahına, Şuş cəbhəsi Fəcr qərargahına, şimal cəbhəsi də Nəsr qərargahına tapşırıldı. Həsən Baqiri Nəsr, ağa Rəşid

---

[1] Yenə orada.

Fəcr, ağa Rəhim də Fəth qərargahının komandiri təyin olundu. Onlar həm də əməliyyat planının müəllifləri idilər. Şimal bölgəsi geniş olduğuna görə Həsən Baqirinin təklifi və Əziz Cəfərinin rəhbərliyi ilə Qüds adlı yeni bir qərargah yaradıldı və Eynxoş boğazı ona tapşırıldı.

**"Batalyonlar 282 nəfərlik şəxsi heyətlə yaradıldı. Briqadalar bir neçə batalyondan ibarət idi. Bundan əlavə briqadaların atəşi yönləndirmə, kəşfiyyat-diversiya, əməliyyat və zirehli bölüklərdən ibarət ortaq hərbi birləşmələri də vardı. Bu hücumda Nəsr qərargahındakı qüvvələrimiz Dezful korpusunun təxminən səkkiz batalyonu olan 7 saylı briqadasından, doqquz batalyonu olan "Məhəmməd Rəsulullah (s)" briqadasından, 21 saylı diviziyanın dörd batalyonu olan birinci briqadasından, üç batalyonu olan ikinci briqadasından və üç batalyonu olan üçüncü briqadasından, dörd batalyonu olan Zülfüqar briqadasından (bir batalyonu ümumiyyətlə keyfiyyətsiz idi), 21 saylı diviziyanın dördüncü zirehli briqadasından, iki tank batalyonu və bir mexaniki batalyonu olan 37 saylı zirehli briqadadan ibarət idi".**[1]

Kərbəla qərargahı 1982-ci ilin 20 martını əməliyyat günü təyin etdi. Lakin İraq ordusu həmin gün Fəth və Fəcr qərargahlarının bəzi əməliyyat bölgələrinə hücum edib bir neçə istehkamı tutdu. Böyük itki versə də, keçidləri dağıdıb Kərbəla qərargahını əməliyyatın zamanına yenidən baxmağa məcbur edə bildi. Martın 21-də Möhsün Rzayi Kərbəla qərargahının Hərbi Hava Qüvvələrinə başçılıq edən Polkovnik Məhəmməd Həqşünasın idarə etdiyi qırıcı ilə Tehrana yola düşdü. O, Ayətullah Haşimi Rəfsəncani ilə birlikdə İmam Xomeyni ilə görüşüb məsələni ona danışdı. O,

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

imamdan istixarə etməsini istəmiş, imam da buyurmuşdu: "İstixarənin bir qismi budur ki, siz Allahdan xeyir istəyəsiniz. Mən də dua edəcəyəm". Möhsün Rzayi dərhal Kərbəla qərargahına qayıdıb görüşün nəticəsini komandirlərə söylədi. Qərargahda əməliyyat qərarı qətiləşdi, "Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik"[1] ayəsindən ilham alaraq 22 mart 00:30 dəqiqəyə “Ya Zəhra” parolu ilə başlayacaq Fəth adlı əməliyyat təyin olundu.

**"Həsən Baqiri Nəsr qərargahından parolu deyib əməliyyata başlamaq əmrini verdi, sonra da gedib təxminən yarım saat yatdı. Hamı təəccübləndi. Həmzə diviziyasının təcrübəli hərbçi olan qərargah rəisi dedi: "Necə də arxayın adamdır!"**

**Yuxudan oyanan kimi ratsiyanın yanında oturub əməliyyatı idarə etməyə başladı. Əvvəldən işini qüsursuz gördüyünə görə arxayın idi. Əməliyyatdan öncə batalyon və bölük komandirləri manevr layihələrini Dokuhədə Həsən Baqiriyə demişdilər və o, taqım səviyyəsinə qədər hər şeyi ölçüb-biçmişdi. Mən o iclaslarda iştirak edirdim. Belə güclü nəzarət qələbəyə zəmanət verirdi. Göydən çəkilmiş fotonu divardan asıb taqım komandirlərindən manevrlərini izah etmələrini istəyirdi. Həmin taqım komandirləri çox tez bir zamanda batalyon komandiri oldular. Həsən deyirdi ki, taqım komandiri 22 nəfərin, bölük komandiri isə üç nəfərin komandiridir. Bu baxımdan, taqım komandiri işini çox yaxşı bilməlidir. O, təşkilatı beləcə ən aşağıdan möhkəmləndirirdi.**

**Həsən Baqiri elə edirdi ki, batalyon komandirləri özlərini qərargah komandiri kimi hiss edirdilər. Onların fəaliyyətini çox yüksək dəyərləndirirdi. O vaxta qədər nə**

[1] Fəth, 1.

**İraq ordusunda, nə də öz ordumuzda belə bir adət yox idi. Heç kim bölük və taqım komandirlərini əməliyyat barədə bu həddə məlumatlandırmırdı. Həsən Baqiri isə deyirdi: "Nə qədər təhlükəsi olsa da, bölük komandirlərini tam məlumatlandırmalıyıq".**

**Bu, yeni bir nəzəriyyə idi. Batalyon, bölük, hətta taqım komandirləri də öz fikirlərini cəsarətlə deyir, onun fikrinə qarşı çıxırdılar. Həsənin belələrindən xoşu gəlirdi. Onlardan soruşurdu: "Haçandır cəbhədəsən? Nə vaxtdan taqım komandiri olmusan?"**

**Bütün bunlara görə əməliyyat parolunu elan edəndən sonra arxayın şəkildə istirahət edə bildi. Çünki öz qərargahında briqada komandirlərindən tutmuş taqım komandirlərinə qədər hər kəs işini bilirdi".**[1]

Həsən Baqiri birinci gün günortadan sonra Nəsr qərargahı üçün nəzərdə tutulmuş bütün ərazini azad etdi. Bu onun əməliyyat bölgəsinə, düşmənin gücünə və döyüş tərzinə dair ətraflı məlumatının nəticəsi idi. Bu məlumatı onun Kərbəla qərargahının müxbirinə müsahibəsində də görmək olar. Həsən Baqiri əməliyyatın birinci mərhələsi barədə deyirdi:

**"Bölgədə düşmənin iki tam diviziyası və o diviziyalara qoşulmuş bəzi briqadaları vardı. 10 Saylı diviziyaya 42 saylı zirehli briqada, 60, 505 və 423 saylı piyada briqadaları və 93 saylı qvardiya briqadası əlavə olunmuşdu. Əməliyyat Qüds və Nəsr qərargahlarının ərazisində baş tutdu. Allahın lütfü ilə düşmənə yan tərəfdən yaxınlaşdıq. Cəbhə şəklində vuruşsaq da, 10 saylı diviziya bizə uzun bir yan vermişdi, canlı qüvvəsi 60 km-dən uzun bir əraziyə yerləşmişdi və arxası boş idi. Bu səbəbdən döyüşçülərimiz Allahın köməyi ilə Fəthülmübin**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**əməliyyatının ilk mərhələsində qələbə çalıb 10 saylı diviziyanı sıradan çıxardılar. Əməliyyat Həzrət Rəsul (s) briqadası səmtində Şavəriyyə, Belta, Cüfeynə bölgələrində, Dezfulun yeddinci briqadası səmtində də Təpəçeşmə bölgəsində, Həndəli istehkamında, Kutqaponda, Sərxəfəlih və Sərxədavud kəndlərində həyata keçirildi.**

**İlk mərhələdə düşmən hücuma başladığına görə biz də hücuma keçməyə məcbur olduq. Düşmənin diqqəti Şuş və Riqabiyyə cəbhəsinə yönəldiyinə görə Dehloran bölgəsində lazımi qərarı qəbul edə bilmədi və öz əli ilə özünə qəbir qazdı. Bəlkə də Fəth qərargahı istiqamətində hücuma keçsəydik, İraq tərəfi yaxşı müdafiə oluna bilərdi. Lakin özünü 1 saylı diviziyanın hücum bölgəsində ilişdirmişdi. Biz 10 saylı diviziyaya hücum edəndə lazımi reaksiyanı verə və yaxşı əks-hücum təşkil edə bilmədi.**

**Nəsr qərargahı ilə bağlı iki yer vardı və hər ikisi bölgədə böyük əhəmiyyətə malik idi. Onların biri Girehzəd, digəri də Qəhvəxana üçyoludur. Mənim fikrim budur ki, Dusilk və Girehzəd bölgənin İraq üçün, Qəhvəxana üçyolu da bizim üçün açarıdır. Biz bölgənin qəlbi olan Girehzədi tutduqdan sonra düşmən Eynxoşdan keçə bilmədi".**[1]

Eynxoş Qüds qərargahının əməliyyat zonasında yerləşirdi. Bu qərargaha Əziz Cəfəri başçılıq edirdi. Qüds qərargahı birinci gündə Eynxoşu tutdu, amma düşmən dərhal hücuma keçib orada 202 təpələrini, sonra da Abbas düzünü geri aldı. Qüds qərargahının vəziyyəti ağırlaşdı. Kərbəla qərargahı fövqəladə iclas təyin etdi. Bu qərargah Şuşda yerləşmişdi.

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

Problemdən çıxış yolu tapmaq üçün bütün komandirlər qərargaha gəldilər.

**"Komandirlərin biri asfalt yolun şimalına qədər geri çəkilməyi təklif etdi. Həsən Baqiri isə dedi: "Qüds qərargahına kömək edib Eynxoş boğazını və Qüds istiqamətini qorumalıyıq. Məğlub olmuş düşmənə əks-hücum imkanı verməməli, ona Abbas düzündən, Kəmərsorxdan və digər istiqamətlərdən hücum etməliyik.**

**Müzakirə bir qədər davam etdi. Həsən təklif etdi ki, iki batalyonla Qüds qərargahını gücləndirək, axşama qədər müqavimət göstərsinlər. Raufi Girehzədə gəlsin, Əhməd Mütəvəssilian Abbas düzünə gedib düşmənin Qüdsə təzyiqini azaltsın. Bu qərar qəbul olundu və nəticədə düşmən Eynxoşu geri ala bilmədi".**[1]

Abbas düzü Tinə və Şavəriyyə yüksəklikləri arasında yerləşən geniş bir düzənlikdir. Fəthülmübin əməliyyatının ikinci mərhələsi martın 24-də orada baş tutdu. Əməliyyatın bu mərhələsində məqsəd Eynxoşun süqutunun qarşısını almaq idi. Bu hücumda Həzrət Rəsul (s) və Zülfüqar briqadaları iştirak edirdi. Həsən Baqiri əməliyyatın ikinci mərhələsi barədə bunları söyləmişdi:

"Hücum sübhə yaxın baş tutdu və gec başlandığına görə təsadüfən düşmənin hücumu ilə üst-üstə düşdü. Yəni biz Dehloran magistralı ilə Eynxoşa getdiyimiz yerdə düşmənin zirehli birləşmələri də paralel olaraq Tinə yüksəkliyində və Tinə magistralında son işlərini görmək üçün irəliləyirdilər. Əgər o hücum baş tutmasaydı, Eynxoşun aqibəti işğaldan başqa bir şey olmayacaqdı. Həqiqətən, Allah lütf edib o ayıqlığı verdi ki, nəyin bahasına olursa-olsun, hücuma keçək.

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

Həmin gün günortadan sonra Həzrət Rəsul (s) və Zülfüqar briqadalarına əmr olundu ki, axşam Eynxoşu mühasirədən çıxarsınlar. Əməliyyat üçün Zülfüqar briqadasından iki, Həzrət Rəsul (s) briqadasından da üç batalyon seçildi. Dezfuldan iki batalyonu da ehtiyat üçün nəzərdə tutduq. Əmr gec verildiyinə, hətta kəşfiyyata da vaxt qalmadığına görə bir qədər kor-koranə əməl olundu. Eynxoş güclü təhdid altında idi. Biz ya Eynxoşdan geri çəkilməli, ya da hücuma keçib onu qorumalı idik. Belə də oldu. Sübh vaxtı bölgəyə gedəndə bizimkilərin Eynxoşa getdikləri kimi, düşmən tanklarının və zirehli hərbi birləşmələrinin də paralel şəkildə oraya gəldiyini gördük. Bunlar Eynxoş üçün həlledici idi. Ən azı üç batalyon həddində canlı qüvvə Eynxoşa tərəf gedirdi. Onlar məcburi şəkildə İmamzadə Abbas düzündəki şəxsi heyətlə vuruşdular və hətta bir batalyonu geri qayıtdı. Yəni Eynxoşu mühasirədən çıxarmağa gedənlər Girehzəd səmtindən gələnlərlə vuruşdular. Bu əməliyyat Eynxoşun qorunması üçün mühüm rol oynadı".[1]

Abbas düzündə və Eynxoşda əməliyyatın ikinci mərhələsi baş tutandan sonra Möhsün Rzayi və Əli Səyyad Şirazi növbəti əməliyyatlar barədə məsləhətləşmək üçün komandirləri Kərbəla qərargahına çağırdılar. Korpusun yeni yaradılmış zirehli briqadasının komandiri Fətulla Cəfəri də komandirlərin arasında idi. O, həmin iclasda mühüm bir qərarla nəticələnən müzakirələrə şahid oldu.

**"Mövzu bu idi ki, növbəti əməliyyatlar üçün haraya gedək və nə edək. Hamı fikrini bildirdi və mövzu bağlandı. Qərara alındı ki, bir mərhələdə Vavi və Tinə yüksəkliklərinə, bir mərhələdə də Sayta gedək. Neçə batalyona ehtiyac olduğunu dəqiqləşdirdikləri yerdə**

---

[1] Həsən Baqirinin xatirələri, c. 2.

**birdən ağa Möhsün üzünü Həsənə tutub dedi: "Həsən, sən fikrini bildirmədin?"**

**Həsən Baqiri dedi: "Gördüyünüz iş yaxşıdır, inşallah həyata keçirərik, amma daha yaxşı olar ki, Tinəyə və Vaviyə getməyək, imkanlarımızı Saytla Radara yönəldək və asfalt magistrala qədər davam edək".**

**Ağa Möhsünlə Səyyad Şirazi Vavi və Tinə bölgələrinə görə narahat idilər. Həsən Baqiri dedi: "Əgər Saytı alsaq, Vavi ilə Tinə də süqut edəcək".**

**Bir saat müzakirə aparılsa və qərar qəbul olunsa da, Həsən Baqiri elə əminliklə danışdı ki, heç kimdə şübhə qalmadı. Səyyad Şirazi Həsənin fikrini dərhal təsdiqlədi".**[1]

Radar yüksəkliyi Dezfulun qərbində və Şuşda ən uca yüksəklik idi, hündürlüyü yüz metri keçirdi. İraq ordusu Radarın zirvəsindən 15-20 km-ə qədər əraziyə nəzarət edirdi. Radarın yamacında bir zirehli, bir mexaniki və iki piyada briqadası yerləşdirmişdilər. Oranın süqut edəcəyi ağıllarına gəlmirdi. Sayt və Radarı ələ keçirmək Fəth qərargahına tapşırıldı. Lakin uzaq olduğuna və digər səbəblərə görə bunu bacarmadılar. Möhsün Rzayi ilə Əli Səyyad Şirazi bu işi Nəsr qərargahına, yəni Həsən Baqiriyə tapşırdılar. Həsən Baqiri əməliyyatdan ən azı bir ay öncədən Nəsr qərargahının istiqamətlərini öyrənmişdi. Lakin əməliyyatın ortasında təhlükəsiz keçidlərini tapmağa macal olmayan bir hədəfi ələ keçirməli oldu. Əməliyyatın yeddinci günü Möhsün Rzayi ilə Səyyad Şirazi Sayt və Radar məsələlərini öyrənməkdən ötrü Nəsr qərargahına getdilər.

**"Əməliyyatın ortasında əlavə bir tapşırıq verildi. Yeni əməliyyat üçün vaxt lazımdır, kəşfiyyat işi görülməlidir,**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**lazımi sayda canlı qüvvəyə ehtiyac var. İki diviziyanın birlikdə düşmənə hücum etməsi, sonra birinin işini tamamlaya bilməməsi, o biri diviziyanın isə həm öz hədəflərini, həm də onun hədəflərini ələ keçirməsi təxminən imkansız görünürdü. Səyyad Şirazi və ağa Rəşidlə birgə Kərbəla qərargahından Nəsr qərargahına gedib məruzələrinə baxdıq. Qardaşımız Səyyad tərəddüd içində idi. Dedim ki, bu gecə mütləq hücuma keçməliyik.**

**Həsən razılaşmayıb deyirdi ki, oraya dair yetərincə məlumatımız yoxdur. Dedim ki, qardaşların kəşfiyyatdan gətirdikləri informasiyalar yaxşıdır. Həsən dedi: "Batalyon komandirlərinin özləri gedib görməlidirlər, onlara deyə bilmərik ki, bir nəfər gedib və problem yoxdur".**

**Aramızda mübahisə yarandı və hətta bir qədər hirsləndim. Şəhid Səyyad dedi ki, nəticə nə oldu? Dedim ki, bu gecə mütləq hücuma keçməlidirlər. Həsən dərhal dilləndi: "Bu gecə mütləq hücuma keçib problemləri həll edəcəyik".**[1]

Nəsr qərargahı korpusun doqquz, ordunun da yeddi batalyonu ilə Fəthülmübin əməliyyatının üçüncü və taleyüklü mərhələsinə başladı. Həmin gün qürubdan sonra batalyonlar Radara yola düşdülər. Onlar hədəfə çatmaqdan ötrü təxminən 10 km piyada getməli idilər. Həsən Baqiri batalyon, bölük və taqım komandirlərinin hər biri ilə danışmışdı. Onlar öz rollarının hansı əhəmiyyətə malik olduğunu, habelə Saytla Radarın qələbənin açarı olduğunu bilirdilər. Sayt əməliyyatında iştirak edən batalyonların biri Vəliəsr diviziyasının Bilal batalyonu idi. Həmin batalyona Qulamhüseyn Kəluli başçılıq edirdi.

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

"Həsən bir xəritə çıxarıb düşmənin harada olduğunu və Saytı nə üçün almalı olduğumuzu söylədi. Sayt İraq cəbhələrinin əsas mərkəzi idi, sütun rolunu oynayırdı; götürülsəydi, hamısı uçacaqdı. Həsən Baqirinin sözlərindən sonra Saytın necə önəmli olduğunu və qarşımızda necə ağır işin durduğunu bildim. Bizim istiqamətimizdə üç batalyon vardı: bizim batalyon, ağa Məhəmmədəli Səburun batalyonu və ağa Xızrianın batalyonu. Bizdən bir neçə kilometr solda da üç batalyon gedirdi: Şəhid Hacı Əzim Məhəmmədinin batalyonu, ağa Fəzilətpurun batalyonu və ağa Mirzəpurun başçılıq etdiyi Şəhid Dəstqeyb batalyonu. Ağa Məhəmmədhəsən Kusəçi istiqamət komandiri olaraq hər üç batalyona rəhbərlik edirdi. Yavaş-yavaş gedirdik. Gecənin yarısından sonra Həsən tez-tez zəng vurub soruşurdu: "Kəluli, nə oldu? Haradasınız?"

Qaranlıqda, soyuq və yağışlı havada bu cığırdan o cığıra keçirdik. Sayt görünmürdü. Bizi qəribə məyusluq bürümüşdü. Saat 4-də birdən bizdən 500 metr aralıda bir şey işıqlandı. Durbinlə baxdım. İraqlıların ilk mövqeyi qarşımızda idi. Həsənlə əlaqə saxlayıb dedim ki, qardaş Həsən, çatdıq.

Sanki dünyanı ona verdilər. Ağa Xızrian və ağa Səburla da əlaqə saxladım. Üç batalyon bir araya gəldik. Həssas anlar yaşayırdıq. Hamı ümidini bizə bağlamışdı. Həsən Baqiri əlaqə saxlayıb dedi: "Kəluli, müqəddəs "Ya Zəhra" parolu ilə əməliyyata başla".

Digər iki batalyon bizim sağ və solumuzda, 300 metr aralıda idilər. "Ya Zəhra" parolu ilə hücum etdik. Düşmən qarovulları təpənin başından atəş açmağa başladılar, qalan hərbçilərinin çoxu isə yatmışdı. Buna görə də, özlərini itirdilər, ağır döyüş getmədi və tez

**səngərləri tutduq. Sonradan iraqlı əsirlərlə danışanda dedilər ki, biz tam hazırlıqlı vəziyyətdə idik, lakin gecə saat 3-dən sonra gəlməyəcəyinizə əmin olub yatmağa getdik.**

**Hava işıqlananda ağa Möhsün, Həsən Baqiri, ağa Rəşid və Raufi Sayta gəldilər. Həsən məni qucaqlayıb öpməyə başladı. Həmin gün heç vaxt yadımdan çıxmaz".**[1]

Saytın üzərində döyüş başlayan kimi İslam döyüşçüləri İraqın 1 saylı mexaniki diviziyasının baş qərargahındakı və briqadaların qərargahlarındakı telefon kabellərini kəsdilər. Düşmən hərbi birləşmələri komandirləri ilə əlaqəni itirdilər və döyüşün ortasında dəstə-dəstə təslim olmağa başladılar.

**"Kimisə tutmaq üçün evinin damından girmək lazımdır. Çünki qaça biləcəyi yeganə yol oradır. Qardaşlar Səddamın evinin Radar bölgəsindəki damını bağlayandan sonra irəlidəki bütün hərbi birləşmələr əsir düşdülər. Onlar batalyon-batalyon gəlib təslim olurdular".**[2]

Həsən Baqiri Radar əməliyyatının əhəmiyyəti barədə həmçinin bunları deyirdi:

"Biz çox asanlıqla cinahın ən hündür və uzaq yerinə, düşmən mövqelərinin arxasına çatdıq. Bunu dünya hərbçilərinə desəniz, təəccüb edərlər ki, piyada qüvvələrin gecə vaxtı 10 km yol gedəndən sonra təpələrin üstündə bir hədəfi tapıb hücuma keçmələri, ondan sonra daha 10 km irəliləmələri mümkün deyil. Bəlkə də bu əməliyyatın nə olduğunu dünya sonra başa düşəcək. Sayt və Radar

---

[1] Vəliəsr briqadasının qurucularından olan General Qulamhüseyn Kəluli ilə müsahibədən.

[2] Həsən Baqirinin xatirələri, c. 2.

əməliyyatlarından sonra düşmən daha müqavimət göstərə bilməyib geri çəkilməyə başladı".[1]

Əslində isə dünya hərbçilərini heyrətə salan amil hərbi taktikadan əlavə, heç bir hərbi təhsili olmayan bir gənc komandirin düşüncəsi və fitri istedadı olacaqdı. O, heç bir hərbi təhsil almadan cəbhədə belə kreativ yollar tapırdı. Həsən Baqirinin özü düşmən qərargahlarına hücum etməyi bir yenilik adlandırıb deyirdi:

**"Düşmən qərargahlarına hücum etməyin onun məğlubiyyətinə nə qədər təsir edəcəyini də bir yenilik adlandırmaq olar. Düşmənin komandanlıq sistemini sıradan çıxardıqda daha müqavimət göstərə bilməz. Bundan ötrü iki iş görə bilər: Biri budur ki, qərargahını döyüş xəttinə gətirsin. Bu, artilleriya hücumlarına və mövqedə həyata keçirilən əməliyyatlara görə təhlükəlidir. Qərargahını çox uzaqlaşdırdıqda da canlı qüvvəyə nəzarəti zəifləyir. Biz birinci diviziyanın briqadalarının qərargahlarını təhlükəyə salandan sonra ən az itki ilə bütün diviziyanı mühasirəyə aldıq. Qardaşların Kəmərsorxda çatdıqları ilk yer düşmən qərargahı oldu. Onlar səhər saat 9-da briqada komandirinin müavinini əsir tutmuşdular. O deyirdi ki, bütün qərargahlar Radarın şərqində yerləşir. Yəni briqadanın diviziya ilə əlaqəsi çox asanlıqla kəsildi və briqada qərargahları sıradan çıxarıldı. Bu zaman uzaqbaşı, qardaşların sözü ilə desəm, çantalarını qoltuqlarına qoyub qaça bilərdilər. Elə səhər çağı əminliklə elan etdik ki, 1, 27 və 51 saylı düşmən briqadalarının qərargahları mühasirədədir. 34 Saylı briqadanın vəziyyəti fərqli idi, amma bu üç briqadadan**

---

[1] Yenə orada.

**yalnız 51 saylı briqadanın komandiri qaça bildi. Rüfaiyyənin ətrafındakı 96 və 93 saylı briqadaların şəxsi heyətləri, habelə 1 və 27 saylı briqadalar bütünlüklə əsir düşdülər.**

**Başqa bir yenilik qələbədən istifadə idi. Biz bu əməliyyatda qələbədən istifadə edə bildik. Radar əməliyyatından sonra düşmən geri çəkilməyə başlayanda Həzrət Rəsul (s) briqadasındakı qardaşlar onları təqib edib Borqazə bölgəsinə qədər irəlilədilər".**[1]

Fəthülmübin əməliyyatı martın 28-də başa çatdı. Nəsr, Fəth, Qüds və Fəcr qərargahlarının döyüşçüləri bir həftə ərzində olduqca uğurlu bir əməliyyat həyata keçirib on altı min əsir tutdular. Həsən Baqiri müsahibəsində bu əməliyyatın ilk məqsədi kimi düşmənin canlı qüvvəsinin sıradan çıxarılmasını göstərir və dərhal əlavə edirdi:

“Bizim əsas məqsədimiz əsir tutmaqdır, öldürmək deyil. Biz iraqlıları əsla öldürmək istəmirik. Biz çox istəyirik ki, onlar əsir düşsünlər və islah olsunlar".[2]

O, Fəthülmübin əməliyyatının digər nəticələrini də saydı. Sayt təpələrinin, Borqazə, Riqabiyyə və Eynxoş boğazları kimi strateji mövqelərin ələ keçirilməsi bu nəticələrdən idi. Düşmən o yerləri müharibənin əvvəlində işğal etmişdi. Bu qələbə Dezfulun və ətraf bölgələrin düşmən artilleriyasından uzaq qalmasına səbəb oldu. Həsən Baqiri bu barədə deyirdi:

"Bəəs rejimi bu əməliyyatdan öncə Fransadan aldığı 182 topları ilə Dezful şəhərini çox namərdcəsinə və heç bir insani əxlaqa sığmayan şəkildə daim vururdu. Dezfulda iki mindən çox adam şəhid olmuşdu. İşğal olunmuş mövqeləri ələ keçirib Dezfulu düşmən artilleriyasından qorumaqla əslində

---

[1] Yenə orada.

[2] Yenə orada.

silahlı qüvvələrdən Dezful əhalisinin müqavimətinə cavab verildi. Şəhər və kəndlərin düşmənin artilleriya hücumundan qorunması, əhalinin öz vətənlərinə qayıtması qaçqınların sayını azaldır, dövlətə iqtisadi və siyasi baxımdan kömək edir. Bu da çox vacib məsələdir. Ən azı 150 kənd işğaldan azad olundu. Başqa bir məsələ Əndimeşk-Əhvaz magistralının azad edilməsidir. Həmin yol düşmən artilleriyasının hədəfində idi və yalnız hərbi məqsədlə istifadə olunurdu. Allahın köməyi ilə bu hücumda həmin magistral da açılıb xalqın istismarına verildi".[1]

Fəthülmübin əməliyyatında təxminən 400 düşmən tankı ələ keçirildi, 10 saylı zirehli və 1 saylı mexaniki diviziyalar mühasirəyə düşdü, silah-sursatlarının çoxu İslam döyüşçülərinin əlinə keçdi. Bundan sonra korpusun 30 saylı zirehli briqadasının arsenalı təxminən üç dəfə artaraq bir diviziyanın imkanlarını da keçdi. Bu briqadanı düşməndən alınmış texnika ilə yaratmış Həsən Baqiri dərhal ələ keçirilmiş yeni texnika və silahlara baxış keçirdi. Ondan sonra diviziya komandiri adlanacaq briqada komandiri Fətulla Cəfəri həmin baxışda Həsən Baqirinin yanında idi.

**"Bu baxışda Həsən Baqirinin məqsədi vardı. O, hansı ölkələrin İraqa kömək etdiyini, həmçinin bizim işimizə nə qədər yarayacağını bilmək istəyirdi. Tankların biri Fransa istehsalı idi. Onu diqqətlə araşdırdı, rabitə sisteminə baxdı. Tamson ratsiyası vardı. Onun hansı modelləri olduğunu, topunun və raketinin olub-olmadığını soruşdu. Bildim ki, müxtəlif modellərdən xəbərdardır. Hətta dedi ki, motorunun qapısını aç, baxım. Mənə qəribə gəlirdi. Yadımdadır, lüləsinin xüsusiyyətlərini soruşdu. Əvvəlcə dedim yüz, sonra isə**

[1] Yenə orada.

**dedim ki, doxsan. Mənə dedi: "Belə danışma. Sən yüz deyəndə artıq beynimə oturur. Əmin olandan sonra de".**

**T-55 və T-62 tanklarından əlavə, Fəthülmübində ilk dəfə T-72 tankı da ələ keçirildi. Həsən onun xüsusiyyətlərini soruşub dedi: "Görün, qumbaraatan harasına dəyib və zirehi qırılıbmı? Qumbaraatan harasına təsir edir? Motorunun gücü nə qədərdir? Topu hansı növdəndir? Neçə cür mərmisi var? Pulemyotu hansındandır? Hansı nəsil tanklardandır? Zirehi nə qədər möhkəmdir? Raketə qarşı müqaviməti necədir?" Həsən Baqiri bunlara məndən dəqiq cavab istəyirdi. Çox vaxt almırdı. Gəlib bir saat ərzində bütün məlumatı toplayırdı, ələ keçirilmiş, hətta vurulmuş texnikaların da şəklini çəkirdi. Soruşanda deyirdi ki, harasından vurulduğunu, necə və nə qədər yandığını bilmək istəyirəm. Bunların hamısı onun üçün əhəmiyyətli idi.**

**Axşam qolf meydanında Səddamın çıxışını dinləyirdim. Səsi əsirdi. Həsən dedi: "Görün, səsi necə əsir! Daha ərəb ümmətindən yox, Aşuradan, Kərbəladan, İmam Hüseyndən (ə) danışır".**[1]

Martın 30-da komandirlər Kərbəla qərargahına iclasa çağırıldılar. Bütün komandirlər sevinclərindən yerə-göyə sığmırdılar. Həsən Baqiri soyuqqanlılıqla və səbirlə Fəthülmübin əməliyyatındakı nöqsanlardan danışmağa başladı. Həsənin tənqidçi ruhiyyəsi vardı, özünü və qərargahını cəsarətlə tənqid edirdi. Deyirdi ki, nöqsanları bilməyimiz bizi sonrakı yanlışlardan qoruya bilər. O bu işə məhdud əməliyyatlardan başlamışdı. Deyirdi ki, camaatın və şəhadətsevər insanların taleyi bizim əlimizdə olduğuna görə mənfi cəhətlərimizi müsbətə çevirməliyik. O, insanları

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

birbaşa tənqid etmirdi, ümumi danışırdı. Deyirdi ki, biz bu əməliyyatda yaxşı kəşfiyyat işi görmədik. Düşünülmüş şəkildə və elmi baxımdan tənqid edirdi. Heç kimə demirdi ki, sən məsələni həll edə bilmədin; deyirdi ki, məsələ çətindir, həlli üçün çox vaxt ayırmalıyıq. Bu baxış tərzi korpusun baş komandanı Möhsün Rzayinin ona arxalanmasına səbəb oldu.

**"Digər qardaşlara nisbətən Həsənin iki xüsusiyyəti mənim ona arxalanmağıma səbəb oldu. Biri məlumatlı olması idi. O, düşmənin filan yerdə olub-olmadığını deyəndə təxminən əmin olurdum, amma digər uşaqların məruzəsini asanlıqla qəbul etmir və araşdırırdım. Hətta uşaqlar narahat olurdular, deyirdilər ki, filankəs bizə inanmır. Səbəbi bu idi ki, onlar öz arzularını da məruzəyə salırdılar. Biz həmin məruzələrə əsaslanıb qərar qəbul edəndə isə problemlə üzləşirdik. Həsən müsbət cəhətləri daha çox görürdü. Bəzən iclaslarda məyusluq hiss edəndə Həsənin fikrini soruşurdum. Onun fikri planın həyata keçməsinə səbəb olurdu, qərarımıza daha çox əmin olurdum. Həsənin sözlərini həmişə təsdiqləyici, bəzən də yeni söz kimi qəbul edirdim. Hər əməliyyatda üç-dörd əsas qərar olurdu. Həsən Baqiri o qərarlarda rol oynayırdı. Məsələn, Radara hücum etməsəydik, bütün Fəthülmübin əməliyyatı hədər gedəcəkdi".**[1]

## *Böyük gün*

Fəthülmübin əməliyyatından sonra növbə Xürrəmşəhrin azadlığına çatdı. Dünənə qədər torpaqlarımızda həmişəlik qalacağını güman edən düşmən artıq İslam döyüşçülərinin

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

növbəti hədəflərinin Xürrəmşəhr olacağını bilirdi. Möhsün Rzayi Fəthülmübin əməliyyatının nəticələrinə dair iclasda Həsən Baqiriyə tapşırdı ki, dərhal Xürrəmşəhr əməliyyatından ötrü kəşfiyyat və koordinasiya işlərinə başlansın. Saminül-əimmə əməliyyatından Qüds yolu əməliyyatına qədər iki ay, ondan da Fəthülmübinə qədər təxminən üç ay ötmüşdü. Əməliyyat üçün plan hazırlamağa və uyğun yol tapmağa yetərincə vaxt yox idi. Həsən Baqiri aprelin ortalarında Kərbəla qərargahında xəbərdarlıq etmişdi ki, düşmən bölgədə aktivləşib və bəzi hərbi birləşmələr əməliyyat üçün hələ münasib yol tapa bilməyiblər.

Xürrəmşəhrin mühüm istiqamətlərindən biri Karunun qərb sahilindən Əhvaz-Xürrəmşəhr magistralına qədər uzunluğu 40, eni 25 km olan geniş bir ərazi idi. Yəni kəşfiyyat üçün 800 kv km-lik bir yer vardı. Həsən Baqiri bu ərazini Mehdi Zeynəddin və Məhəmməd Baqiri vasitəsilə briqadaların kəşfiyyat qrupları arasında böldü. Özü kəşfiyyata gedib qruplara yol açır, kəşfiyyat zamanı problemlə üzləşmiş uşaqlarla iclas keçirir, problemlərini həll edirdi. Əhvaz-Xürrəmşəhr magistralının ətrafını öyrənmək Həsən Baqiri üçün böyük əhəmiyyətə malik idi. O, Fəthülmübin əməliyyatından dərhal sonra Hüseyn Həmədaniyə növbəti əməliyyat barədə məlumat verdi, Əhvaz-Xürrəmşəhr magistralına qədər Karun çayının ətrafını öyrənməyi tapşırdı.

**"Həsən bizi oraya aparıb işin bir hissəsini izah etdi və dedi: "Hər səhər buraya gəlib məruzə istəyəcəyəm. Həmədani, gərək əlin Xürrəmşəhrin asfalt magistralına dəysin. Gəlib deməyin ki, 1 km, 2 km irəliyə getdik. Nə vaxt əliniz asfalta dəysə, onda bu hissədə tapşırığın sona çatdığını deyə bilərəm".**

**Hər gün səhər çağı Karunun o tərəfindən qayıdanda oturub bizi gözlədiyini görürdük. Oraya çatan kimi soruşurdu: "Nə etdiniz?" Sonra məruzələri alırdı.**

**İş çətin idi. Karunun kənarından 14 km irəliləyir və düşmən mövqelərini keçirdik. Hər gecə gedib-qayıdır, 500 metr yaxınlaşdığımızı deyirdik. Xürrəmşəhr yolundan keçən maşınları görür, yaxınlaşanda sayır və deyirdik ki, hər dəqiqədə bu qədər maşın keçir. Yadımdadır, bir dəfə kəşfiyyatdan gəldik. O, adət üzrə dedi ki, sabah davam etdirin və daha da irəliləyin. Dedim ki, Həsən ağa, uşaqların ayağının altı suluq bağlayıb. Uşaqları topladı, iynə gətirib suluqlarına batırdı və çirkini boşaltdı. Sonra dedi: "Ayaqlarınızı bandla bağlayın və axşam kəşfiyyata gedin".**

**Bu əmri elə əminliklə verdi ki, daha bir söz deyə bilmədik. Müharibə boyu bəzən komandirlərə problemləri deyib bəhanə gətirəndə mehriban olduqlarına görə qəbul edirdilər. Həsənsə belə deyildi. Beytülmüqəddəs əməliyyatının məqsədləri ona o qədər mühüm idi ki, ayaqlarımızın yarasına əhəmiyyət vermədi. Əgər kimsə Həsən Baqirini tanımasaydı, onun şəxsiyyətinə bələd olmasaydı, ayrı cür düşünərdi.**

**O qədər gedib-gəldik, axırda Xürrəmşəhr magistralına əlimizi vurduq. Yadımdadır, magistralda çoxlu maşın get-gəl edirdi. Yola çıxanda maşınların işığı üzümüzə düşərdi. Birtəhər köməkləşdik, bir nəfər gedib asfalta əlini vurdu və onu öpdü. Qayıdıb dedik ki, filankəs asfalta əlini vurdu, hətta öpdü. Üzü güldü, bir-**

**bir uşaqları qucaqlayıb dedi: "Allahın köməyi ilə Xürrəmşəhr-Əhvaz magistralı bizim olacaq".**[1]

Bu iş təkcə Hüseyn Həmədaniyə bağlı deyildi. Mehdi Zeynəddin, Hacı Mahmud Şahbazi, Əhməd Əmiri, Həmmud Rəbii, Seyid Məsud Hicazi, Mürtəza İslahi, Məcid Toxməfşan və Əhməd Füruzəndə də Karun çayından keçərək müxtəlif istiqamətlərdə kəşfiyyata gedir, düşmənin Əhvaz-Xürrəmşəhr magistralının ətrafındakı vəziyyətini öyrənirdilər. Həsən Baqiri sübh namazı vaxtı çay termosunu götürüb qayıqla Karunun o tərəfinə keçir, onları gözləyirdi. O, kəşfiyyatla ciddi maraqlanırdı. İyirmi gündən sonra kəşfiyyat qrupu düşmən mövqeləri arasından asfalt magistrala yol tapa bildi. Hava qaralan kimi kəşfiyyatçılar yola düşüb Karun çayını keçir, təxminən gecə saat 2-də asfalt magistrala çatır və işıqlığa düşməsinlər deyə tez qayıdırdılar.

Faktlar göstərir ki, Həsən Baqiri Fəthülmübin əməliyyatı zamanı Beytülmüqəddəs əməliyyatı və Karundan keçid haqda da fikirləşirmiş. Polkovnik Bəhruz Süleymancah Fəthülmübin əməliyyatında ordunun Abbas düzündəki bir briqadasına başçılıq edirdi. O, əməliyyatda qələbədən sonra Həsən Baqiri ilə birgə Beytülmüqəddəs əməliyyatına hazırlıq işlərini görməkdən ötrü Darxuinə getmişdi.

---

[1] General Hüseyn Həmədani ilə müsahibədən. Şəhid Hüseyn Həmədani 1950-ci ildə Həmədan şəhərində dünyaya göz açmışdı. O, Hacı Əhməd Mütəvəssilian və Məhəmməd İbrahim Himmətlə birgə "Məhəmməd rəsulullah (s)" briqadasını yaradanlardan idi. General Həmədani bir müddət Ənsarül-Hüseyn (ə) briqadasının komandiri oldu. Sonra isə "Məhəmməd rəsulullah (s)" diviziyasının komandiri və Bəsic Müqavimət Təşkilatının komandir müavini təyin edildi. O, 7 oktyabr 2015-ci ildə Suriyanın Hələb şəhərinin ətrafında İŞİD terrorçuları tərəfindən şəhid edildi.

**"Mövqeyə baxış keçirəndən sonra dedik ki, komandirlər Darxuindəki kiçik evə toplaşsınlar. Hamı gəldi və iclas başlandı. Orada qərara gəldik ki, Hürr adlı bir qərargah yaradıb Polkovnik Mehdipuru ona komandir təyin edək. Qərargahdan çıxanda iki bəsicini gördüm. Onlar Həsən Baqiriyə salam verib dedilər ki, qayıq hazırdır. Onlara təşəkkür etdi və mənə dedi: "İcazənizlə kəşfiyyata getməliyəm". Dedim ki, bu vaxt və bu qaranlıqda? Dedi: "Karun çayından keçmək üçün ən əlverişli vaxt indidir. Düşmənin nəzarəti zəif olur". Dedim ki, mümkünsə, mən də gəlim. Dedi ki, çox yaxşı olar.**

**Birlikdə getdik. Müdafiə xəttində maşını istehkamın arxasında saxladı, oradan çaya yaxınlaşıb qayığa mindik. Əsas taktikada deyirik ki, təbii və ya qeyri-təbii maneə, üzərində müşahidə və ya atəş amili olanda əhəmiyyətlidir. Fikirləşirdim ki, biz istehkamımızın arxasında ətdən divar çəkdiyimiz kimi onlar da qarşı sahədə həmin işi görmüş olarlar. Lakin oraya çatıb bir qədər irəliləyəndə gördük ki, heç nə yoxdur. Dedi ki, görürsən?! Bu sözündən bildim ki, oraya ilk gedişi deyil. O anda bizdən bir neçə addım kənarda İraq patrullarını gördüm. Qamışların arasında gizləndik, onlar keçəndən sonra irəliləyib ətrafda müşahidə apardıq. Dodaqaltı dedi ki, heç nə dəyişməyib. Ona dedim: "Buraya ilk gəlişin deyil?" Dedi: "Yox, Fəthülmübin əməliyyatı zamanı buralarda kəşfiyyat işləri görmüşdüm". Soruşdum ki, bəs indi nə üçün gəlmisən? Dedi: "Gəldim, baxım ki, düşmən bizim bölgədəki hərəkətliliyimizi görüb döyüş düzülüşünü dəyişib, yoxsa yox. İndi dəyişmədiyini bilib arxayınlaşdım".**

**Yəni Həsən Baqiri Fəthülmübin əməliyyatı zamanı Beytülmüqəddəs əməliyyatı haqda da fikirləşirmiş. Bu onun uzaqgörənliyini göstərir. O, gördüklərinə inanırdı, eşitdiklərinə yox. Gərək özü görüb əmin olaydı. İstiqamət başçıları kəşfiyyata gedib məruzə gətirəndə onun öncədən oralara gedib müşahidə apardığını hiss edirdilər. Ancaq gördüklərinin onların məruzələri ilə uyğun olub-olmadığını yoxlamaq istəyirdi. Uyğunsuzluq görəndə üz vurmaz və deməzdi ki, özüm kəşfiyyata getmişəm. Ümumiyyətlə, onun lüğətində "mən" sözü yox idi".**[1]

Həsən Baqiri tabeliyində olan döyüşçüləri nə qədər sevsə, onlarla nə qədər səmimi münasibət qursa da, iş vaxtı bir o qədər tələbkar idi və səhlənkarlığı qəbul etmirdi. Fətulla Cəfəri zirehli briqadanın komandiri olmazdan öncə Həsən Baqirinin kəşfiyyatçılarından olmuşdu. Bir gecə Karunun qərbində kəşfiyyat əməliyyatında olan döyüşçülər ratsiya ilə Həsənə xəbər vermişdilər ki, düşmən patrulları zonaya girmişlər.

**"Darxuində Həsənin səsinə yuxudan diksindim. Gördüm ki, başımın üstə dayanıb. Kəşfiyyata gedib-getmədiyimi soruşdu. Dedim ki, bəli. Dedi: "Bir şey gördün?" Dedim ki, yox, heç nə yox idi. Dedi: "Qalx, gedək!"**

---

[1] Fəthülmübin əməliyyatında Həmzə diviziyasının komandir müavini olmuş General-mayor Bəhruz Süleymancahla müsahibədən. Süleymancah Müdafiə nazirliyinin Quru Qoşunlarının komandan müavini, Silahlı Qüvvələrin Baş Qərargahının Kəşfiyyat-diversiya üzrə rəis müavini vəzifələrində çalışmışdı. O, Xeybər əməliyyatında düşmənin kimyəvi silahlarından zəhərləndi və 2016-cı ilin 21 iyununda şəhadətə qovuşdu. Allah rəhmət eləsin!

**Gecə saat 2-də motosikletlə qayığın yanına getdik. Motosikleti qayığın içinə qoyduq. Qayığı özü itələdi. Sahilə çatanda motosikleti çıxarıb mindik. Oranı yaxşı tanıyırdı. Birbaş uşaqların yanına getdi. Ağa Zeynali adlı bir şəxs oradakıların komandiri idi. Hamı onu görüb sevindi. Postdan gəlib yatmış bir neçə nəfər Həsənin gəldiyini eşidib oraya gəldilər. Həsən onlarla hal-əhval tutandan sonra soruşdu: "Haralısınız? Nə iş görürsünüz? Haçandır buradasınız? Nə yeyirsiniz? Sizə nə gətirirlər?"**

**Sonra gecə durbini ilə bir qədər baxdı və dedi: "Necə deyirsən ki, heç bir hadisə baş verməyib?! Bir səngər düzəldiblər". Dedim: "Bəs necə olub ki, mən görməmişəm?!" Dedi ki, sabah get, dəqiq öyrən və məruzə gətir".**

**Həmin gün bir qədər xəstə idim, kəşfiyyata halım yox idi. Ertəsi gün bir neçə gün öncəki formanı doldurub ona göndərdim. Bir gün sonra məni çağırıb dedi: "Kəşfiyyata gedə bilmirsənsə, getmə, nə üçün boşuna məruzə verirsən?!"**

**Məruzənin təkrar olduğunu dərhal anlamışdı. Onu aldatmaq mümkün deyildi, çox zirək idi. Müxtəlif istiqamətlərdə 500-dən çox kəşfiyyatçı işləsə də, həmişə diqqətli idi.**

**Onunla işləyənlər Həsənin mövqeyə gələcəyini eşidəndə sevinir, həvəslə bir-birlərinə deyirdilər: "Həsən gəlir"; "Həsən günorta gələcək"; "Həsən nahar yeməyinə buradadır".**

**Yadımdadır, uşaqların biri qəsdən elə xəbər yazmışdı ki, Həsən oraya getsin. O isə həmin xəbərin düzgün olmadığını bilib getmirdi. Bir gün gedib ona xəbərdarlıq verdi və dedi: "Əgər işiniz olsa, özüm gələcəyəm. Bundan**

**ötrü əsassız məruzələr yazmayın. Bunlar tarixdə qalacaq".**

**Həsənin xüsusiyyətlərindən biri onun doğru danışması idi. O, əsla yalan danışmazdı, xislətində belə bir şey yox idi. Bəzi uşaqların hərdən bəzi imkanlar almaq üçün guya məsləhət üzündən yalan danışdığını görəndə çox narahat olurdu. Heç bir şəraitdə həqiqətdən uzaq bir söz demirdi".**[1]

1982-ci ilin mayı gəldi. Həsən Baqiri Kərbəla qərargahında elan etdi ki, düşmən Karunun qərbindən 7 km aralıda istehkam qurmağa başlayıb. Əgər Karuna çatsa, işlər çətinləşəcək. O, Karunda iyirmigünlük kəşfiyyat işlərindən sonra buna tam əmin olmuşdu.

Əməliyyat planının müzakirəyə çıxarılıb qəbul edilmə zamanı idi. Qüds yolu əməliyyatından sonra qərara alınmışdı ki, Həsən Baqiri, Qulaməli Rəşid və Rəhim Səfəvi korpusun plan komandası, Polkovnik Musəvi Qəvidel, Polkovnik Müfid və Polkovnik Camali də ordunun plan komandası kimi ayrı-ayrılıqda layihələr yazıb Möhsün Rzayiyə və Polkovnik Əli Səyyad Şiraziyə versinlər. Onlar da məsləhətləşəndən sonra komandirlərin iclasında yekun qərara gələcəkdilər. Son planları əksərən Həsən Baqiri hazırlayırdı.

**"Müzakirələr bitəndən sonra Həsən qərarları əməliyyat planı şəklində hazırlayırdı və komandirlərə təqdim olunurdu. Həsən Baqirinin çox yaxşı zehni vardı. Çox diqqətli, nizam-intizamlı və plan barədə hərtərəfli bilgiyə sahib idi. Həm də qələm adamı idi, yazarlıq məharəti vardı. Digər dostlardan çox Həsən Karundan keçməyi təklif edirdi. Bəzi dostlar tərəddüd edirdilər,**

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**amma məni bu fikirdə hamıdan çox o dəstəklədi, təklifi qəbul etdirməkdə onun dəstəyinin böyük rolu oldu".**[1]

Yalnız Möhsün Rzayi deyil, digər komandirlər də Həsən Baqirinin sözlərinə güvənirdilər. Çünki Həsən düşməni hamıdan yaxşı tanıyırdı, təklifləri dəqiq informasiyalara dayanırdı.

**"Əməliyyat planını izah edəndə istisnasız olaraq hamı qəbul edir və tam başa düşürdü. Adam hiss edirdi ki, Həsən Baqiri dediklərinin bütün cəhətlərinə əmin olub, sözü nəfsdən, bilgisizlikdən, təcrübəsizlikdən uzaqdır. Hətta ordudakı əzizlərin manevri müzakirə olunan iclaslarda da həmişə sözünə real nümunəsi vardı. Heç kim ondan öndə danışmırdı. Bu onun bacarığını və güclü idarəçiliyini göstərirdi".**[2]

Ordunun yüksək rütbəli komandirləri də hərbi təhsili olmayan bu gəncin yüksək hərbi istedadını alqışlayırdılar. Polkovnik Hüseyn Həsəni Sədi Fəthülmübin və Beytülmüqəddəs əməliyyatlarında müştərək Nəsr qərargahını Həsən Baqiri ilə birgə idarə etmişdi.

**"Həsənə dedim ki, bizim uşaqlarımız universitet və kurslarda dərslər keçiblər, əməliyyat layihələri yazırlar. Siz nə edirsiniz?**

**Əlini çantasına salıb bir il öncə Ali Baş Komandan əməliyyatında icra olunmuş layihəni çıxardı və dedi: "Bu, korpusda yazdığım ilk əməliyyat layihəsidir".**

**Ordunun layihələrindən iqtibas etmədən oxşar formada, amma öz düşüncəsi, nəticəsi və əsaslandırması ilə bir əməliyyatda baş tutacaq bütün vəzifələri qeyd edərək klassik əməliyyata bənzər layihə yazmışdı.**

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

[2] Şəhid Məhəmməd İbrahim Himmətin sözlərindən.

**Oxuyandan sonra elə oradaca ona dedim: "Allahın biz insanlara nemətlərindən biri də budur: İmanlı bir gənc elə layihələr yazır ki, hərbçilər bundan ötrü uzun müddət dərs oxuyurlar.**

**Bizə həqiqətən də inanılmaz idi. Bu sahələrdə çox düşüncəli idi və nəzərəçarpan üstünlüyü vardı".**[1]

Kərbəla qərargahının komandirləri əməliyyatın ilk mərhələsində Əhvaz-Xürrəmşəhr magistralına getməyə ehtiyatlanırdılar. Həsən Baqiri isə təkidlə deyirdi ki, döyüşçülər Karun çayından keçəndən sonra dayanmadan asfalt magistrala getməlidirlər. O bu sözü gecələr çəkdiyi əziyyətlərinə və dəqiq kəşfiyyat əməliyyatlarına əsaslanaraq deyirdi. Dünya təcrübəsinə görə, düşmənin nəzarətində olan körpü ələ keçiriləndən sonra orada post qurulur, canlı qüvvənin və hərbi texnkanın girişinə şərait yaradılır. Düşmən də bundan başqa bir şey təsəvvür etmirdi. Ordu komandirlərimiz də deyirdilər ki, əvvəlcə Karunun qərb sahilində yerləşək, Əhvaz-Xürrəmşəhr magistralına doğru əməliyyatı isə növbəti mərhələdə davam etdirək. Lakin Həsən Baqiri belə şablon fikirlərə qarşı idi. Kəşfiyyatçıların müşahidələri də bu fikri təsdiqləyirdi. Onlar magistralın yaxınlığında İraq ordusunun tələsik hazırladığı və genişləndirdiyi bir istehkamla rastlaşmışdılar. Həsən bu müşahidələrlə və özünün xüsusi əsaslandırması ilə ordu və korpus komandirlərini qane etdi. Özü bu barədə deyirdi:

"Mövzu bu idi ki, körpünün yaxınlığında yerləşək, yoxsa asfalt magistrala qədər irəliləyək? Əməliyyat necə və neçə mərhələdə baş tutsun? Hansı hərbi birləşmələr həyata keçirsinlər? Sonda yekun qərar bu oldu ki, Fəth və Nəsr qərargahları Əhvaz-Xürrəmşəhr magistralında yerləşsinlər.

[1] General-leytenant Hüseyn Həsəni Sədi ilə müsahibədən.

Düşmən magistralın kənarında möhkəm bir mövqe seçmək istəyirdi. Əlbəttə, biz düşünmürdük ki, İraq tərəfi bizə mane olmaqdan ötrü Karuna yapışacaq. Çünki olduqca çoxlu piyada qüvvəyə ehtiyac olardı, Karunun qərb hissəsində hər 3-4 km-ə bir briqada qoymağa məcbur qalardı. 40 km uzunluğunda bir ərazidə on piyada briqadası yerləşdirməsi isə əsla mümkün deyildi. Xüsusən də artilleriya dəstəyi, ərzaq və silah-sursat çatdırmaq baxımından da mütləq sıxıntı yaşayacaqdı. Təbii ki, düşmən Karundan 4-5 km aralıda yerləşib önünü yaxşı görəcək və oraya nüfuzu çətinləşdirəcəkdi. Həm də Əhvaz-Xürrəmşəhr magistralındakı müdafiə mövqeyi hələ yerində idi".[1]

Növbəti kəşfiyyat əməliyyatları düşmənin istehkamı tamamladığını bildirirdi. Tərəddüdlər ortadan qalxdı. Əməliyyatın mayın 7-də, İmam Əlinin (ə) doğum günündə başlanması planlaşdırılmışdı. Sonrakı günlərdə göydən çəkilmiş fotoları gətirəndə Həsən Baqiri bu nəticəyə gəldi ki, düşmən Karunun qərbini ələ keçirmək istəyir və əməliyyatı tezləşdirmək lazımdır. O, qərargahda bildirdi ki, İraqın 3 saylı zirehli diviziyası Fəkkədən Əhvaza və Xürrəmşəhrə doğru yola düşmək niyyətindədir, 10 saylı zirehli briqada da artıq hərəkətə başlayıb. Dedi ki, əgər geciksək və düşmən oraya yerləşsə, iş çətinləşəcək. Həsən deyirdi ki, magistrala çatsaq, düşməni qarşılıq verməyə məcbur edəcəyik. İndi öncəlik bizdədir, amma düşmən yerləşəndən sonra onda olacaq və biz qələbə çala bilməyəcəyik. Həsən Baqiri əməliyyatın 30 apreldə başlanmasını istədi. Möhsün Rzayi, Polkovnik Əli Səyyad Şirazi və digər komandirlər onun fikrini qəbul etdilər.

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

**"Əməliyyatın bir həftə irəli çəkilməsi dildə asan deyilir, amma əməldə hər şeyi bir-birinə vurur. Mühəndis-istehkam işləri – körpülər, yollar və digər tikinti işləri yarımçıq idi. Hələ batalyonlar da təkmilləşməmişdi. Həsən deyirdi ki, 80 faizli hazırlıqla hərəkətə keçmək 100 faizli hazırlıqla məğlubiyyətdən yaxşıdır. Mənə də dedi: "Əməliyyat başlayanda tanklarının işıqlarını yandırıb qaza basır, magistrala qədər gedirsən. Bizim əlli tankımızın magistrala çatması istehkamın arxasında qalıb vurulmasından yaxşıdır".**

**Həsən Baqiri düşməndən bir addım öndə idi. Əməliyyat bir həftə tezləşdirildi. Əgər əvvəlki vaxtda baş tutsaydı, bəlkə də uğursuz olacaqdı".**[1]

Beləliklə, ordu və korpus qüvvələri Fəthülmübin əməliyyatından bir ay sonra daha böyük bir əməliyyata hazır olmalı idilər. Nəzərdə tutuldu ki, əməliyyat üçün Bəsicin altmış min könüllüsü hazırlansın. Bu isə Fəthülmübin əməliyyatında iştirak edən bəsicilərdən iki dəfə çox idi. Yəni həmin qısa müddət ərzində korpusun strukturu da iki dəfə genişlənməli idi. 1981-ci ilin oktyabrından 1982-ci ilin mayına qədər ötən yeddi-səkkiz ay ərzində korpusun canlı qüvvəsi Saminül-əimmə əməliyyatındakı on iki batalyondan Fəthülmübin əməliyyatındakı təxminən iyirmi briqadaya çatdı. Bu isə on dəfə artım demək idi. Möhsün Rzayi bu ağır vəzifəni Həsən Baqiriyə tapşırmışdı. Beytülmüqəddəs əməliyyatı ərəfəsində təşkil olunan hərbi birləşmələrdən biri Həsən Tehraninin başçılıq etdiyi artilleriya bölüyü idi.

"Doktor Mustafa Çəmran şəhid olandan sonra Həsən Baqiri mənə bir məktub verdi, valiliyə gedib Nizamsız döyüşlər qərargahına məxsus raketləri təhvil aldım. 1981-ci

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

ilin payızında artilleriyanın vahid mərkəzdən idarəsi barədə Həsən Baqiri ilə danışıb dedim ki, dəstək atəşində problemimiz var, pərakəndə və məqsədsiz olmamalıyıq. Dedim ki, ağır silahlarımız var, amma onların idarəsi yoxdur. Artilleriya vahid mərkəzdən idarə olunmalıdır.

**Həsən o qədər istedadlı idi ki, dərhal layihəmi tamamladı. Ağa Möhsünə məktub yazıb mənim korpusun cənubdakı artilleriyasına rəhbərlik etməmi istədi. Ağa Möhsündən bir sərəncam alıb məni oraya yolladı, dörd qərargaha təqdim etdi. Mən də qərargah və briqadalar vasitəsilə canlı qüvvəyə təlimat verirdim. Korpusda atəşləri qeyd etmək üsulu yox idi. Qaydalardan istifadə edib təlim keçdik. Özüm müharibənin əvvəlində ağır silahlar üzrə təlim görmüş, bir dəfə də Sədabadda peşəkar təlimdə iştirak etmişdim.**

**Diviziya komandirləri artilleriya bölüyünü saymırdılar. Yalnız Həsən bizi dəstəkləyirdi. Bir şey lazım olanda onun yanına gedirdik.**

**Əvvəldə korpusun topxanası qarmaqarışıq idi. Məsələn, bir bölükdə dörd minaatan vardı, hərəsi bir modeldən idi. Dedim ki, artilleriya eyni kalibrdə olmalıdır. Bundan ötrü hər komandir bəzi texnikaları verib digərlərini almalı idi; məsələn, 130 kalibrli minaatanı verib 155 kalibrli minaatan alırdı. Məktubu hazırlamışdıq, ağa Möhsün hamıya yollamışdı. Əhməd Kaziminin yanına gedəndə deyirdi ki, olmaz, get. Əhməd Mütəvəssilian da razılaşmırdı. O qədər gedib-gəldim ki, axırda yorulub ağa Rəhimə dedim: "Heç kim sizin məktublarınıza məhəl qoymur". Dedi: "Nə edim?! Sözə qulaq asmırlar".**

**Lakin Həsən Baqiri onlarla ciddi söhbət etdi və problem həll olundu. Hamı bildi ki, artilleriya sayla deyil, kalibrlə olmalıdır.**

**Fəthülmübin əməliyyatında Fətulla Cəfəri 157 top ələ keçirdi. Onlar korpusun ilk topxanasını təşkil etdi. Vəhid xaricdən mərmi alıb təyyarə ilə bizə göndərirdi. Artilleriyadan istifadəyə Beytülmüqəddəs əməliyyatından başladıq. Cəbhədə bir qrup istedadlı döyüşçü vardı. Komandirlər onları idarə etdilər. Əliboş idik, ancaq Həsən Baqiri kimi mütəfəkkir beyinlər vardı. Müharibədə 92 faizdən yuxarı effektivliklə vuruşurduq. Həsən yenilik və dinamika yaradan adam idi".**[1]

Çoxlu iclaslarına və gərgin iş rejiminə baxmayaraq, Həsən Baqiri Beytülmüqəddəs əməliyyatından öncə ailəsini də yaddan çıxarmamışdı.

**"İclaslar gecə saat ikiyə qədər davam edirdi. Fəthülmübin əməliyyatından sonra ailə qurmuşdum. Məzuniyyət mümkün olmadığına görə ailələrimizi əməliyyata ən yaxın bölgələrə gətirmişdik. Bir gecə iclas çox uzandı. İclasdan sonra mənə dedi: "Bəşərdust, qalx, Əhvaza gedək". Dedim ki, biz indi Xürrəmşəhrin yaxınlığındayıq, oraya gedənə səhər açılacaq". Dedi:**

---

[1] Şəhid Həsən Tehrani Müqəddəmlə müsahibədən. General Həsən Tehrani Müqəddəm 1959-cu ildə Tehranın Sərçeşmə məhəlləsində dünyaya göz açmışdı. O, korpusun artilleriyasının əsasını qoyanlardan idi. 1983-cü ildə korpusun yer-yer raket sistemini qurmaq ona tapşırılmışdı. O, 1985-ci ildə korpusun Hərbi Hava Qüvvələrinin artilleriya üzrə komandan müavini təyin olundu. Həsən Müqəddəm 2006-cı ilin dekabrında Keşikçilər korpusunun Baş komandanının artilleriya üzrə müşaviri seçildi və 2011-ci ilin 12 noyabrında Məlard rayonunda yerləşən Əmirəlmöminin qarnizonunda raket sınağına hazırlıq zamanı silah anbarındakı partlayış nəticəsində əməkdaşları ilə birgə şəhadətə qovuşdu.

**"Gündüz vaxtımız olmur. Qısa müddətə olsa da, gedib ailəmizə baş çəkək. Bu, bizim borcumuzdur".**

**Əhvaza getdik. Məni evdə düşürdüb özü də evinə getdi. Sübh namazından sonra gəldi ki, artıq qayıtmalıyıq. Qərargaha çatanda gecə iclas keçirdiyimiz dostlar hələ yuxudan oyanmamışdılar".**[1]

Beytülmüqəddəs əməliyyatı 1982-ci ilin 30 aprelində gecə saat 00:30 dəqiqədə "Ya Əli ibn Əbu Talib" parolu ilə başlandı. Nəsr və Fəth qərargahlarının şəxsi heyəti Karun çayından keçib düşmən mövqelərini tutdular və Əhvaz-Xürrəmşəhr magistralına doğru irəliləməyə başladılar. İlk mərhələdə ən önəmli məsələ çaydan keçmək idi. Plana görə, əməliyyat axşamı Karun çayının üzərindən beş körpü salınmalı idi, amma düşmənin hava hücumlarına görə bu iş vaxtında sona çatmamışdı. Həsən Baqiri bu barədə deyirdi:

"Çayı keçmək çoxlu orduların uzun müddət təlim keçdiyi, məşq etdiyi ən çətin əməliyyatlardandır. Ordunun mühəndis-istehkam bölüyünə məxsus iki sabit PMP körpüsü vardı, əməliyyatdan 24 saat öncə Karunun kənarına gətirmişdilər ki, göydən çəkilən fotolarda çox da bilinməsin. İraq tərəfi yavaş-yavaş körpü salınacağını və ya salındığını duymuşdu. İsmailiyyədə vurulan bir düşmən təyyarəsinin pilotu deyirdi ki, bütün Karundan şəkillər çəkmişik və sizin Salmaniyyə bölgəsində körpü salmaq istədiyinizə əminik. Onlara həmin bölgəni bombardman etmək, sonra da şəkil çəkmək tapşırılmışdı.

Şəxsi heyətin çoxu qayıqlarla və kiçik üzən körpülərlə çayı keçdi. Üzən körpülər suyun üzündə qalır, 10 dəqiqə ərzində bir dəfə o tərəfə keçib qayıdırdı. Təxminən saat

---

[1] Fəthülmübin əməliyyatında Qüds qərargahının əməliyyat komandiri Qulamhüseyn Bəşərdustla müsahibədən.

17:00-da körpülər tam hazır oldu və yavaş-yavaş maşınlar da Karunun qərbinə keçməyə başladılar. Bu zaman Karunun şərqində ağır tıxac əmələ gəldi. Keçid prioriteti belə idi: mühəndis-istehkam bölüyü, yüngül maşınlar, təcili yardım maşınları, artilleriya və zirehli texnika. Bunların hamısı çayın o tərəfinə keçməli idi".[1]

"Məhəmməd rəsulullah (s)" və Vəliəsr briqadalarının piyada batalyonları əməliyyat parolu verilən kimi dərhal Karundan keçmişdilər. Onlar gecə saat 01:30 dəqiqədə düşmən mövqeyini ələ keçirib magistrala çatdılar. Fəth qərargahında da Nəcəf və İmam Hüseyn (ə) briqadaları tapşırıqlarını yerinə yetirdilər. Əsas döyüş yeri isə Gərmdəşt stansiyası idi. İraq ordusu magistralı vermək istəmir, güclü müqavimət göstərirdi. Orada briqadalar arasında məsafə yarandı. Düşmən oradan girib Əhvaz-Xürrəmşəhr magistralının bir hissəsini ələ keçirdi, Nəsr və Fəth qərargahlarını bir-birindən ayırdı. Vəliəsr briqadası magistraldan təxminən 3 km geri çəkilməyə məcbur oldu. "Məhəmməd rəsulullah (s)" briqadasının birləşmələri magistralda ən güclü əks-hücumlarla üzləşdilər. Briqada komandiri Hacı Əhməd Mütəvəssilian iki istiqamət yaratdı: biri Möhsün Vəzvayinin komandir və Hüseyn Təqəviməneşin komandir müavini təyin olunduğu Məhərrəm istiqaməti, digəri də Hacı Mahmud Şahbazi ilə Hüseyn Həmədaninin başçılıq etdiyi Salman istiqaməti. Möhsün Vəzvayi müavini Hüseyn Təqəviməneş və rabitəçisi ilə birgə Gərmdəşt stansiyasında top mərmisindən şəhadətə qovuşdu. Əməliyyatın ikinci mərhələsi mayın 3-də baş tutacaqdı. Möhsün Vəzvayinin istiqaməti o qədər önəmli idi ki, Həsən

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

Baqiri əməliyyatı dayandırıb briqadalar arasındakı boşluğu doldurmağa çalışdı.

**"Gərmdəştdən təxminən 3 km aşağıda Həzrət Rəsul (s) briqadasının bir istiqaməti vardı. Oraya şəhid qardaşımız Vəzvayi rəhbərlik edirdi. Onlar asfalt magistralın iki tərəfindən atəşə məruz qalırdılar. Düşmən Xürrəmşəhrə qarşı həssas olduğuna görə və bizi durdurmaq məqsədilə orada güclü müqavimət göstərirdi. Vəzvayi şəhid olandan və canlı qüvvə itki verəndən sonra əməliyyat dayandı. Əməliyyatın ikinci günü Nəsr birləşmələri arasındakı boşluq çox təhlükəli həddə çatdı. Düşmənin bir mexaniki bölüyü magistralın şərqinə nüfuz etdi, ancaq uşaqların böyük fədakarlığı nəticəsində ya qaçdılar, ya da darmadağın edildilər. İlk mərhələnin başlanmasından sonrakı üç gecədə bütün səyimiz hərbi birləşmələrimizi bir-birinə birləşdirmək oldu. Boşluqları bir-bir doldurmağa başladıq. Nəcəf və Dezful briqadaları arasındakı boşluq bir əməliyyatla dolduruldu. Başqa bir boşluq Dezful briqadası ilə Həzrət Rəsul (s) briqadası arasında idi. Onu da həmin briqadaların şəxsi heyəti doldurdu. Mövqeyin 68-ci km-dən 103-cü km-ə qədər möhkəmlənməsi ümumilikdə beş gün çəkdi".**[1]

Həsən Baqirinin qeyd etdiyi beş gündə cəbhə xüsusi bir kitaba sığacaq böyük hadisə və qəhrəmanlıqlara şahid oldu. Qısa olaraq deyə bilərik ki, Həsən Baqiri Nəsr qərargahını Salmaniyyədən 25 km irəliyə Gərmdəştə və Əhvaz-Xürrəmşəhr magistralındakı torpaq istehkamın arxasına apardı. O, ilk dəfə deyildi ki, qərargahı döyüş yerinə gətirirdi. Saminül-əimmə, Qüds yolu və Fəthülmübin əməliyyatında da bu işi görmüş, səyyar qərargah yaratmış,

---

[1] Yenə orada.

ratsiyaları maşına qoyaraq qərargahın yeni yerini elan etmiş, bütün məsul şəxsləri döyüş yerinin yaxınlığına aparmışdı.

**"Hava işıqlaşan kimi əməliyyat yerinə gəlir, hərbi birləşmələrin komandirlərini çağırıb maşının yanında, səngərin bir tərəfində və ya bir çökəklikdə iclas keçirir, əməliyyatı idarə edirdi. Bu onun cəsarətindən irəli gəlirdi. Böhranlı şəraitlərdə təhlükələrə atılaraq digər komandirləri, batalyon və briqada başçılarını ruhlandırırdı. Təhlükə duyulan yerə ilk olaraq özü gedir, digərlərini də arxasınca aparırdı".**[1]

Əhvaz-Xürrəmşəhr magistralı İraq ordusu üçün böyük əhəmiyyətə malik idi. Onlar magistralı qorumaqdan ötrü kənarında 2 metr hündürlüyündə torpaq istehkam düzəltmiş, arxasına canlı qüvvə toplamışdılar. Həsən Baqiri kəşfiyyat zamanı istehkamın vəziyyətinə diqqətlə nəzarət edirdi. O bilirdi ki, düşmən mövqeyini ələ keçirəndən sonra həmin istehkam bəsiciləri də qoruya bilər. Düşmən də bunu bildiyinə görə tapşırıq vermişdi ki, nəyin bahasına olursa-olsun, magistralı əldən vermək olmaz.

İraq ordusu əks-hücum planlarında inkişaf etmişdi, imkanları da çox geniş idi. Həsən Baqirinin əməliyyatdan qabaq araşdırdığı ən mühüm məsələlərdən biri düşmənin əks-hücumu idi. O, əsir düşmüş İraq hərbçilərini toplayıb onlarla danışır, əməliyyat planı barədə məlumat vermədən taktikalarını öyrənirdi.

**"Həsən Baqiri məsələləri iraqlıların baxışından araşdırırdı. Əməliyyat keçirmək istəyəndə iraqlı zabiti inandırırdı ki, İraq tərəfi hücuma keçir və biz müdafiə olunuruq. Əsir zabit də mövcud vəziyyətdən xəbərsiz olur, vəziyyətlərinin yaxşılaşdığını güman edib Həsəni**

---

[1] General-leytenant Məhəmmədəli Cəfəri ilə müsahibədən.

**çaşdırmağa çalışır, bəzi şeyləri ondan gizlədirdi. Onun gizlədib yanlış cavabladığı suallar bizim istədiklərimiz olurdu. Çünki biz əksinə, hücuma keçmək istəyirdik. Yaxud bir iraqlı zabit bəzi cəhətləri o qədər şişirdirdi ki, Həsən bundan onların zəif nöqtələrini anlayır, etinasızlıqla söylədiklərindən isə müsbət cəhətlərini başa düşürdü".**[1]

Düşmən əməliyyatın ikinci günü ardıcıl əks-hücumlara keçirdi. Çünki boşluq hələ ixtiyarında idi. Həsən Baqiri mayın birində gecə vaxtı Vəliəsr briqadasının şəxsi heyətindən istifadə edib hücuma keçdi və magistralı iraqlılardan aldı. Mayın ikisində günbatan çağı kəşfiyyat-diversiya komandirlərini və briqada başçılarını toplayıb bildirdi ki, düşmən sabah güclü əks-hücuma keçəcək. O bilirdi ki, İraqın 12, 6 və 10 saylı zirehli briqadaları əks-hücuma hazırlaşırlar.

Mayın üçündə səhər saat 10-da Həsənin proqnozu həyata keçdi. Düşmənin müxtəlif növlü tankları magistralın müdafiəçilərinə hücum etməyə başladı. Əhvaz-Xürrəmşəhr magistralının kənarındakı torpaq istehkam yoldan bir metr yarım, digər tərəfdən isə üç metr hündür idi. İraq tankları pulemyot və mərmilərlə istehkamı uçurmağa çalışırdılar. "Məhəmməd rəsulullah (s)" briqadasının Həbib ibn Məzahir və Həmzə batalyonlarının bəsiciləri qumbaraatanla bəzi tankları zərərsizləşdirdilər. Lakin onlar əl çəkmir, yanmış tankları kənara çəkərək irəliləyirdilər. Günortaya yaxın döyüş çox qızışdı. Korpusun zirehli briqadasının tankları istehkamın arxasına yerləşmişdi. Tanklar üçün ikipilləli səkilər düzəldilmişdi. Tank bir pillənin üzərinə çıxıb atəş açır və qayıdaraq aşağıdakı pillədə dayanırdı.

---

[1] General Əsgər Kazimi ilə müsahibədən.

**"Bizim T-72 tanklarımızın anteni istehkamın arxasından görünürdü. Düşmən onlardan birini nişan alıb atəş açdı. Mərmi istehkamın ortasından keçib tankımızı partlatdı. Onun alışıb-yandığına hamı təəccübləndi. Tankın ekipajı şəhid oldu. Yanındakı tankı da vurdular. Mərmi istehkamı dəlib keçir, tankı partladırdı. T-72 mərmisinin barıtı digərlərindən iki dəfə artıq olduğundan təsiri də iki dəfə güclüdür. Mərmi ən ağır metaldan düzəldilmişdir. Qumbaraatan raketi bir maneəyə dəyəndə partlayır, onlarsa partlamır, torpağı, betonu, zirehi yarıb tankın içindəki sursatı partladır. Uşaqlar qumbaraatanla T-72-ni vururdular, amma zirehi çox güclü olduğundan təsir etmirdi.**

**İraqın əl-Vəhdət və əl-Mənsur batalyonlarının hər birinin 35 tankı bizim cəmi 14 tankımızın üstünə gəlirdi. DŞK pulemyotu ilə istehkamın başını dəlik-deşik eləmişdilər, heç kim başını qaldıra bilmirdi. Addım-addım yaxınlaşırdılar. Həsən Baqiri orada idi və əks-hücumu görürdü. Günorta saat 12-yə yaxın dedim ki, vəziyyət çox pisdir, istehkama çıxardığımız hər bir tankı vururlar. Heç nə edə bilmirik. Yaxşı olar ki, uşaqlar magistralın ortasından geri çəkilsinlər və şəhid olmasınlar". Dedi ki, qoy yaxınlaşsınlar.**

**Həsən Baqiri bütün şəxsi heyətə həyəcan siqnalı verdi. Ratsiyadan səsini eşidirdim, Hacı Əhməd Mütəvəssiliana deyirdi ki, gözləmədə qal. Düşmən tankları nərildəyə-nərildəyə irəliləyirdilər. Bölüklərinin hər biri önünə bir tank taqımı salıb təxminən 2 km uzunluğunda bir cərgə ilə Əhvaz-Xürrəmşəhr magistralına doğru gəlirdi. Bəzi tanklar magistrala və bizim istehkama çıxdı. Həsən Baqiri bu anda ratsiyadan qışqırdı: "Bütün şəxsi heyət ucadan təkbir desin!"**

**Birdən "Allahu-əkbər" səsi bütün cəbhəni bürüdü. Tankların ekipajları məğlub olduqlarını düşünüb tanklardan endilər və qaçmağa başladılar. Magistralın aşağı hissəsində olanlar da bataqlığa batıb çıxa bilmədilər. Arxadakı bir neçə tank da geri qayıtdı.**

**T-72 tankı çox güclü və sürətlidir. Onlar geri dönəndə hər tərəf toz-dumana büründü, magistralın üstündəki iraqlılar da tanklarla birgə qaçdılar. İstehkamın arxasında çömbəlmiş döyüşçülərimiz cana gəlib istehkamın üstünə çıxdılar, tanklara atəş açmağa başladılar. Beş ədəd T-72 tankı sağlam şəkildə ələ keçirildi. Bu zaman günorta azanı verilməyə başladı. Bəsicilər bayraqla istehkamın başından dəmir yoluna qədər irəlilədilər. Əks-hücumun əvvəlində qalib olan düşmən birdən darmadağın oldu və geri çəkildi".**[1]

Rəhim Səfəvi həmin gün Həsən Baqirinin yanında idi, onun komandirlik qabiliyyətini hər yerdə yaxından izləyirdi - Nəsr əməliyyat qərargahında, döyüş yerinin yaxınlığında və üstünü metal yağ qabı ilə örtdükləri çalada.

**"Beş gün güclü döyüş getdi. Düşmən Xürrəmşəhr-Əhvaz magistralının arxasındakı istehkamı ələ keçirsəydi, Karun çayına qədər geri çəkilməli idik. Bəlkə köməyim dəyər deyə, Kərbəla qərargahından Həsən Baqirinin yanına getdim. Üstündə yalnız bir qat nazik dəmir olan səngərə girdim. Gördüm ki, yaşıl paltarı qapqara olub. Nəsr qərargahını döyüş yerinə aparmışdı, beşgünlük döyüş zamanı düşmənin əks-hücumlarına oradan cavab verirdi.**

**Mayın dördündə yanında oturmuşdum. Ratsiyalarından komandirlərin səsi gəlirdi. Deyirdilər ki,**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**düşmən tankları magistrala yaxınlaşır. Qumbaraatan T-72 tankına təsir etmirdi. Həsən Baqiri dedi ki, bizim Allahu-əkbərdən güclü silahımız yoxdur. Ratsiyadan Əhməd Mütəvəssilianı və batalyon komandirlərini çağırdı. Hamı onu dinləyirdi. Birdən hamıya dedi ki, ucadan təkbir deyin. Özü də dedi: "Allahu-əkbər! Allahu-əkbər!" Birdən təkbir səsi hər yeri bürüdü. Toz-torpaq və qum fırtınası da başlandı. İraqın prezident qvardiyasının 10 saylı briqadasına aid tankların rabitə sistemi çökdü. Öndə olanlar tanklardan enib qaçmağa başladılar, digərləri də irəliləyə bilməyib geri çəkildilər. Beləliklə, qaçılmaz məğlubiyyət qələbəyə çevrildi".**[1]

Mayın beşində Həzrət Rəsul (s) briqadasından Hüseyn Quminin başçılıq etdiyi bir batalyon Gərmdəştin cənubuna gedib düşmənin Əhvaz-Xürrəmşəhr magistralına girmək istədiyi əraziyə yerləşdi. O, orada şəhid oldu, amma magistralı düşmənə vermədi.

Beytülmüqəddəs əməliyyatının keçirildiyi çox gərgin altı gündən sonra komandirlər Kərbəla qərargahına toplaşıb əməliyyatın davamı haqda qərar qəbul etməli idilər. Həsən Baqirinin fikri bu idi ki, ikinci mərhələdə Şələmçə sərhədinə doğru gedib düşmənin Xürrəmşəhrə çıxışını bağlayaq. Bəzi komandirlər isə Xürrəmşəhrə getməyi təklif edirdilər. Həsən fikrini belə əsaslandırırdı ki, əgər Şələmçəyə getsək, əvvəla, Xürrəmşəhrin şimalındakı istehkamlar, tikanlı məftillər və mina sahələrindən ibarət üççərgəli güclü müdafiə maneələrini aşmağa lüzum qalmayacaq. İkincisi isə düşmən bizim məqsədimizin Bəsrə, yoxsa Xürrəmşəhr olduğunu bilməyəcək. Çünki Şələmçə Bəsrə-Xürrəmşəhr magistralının ortasında yerləşir, hər tərəfdən 12 km aralıdadır. Möhsün

---

[1] General-leytenant Rəhim Səfəvi ilə müsahibədən.

Rzayi, Polkovnik Əli Səyyad Şirazi və digər komandirlər müzakirələrdən və Həsən Baqirinin dəlillərini dinləyəndən sonra planı qəbul etdilər.

1982-ci ilin 7 mayında axşam saat 22:30 dəqiqədə Nəsr və Fəth qərargahlarının hərbi birləşmələri Beytülmüqəddəs əməliyyatının ikinci mərhələsinə başladılar. Parol elan olunan kimi bahar yağışı da yağmağa başladı. İranlı döyüşçülərin yağış altında hücuma keçəcəklərini güman etməyən iraqlılar tank və səngərlərinə girdilər. Piyada qüvvələr bu fürsətdən istifadə edib tankların arasından sərhədə doğru getdilər, 15 km irəliləyəndən sonra zastavaya çatdılar. Həsən Baqiri bu mühüm irəliləyişin hər bir anında briqada və batalyon komandirləri ilə əlaqə saxlayır, döyüşçülərin hava işıqlanmamış zastavaya yerləşmələrinə çalışırdı.

Gözlənildiyi kimi, səhər tezdən İraq tankları peyda oldu. Əks-hücum təxminən iki saat davam etdi və bəsici döyüşçülər onları geri qovdular. İkinci əks-hücum səhər saat 11-dən başlandı və o da iki saat davam etdi. Bu əks-hücum öncəkindən daha ağır oldu. İraq ordusu axşamüstü üçüncü dəfə əks-hücuma keçdi. Onlar nəyin bahasına olursa-olsun, Şələmçənin bir cinahını tutmaq istəyirdilər. Həmin əks-hücumda Əhməd Mütəvəssilian yaralandı və "Məhəmməd rəsulullah (s)" briqadasına Hacı Himmət başçılıq etməyə başladı.

Həsən Baqiri əks-hücumlarda müdafiə mövqeyindəki bəsici döyüşçülərin yanında idi və onlara rəhbərlik edirdi. Qərargahının kəşfiyyat, əməliyyat, mühəndis-istehkam, təchizat və tibb bölüklərinin şəxsi heyəti də döyüş yerində idi. Axşam Nəsr qərargahında komandirlərə demişdi ki, biz təhlükəli bir yerə daxil olmuşuq, sabah düşmənin hücumu daha güclü olacaq. O, 8 mayı ağır gün kimi xatırlayırdı.

"Mayın 8-ində səhər çağı sərhədə çatdıq. İraq tərəfi güclü əks-hücuma başladı. Hələ yerimizi bərkitməmişdik. Zastava bizdə olsa da, düşmən içərilərə girmir, sərhəd mövqeyini ələ keçirməyə çalışırdı. Axşamüstü saat beşə qədər davam edən əks-hücumlara görə həmin gün bəlkə də İran-İraq müharibəsinin ən ağır və ən gərgin günlərindən biri oldu. Çəzzabəyə bənzər bir gün idi. Düşmən öz sərhədlərindən başlayan 6 km-ə qədər bir ərazini bizdən geri ala bildi".[1]

Mayın 8-ində səhər saat səkkizdə İraq ordusunun əks-hücumu başlandı. Döyüşçülərin önündəki düzənliyi doldurmuş saysız-hesabsız tank dayanmadan atəş açırdı, raket və pulemyotları bir an da dayanmırdı. Atəş o qədər güclü idi ki, heç kim başını yuxarı qaldıra, avtomat və ya qumbaraatandan atəş aça bilmirdi. Uşaqlar "Allahu-əkbər" deyib hücuma keçdilər. Lakin düşmən zastavanı əldən verməmək üçün bütün gücünü toplamışdı. Bu zaman İraqın prezident qvardiyası zastavanın aşağısından əks-hücuma keçdi. Onlar Quruculuq cihadı təşkilatının qurduğu cənub istehkama o qədər atəş yağdırdılar ki, bir hissəsi uçdu. Düşmən oradan girib bizim döyüşçülərimizə yaxınlaşdı. Uşaqlar bir qədər geri çəkildilər. Çox böhranlı vəziyyət yarandı.

**"Elə güclü atəş misilsiz idi. Nəbəədə ağır şərait görmüşdük, amma burada ondan da pis idi. T-62, T-55, T-72 və digər tanklar dayanmadan mərmilərini atır, sonra digər tanklar cəld onların yerini tuturdu. İraq tankları ilə qeyri-bərabər döyüşdə 14 tankımız vuruldu, bütün ekipajları şəhid oldu. Barıt qoxusu, avtomat, pulemyot və qışqırıq səsi hər tərəfi bürümüşdü. Həsən ratsiya vasitəsilə Himmətlə danışanda iraqlıların və**

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

**pulemyotların səsi gəlirdi. Düşmən irəliləyirdi, bir-bir səngərlərimizi itirirdik. İlk xətdə üz-üzə döyüş gedirdi.**

**Döyüşün başlanmasından üç saat sonra İraq ordusu cənub hissədə müdafiə xəttimizi yara bildi. Döyüşçülərimiz nahar yemədilər, namazlarını da ayaq üstə və ya hərəkət halında qıldılar. Döyüşün qızğın yerində Həsən Baqiri motosikletlə Nəsr qərargahından oraya gəldi. Hacı Himmətə dedi ki, bir bölük düşmənin sağ cinahına hücum etsin. Çətin iş idi, amma Hacı Himmət bu işi gördü. Mənə əmr etdi ki, sağlam tanklarla zastavanın dalından düşmənin arxadakı qüvvələrinə atəş açaq; dəqiq olmasa da, eybi yoxdur. Dedi ki, tankların qoruyucu sistemlərini aktivləşdirib ətrafda tüstü buludu yaradın. Tüstü və toz-duman hər yeri bürüdü. Qumbaraatanlar irəli keçdilər. Düşmənin sağ cinahına hücum təsirli oldu. Günortadan sonra saat dörddə həmin istehkamın yanında bir tankı ələ keçirdik. İnanılmaz olsa da, 24 saylı mexaniki briqadanın komandiri Polkovnik Məhəmməd Rəşid Siddiqin komandir tankı idi. Mehdi Zeynəddin onu Həsən Baqirinin yanına apardı. Yanında bir nəfər də vardı. Həsən Mehdiyə dedi ki, onları təhlükəsiz bir yerə aparıb dindirsin, hədəflərinin hara olduğunu və əks-hücumun nə vaxta qədər davam edəcəyini öyrənsin.**

**Əks-hücumlar günortadan sonra sakitləşdi. Saat beşdə uşaqlar təkbir deyib iraqlılara hücum etdilər, onları bir qədər geri çəkilməyə məcbur etdilər. Mayın 8-ində səhər saat səkkizdə başlayan əks-hücumlar günortadan sonra saat beşdə sona çatdı. Himmətlə Həsən Baqiri başdan ayağa toz-torpağın içində idilər, yalnız gözləri görünürdü.**

**Əks-hücumlar bitdi, ancaq atəş hələ davam edirdi. Həsən Baqiri ağır bir gün keçirmiş olsa da, soyuqqanlılıqla əməliyyatı idarə edirdi. Hava qaralanda komandirləri toplayıb ümidverici fikirlər söylədi. Mövqeyin 5 km-ini əldən vermiş olsaq da, buna işarə vurmadan dedi: "Allaha şükür, zastava mövqeyinin 15 km-ini qorudunuz".**[1]

İslam döyüşçülərinin mayın 7 və 8-ində Şələmçədə igid müqaviməti İraqın diviziya komandirləri Mahir Əbdülrəşidlə Mahmud Şakir Şahinin Bəsrəni qorumaq üçün Əhvaz yaxınlığından Təlaiyyə sərhədinə qədər geri qaçmalarına səbəb oldu. Düşmən qüvvələri 8 may gecə saat 12-dən geri çəkilməyə başlayıb 9 may səhər saat 6-da Təlaiyyəyə çatdılar. Sözügedən ərazi təxminən 80 km demək idi. Onların Təlaiyyədən Dubb-Hərdana qədər bölgələri işğal etmələri bir həftə sürmüşdü, həmin yolu altı saata geri qayıtmalı oldular. Bu geriçəkilmədə Hüveyzə, Cüfeyr düzü, Həmid qarnizonu, Kərxəkurun Rəfiə qədər ətrafı, yəni altı min kv km-lik Beytülmüqəddəs əməliyyat zonasının dörd min kv km-i azad olundu. Həsən Baqiri bu barədə deyirdi:

"Düşmən komandirləri böyük vahiməyə düşmüşdülər. Kərxəkurun aşağısında yerləşmiş 5 və 6 saylı diviziyalarının cənub cinahı təhdid altında idi. Xürrəmşəhrin şimal istiqamətinin təhdidi isə günbəgün artırdı. Düşmən günortadan sonraya qədər güclü təzyiq göstərdi. Məlum idi ki, 5 və 6 saylı diviziyalarını orada saxlamaq, yoxsa geri çəkmək barədə düşünürlər. Onlar bu nəticəyə gəldilər ki, əməliyyatın ikinci mərhələsi baş tutandan sonra Nəsr qərargahının önündə qalmağın heç bir xeyri yoxdur, hər iki diviziya təhdid altındadır və mühasirəyə düşə bilər. Buna

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

görə gecə saat 12-dən səhər saat 6-ya qədər iki diviziyanı Qüds qərargahının önündən geri çəkdilər. Bu iki zirehli və mexaniki diviziyanın yanındakı piyada briqadalar da geri çəkildilər. Hətta otuzdan çox düşmən əsgəri ertəsi gün yuxuda ikən əsir tutuldu. Onlar bütün şəxsi heyətlərini oyadıb geri apara bilməmişdilər. Bu onu göstərirdi ki, əməliyyatın ikinci mərhələsi ən yaxşı hədəfə dəymişdi. Bu, əlbəttə ki Allahın bir lütfü idi".[1]

Əslində, Həsən Baqirinin işğalçıları tərəddüdə salmaq planı baş tutmuşdu. Səddam Hüseyn Bəsrənin Şeraton otelində Mahir Əbdülrəşidlə Şakir Mahmud Şahini sorğuya çəkib geri çəkilmələrinin səbəbini soruşanda demişdilər: "Biz Bəsrəni qorumağa gəldik. Daha Əhvazın yaxınlığında qalmağın mənası yoxdur. İranlılar Şələmçəni tutduqlarına görə Bəsrəni qorumağa məcburuq".

İstehkamın arxasında bir qədər yaralı qalmışdı. Fətulla Cəfəri mayın 8-ində günbatan çağı onları geri aparmaq üçün bir neçə zirehli maşın gətirdi.

**"Həsən Baqiri tibb işçilərinin başçısına dedi: "Diqqətli olun, bütün yaralıları aparın". Dedi ki, hamını aparacağıq, heç kim yerdə qalmayacaq. Həsən soruşdu: "İraqlı yaralıları da aparacaqsınız?"**

**Bir iraqlı yaralını xərəklə aparırdılar. Gözləri açıq idi, ətrafa baxırdı. Çiynində poqon vardı. Üst-başı bulaşmış iki bəsicinin biri xərəyi öndən, biri arxadan tutmuşdu. Həsən soruşdu ki, bu kimdir? Dedilər ki, iraqlı zabitdir. Bəsicinin alnından öpüb dedi: "Afərin! Allah bu işinizə savab verəcək".**

**İraqlı zabit Həsənə baxırdı. Onun kim olduğunu bilmirdi. Bel çantası ilə yanında gəzən rabitəçini və**

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

**ətrafındakı uşaqları görüb komandir olduğunu anladı və gözlərindən yaş axdı. Qəribə səhnə idi".**[1]

Onbirgünlük döyüş və güclü əks-hücum nəticəsində Nəsr və Fəth qərargahlarının şəxsi heyəti zəifləmişdi. Hüseyn Qəcei, Möhsün Vəzvayi, Mahmud Şahbazi və Hüseyn Təqəviməneş kimi komandirlər şəhid olmuş, Əhməd Mütəvəssilian və Rza Çıraği kimi komandirlər də yaralanmışdılar. Korpusun yeni yaradılmış zirehli hərbi birləşməsinin bir hissəsi sıradan çıxmışdı.

Düşmən iki gün ərzində bölgədə minalanmış sahələr və digər maneələr yaratdı, istehkamların üzərinə tank qoydu, Şələmçə magistralından azca aralıda dördlü zenit pulemyotları yerləşdirdi ki, heç kim ona yaxınlaşa bilməsin. İraq ordusu Xürrəmşəhrin 15 km-lik ətrafını qorumaq istəyirdi.

Kərbəla qərargahı mayın 11-ində əməliyyatın üçüncü mərhələsi barədə məsləhətləşmək üçün iclas keçirdi. Əksər komandirlərin fikri bu idi ki, Xürrəmşəhrin azadlığının son mərhələsi üçün sonraya bir əməliyyat planlaşdırılsın, o vaxta qədər canlı qüvvə nəfəsini dərsin və hərbi birləşmələr bərpa olunsun.

**"Qərargahda bütün komandirlərin fikri bu idi ki, əməliyyatı saxlayıb hərbi birləşmələri bərpa edək. İclas yekunlaşmaq üzrə idi. Orada din alimlərindən də bir neçə nəfər iştirak edirdi. Bu zaman Həsən Baqiri ayağa qalxıb dedi: "Xürrəmşəhr mühasirədədir, siz qayıtmaq istəyirsiniz?!"**

**Həsənin çıxışından sonra bütün komandirlərin fikri dəyişdi. Əminəm ki, o mərhələdə dayansaydıq, düşmən digər yerləri də geri alar, ya da ən azı yerini elə**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**bərkidərdi ki, heç bir iş görə bilməzdik. Bəlkə ondan bir-iki il sonra da Xürrəmşəhrin azadlığı mümkün olmazdı. O, hamını qane etdi. Əgər Həsən olmasaydı, 24 may 1982-ci ildə Xürrəmşəhr azad edilməyəcəkdi".**[1]

Həsən Nəsr qərargahının bütün briqada komandirlərinə dedi ki, on gün ərzində briqadalarını bərpa edib hücuma hazır olsunlar. Mayın 12 və 13-ündə Nəsr və Kərbəla qərargahlarında iclaslar keçirildi. Həsən yenə israr edirdi ki, əməliyyatı təxirə salmamalıyıq.

**"Həsən Kərbəla qərargahının mühüm komandirlərinə və batalyon başçılarına məktəbli bir qızın məktubunu oxudu. Qız yazmışdı ki, biz sizin üçün dua edir və Xürrəmşəhrin azadlığını gözləyirik. Məktub çox təsirli idi. Həsən dedi: "Xürrəmşəhr bizimçün, xalqımız və imamımız üçün bir əfsanəyə çevrilib. Biz nə qədər torpaq azad etsək də, yenə xalq soruşur ki, Xürrəmşəhr nə zaman azad ediləcək".**

**O deyirdi: "Xürrəmşəhrdəki düşmən bezmiş bir düşməndir, müdafiə oluna bilmir, əli çaxmağa getmir. Onlara aman verməməliyik. Onlar zorla dayanıblar".**

**Həsən düşməni yaxşı tanıyırdı və bu, İslam respublikası üçün böyük bir üstünlük demək idi. Çoxlu komandirlər deyirdilər ki, Həsən Baqiri vuruşanda sanki düşməni görüb vuruşur. Tarixdə öz düşmənini ratsiya arxasından görüb vuruşan az adam olub. O, Səddamın çıxışlarını diqqətlə dinləyir, düşmən komandirlərinin**

---

[1] General-leytenant Qasim Süleymani ilə müsahibədən. O, 1956-cı ildə Kirmanın Rabor rayonunda dünyaya gəlmişdir. Süleymani sonradan diviziyaya çevrilən Sarəllah briqadasının qurucusu və komandiri idi. O, müharibənin sonuna qədər bütün əməliyyatlarda iştirak etmişdir.

**ratsiyalarına qulaq asır, onlarda döyüş həvəsinin olub-olmadığını bilirdi".**[1]

Kərbəla qərargahının əsas qərar qəbul edənləri Möhsün Rzayi ilə Əli Səyyad Şirazi idi. Möhsün Rzayi Rəhim Səfəvi, Həsən Baqiri və Qulaməli Rəşidlə, Səyyad Şirazi də Polkovnik Musəvi Qəvidellə və bəzi ordu komandirləri ilə məsləhətləşirdi. Nəhayət, Kərbəla qərargahı Xürrəmşəhrin azadlığı üçün son planı müzakirəyə çıxardı.

Həsən Baqiri kəşfiyyat əməliyyatları nəticəsində bu qənaətə gəlmişdi ki, qələbədən ötrü ən yaxşı yol Xəyyin və Ərayiz çaylarına çatıb düşmənin Şələmçəyə çıxışını bağlamaqdır. Bu zaman Xürrəmşəhrin daxilindəki işğalçı qüvvələr çıxmağa yol tapmayacaqlar. Hamı bu planla razılaşdı. Lakin önəmli olan düşmənin dəmir səddini keçmək idi. Xürrəmşəhr məsələsi İraq üçün o qədər önəmli idi ki, digər yerlərdən təzə nəfəsli bir diviziya və dörd briqadanı Bəsrə və Şələmçəyə göndərmişdilər. Kəşfiyyatçılar Xəyyin çayına çatmaqdan ötrü hansı yolla gedirdilərsə, düşmənlə üzləşirdilər.

Kərbəla qərargahı ordunun dörd briqadasından əlavə korpusun "Məhəmməd rəsulullah (s)", Vəliəsr, Aşura, Kərbəla, Fəcr və Bədr briqadalarını da Nəsr qərargahının tabeliyinə verdi. Əli Səyyad Şirazi mayın 15-ində Nəsr qərargahına getdi, düşmənin Şələmçəyə çıxışını bağlamaq və Xürrəmşəhrin mühasirəsini tamamlamaq planını Kərbəla qərargahı tərəfindən təqdim etdi. Canlı qüvvənin azlığına görə bəzi komandirlər plana etiraz edir, bəziləri tərəddüdlə yanaşırdılar.

**"Həsən komandirləri arxayın edib dedi ki, narahat olmayın, Allahın köməyi ilə yol tapacağıq. Ondan sonra**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**işıqları söndürdülər, qaranlıqda İmam Hüseyn (ə) rövzəsi və Təvəssül duası oxudular. Həsən ayağa qalxıb ucadan dedi: "İlahi! Xalqımız və imamımız gözləyir. Şəhidlərə nə cavab verək? Nə bilirdiksə, elədik, çantamızda nə vardısa, çıxardıq, bütün yolları araşdırdıq. Daha əlimizdən bir şey gəlmir. Heç birimiz heç bir iddia etmirik. Qələbə Sənin əlindədir. İlahi! Sənin iradənlə sabahdan kəşfiyyata gedirik. İndiyə qədər olanlar da Sənin iradənlə olub. Bəlkə nə vaxtsa bir anlığa qələbəni özümüzünkü bilmişik. Bu axşam bunu da kənara atırıq. İlahi! Burada şəhid olmuş bütün bəsicilərin hörmətinə, Özün bizə kömək et!"**

**Ağlamaq səsi qərargahın ab-havasını dəyişdirdi. Allahın istədiyi yalvarış və münacatlardan idi. O vaxta qədər Xürrəmşəhrin azadlığı üçün keçirdiyimiz ən gözəl iclas oldu. O axşam Həsən Baqirinin sözləri hamını, o cümlədən ordu komandirlərini çox ruhlandırdı. Hamı ağlayırdı. Sübh azanı veriləndə namazımızı qılıb işlərimizin dalınca getdik. Özümüzü yüngül hiss edirdik.**

**Həsən Baqiri inqilabın möcüzəsi idi. Ertəsi gündən əməliyyata yollar tapıldı".**[1]

Xürrəmşəhrin azadlığı üçün əməliyyata gəlmiş yetmiş mindən artıq könüllü bəsicilərdən çoxu yaralanmış, bəziləri şəhid olmuşdular. Əsas canlı qüvvə bəsicilərdən ibarət idi. Onlar müharibənin hərəkətverici qüvvəsi idilər. Müharibə onlardan asılı olmuşdu. Bəzi komandirlər buna görə əməliyyatın ertələnməsini təklif edirdilər. Onlar deyirdilər ki, belə geniş əməliyyatdan ötrü bəsici sayı yetərincə deyil. Həsən Baqiri isə deyirdi: "İraq ordusunun gücü də zəifləyib. Biz düşmənə macal verməməliyik. İndi ki Xürrəmşəhr bizim

---

[1] Yenə orada.

mühasirəmizdədir, canlı qüvvə toplayar, yaralılara tez qayıtmalarını söyləyərik".

Tibb işçiləri müalicədən sonra yaralıları buraxırdılar. Onların çoxu şəhərlərinə qayıdırdı. Tibb məntəqələrinə elan olundu ki, ayaq üstə olan bütün yaralılar öz hərbi birləşmələrinə qayıtsınlar.

Şəhərlərdə əhali Xürrəmşəhrin azadlığını gözləyirdi. Möhsün Rəfiqdust Hafiz Əsədlə görüşəndə Əsəd ona demişdi: "Siz hər dəfə deyirsiniz ki, Bostanı azad etdiniz, 800 kv km, 2 min kv km irəlilədiniz. Bəs Xürrəmşəhri nə vaxt azad edəcəksiniz? Bu, dünya üçün önəmlidir". Böyük şəxsiyyətlər və məsul şəxslər qərargaha gəlib deyirdilər: "Hər yer azad edilib, amma Xürrəmşəhr qalıb. Xürrəmşəhri nə üçün azad etmirsiniz?" Düşmən də güclü idi və Xürrəmşəhri əldən vermək istəmirdi.

Kərbəla və Nəsr qərargahlarında müzakirələr davam edirdi. Kərbəla qərargahının iki ən böyük komandiri olan Polkovnik Əli Səyyad Şirazi ilə Möhsün Rzayi üçün Həsən Baqirinin, Qulaməli Rəşidin, Nəsr və Fəth qərargahlarının komandirlərinin və Kərbəla qərargahının əməliyyat komandiri Rəhim Səfəvinin fikri önəmli idi. Qələbənin açarı isə Şələmçə və Xəyyində idi. Hacı Himmət sağ cəbhəni ələ keçirməyi öz üzərinə götürdü.

**"Beytülmüqəddəs əməliyyatının üçüncü mərhələsində də bizim üzərimizə ağır yük düşürdü. Manevr istehkamını yarmaq, Şələmçə magistralına, Xəyyin çayı səmtinə və yeni körpüyə getmək, Xürrəmşəhrin şimal-qərb və şərq istiqamətlərində cinah tutmaq asan deyildi. Həsən Baqiri Allaha çox arxalanırdı. Mömin Allaha təvəkkül edəndə bütün işlərini Ona tapşırır və heç şübhəsiz, qalib gəlir. Bu təvəkkülə görə problemlə üzləşəndə də özümüzü zəif hiss etmirdik. Dəfələrlə iclas**

**keçirildi. Ordu və korpusdakı qardaşlar məyus idilər, o isə çox möhkəm görünürdü. Xüsusən də Beytülmüqəddəs əməliyyatının son mərhələsinin həyata keçirilməsində israrlı idi. Baxmayaraq ki, ürəyi qanla dolu idi. Çünki çoxlu kadr itirmişdik. Daxildə narahat idi, xəlvətə çəkilib Allahla raz-niyaz edirdi; deyirdi ki, İlahi, Sənə arxalanaraq işə başlayırıq. Allaha çox təvəkkül edirdi, işi zərrə qədər də nəfsdən deyildi".**[1]

23 Mayın ilk dəqiqələrində əməliyyatın son mərhələsi başlandı. Gözlənildiyi kimi, əməliyyat başlayandan sonra döyüşçülərimiz mövqeyi ələ keçirdilər. Onlar həm də düşmənin əks-hücumlarını cavablandırmalı idilər. Üçsaatlıq ağır döyüşdən sonra isə Şələmçə-Xəyyin yoluna çatıb Xürrəmşəhrin mühasirəsini tamamladılar.

**"Zirehli maşında idik. Ratsiyadan xəbər verdilər ki, döyüşçülərimiz Ərvəndə çatıblar. Gecə vaxtı özümüzü Xəyyinə və Ərvəndin sahilinə çatdırdıq. Vəliəsr qəsəbəsində döyüş gedirdi. Yol açılmışdı. Ərvəndin kənarında idik. Bir neçə dəqiqədən sonra Həsən Baqiri gəlib çatdığımıza əmin oldu. Onun Ərvəndin sahilinə gəlişi Xürrəmşəhr işinin bitməsi demək idi. Səhər tezdən, hələ günəş çıxmamış ilk düşmən qüvvələri ağ bayraq qaldırdılar. Xürrəmşəhrdə o qədər əsir tutulacağını düşünməzdik. Təxminən altı yüz tank, zirehli maşın və minaatan ələ keçirdik. Çoxlu yeni və silah-sursatla dolu T-55, T-62 və T-72 tankları vardı. Bəzilərindən hətta bir dəfə də atəş açılmamışdı. Əgər bu böyük əməliyyatın bütün mərhələlərində – kəşfiyyatda, plan hazırlamada, koordinasiyada və icrada Həsən Baqiri kimi ixlaslı bir komandirin düşüncəsi, istedadı, möhkəmliyi, cəsarəti,**

---

[1] Şəhid Məhəmməd İbrahim Himmətin sözlərindən.

**ağlı, səbri və yorulmazlığı olmasaydı, İran xalqı 1982-ci ilin 24 mayını Xürrəmşəhrin azadlığı günü kimi təntənəli bayram edə bilməzdi".**[1]

## *Məğlubiyyət acısı*

Beytülmüqəddəs əməliyyatından sonra Ramazan əməliyyatı baş tutdu. Bu iki əməliyyat arasında təxminən iki ay yarım vaxt keçdi.

Xürrəmşəhrin azadlığından sonra israillilər Livana hücum edib Beyrutun yaxınlığına qədər irəlilədilər. İran İslam Respublikasının silahlı qüvvələrindən bir qismi kömək üçün Suriyaya yollandı. Möhsün Rzayi, Əli Səyyad Şirazi və başqa bir neçə nəfər Suriyanın sabiq prezidenti Hafiz Əsədlə görüşüb orada qərargah yaratmaq barədə razılığa gəldilər. Oraya "Məhəmməd rəsulullah (s)" və Zülfüqar briqadalarının hərəsindən iki batalyon ezam olundu. İran hərbçiləri Suriyanın Zübdani qarnizonunda yerləşməyə başlayanda İmam Xomeyninin "Qüdsün yolu Kərbəladan keçir" bəyanatı yayıldı və canlı qüvvənin qayıtması əmr olundu. Hacı Əhməd Mütəvəssilian Həzrət Rəsul (s) briqadasından bir neçə nəfərlə birgə təlim keçmək üçün orada qaldı, digərləri İran cəbhələrinə qayıtdılar. Onların biri də Mürtəza Səffari idi.

**"Hamımız qərara gəldik ki, ikiyə bölünək və bir dəstəmiz Livana getsin. Mən özüm də Livana gedib Qüdsü daha tez azad etməkdə israrlı idim. Həsənsə bölünməyə qarşı çıxıb deyirdi: "İndiyə qədər bütün qüvvəmizi Səddam ordusu ilə müharibəyə sərf etmişik. Fikrimiz bir hədəfə yönəlib, Allaha təvəkküllə irəliləmişik. İndi çoxlu komandirlərin fikri Livanın**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**cənubuna yönəlib. Livan önəmlidir, amma İraqı yaddan çıxarmamalıyıq. Qələbə qazansaq, Xürrəmşəhri azad etsək də, düşməni bitmiş və zəif saymaq olmaz. Burada işimizi bitirək, sonra Livan və Suriya barədə fikirləşək".**

**O, bütün diqqətin Livana yönəldiyinə görə narahat olub deyirdi: "Həqiqətən, iki cəbhədə vuruşa bilərikmi?! Əgər hamı getsə, burada nə edərik?!"**

**Bu barədə bir neçə dəfə fikrini bildirdi. Nəhayət, İmam Xomeyni "Qüdsün yolu Kərbəladan keçir" deyəndə onun sözlərini xatırladım".**[1]

Hacı Əhməd Mütəvəssilian və "Məhəmməd rəsulullah (s)" briqadası Həsən Baqiri üçün çox önəmli idi. Buna görə də, Hacı Əhmədin və həmin briqadanın Suriyaya getməsinə razı deyildi. O bu barədə deyirdi:

"Beytülmüqəddəs əməliyyatından sonra və Ramazan əməliyyatından öncə İsrail Livana hücum etdi. İranın bu məsələyə dayaz baxışı oraya hərbi qüvvələr - xüsusi üstünlükləri olan Həzrət Rəsul (s) briqadasını və onun komandirini göndərməklə nəticələndi. Ümumi olaraq, elə bir ab-hava yarandı ki, bir müddət əməliyyatları davam etdirməyə tərəddüd yarandı. Əlbəttə, biz əsla şübhə etmirdik ki, əməliyyatları davam etdirməkdən başqa yolumuz yoxdur. Hətta qardaşımız Möhsün və Polkovnik Şirazi təyyarə ilə gedəndə daim bununla maraqlanırdıq ki, təyyarələri yerə endi, yoxsa yox. İsrail necə imkan verə bilər ki, İran NATO üzvü olan bir ölkənin hava yolundan istifadə edib həmin alyansın himayədarlarından və tərəfdarlarından biri ilə vuruşmağa getsin?! Necə olur ki, Türkiyə dövləti İsraillə

---

[1] General Mürtəza Səffari ilə müsahibədən.

vuruşmaq üçün öz hava yollarından istifadə edib Livana və Suriyaya getməyə icazə verir?"[1]

1982-ci ilin 12 iyununda Səddam birtərəfli atəşkəs elan etdi və İraq artilleriyasının atəşi ilk dəfə olaraq dayandı. O, rəsmi şəkildə dedi ki, İraq ordusu rəsmi sərhədlərə geri çəkilir. Həsən Baqiri Ramazan əməliyyatının gecikməsinin ikinci səbəbi kimi bunu göstərirdi.

"İkinci məsələ geriçəkilmə idi. Bağdadda Qoşulmayanlar hərəkatının konfransı keçirildiyinə görə İraq tərəfi çox da faydalı olmayan torpaqları tərk etdi. Sonra dünyada geniş təbliğata başladı ki, biz 1975-ci il müqaviləsinə əsaslanan beynəlxalq sərhədlərə qayıtdıq, amma İran bizdən əl çəkmir. Fransa kimi ölkələr, supergüclər də dəstək verib həvəsləndirdilər, Birləşmiş Millətlər Təşkilatı "bəh-bəh" dedi. Bu iki məsələ Ramazan əməliyyatının 25-30 gün ertələnməsinə səbəb oldu".[2]

Həsən Baqiri Səddamın yalançı atəşkəsinə və Suriyada baş verənlərə etinasız halda bütün diqqətini Bəəs ordusuna qarşı yönəltmişdi. Dostları və yaxın döyüş yoldaşları onun daim komandirlərlə iclas keçirdiyini, sərhəd bölgələrinə və düşmənin yeni mövqelərinə kəşfiyyata getdiyini görürdülər. Bir güllə atılmasa da, düşməni elə öyrənirdi ki, sanki sabah əməliyyat olacaqdı. O bu müddətdə düşmənin sənədlərini oxudu, əsirlərlə danışıb İraq ordusunun hərbi birləşmələrinin yeni tərkibini öyrəndi. Beytülmüqəddəs əməliyyatında da düşmənin zirehli qüvvələri barədə çoxlu informasiya toplamışdı.

İsti iyun günlərindən birində korpusun zirehli briqadasının komandiri şəxsi heyətin təminatı barədə danışmaq üçün qolf

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.
[2] Yenə orada.

meydanına Həsən Baqirinin yanına yollandı. Həmin briqada Beytülmüqəddəs əməliyyatında 500 tankın ələ keçirilməsindən sonra diviziyaya çevrilmişdi. İraqın zirehli hərbi birləşmələrində müxtəlif ixtisaslara yiyələnmiş təxminən iki min hərbçi əsir düşmüşdü. Həsən Baqiri mütəxəssis əsirləri düşərgəyə göndərmirdi, Əhvazın müxtəlif yerlərində saxlayırdı və hər birinə aid qovluq açmışdı.

**"Həsən Baqiri dedi ki, nəyə ehtiyacın varsa, yaz. Elektrik, mexanik və topçu istədim. Kağızı əsirlərə nəzarət edən Əli Əfşariyə verdi. İraqın zirehli birləşmələrinin komandirlərindən çoxu əsir düşmüşdü. Onlar öncəki əməliyyatlarda iştirak etmişdilər. Tez-tez verilən məruzələrdən onları tanıyırdım. Həsən Baqiridən onlar barədə soruşanda deyirdi ki, filankəs işinə yarayar və s. Bir dəfə soruşdum: "İraqın hansı batalyonunun T-62 tankı var?" Dedi ki, Yərmuk, Qəzzə və Əkka tank batalyonlarının. Soruşdum ki, batalyon, ya bölük komandirləri əsir düşüblər? Dedi: "Hamısını qeyd etmişik. Get, əsirlərin siyahısını Həmid Müiniandan al, gəl, kimdən istifadə etməli olduğunu deyim".**

**İki qrupa ehtiyacımız vardı; zirehli birləşmə komandirlərindən məlumat almaq, texniklərdən də istifadə etmək istəyirdik. Bir neçə gündən sonra həmin əsirlərdən təxminən yüzünü mənə verdi. Onları diviziyaya aparıb işlətməyə başladım. Həvəslə işləyirdilər. Tehrandan da xəbər yolladılar ki, ölkəsində T-72 tankı ilə işləmiş bir əfqanıstanlını oraya göndəririk. O, çox da işə yaramadı. İraq ordusunda olanlar isə bizə daha yaxın idilər, daha yaxşı əməkdaşlıq edirdilər. Allah bu müharibəni başladan Səddama lənət eləsin! Onlar**

**bizim rəftarımızı görəndə Səddamın yalan təbliğatını başa düşüb çox təsirlənirdilər".**[1]

Fətulla Cəfəri həmin gün qeyri-sabit bəsici döyüşçülər məsələsini Həsən Baqiri ilə bir daha müzakirə etdi. Həsən Baqiri bu problemə də çıxış yolu göstərdi. Onun təklifi bu idi ki, bəsicilər ikiillik hərbi xidmət dövrü olaraq zirehli birləşməyə getsinlər, ixtisaslı hərbi təlim keçsinlər, tank ekipajı kimi döyüşlərdə iştirak etsinlər.

Baqiri Xürrəmşəhrin azadlığından sonra ölkədə yaranmış ab-havadan xəbərdar idi; bilirdi ki, bu böyük qələbə xalqda, xüsusən də gənclərdə cəbhələrdə iştirak etməyə böyük həvəs yaradıb. O, çıxışlarında cəbhəni böyük bir universitet adlandırıb deyirdi ki, kim cəbhəyə gəlsə, ona iş şəraiti var; mühəndis-istehkam bölüyündə, hərbi texnika sənayesində, döyüşçü və hətta komandir kimi inkişaf edə bilər.

**"Həsən Xürrəmşəhrin azadlığından sonra cəbhənin vəziyyətini daha mürəkkəb hesab edirdi. O deyirdi ki, İraq ordusu bu müddətdə böyük təcrübə toplamışdır, bu məğlubiyyətdən dərs alıb zəif nöqtələrini düzəldirlər. O bildirirdi ki, döyüş üsulu, cəbhələrin idarəsi və təlim üzərində işləməli, bacarıqlarımızı artırmalıyıq.**

**O zaman gələcək fəaliyyət barədə bir layihə yazdım. Həsən Baqiriyə göstərəndə dedi: "Yaxşıdır, indi gedin manevr edin, görün tanklar manevr atəşində nə qədər yol gedə bilirlər". Dedim ki, belə bir yeri haradan tapaq? Dedi ki, Cüfeyrdə.**

**Maraqlı bölgə idi. Manevr yeri tapmaq üçün yola düşdük, ancaq orada çox böyük bir silah anbarı ilə rastlaşdıq. İraqlılar silahlar üçün çox böyük bir səngər düzəltmişdilər. Silah-sursat o qədər çox idi ki, nə üçün**

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**gəldiyimizi yaddan çıxardıq. Oradan Mahşəhr magistralındakı anbarımıza çoxlu silah-sursat daşıdıq. Xoşbəxtlikdən, hamısı tanka aid idi. Həsənə dedim ki, belə böyük bir silah anbarı tapmışıq. Dedi ki, görmək istəyirəm. Gəlib şəkillərini çəkdi. Sonra soruşdu ki, bəs manevr işi nə yerdə qaldı? Dedim: "Manevr üçün İmamzadə Seyid Xələf magistralının cənubuna getmişdik, orada bu anbarı gördük". Dedi ki, elə orada da manevri həyata keçirin, tankların ekipajları hərəkət düzülüşünü öyrənsinlər, bir-biri ilə rabitə əlaqələri olsun və atəş açsınlar. Soruşdum ki, əməliyyat olacaq? Dedi: "Hərbi birləşmələr hazır olanda əməliyyat da tapılacaq". Bu qısa cümlə ilə cavabımı verdi".**[1]

Həsən Baqirinin qeyd etdiyi kimi, İraq ordusu məğlubiyyətlərdən təcrübə toplayıb zəif cəhətlərini aradan qaldırmışdı. Həsən Xürrəmşəhr əməliyyatında bir sənəd görmüşdü. İraq ordusunun Baş qərargahı bütün hərbi birləşmələrə əmr etmişdi ki, daha cəbhədə torpaq istehkam qurmasınlar. Çünki İslam döyüşçüləri mövqeləri ələ keçirəndən sonra həmin istehkamların arxasına sığınıb əks-hücumları dəf edirdilər. İraq ordusunun mühəndis-istehkam bölməsi Səddamın himayədarlarının köməyi ilə Bəsrənin müdafiəsindən ötrü yeni müdafiə maneələri təşkil etmişdi. Onlar uzun istehkam yerinə düzbucaqlı üçbucaq şəkilli istehkamlar düzəldirdilər. Üçbucağın təpəsi İrana, oturacağı isə İraqa doğru olurdu. Bu baxımdan, yalnız iraqlılar üçün müdafiə imkanı yaradır, bizim əlimizə keçəndə yararsız olurdu. Üçbucaqları öyrənmək çıxış yolu tapmağa böyük kömək göstərdi. Bundan əlavə, çoxlu sayda mina üçbucaqları ələ keçirməyi çətinləşdirirdi. Bu məsələlər

[1] Yenə orada.

Həsən Baqirinin kəşfiyyat zamanı daha çox həssaslıq göstərməsinə səbəb oldu.

**"Beytülmüqəddəs əməliyyatından sonra cəbhənin düzülüşü pozuldu, əsla tanımadığımız yeni torpaqlar əlavə olundu. Sərhədlərimiz əvvəlkindən 60 km irəli keçmişdi. Bəzən Hərbi Hava Qüvvələrinin təyyarələrdən çəkdiyi şəkillər bizə çatırdı. Onlar iraqlıların yeni müdafiə maneələri ixtira etdiklərini göstərirdi. Sanki xətkeş qoyub üçbucaq formalı qalalar tikmişdilər.**

**Əməliyyata az qalmış qardaşımla birgə bir hərbi birləşmənin qərargahına getdik. O, komandirlərdən kəşfiyyata dair məruzə istədi. Soruşdu ki, batalyonlarınızı hansı istiqamətlərdən aparmaq istəyirsiniz?**

**Onlar dedilər ki, minalanmış sahə ilə rastlaşdıq və gedə bilmədik. O dedi: "Zarafat edirsiz?! Sabah əməliyyat axşamıdır, üçyüznəfərlik beş batalyonu ölümə aparmaq istəyirsiniz?! Kəşfiyyata getmədən, minalanmış sahəni açmadan, düşmən səngərlərinin arxasına yol tapmadan batalyonu apara bilərsiniz?!"**

**Dedilər ki, vallah, bir neçə dəfə kəşfiyyata getdik, filan komanda da getdi, filankəslərin komandaları da getdi, amma heç kim bacarmadı. Briqada komandiri, komandirin müavini, kəşfiyyat-diversiya komandiri, əməliyyat komandiri və briqadanın qərargah rəisi də orada idi. Həsən onlara dedi: "Bu gecə hərəniz bir komanda ilə kəşfiyyata gedirsiniz. Ya bu kəşfiyyatda şəhid olacaqsınız, ya da yol tapıb sabah axşam batalyonları aparacaqsınız; ya da heç bir yol tapmayacaqsınız və biləcəyik ki, bu istiqamətdə əməliyyat keçirə bilmərik".**

**Sonra əlavə etdi: "Sabah səhər saat 7-də bəsici uşaqları toplayın. Onlarla danışmaq istəyirəm". Dedilər ki, baş üstə. O dedi: "Bu çıxışda iki cür danışa bilərəm: Əgər kəşfiyyata getmiş və bütün səyinizi göstərmiş olsanız, sizi tərifləyər və müsbət cəhətlərinizi deyərəm; əgər yaxşı kəşfiyyata getməsəniz, bəsicilərə deyərəm ki, komandirləriniz bu gecə sizi ölümə aparacaqlar".**

**Ertəsi gün sübh namazımızı qılıb həmin briqadanın qərargahına yola düşdük. Gördük ki, hər beş komanda kəşfiyyata gedib qayıdıb. Dörd komanda əməliyyat üçün yol tapmışdı. Beşinci komanda da bir yaralı vermiş və yarımçıq bir yol tapmışdı. Həmin yarımçıq yolu kənara qoyub batalyonları tapılan dörd yoldan apardılar".**[1]

Çox keçmədən əməliyyat vaxtı gəldi. 1982-ci il iyul ayının 13-də ramazan ayında Ramazan adlı əməliyyat başlandı. Beş mərhələdən ibarət bu əməliyyat avqustun 17-də sona çatdı. Bu əməliyyatda Həsən Baqiri Nəsr qərargahına başçılıq edirdi. Xüsusən ikinci, üçüncü və dördüncü mərhələlərdə ən ağır məsuliyyət onun üzərinə düşürdü. Müharibənin əvvəlində su mühəndisliyi taktikasını iranlılardan öyrənmiş İraq ordusu Ramazan əməliyyatında bu üsuldan istifadə etdi. Bu addım və digər amillər əməliyyatda qələbənin qarşısını aldı. Həsən Baqiri əməliyyatın birinci mərhələsi barədə deyirdi:

"İraq öz müdafiə işində və İslam döyüşçüləri qarşısında maneə yaratmaqda uğurlu çıxış etdi. Onlar həmçinin Kutsəvari postundan Bubian postuna qədər uzanan balıq kanalına su yönəldib Nəsr qərargahının yolunu bağladılar. Planlaşdırdığımız manevr Bəsrənin əsas keçidlərindən birində və nisbətən yaxşı manevr idi. İndi də araşdıranda

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

görürük ki, uğurlu ola bilərdi, amma bu manevr bağlandı. Digər məsələ düşmənin ehtimallara qarşı yaratdığı üçbucaq istehkamlar idi. Canlı qüvvələri ondan öncə Beytülmüqəddəs bölgəsində olduğuna görə daha yerdəyişməyə ehtiyacları yox idi. Beytülmüqəddəs əməliyyatında 5 və 6 saylı diviziyaları öz sərhədlərini qorumaqdan ötrü qaçırmışdılar. İraq tərəfi bizim Bəsrəyə getmək istədiyimizi, digər yerlərdə canlı qüvvə toplamadığımızı bilərək öz qüvvələrini Bəsrənin şərq bölgəsində mərkəzləşdirmişdi. Bundan əlavə, mina sahələri, çoxlu maneə və xəndəklər yaratmışdı. Onların digər üstünlükləri bu idi ki, harada vuruşsaydıq, müəyyən müddətdən sonra əleyhimizə əks-hücuma keçə bilərdilər.

Əməliyyatın ilk mərhələsində qövsvarı hərəkət etdiyimizə görə çox böyük nailiyyət əldə etdik, amma sağ cinahımızı saxlaya bilmədik. İraqın əks-hücumlarından sonra orada qalmaq imkansız oldu, əvvəlki mövqeyimizə qayıtmağa məcbur olduq. Əsas iki briqadanı bir keçiddən keçirmək istəyirdik, amma düşmən son bir neçə gündə orada pərakəndə şəkildə minalar basdırmış, Zeyd zastavasının balıq kanalına giriş yerində güclü müqavimət qurmuşdu. İlk mərhələdə oradan istifadə etdiyimizə görə İraq tərəfi oraya çoxlu canlı qüvvə yerləşdirmişdi, ciddi müqavimət göstərirdi. Bu baxımdan, bizim hərbi birləşmələrimiz əməliyyatın əvvəlində yaxşı irəliləyə bilmədilər. Hətta irəli keçməyi bacarmış bəzi hərbi birləşmələr qayıdarkən böyük çətinliklərlə üzləşdilər. Səhər çağı bu qənaətə gəldik ki, bu hərəkət də uğurlu deyildi və ilk mövqelərimizə geri çəkilməliyik".[1]

Zeyd zastavasında vuruşanlar Mehdi Bakirinin tabeliyində olan qüvvələr idi. Təbrizin Aşura diviziyasının

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

uşaqları əməliyyatın ilk mərhələsini başa çatdırandan sonra Bubian və Şələmçə istiqamətində ikinci mərhələni davam etdirməli idilər. Lakin düşmən kanalın suyunu Bubian və Şələmçənin önünə yönləndirmişdi. Qalan yeganə yol isə Zeyd zastavasının küncündən idi.

Aşura diviziyasının sağ cinahını tutmalı olan diviziya öz işini tamamlaya bilmədi. Bakiriyə deyildi ki, Zeyd zastavasına getsin, amma orada digər problemlərə 50 dərəcəyə yaxın istilik, qum üzərində piyada getmək və şəxsi heyəti gün vurması da əlavə olundu. Onlar ikinci mərhələdə üçbucaq şəkilli torpaq istehkamların önünə keçməli idilər, amma yandakı hərbi birləşmələrin gəlmədiyinə görə onlar da irəliləyə bilmədilər. Əməliyyat günü sübh çağı Aşura diviziyasının uşaqları tez bir zamanda hücum edib mövqeyi ələ keçirmişdilər, düşmən də tez zəif nöqtəsini duyub bütün atəşləri onlara doğru yönəltmişdi. Şəxsi heyətin bir qismi 3 km irəliləyib torpaq istehkam qurmuş olsa da, geriçəkilmə əmri verildi. Həsən Baqiri düşmənin qızğın əks-hücumu altında Mehdi Bakirinin mövqeyinə getdi.

**"Həsən qorxmaz idi, əməliyyatlarda döyüş yerinə gedib vəziyyəti yaxından araşdırır, lazımi tapşırıqları verirdi. Məhz özü gedirdi ki, hər şeyi dəqiq görsün və ona görə hərəkət etsin. Düşmənin Zeyd zastavasındakı güclü əks-hücumu heç vaxt yadımdan çıxmaz. Əks-hücum o qədər güclü idi ki, komandirlərin gəlməsinə mane olurdu. O isə gecə vaxtı xəbərsiz şəkildə, düşmən artilleriyasının güclü atəşi altında motosikletlə bütün mövqe və istehkamları gəzmişdi. Bir də gördüm ki, boynunda çəfiyə, üst-başı toz-torpağın içində motosikletlə gəldi. Narahat halda dedim: "Həsən, harada idin? Bu nə vəziyyətdir?" Dedi ki, döyüş yerinə getmədim.**

**Sonradan söhbət açılanda dedi: "Düz zastavanın altında, güclü atəş yağdırılan yerdə bəzi uşaqlar üstüaçıq səngərdə oturub Təvəssül duası oxuyurdular. Mənə çox qəribə gəldi".**

**Lakin məncə, ondan da qəribəsi Həsənin özünün cəsarəti və qorxmazlığı idi. Döyüş yerindəki uşaqların problemləri barədə qərar qəbul etmək üçün özü birbaş oraya gedirdi. Həsən qərargahda oturub ratsiya ilə əmr verən komandir deyildi. O, əsl komandir və əməliyyatçı idi".**[1]

Təbii olaraq bəzi hərbi birləşmələrin irəliləyişi digərləri ilə eyni olmurdu. Komandirlər batalyonları bir-biri ilə əlaqələndirməyə çalışırdılar. Əməliyyatın ikinci mərhələsində döyüşçülər minalanmış sahələrdən və digər maneələrdən keçib balıq kanalına doğru irəlilədilər. Bir batalyon daha çox irəliləyib düşmənin içinə girdi və mühasirəyə düşdü. Həsən Baqiri briqada komandiri ilə eyni zamanda batalyonların ratsiyalarını da dinləyirdi. O, briqada komandiri ilə batalyon komandirinin danışığını eşidib məsələdən xəbər tutdu, ratsiyanı götürüb həmin briqada komandiri ilə danışmağa başladı. O zaman Məhəmməd Baqiri Nəsr qərargahında idi.

**"O, bəzi kodlarla batalyon komandirinin vəziyyətini soruşdu. Briqada komandiri dedi ki, bir qədər problem yaranıb, mühasirəyə düşüblər. Soruşdu ki, sizinlə məsafələri nə qədərdir? Dedi ki, təxminən 3 km. Soruşdu ki, siz nə edirsiniz? Dedi ki, kömək etməyə çalışıram; ətraflarını atəşə tuturuq ki, düşmənin arasından yol açılsın və mühasirədən çıxsınlar. Soruşdu ki, siz haradasınız? Dedi ki, briqadanın qərargahında.**

---

[1] Şəhid Mehdi Bakirinin sözlərindən.

**Bu zaman Şəhid Baqiri hirslənib dedi: "Bu nə deməkdir?! Səngərdə oturub ratsiya ilə idarə edirsən? Uşaqlar mühasirədədirlər, qalx, onları mühasirədən çıxar".**

**Briqada komandiri dedi: "Gedib nə edim? Mənim əlimdən bir iş gəlmir".**

**Bəzi dəlillər söylədi. Əlbəttə, o komandir işdən qaçan adam deyildi, amma bəzi səbəblərə görə qəbul etmirdi. Mənə çox qəribə idi. Bir də gördüm ki, Şəhid Baqiri ən azı iki il gecə-gündüz bir yerdə olduqları və çox hörmət etdiyi o adama hirslə, sərt tonla dedi: "Mən indi oraya gəlirəm. Sən səngərdə qalmamalısan. Əgər indi yola düşüb batalyonu mühasirədən çıxarmasan, cəzalanacaqsan. Ya cənazən qayıdacaq, ya uşaqlarla qayıdacaqsan, ya da sən də əsir düşəcəksən".**

**Bu rəftarı o qədər qətiyyətli və möhkəm idi ki, Nəsr diviziyasının komandir qərargahında olan 15-20 ordu və korpus hərbçiləri yerlərində donub qaldılar. Heç kimin səsi çıxmırdı. O komandir də getdi və Allaha şükür ki, tapşırığı uğurla yerinə yetirdi".**[1]

Ramazan əməliyyatının üçüncü mərhələsində ordu və korpusun döyüşçüləri cəsarətlə və yüksək əhval-ruhiyyə ilə düşmən mövqelərini yarıb irəliləsələr, yenidən balıq kanalının başına çatsalar da, həmin maneələrə, pərakəndə minalara və düşmənin zirehli hərbi birləşmələrinin olduqca çoxaldığına görə qayıtmağa məcbur oldular.

İraq ordusu balıq kanalının suyunu açmışdı, su hər an artıb Bəsrənin qarşısındakı düzənliyə dolurdu. Bu isə yolları yalnız bir keçidlə məhdudlaşdırıb Kərbəla qərargahının komandirlərinin əl-qolunu bağladı. Lakin hələ Bəsrəni ələ

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

keçirmək həvəsi ölməmişdi. Dördüncü mərhələdə korpus və ordunun hərəsindən iki briqada əməliyyata başlayıb 2 km irəlilədi, amma sona qədər gedə bilmədi. Həsən Baqiri bu mərhələ başlanmazdan qabaq Zeyd zastavasının iki yolayrıcında yerləşmişdi. Əməliyyat gecə saat 1-də başlandı. İraq ordusu güclü atəş yağdırdı. Döyüşçülər nə qədər güclü hücuma keçsələr də, saat 3-ə qədər altıbucaqlılar kimi tanınan maneələri keçib irəliləyə bilmədilər. Hava işıqlanmağa başlayanda Həsən Baqiri öz qonşularından biri ilə döyüşçülərin yanına getdi.

**"Dedi ki, motosikletin arxasına otur, gedək. Dedim ki, atəş çox güclüdür, siz burada qalın, mən gedərəm. Dedi ki, yox, birlikdə gedək".**

**Motosikletə oturan kimi kürəyimə bir qəlpə dəydi. Dedi ki, yaxşı deyilsənsə, qayıt. Dedim ki, yox, yaxşıyam.**

**İrəliləyəndə uşaqların yorğunluqdan səngərdə yatdıqlarını gördük. Dedi ki, motosikleti kənara qoy. Birlikdə uşaqların əl-ayaqlarından tutub səngərdən çıxarırdıq. Yorğunluqdan gözlərini zorla açırdılar. Onları birtəhər oyadıb geri göndərirdik. İraqlılar yaxında idilər. Dedim ki, Qulamhüseyn, iraqlılar gəlirlər. Solğun üzlə, ağlaya-ağlaya deyirdi: "İlahi! Sabah bunların analarına nə cavab verəcəyəm?!"**

**Səngərdəkilərin hamısını geri göndərdik. Mənə çox təəccüblü idi ki, bir diviziya komandiri belə ixlasla döyüş yerinə gedir və əsgərlərini xilas etməkdən ötrü canını təhlükəyə atır".**[1]

Ramazan əməliyyatının beşinci və son mərhələsi 1982-ci ilin 18 avqustunda əvvəlki bölgələrdə başlandı. Bu mərhələ də əvvəldə uğurlu alındı, amma ələ keçirilmiş mövqelərdə

---

[1] Qonşusu Məhəmməd Xürrəmdillə müsahibədən.

yerləşmək yenə problemə çevrildi. Həsən Baqiri İraq ordusunun yeni müdafiə üsullarına əl atmasından, yeni maneələr ixtira etməsindən əlavə, Ramazan əməliyyatında uğursuzluğun əsas səbəbi kimi canlı qüvvənin azlığını göstərirdi.

"Ramazan əməliyyatında bəlkə də zahiri uğursuzluğun əsas səbəbi sayılan çox mühüm məsələ döyüşçülərimizin sayı idi. Birinci mərhələdə Fəth, Fəcr və Qüds qərargahlarının 50-60 batalyon canlı qüvvəsi vardı. Halbuki İraq tərəfi bu bölgəyə 3, 5, 6, 8, 9, 10 və 11 saylı yeddi diviziyasını gətirmişdi. Bundan əlavə üçrəqəmli briqadalar yaradıb bölgəni tutmuşdu. Yəni ilk təxminlərə görə, tanklardan əlavə oraya təxminən yüz min nəfər, yəni bizdən iki dəfə artıq canlı qüvvə toplamışdı. Bu, ilkin hesablamalara görədir, əgər iraqlıların statistikasına baxsaq, bundan olduqca çoxdur.

Digər tərəfdən, biz İraqın 9 saylı diviziyasına hücum etmişdik, digər diviziyalar sağlam qalmışdı. Ehtiyat qüvvələri də sağlam idi, arxası möhkəm idi, komandiri qalırdı, döyüş düzülüşü pozulmamışdı, dəstək yolu sıradan çıxmamışdı. Düşmən eynilə öncədən təcrübə etdiyi, təlim keçdiyi və məşq etdiyi istiqamətdən əks-hücuma keçdi. Bizim müdafiə mövqeyimiz və əks-hücuma cavab verəcək qüvvələrimiz olmadığına görə kanalın başındakı döyüşçülərimiz ağır vəziyyətə düşdülər, əks-hücum uğurlu oldu, nəticədə bir qədər əsir verdik, tanklarımız da qənimət götürüldü.

Bu baxımdan, əməliyyatın uğursuz alınmasının əsas səbəbini canlı qüvvənin olduqca az olmasında görürük. Əgər canlı qüvvəmiz hətta Fəthülmübin və Beytülmüqəddəs

əməliyyatında olduğu qədər olsaydı, bundan çox yaxşı çıxış edə bilərdik".[1]

Həsən bəzi batalyon komandirlərinin qərargahda oturmalarını tənqid edərək Ramazan əməliyyatının uğursuzluğunda bu amilin də təsirsiz olmadığını düşünürdü.

**"Həsən narahat idi ki, batalyon komandirləri şəxsi heyətlə yanaşı əməliyyatda iştirak etmək əvəzinə qərargahlarında otururlar. Mənə tez-tez deyirdi ki, bizim Ramazan əməliyyatındakı uğursuzluqlarımızın bir hissəsi bununla bağlıdır. Batalyon komandirlərimizi müharibənin ilk aylarında və Fəthülmübin mövsümündə olduğu kimi döyüş yerində aktivləşdirməliyik".**[2]

Ramazan əməliyyatında ciddi xəsarət almış hərbi birləşmələrdən biri də korpusun zirehli diviziyası idi. İclaslarda onlara deyilmişdi ki, əməliyyat parolu elan olunan kimi tanklarla Dəclə çayının arxasına keçsinlər. Onlar da əməliyyat başlayan kimi yola düşüb düşmənin içinə, hətta komandir qərargahına çatdılar. Lakin əməliyyatın digər mərhələləri baş tutmadığına görə çoxu orada əsir düşdü. Onlar illər sonra azadlığa çıxanda necə əsir düşdüklərini danışdılar.

Zirehli qüvvələr əməliyyat başlayan kimi tanklarla yola düşmüşdülər. Düşmən onları özlərinki bilib vurmamış, onlar da digər döyüşçülərin arxadan gəldiyini zənn edərək komandir qərargahına qədər yollarına davam etmişdilər. Hətta bir neçəsi bayıra çıxıb tanklarının korpusuna Keşikçilər korpusunun nişanını vurarkən əsir düşmüşdülər. Bu əməliyyatda düşmənin təxminən 100 tankı məhv edildi,

---

[1] Həsən Baqirinin xatirələri, с. 3.

[2] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

qarşılığında korpusun 150 tankı düşmən əlinə keçdi. Yeni yaradılmış bir hərbi birləşmə üçün bu, kiçik məsələ deyildi.

**"Ramazan əməliyyatının dörd mərhələsi də bizim üçün acı təcrübə idi. Yeni yaradılmış və güclənməyə ehtiyacı olan bir birləşmə özünün çoxlu kadr və texnikalarını da əldən verdi. Hətta iraqlılar tanklarımıza girib bizim əleyhimizə əks-hücuma keçirdilər. Yəni bizim döyüş üsulumuzdan bizə qarşı istifadə edirdilər.**

**İraq ordusu müdafiə qınına çəkildi və bundan yaxşı istifadə etdi, hətta aviasiya imkanlarını da artırdı. Əvvəldə kor-koranə bombardman edirdilər, ondan sonra isə hava hücumları dəqiqləşdi. Beytülmüqəddəs əməliyyatından Ramazan əməliyyatına qədər ötən müddət İraq üçün qızıl dövr oldu. Lakin biz bu müddətdən yaxşı istifadə edə bilmədik. Biz Ramazan əməliyyatına başlayanda keçmiş qələbələrdən qürurlanıb düşməni zəif saydıq; elə bildik ki, xəncər yalnız bizim əlimizdədir. Fikirləşmirdik ki, iraqlılar bizə qarşı əks-hücuma keçə, planlı şəkildə hərəkət edə bilərlər".**[1]

Qürur amilini digər komandirlər, o cümlədən korpusun Baş komandanı Möhsün Rzayi də etiraf edirdi.

**"Qürur insana hakim olanda bütün məsələlərin yanından laqeydliklə, diqqətsizliklə keçir. Böyük və möcüzəvi Fəthülmübin və Beytülmüqəddəs əməliyyatlarından, döyüşçülərimizin səkkiz ay yaratdıqları tufandan, işğal olunmuş əksər bölgələrin azad edilməsindən sonra hamımızda qürur yarandı və bu, növbəti plan və əməliyyatlarımıza təsir etdi".**[2]

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

[2] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

Ramazan əməliyyatında sübuta yetdi ki, canlı qüvvəni qorumaqdan ötrü geriçəkilmə məharəti çox mühüm amildir. Həsən Baqiri düzgün geriçəkilməni döyüş növlərindən bilir, İraq ordusunun Qüds yolu əməliyyatında Süsəngirdin şimalından geriçəkilmə tərzini misal çəkirdi. O zaman İraq ordusu “Atəş və hərəkət” üsulu ilə canlı qüvvəsini ağır itkilərdən qorumuşdu. Səkkiz aydan sonra Ramazan əməliyyatında həmin taktika İslam döyüşçüləri tərəfindən həyata keçirildi.

**"Adətən, geri çəkilərkən hamı özünü bir yolla geri çəkməyə çalışır. Silah-sursatlarını, bəzən hətta yoldaşlarını da qoyub qayıdırlar. Ramazan əməliyyatında geri qayıdan axırıncı adam Həsən oldu. O, uşaqlara deyirdi: "Ağa, ehtiyatlı ol, silahını götür, sursatı topla, su kanistrlərini maşının arxasına qoy..."**

**İmkan daxilində hər şeyi aparmağa çalışırdı. Bütün uşaqları geri göndərdi. Geriçəkilmə barədə heç bir nümunəmiz yox idi, bunu Həsən başlatdı və sonra hamı öyrəndi. Geri çəkilərkən komandirləri uşaqların yanına göndərirdi ki, onları düzgün şəkildə geri qaytarsınlar. Bütün bunları Həsəndən öyrəndik. Həqiqətən də ona borcluyuq. Əgər indi İslama xidmət edə biliriksə, bəzi işlərimiz düzgündürsə, Həsəndən öyrənmişik".**[1]

Ramazan əməliyyatının beş mərhələsində döyüşçülər böyük itki verdilər. Bəzən geri çəkilərkən şəhidlərin cənazəsi yerdə qalırdı, onları geri qaytarmaq mümkün olmurdu. Bu məsələ Həsənə çox ağır təsir edirdi. O, üz-başı toz-torpağın içində təmas xəttindən gəlirdi, iki namazın arasında qərargahın uşaqları ilə danışırdı, hədis deyirdi, bəzən söhbət

---

[1] Şəhid Mehdi Zeynəddinin sözlərindən.

əsnasında ağlayırdı. Dostları onun çöhrəsində və rəftarında şəhadətə hazırlığı görürdülər.

**"Görürdük ki, daha əvvəlki Həsən deyil, çox dəyişib. Bəzən işdən qərargaha qayıdanda və ya yolda onu görəndə hiss edirdik ki, yaxın gələcəkdə daha bu komandirimiz olmayacaq, Allah onu bizdən alacaq. Əlbəttə, tez bu fikirlərdən qaçır, beynimi başqa bir şeylə məşğul etməyə çalışırdım. Həsəni çox istəyirdim, onun həmişə aramızda qalmasını arzulayırdım".**[1]

## *Qələbənin dönüşü*

Ramazan əməliyyatının son mərhələsi başa çatandan sonra müharibənin yüksək vəzifəli komandirləri, o cümlədən Həsən Baqiri növbəti əməliyyatın yeri barədə saatlarla müzakirə aparıb müxtəlif bölgələri araşdırdılar. Hamı yekdilliklə düşünürdü ki, kiçik bir bölgədə qələbə qazanmaq böyük bir bölgədə uğursuzluqdan yaxşıdır. Onlar hərbi-siyasi baxımdan dəyərli yerlər təklif edirdilər: Fav, Bəsrə, İmarə, Sumar və Məndəlidən Bağdada gedən yol və s. Mehran şəhəri də ikinci dərəcəli hədəflərdən sayılırdı.

Ramazan əməliyyatından sonra Möhsün Rzayi Həsən Baqirini Kərbəla qərargahının komandiri təyin etdi. O zaman bütün İran-İraq cəbhəsi Nəcəf və Kərbəla qərargahları arasında bölüşdürülmüşdü. İraq sərhədlərinin başlandığı Piranşəhrdən Mehrana qədər bölgələr Nəcəf qərargahının, Mehrandan Favın girişinə qədər ərazi Kərbəla qərargahının nəzarətində idi.

Müharibə böyüklərinin digər qərarı bu idi ki, əməliyyat üçün münasib yer tapmaqdan ötrü bütün istiqamətlərdə kəşfiyyat əməliyyatlarına başlasınlar. Bu tapşırıq Həsən

---

[1] General-leytenant Qulaməli Rəşidlə müsahibədən.

Baqiriyə həvalə olundu. O, bütün istiqamətlərdə kəşfiyyat işini aktivləşdirdi. Həmin istiqamətlərin biri də Təlaiyyə idi.

"Məhəmməd rəsulullah (s)", Aşura və zirehli diviziyaların kəşfiyyatçıları Təlaiyyə istiqamətində kəşfiyyat zamanı əlverişli yollar tapdılar. Hacı Himmət bu kəşfiyyatların məruzəsini Həsən Baqiriyə verdi. Həsən Hacı Himmətin etirazına baxmayaraq, Təlaiyyəyə kəşfiyyata yollandı. Bu kəşfiyyatın nəticəsi onu çox narahat etdi. Ramazan əməliyyatından öncə kəşfiyyatçılar suyun buraxıldığını və xəndəklərin yarandığını söyləyərək həmin bölgəni keçilməz elan etmişdilər. Halbuki Həsən orada xəndəkdən əsər-əlamət görmədi. Həsən Ramazan əməliyyatında həmin yoldan istifadə olunmadığına görə dəfələrlə təəssüfünü bildirmişdi. Bəlkə elə bu səbəbdən Kərbəla qərargahının komandirlərini məcbur etdi ki, kəşfiyyatçılarla birgə özləri də Hur, Ümm əl-Rəsas adası və Favdan Ümm əl-Qəsrə qədər ərazini öyrənməyə getsinlər. Bu komandirlərdən biri Fətulla Cəfəri idi.

**"Həmin kəşfiyyatların bəzisində iştirak edirdim. Əsgər Kazimi, Həsən Danaifər, Məhəmməd Baqiri və Həbib Ağaceri ilə birgə Ərvənd və Fav bölgəsinə kəşfiyyata gedirdik. Dəyərli təcrübə idi. Bir dəfə qolfa qayıdıb nəticələri məruzə edəndə söhbət əsnasında Həsən Baqiriyə dedim: "Ərvənd çayından keçməyimiz imkansızdır".**

**Mənə dedi: "İngilislər Buşehri işğal edəndə torpaq və daş kisələrlə Zaqros dağının daş-qayaları arasından yol salıb Şirazı tutmuşdular, biz nə üçün Ərvənddən keçə bilmərik?!"**

**Orada mənə tapşırdı ki, su və bataqlıqdan keçə bilən zirehli maşın tapım. Xaşayar barədə soruşanda dedim: "Onlar istifadəyə yararlı deyillər". Soruşdu: "Nə üçün**

**yararlı deyillər? Nəyi yaramır? Korpusu pisdir? Tırtılları pisdir? Nöqsanı nədir?" Dedim ki, motoru rus istehsalıdır, bölgənin ab-havasına uyğun gəlmir. Dedi: "Problem motorundadırsa, onu dəyişdirərik".**

**Xaşayar Rusiyanın BTR-50 zirehli maşınlarına deyilirdi. Şah dövründə ordu onları qaz ixracı qarşılığında almışdı".**[1]

Cənubda əməliyyat düyünə düşdüyündən bəzi diviziyalar qərbə yollandılar və korpusda müvəqqəti dəyişikliklər baş verdi. Hacı Himmətin başçılığı ilə Sumar bölgəsində Zəfər qərargahı yaradıldı. O, Məndəli şəhərindəki yüksəklikləri ələ keçirib Sumarın qərbini azad etməli idi. Bundan ötrü Aşura, "Məhəmməd rəsulullah (s)", Seyyidüş-şühəda və İmam Rza (ə) briqadaları onun ixtiyarına verildi. Həsən Baqiri Sumara gedib Əziz Cəfərinin və Məhəmməd İbrahim Himmətin iştirakı ilə bölgəyə baxış keçirdi, oranı əməliyyat üçün əlverişli hesab etdi. Bu əməliyyat 1982-ci ilin oktyabrında Müslim ibn Əqil adı ilə uğurla həyata keçirildi.

Diqqətin qərbə yönəldiyi və bir çox komandirlərin cənubda əməliyyatı imkansız saydıqları bir vaxtda Həsən Baqiri kəşfiyyatçıları Həmrin sərhəd yüksəkliklərinə, Dehloranın cənub və qərb bölgələrinə yönləndirdi. Kəşfiyyat işləri yekunlaşandan və düşmən mövqelərinə yollar tapılandan sonra Həsən Baqiri Eynxoşa yerləşdi, əməliyyat planı hazırlayıb komandirlərin müzakirəsinə çıxardı.

Ramazan əməliyyatından sonra korpusda yeni qərargahlar yaradılmışdı. Möhsün Rzayi Xatəmül-ənbiya mərkəzi qərargahına getmiş, Rəhim Səfəvi ilə Qulaməli Rəşidi də oraya aparmışdı. Həsən Baqiri cənub cəbhələrinin idarəsini korpus tərəfindən üzərinə götürmüşdü. 1982-ci ilin

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

oktyabrından əməliyyat üçün yekun hazırlıqlara başlandı. Məhərrəm ayına təsadüf etdiyinə görə bu əməliyyat Məhərrəm əməliyyatı adlandı. Eynxoşda korpusla ordunun müştərək qərargahı yaradıldı, Əli Səyyad Şirazi Müdafiə nazirliyinin Quru Qoşunlarının komandanı kimi ordu qərargahını, Həsən Baqiri də Kərbəla qərargahını oraya apardı.

Məhərrəm əməliyyat zonası 1500 kv km-i əhatə edirdi. Onun 600 kv km-i İranın işğal olunmuş bölgələrinə, 900 kv km-i isə İraq torpaqlarına aid idi. Həmrin sərhəd yüksəkliklərindən keçmək İraqın əl-İmarə və Əliqərbi şəhərlərinə və Dəclə çayına getməyi asanlaşdırırdı. Bu üç bölgə strateji hədəf sayılırdı. Əliqərbi və Dəclə sərhədin 30, əl-İmarə isə 60 km-liyində yerləşirdi.

Məhərrəm əməliyyatı ərəfəsində Sahibəzzaman (ə) korpusuna rəhbərlik Hüseyn Xərraziyə tapşırıldı. Onun İmam Hüseyn (ə), Qəməri-Bəni-Haşim, Kərbəla və Nəcəf briqadaları vardı. Bunlardan əlavə, Əli ibn Əbu Talib (ə) və İmam Səccad (ə) briqadaları da bölgəyə yerləşdilər. Kərbəla qərargahı bu əməliyyatdan ötrü korpusdan 52, ordudan 8 və jandarmeriyadan 2 batalyon nəzərdə tutdu. Korpusun 160 tankı olan zirehli hərbi birləşməsi, 60 buldozer və ekskavatorla Quruculuq cihadı, 70 buldozer və ekskavatorla korpusun mühəndis-istehkam bölüyü əməliyyata hazırlaşdı.

Hərbi Hava Qüvvələrinə də müəyyən tapşırıqlar verildi. Oktyabrın 23-ünə qədər bütün hərbi birləşmələr yerlərini tutdular. Əməliyyata bir gün qalmış Kərbəla qərargahında bütün korpus və ordu komandirlərinin iştirakı ilə iclas keçirildi.

**"Yekun işlər danışılıb razılaşdırıldı. İclasdan sonra Həsən Baqiri məhərrəm ayı münasibətilə çıxış edib İmam Hüseyn (ə) aşurasına toxundu. Rövzəxan yox idi, onun**

**səsi də bu işə uyğun deyildi. O, kitabın üzündən oxumağa başladı. Yazılanları oxuya-oxuya gözlərindən yaş axırdı. Sanki bədəninin bütün hüceyrələri onunla birlikdə İmam Hüseynin (ə) kədərinə şərik olurdu. İclasın ab-havası tamam dəyişdi. O qədər oxudu ki, axırda taqəti çəkildi. Çox gözəl məclis keçdi. Sinə də vurduq. O gün Həsən Baqiri bizə elə rövzə oxudu ki, onun həzzini heç vaxt unutmaram. Həyatım boyu çoxlu moizə və rövzə məclisləri görmüşəm, amma oradakı başqa bir şey idi".**[1]

Məhərrəm əməliyyatı 01.11.82 tarixində, qəməri təqvimilə məhərrəm ayının 14-də Həsən Baqirinin rəhbərliyi altında "La hövlə və la qüvvətə illa billah - Ya Zeynəb-Kübra" parolu ilə başlandı. Həsən Baqiri axşam 22:08 dəqiqədə əməliyyatın başlandığını elan etdi və briqadalar hücuma keçdilər. Əməliyyat başlayan kimi yağış yağmağa başladı. Döyüşçülər Həmrin yüksəkliyinə qalxmaqdan ötrü Doyrəc çayından keçməli idilər. Doyrəc çayı Xuzistanın şimalındakı yüksəkliklərdən axıb İraq torpaqlarında Dəclə çayına tökülür. Yağış əməliyyatı gözlənilməz problemlə üzləşdirdi.

**"Kəşfiyyat zamanı çayın dərinliyi topuğa, uzaqbaşı dizə qədər idi. Suyun axını da güclü deyildi. Çəkmələrimizi çıxarıb çantamızın üstünə atır, şalvarlarımızın balağını qatlayıb sudan keçirdik. Əməliyyat planında da uşaqların elə keçməsi nəzərdə tutulmuşdu. Lakin əməliyyat axşamı güclü yağış yağdı. Döyüşçülər çadırlarında idilər. Çadırların üstünə sellofan çəkdilər və xüsusi bir hadisə baş vermədi. Namazlarını qılıb şam yeməklərini yedilər və çaya doğru**

---

[1] Məhərrəm əməliyyatında Qəməri-Bəni-Haşim briqadasının komandiri olmuş General Əli Zahidi ilə müsahibədən.

**yola düşdülər. Batalyonların bir qismi keçdi, bir qismi isə keçmək üzrə idi.**

**Müxtəlif hərbi birləşmələr dörd istiqamətdən çayı keçirdilər. Su sakit axırdı. Çayın eni təxminən 50 metr olardı, hər iki tərəfində təxminən 200 metr uzunluğunda daşlıq ərazi vardı. Şəxsi heyət keçmək istəyəndə çayın yuxarısından güclü sel axmağa başladı, təxminən 150 metr enində, 5 metr dərinliyində bir göl əmələ gəldi və iki tərəf arasında əlaqə kəsildi. Batalyonların bir qismi çayın o tərəfinə keçib düşmənlə döyüşə başlamışdı, bir qismi isə bu tərəfdə qalmışdı. Ortadan çox güclü sel axır, iri daşları, hətta maşını da aparırdı. Əməliyyat planı pozulmaq üzrə idi. Bəzi uşaqları da su apardı.**

**Əməliyyat başlayanda Şəhid Baqiri qərargahdan döyüş yerinə yola düşdü. Bu hadisə ona çox ağır gəldi. Biz çatanda korpusun və ordunun mühəndis-istehkam bölüyünü toplayıb cəld körpü salmalarını tapşırırdı. Yaralıları geri qaytarmaq, silah-sursat və ərzaq göndərmək istəyirdi. Ordunun mühəndis-istehkam bölüyü bir qədər hərbi körpü gətirmişdi, onları çayın üzərində yerləşdirməyə çalışırdı. Çətin proses idi və iş ləng gedirdi. Düşmənin atəşi də dayanmırdı. O tərəfdəki batalyonlar rabitə əlaqəsində tez-tez deyirdilər ki, bəs nə üçün canlı qüvvə gəlmir. Bu tərəfdəki batalyonlar da çaydan keçə bilmirdilər. Onun çox hirsləndiyini gördüyüm yerlərdən biri ora idi. Mühəndisləri tələsdirirdi. Körpü salana qədər təxminən səhər saat 10 oldu və batalyonlar körpüdən keçməyə başladılar. Bir az sonra suyun axını bir qədər zəiflədi".**[1]

Həmin gün Fətulla Cəfəri də orada idi.

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

**"Əməliyyat başlayandan bir saat sonra Həsən Baqiri ratsiya ilə əlaqə saxlayıb Çəmsəri körpüsünün yanına getməyimi söylədi. Tez yola düşdüm. Yağış yağırdı. Şəxsi heyət çayın içindən keçməli idi. Qısa məsafələrlə çayın içinə daşlar düzmüşdülər, döyüşçülər onların üzərindən keçirdilər. Hava hələ tam işıqlanmamış Əsgər Lavinin başçılıq etdiyi tanklarımız çayı keçdi. Həsən dedi ki, bir tank bölüyü burada qalsın.**

**Hava işıqlandı. Ətrafımıza atəş yağırdı. Həsənə görə nigaran idik. Dedi ki, keç o tərəfə, gör döyüşçülərimiz nə qədər irəliləyiblər.**

**Motosikletlə əməliyyat yerinə yola düşdüm. Doyrəcin suyu dizdən aşağı idi. Tez sudan keçdim. Bir qədər gedəndən sonra motosikleti bir təpənin arxasına qoyub döyüş yerinə getdim. Uşaqlarımız təpələrdə vuruşurdular. Motosikletə minib qayıtdım, Həsən Baqiriyə dedim ki, döyüş təpələrdə gedir. Soruşdu ki, bu körpüdən neçə km irəlilədir? Dedim ki, 6 km. Mənə dedi: "Ancaq dediyin yol 12 km-dir".**

**Daha məruzəmi davam etdirməyə qoymayıb xəritəni yığışdırdı. Dediyim məsafədən məruzəmin səhv olduğunu bildi. Yenidən getmək istəyəndə qoymadı.**

**Birdən çayın suyu çoxaldı. Keçid məsələsini həll etməkdən ötrü çayın yanında dayandı. Qülləsiz bir tankı çayın içinə saldıq ki, döyüşçülər üstündən keçsinlər. Bir saat keçməmiş tank suyun altında qaldı. Döyüşçüləri BTR-lə keçirir, yaralıları Doyrəcin şərqinə aparırdıq. Suyun miqdarı anbaan artır, axını güclənirdi. Su canlı qüvvəni ikiyə böldü. Düşmənin bundan xəbəri yox idi. Düşmən qüvvələri özlərini itirib parçalandılar, əslində isə bizə böyük xəsarət yetirə bilərdilər. Kərbəla qərargahının komandirləri israrla Həsən Baqiriyə**

**qayıtmasını söyləyirdilər, o isə ratsiya ilə dağılmış körpünün yanında dayanmışdı; həm əməliyyatı idarə edirdi, həm də körpü salmağa çalışırdı".**[1]

Həsən Baqiri sel gələndə bir an da döyüşçüləri yaddan çıxarmadı. O, hətta bir döyüşçünün canı qarşısında da böyük məsuliyyət hiss edirdi.

**"Əməliyyat günü səhər çağı Həsən Baqirinin yanında idim. Bir maşına minib ratsiya ilə şəxsi heyəti idarə edirdi. Gecə güclü yağış yağıb çayı doldurmuşdu. Ertəsi gün döyüş yerinə doğru yollandıq. Əməliyyatdakı uşaqlar geri qayıdıb öz yerlərini yeni qüvvələrə verirdilər. Onlar çaydan keçərkən bir-birlərinin belindən tuturdular ki, su aparmasın. Bu əsnada bəsici uşaqların birinin əli buraxıldı və su onu apardı. Nə edəcəyimizi bilmirdik. Sel axırdı, o vəziyyətdə üzmək çox çətin idi. Birdən Həsən Baqiri ratsiya dəstəyini atıb çaya doğru qaçdı, suya girmək istəyəndə bir neçə nəfər onu tutdu. Uşaqların biri mahir üzgüçü idi.[2] Cəld çaya girib bəsicini xilas etdi. Həsən Baqiri üzgüçüyə yaxınlaşıb təşəkkür etdi və onu qucaqladı. Sonra isə cəld ratsiyanın arxasına keçdi. Elə gərgin bir şəraitdə Həsənin hərəkəti bizim üçün çox dəyərli idi".**[3]

Əməliyyatın ilk mərhələsində sel gəlsə və şəxsi heyətin birləşdirilməsi vaxtında baş tutmasa da, habelə düşmən Həmrin yüksəkliklərinin yamaclarına qədər mina basdırsa və keçidlərdə pusqu qurmuş olsa da, İslam döyüşçüləri düşmən mövqelərini ələ keçirə bildilər. Bu mərhələdə İran torpağının

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

[2] Söhbət 20 saylı zirehli Ramazan briqadasının komandiri Şəhid Əsgər Lavidən gedir.

[3] Məhərrəm əməliyyatında Kərbəla qərargahının məsul şəxslərindən olmuş Qasim Hacı Məhəmmədhəsənlə müsahibədən.

550 kv km-i, o cümlədən Musyan şəhəri, Həmrin yüksəklikləri, Çəmsəri körpüsü, Vavi, Çəmhindi və Nəhrənbər zastavaları, Bəyat neft zonası və Dehloran magistralı düşmən nəzarətindən çıxarıldı. Birinci mərhələnin mühüm nəticələrindən biri də bir düşmən briqadasının mühasirəyə alınması və komandir müavini Polkovnik Əbdülrza Əbdülhadinin 500 iraqlı döyüşçü ilə birgə əsir düşməsi idi.

Məhərrəm əməliyyatının ikinci mərhələsi 1982-ci ilin 3 noyabrında gecə saat 02:30 dəqiqədə başlandı və döyüşçülərimiz düşmənin mühasirəsini daraltdılar. Hücum o qədər sürətli idi ki, düşməni çox çaşdırdı.

**"Əməliyyatın ikinci mərhələsində Kərbəla qərargahının əməliyyat komandiri Əsgər Kazimi ilə birgə əməliyyat zonasına getdik. Düşmənin briqada komandiri qərargahına çatanda bir yanan çıraq gördük, üzərindəki tavada bir neçə yumurta bişirdi. Görünür, düşmən komandiri səhər yeməyini yeməyə macal tapmamışdı. Əsgər Kazimi ilə birgə komandirin isti yeməyini süfrədəki təzə çörəklə yedik. Komandir səngərində ət və meyvə ilə dolu bir soyuducu və Almaniya istehsalı olan rəngli televizor vardı".**[1]

İkinci mərhələdə işğal olunmuş bölgələrdən 150 kv km azad olundu, 200 iraqlı əsir tutuldu. Üçüncü mərhələdə məqsəd Həmrinin qərbindəki strateji mövqeləri, təpə və magistralları ələ keçirmək idi. İslam döyüşçüləri noyabrın 6-da axşam saat onda yenidən hücum edib İraq torpaqlarının 300 kv km-ini tutdular. Bu ərazi Şərhani və Əbu Qüreyb zastavalarından, Zübeydat qəsəbəsindən, Zübeydatın neft quyularından və əlavə 35 neft quyusundan ibarət idi.

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

Məhərrəm əməliyyatının son mərhələsi olan bu əməliyyatlar noyabrın 7-də səhər saat səkkizdə başa çatdı.

Üçüncü mərhələdə əsas rolu ifa etmiş hərbi birləşmələrdən biri Mehdi Zeynəddinin başçılıq etdiyi Əli ibn Əbu Talib briqadası idi.

**"Məhərrəm əməliyyatının üçüncü mərhələsində Əli ibn Əbu Talib (ə) briqadasının əməliyyat zonasında döyüşçülərimiz Əbu Qüreyb zastavasını mühasirəyə almışdılar, amma onu ələ keçirmək mümkün olmurdu. Dərhal işə başladım, uşaqları toplayıb təpələrin üstünə göndərdim. İraqlılar mühasirənin tamamlanmaqda olduğunu görüb qaçmağa başladılar. Magistralda onları təqib etdim. Mühasirə halqasının o tərəfindən gələn ilk maşında qardaşımız Həsən Baqiri ilə Məcid Bəqayini gördüm. O zona mənim başçılıq etdiyim briqadaya aid idi, hərbi birləşmənin komandiri də qardaş Hüseyn Xərrazi idi. Qardaş Həsən Baqirinin oraya aid birbaşa vəzifəsi yox idi, amma buna baxmayaraq, iş çətinə düşəndə dərhal köməyə gəlirdi".**[1]

Sözügedən əməliyyatda yaralananlardan biri də Məhəmməd Baqiri idi. Şəhadəti özünə yaxın görən Həsən əzizlərini və dostlarını belə hadisələrə hazırlamağa fürsət axtarırdı.

**"O əməliyyatda mənə qəlpə dəydi, yaralandım. Həsən xəbər tutan kimi evə zəng vurub söyləmişdi. Tibb məntəqəsində yaramı bağladılar, xəstəxanaya göndərmək istəyəndə dedim ki, yaxşıyam. Birtəhər qərargaha qayıtdım. Məni görən kimi dedi: "Evə dedim ki, şəhid olubsan". Dedim: "Əşi, bir şey deyil, yaradır, sağalacaq. Nə üçün elə demisən?" Mənə dedi: "Gərək hazırlıqlı**

---

[1] Şəhid Mehdi Zeynəddinin sözlərindən.

**olsunlar. Hər an başımıza belə bir iş gələ bilər. Gərək bundan qorxmasınlar".**[1]

Uğursuz Ramazan əməliyyatından sonra Məhərrəm əməliyyatındakı qələbə xalqı sevindirdi. İctimai rəyə görə, o əməliyyat uğurlu idi ki, döyüşçülər haranısa ələ keçirib oraya yerləşsinlər. Məhərrəm əməliyyatında belə oldu və döyüşçülər qələbə sevincini bir daha yaşadılar.

**"Məhərrəm əməliyyatı Həsən Baqirinin komandir və Məcid Bəqayinin müavin olduğu Kərbəla qərargahı tərəfindən həyata keçirildi. Bu əməliyyatda çoxlu əsirdən əlavə əhəmiyyətli bölgələri də ələ keçirdik. Məhərrəm əməliyyatı bizim müharibə ilə bağlı bütün strategiyamızın dəyişməsinə səbəb oldu. Bəsrənin şərqində vuruşmaq çətinləşdiyinə görə qərara gəldik ki, bir müddət qərbdə vuruşaq, zəif cəhətlərimizi aradan qaldıraq və yenidən Bəsrənin şərqinə qayıdaq. Amma böyük qələbəli Məhərrəm əməliyyatı bütün diqqətimizin İmarəni almağa yönəlməsinə səbəb oldu. Uşaqlar öz hədəflərinə doğru gedəndə o, avtomobillə döyüş yerinə yollanıb şəxsi heyəti idarə edirdi. Yüksək rütbəli hər komandirdə bu xüsusiyyət olmur. Onun tabeliyində bir neçə diviziya və çox geniş bir ərazi olsa da, bu özəlliyə sahib idi".**[2]

## *Müharibənin gələcəyindən narahatlıq*

Məhərrəm əməliyyatında qələbə xalqı sevindirdi, komandirlərdə böyük ruh yüksəkliyi yaratdı, ancaq Həsən müharibənin daha da çətinləşdiyini anladı. O, Məhərrəm əməliyyatının hər üç mərhələsində döyüşdə iştirak edib hərbi

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

[2] General Əhməd Qulampurla müsahibədən.

birləşmələri yaxından idarə etmişdi, orada üzləşdiyi düşmən Fəthülmübində, Beytülmüqəddəsdə və hətta Ramazanda üzləşdiyi düşmən deyildi. Bu dəfə ələ keçirilmiş tankların arasında yeni T-55 və T-76 tankları, Çinin zirehli maşınları, Fransa raketləri və digər yeni texnikalar görünürdü. Bu əməliyyatın mühüm məqamlarından biri də İraq ordusunun Çəzzabədən Həmrinə qədər qazdığı kanalın kəşf olunması idi. Bu kanal İslam döyüşçülərinin piyada və zirehli qüvvələrinin irəliləməsinə ciddi maneçilik törədə bilərdi. Ən önəmlisi üçrəqəmli briqadalar kimi tanınan yeni briqadaların yaradılması idi. Onlar İraqın yeni müdafiə xəttini təşkil edirdilər. Həsən Baqiri Məhərrəm əməliyyatından sonra müharibənin yeni vəziyyətini komandirlərlə bölüşməkdən ötrü Tehrana yollandı. Bu səfərdə onu Fətulla Cəfəri müşayiət edirdi.

**"1982-ci ilin 8 noyabrında Həsən Baqiri ilə birgə Falkon təyyarəsi ilə Tehrana gedib korpusun mərkəzi qərargahının iclasında iştirak etdik. Həsən Baqiri Ali Şura üzvlərinin və yüksək rütbəli komandirlərin iştirak etdiyi həmin iclasda dedi: "Əgər belə davam etsək, cəbhələrdə problemlərlə üzləşəcəyik. Canlı qüvvə bərabərliyi itmişdir, korpus öz üsullarına yenidən baxmasa, müharibənin gələcəyinə dair bir şey fikirləşməsə, artıq böyük qələbələr gözləməməliyik".**

**Vəziyyətin nə yerdə olduğunu və Həsən Baqirinin narahatlığının səbəbini orada öyrəndim. O, İraq ordusunun vəziyyətini dəqiq təhlil edib dedi: "Düşmən 90 üçrəqəmli briqada yaratmış, 12 diviziyasına üçünü də əlavə etmişdir. Əgər buna adekvat tədbirlərimiz olmasa, uğur qazana bilməyəcəyik".**[1]

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

Həsən Baqiri ertəsi gün bölgə komandirləri önündə çıxış etdi. Bu çıxış korpusun idari sisteminə baxışı dəyişdirdi, cəbhəyə gedib əməliyyatlarda iştirak etməyi prioritetə çevirdi. O, çıxışının əvvəlində müharibənin yeni vəziyyətini təhlil edərək deyirdi:

"Amerikalılar əvvəldə elə bilirdilər ki, İraq İranın işini bitirəcək. Əgər Amerikanın Xuzistanı İrandan qoparmaq istədiyini qəbul etməsək, qəbul etməliyik ki, onu bir sümük kimi İslam respublikasının boğazında saxlamaq istəyirdi. Müharibənin ilk iki ilində bu məsələ hiss olunurdu, amma Qüds yolu əməliyyatından sonrakı təhlillər göstərdi ki, İraq tərəfi təhlükə altındadır, təkbaşına məsələni həll edə bilməyəcək, ona kömək lazımdır. Bu zaman Misirdən İraqa çoxlu T-55 tankı göndərildi. Bu yaxınlarda T-76 tankları, miraj və MiQ-25 qırıcıları da veriblər. Müharibənin əvvəlində vermədikləri silahları onlara verirlər. İndi artıq Ərəbistanın, İordaniyanın və Yəmənin silahlarını da görürük. Yəni kimin kasasında nə qalıbsa, 100 ədəd patronla olsa belə, İraqa kömək edir.

Bu onu göstərir ki, güc balansı pozulur. Bu yardımlardan sonra İraqın hərbi arsenalı əksər diviziyalarda müharibənin əvvəlində olduğu kimidir. Müharibə bu qədər davam edib, biz qırx min əsir tutmuşuq, bəlkə mindən çox, yəni üç diviziya həddində tank ələ keçirmişik, amma İraqı gücləndirib və bütün texnikanı yenidən ona veriblər".[1]

Həsən Baqiri sözlərinin davamında düşməndən ələ keçirilmiş silah-sursata toxunaraq deyirdi:

"Problemlərimizin biri budur ki, həm RPG qumbaraatanı, həm bazuka, həm TOV raketi, həm də malyutkamız var. Tam bir silah kolleksiyasına sahibik. Həm mini-katyuşamız

---

[1] Həsən Baqirinin xatirələri, c. 3.

var, həm katyuşamız; həm 203 mm-lik topumuz var, həm 122 mm-lik. Şərq və qərbin, Çinin, Rusiyanın, İngiltərənin və digər yerlərin silahlarını toplamışıq. İndi də haradasa misal üçün, 135 raketi olduğunu desələr, ölçüsü uyğun gəlməsə də, gedib almağa məcburuq. Yaratdığımız hərbi birləşmələrin silah-sursatını imkan daxilində təmin etməliyik. Korpusun əksər artilleriyasını təşkil edən 122 mm-lik toplarımızın sursatına dair ciddi çatışmazlığımız var. Nə üçün? Çünki top və mərmi iraqlılarınkı idi. Döyüşdə bir top ələ keçiriləndə məgər yanında nə qədər mərmi olur?! Deyək ki, hər topun 500 mərmisi olsun. O topların ələ keçirildiyi Fəthülmübin əməliyyatından bu yana gündə 4-40 arası mərmi atılır. Ordudan və digər yerlərdən də mərmi aldıq, bununla belə, bizim hər bir 122 mm-lik topumuzun mərmisi çox olsa, 200 ədəddir, onların da başlıqları yoxdur. Görün bu məsələ təlim işində necə axsaqlıq yaradır! Biz topçu yetişdirmək istəyəndə daim fikirləşirik ki, bu topun yalnız 200 ədəd mərmisi var. Yəni mərmilər bitəndən sonra topçu oturub topa baxmalıdır. Yenə deyirik ki, bu gün onlara təlim keçək, sabaha Allah kərimdir. Bu baxımdan İraqda da vəziyyət oxşardır: həm malyutka raketi var, həm TOV-u; həm amerikalılar ona kömək ediblər, həm də Varşava Müqaviləsi Təşkilatına üzv ölkələrdən şərq silahları alıb..." [1]

O bu girişdən sonra əsas məsələyə keçib bölgə komandirlərinin təcrübəli döyüşçüləri cəbhəyə göndərmək, təzə nəfəsli könüllü bəsicilərə təlim keçməklə bağlı vəzifələrinə toxundu. Həsən Baqiri İran və İraq cəbhələrindəki insan resursunu müqayisə edərək onları reallıqlarla tanış edirdi.

---

[1] Yenə orada.

"İraq əhalisi İranın yarısı qədər olsa da, özünün döyüşçü çatışmazlığını aradan qaldırmışdır. Onlar həqiqi hərbi xidmətdən əlavə "Ceyş əl-Şəbi" adlanan xalq qüvvələrindən də istifadə edirlər. “Ceyş əl-Şəbi” bizim Bəsic təşkilatımızdan daha nizamlıdır. Bu təşkilatın müharibə boyu hər birində üç batalyon olmaqla 90 briqadası olmuşdur. Əgər hər batalyona 300-340 döyüşçü hesablasaq, 100 min nəfər edir. Bunlar yalnız ehtiyat qüvvələrdən və xalq ordusundan təşkil olunmuş briqadalardır. Hər bölüyə bir zabit və iki gizir vermişdir. Onları Müdafiə nazirliyindən, təlim qarnizonlarından və Silahlı Qüvvələrin Baş Qərargahından gətirmişdir. Yəni hərbi nizam-intizamdan irəli gələrək bütün aktiv və ehtiyatda olan zabitləri toplayıb döyüş yerlərinə cəlb etmişdir. Xüsusən Beytülmüqəddəs əməliyyatından sonra bir çox yerlərdə bu briqadaları öndən göndərir. Bizim güclü briqadamız bu zəif briqadalarla vuruşur, onları sıradan çıxarıb 20 min əsir tutur, yorulandan sonra isə düşmən, üzərində 20 il işlədiyi hərbi birləşməni döyüşə yollayır.

Müharibənin əvvəlində İraq tərəfi bir səhvə yol verdi. Onlar ən güclü diviziyalarından olan 3 saylı diviziyanı Karunun bu tərəfinə keçirdilər, bəsicilər də 24 saat ərzində tökülüşüb onun təcrübəli döyüşçülərindən 1500 nəfərini əsir tutdular. Şuş əməliyyatında da seçilmiş qüvvələri ciddi itki verdilər. Onlar bunun sərf etmədiyini görüb əvvəlcə çox zəif briqadalar hazırladılar. Çəzzabə əməliyyatında xalq qüvvələrindən on briqadanı döyüşə cəlb etdilər; səhər biri hücum edirdi, günortadan sonra başqa biri. Biz Çəzzabədə Bostan əməliyyatı qədər şəhid verdik. Allahın istəyi ilə düşmən bu işi davam etdirmədi. Çünki bu, özünün itki verməsi ilə yanaşı bizi də əlverişsiz yerlərdə əməliyyat keçirməyə məcbur edirdi.

Çəzzabə bizim üçün ideal əməliyyat bölgəsi deyildi. Niyyətimiz bu idi ki, Çəzzabə boğazına çatıb cəbhəyə bir qapı qoyaq, o qapını bir briqada ilə qıfıllayaq, sonra da işlərimizin ardınca gedək. Ümumiyyətlə, Bostan əməliyyatı İraq cəbhəsinin şimal və cənubunu kəsmək, canlı qüvvəyə qənaət etmək və hər yerdən müdafiəyə ehtiyaclı olmamaq üçün idi. Çünki sol cinahımız sudan, sağ cinahımız da keçilməz qumluqlardan ibarət idi və az qüvvə ilə qorunmaq olurdu. Lakin düşmən bizi Çəzzabə cəbhəsində döyüşə məcbur etdi.

Ramazan əməliyyatının problemləri müəyyən həddə bu şəraitin nəticəsi idi. İmam Hüseyn (ə) briqadası kanalın yuxarısına getmiş olsa da, sağ tərəfində saysız-hesabsız düşmən qüvvələri vardı. İraqın 5 və 6 saylı diviziyaları, ehtiyat qüvvələri, 10 saylı briqadası və prezident qvardiyasının briqadası sağ cinahda qalmışdı, bizsə kanalın yuxarısına yapışmışdıq. Əgər sağ tərəfimizdə istehkam qursaydıq da, məsələ həll olunmayacaqdı. Çünki orada yalnız Nəcəf-əşrəf və İmam Hüseyn (ə) briqadalarımız vardı, geridə də Fəcr diviziyası dururdu. İki briqada neçə əks-hücumun qarşısını ala bilər?! Hər halda, güclərinin bir həddi var, kömək olmasa, bacarmazlar. Kömək də canlı qüvvə ilə bağlı məsələdir. Hansı ki bu gün əsas problemimiz budur. İndi İraqın 17 peşəkar diviziyası var, 90 briqadadan ibarət xalq ordusu da 30 diviziya edir. Yəni təxminən 50 diviziya ilə qarşı-qarşıyayıq. Müharibənin əvvəlində deyirdik ki, İraqın 12 diviziyası var, indi isə 50 olub. Bəs biz nə qədərik? Gəlin, özümüzü müqayisə edək.

Bunları deməkdə məqsədim odur ki, korpusun vəzifələrinin nə olduğunu bilək. Deyə bilərik ki, indi korpusda 15 diviziya var. İraqın 50 diviziyasının olduğunu nəzərə alsaq, hələ 35 diviziyamız çatmır. Əgər Müdafiə

nazirliyinin 10 diviziyasını da üstünə gəlsək, 25 diviziya edir. Yenə görürük ki, qüvvələr bərabər deyil".[1]

Həsən Baqiri komandirlərlə keçirilən həmin məxfi iclasda Bəsic təşkilatının zəif cəhətlərinə də toxundu. Onun məqsədi Bəsicin güc və imkanlarını artırmaq idi.

"Bir şəhərdən gələn batalyon gərək hazırlıqlı və nizam-intizamlı olsun ki, ona yalnız batalyon və bölük komandirləri seçək. Bəsicilərimizi elə hazırlamalıyıq ki, bir şəhərin batalyonuna çağırış edəndə 24 saat ərzində gələ bilsinlər. İsrail elə təşkilatlanıb ki, 48 saat ərzində 240 min canlı qüvvəni toplaya bilir. Halbuki işğalçı bir dövlətdir, əhalisi iki milyondan çox deyil, sərhədləri daxilində nə qədər fələstinli yaşayır, min cür başqa problemi də var. Əgər bizdə müharibə məsələsində, müharibə qərarlarında durğunluq görürsünüzsə, müharibəyə dair bəlli bir siyasət yoxdursa, gah qərbdə, gah da cənubda işləyiriksə, buna görədir. Ramazan əməliyyatına qədər və onun özündə hərbi strategiyamız dəqiq və davamlı idi. Ramazan əməliyyatından sonra isə işimiz bu olub ki, Məndəli kimi bölgələrdə məhdud əməliyyatlar keçirək, bununla da yeni briqadalar yaradıb Bəsrə əməliyyatını davam etdirə bilək. Üstəlik, Səddam yalnız Bəsrədə deyil. İraq tərəfi hərbi imkanlarını o qədər genişləndirib ki, Bəsrə müharibənin təxminən 35 faizi deməkdir. Yəni hələ qarşıda uzun yolumuz var.

Hələ də bütün ölkədə Bəsic üzvlərinin sayı yüz mindən çox deyil. Halbuki bu gün bizim irimiqyaslı əməliyyatlarımızdan ötrü bundan iki dəfədən də çox canlı qüvvə lazımdır. Briqadalar canlı qüvvə istəyəndə bunu onlara kim verməlidir? Bir şəhərin əməliyyat komandiri olan sizlər briqadaya canlı qüvvə verməsəniz, kim verəcək? Əgər

---

[1] Yenə orada.

sizin cəbhədə daimi qüvvələriniz olmasa, müharibəni kim idarə edər? Siz şəhərlərdə nə qədər yaxşı işləsəniz, cəbhədə döyüşlər bir o qədər uğurlu olar. Allah şahiddir, mən düşünürəm ki, cəbhədə bizim rolumuz sizinkindən azdır. Şəhərlərdə əsas işlər sizin üzərinizə düşür. Əgər siz canlı qüvvə göndərsəniz, nizam-intizam yaratsanız, biz orada vuruşa bilərik. İşin dəyəri sizdən asılıdır".[1]

Bunlar müharibə üçün ümumi miqyasda diqqət ayrılması gərəkən vacib məsələlər idi. Həsən Baqiri kəşfiyyat işlərini genişləndirmək və nəticədə ən uyğun əməliyyat bölgəsi seçib komandanlığa təklif etmək məqsədilə Kərbəla qərargahına qayıtdı. Müslim İbn Əqil və Məhərrəm əməliyyatlarında məqsəd düşmənin Bəsrədə mərkəzləşməsini azaltmaq idi. Bu iki əməliyyatda qələbədən sonra bu məqsəd təmin olundu. Lakin Həsən Baqirinin fikri Bəsrədən sonrakı yerlər, hətta Bağdad idi. Hacı Himmətin də fikri bu idi ki, bir yolla İraqın paytaxtına çatmaq lazımdır.

**"Müslim əməliyyatı bitmişdi. Qardaşımız Əziz Cəfəri ilə birgə təyyarə ilə Kirmanşahdan Əhvaza getdik. Orada Həsən də təyyarəyə mindi və gələcək layihələr barədə danışmaq üçün Tehrana yollandıq. O bu əməliyyatdan çox razı qalmışdı, sevinclə deyirdi: "Hacı, get bu briqadanı gücləndir, Allahın köməyi ilə əməliyyatları davam etdirək".**

**Çox arxayın danışırdı. Danışıq tərzindən bəlli idi ki, gələcəyə çox nikbindir. Biz hərdən bəzi sözlər demiş, bir qədər etirazla üzləşmişdik. Hər ikimizin beynində Bağdad məsələsi vardı. Bun15 bağlı Xatəmül-ənbiya qərargahındakı və ordudakı qardaşlarla söhbətimiz olmuşdu. Biz Bağdadın əhəmiyyəti üzərində dayanıb**

[1] Yenə orada.

**deyirdik ki, fəsadın mərkəzi oradır. Bağdadı Səddamdan alsaq, gedib Bəsrəni paytaxt edəsi deyil, bizim şahımız kimi İraqdan qaçacaq. Buna görə də, Məndəli (Müslim ibn Əqil) əməliyyatını davam etdirib Bağdada doğru irəliləməliyik. Həsən Baqirinin də fikri bu idi və bunu dəfələrlə söyləmişdi".**[1]

Ölkənin qərb bölgəsinin korpus komandiri olan Davud Kərimi də təyyarədə idi. O düşünürdü ki, şimal-qərbdə diversiya əməliyyatları, cənubda aldadıcı əməliyyatlar, qərbdə də əsas əməliyyatlar keçirilməlidir.

**"Hava limanında gördüm ki, Həsən Baqiri və İbrahim Himmət təyyarədədirlər. Cənubdan gəlmişdilər. Təyyarədə bir xəritə açıb Tehrana qədər müzakirə etdik. Bizim bir qrupumuzun fikri bu idi ki, əsas hücumlarımız qərbdə olmalıdır. Onlar da bu fikirlə razılaşıb dedilər ki, iclasda bu fikri müdafiə edəcəyik. Dəlilləri bu idi ki, havadan Bağdadla 100 km məsafəmiz var və onun ətrafını vura bilərik.**

**Tehranda Səyyad Şirazi ordu komandirlərini toplamışdı. Orada fikrimizi bildirməyə başladıq. Çox təəssüf, iclasda elə vəziyyət yarandı ki, Şəhid Baqiri ilə Şəhid Himmət fikirlərini söyləyə bilmədilər. Mən indi bu iki şəhidin fikrini deyirəm. Baqiri ilə Himmətin Səddamı devirmək üçün hərbi baxımdan strateji nəzər nöqtələri mənim sözümlə yaranmamışdı, onlar cəbhələrdə püxtələşmiş təcrübəli insanlar idilər".**[2]

Onlar haqlı olaraq Bağdadı fəth etmək barədə düşünürdülər. Lakin problem bu idi ki, ozamankı qüvvə və imkanlar buna yetərli deyildi. Həsənin komandirlərin

---

[1] Şəhid Məhəmməd İbrahim Himmətin sözlərindən.

[2] Şəhid Davud Kərimi ilə müsahibədən.

iclasındakı sözlərindən İran hərbi strategiyasının Ramazan əməliyyatından sonra nə üçün həlledici deyil, kiçik hədəflərə yönəldiyini bilmək olardı. Buna görə də, müharibə barədə qərar verənlər öz səylərini digər bölgələri ələ keçirməyə yönəltdilər. Həsən Baqiri o istiqamətdə İmarə, Fav və Əliqərbi şəhərlərini kəşfiyyat bölgələri təyin etdi. Fav bölgəsində kəşfiyyat-diversiya işlərinə Əhməd Əmiri başçılıq edirdi. Həsən Baqiri ona demişdi ki, Ərvənddən keçməyin yolunu, habelə zirehli texnikanın hərəkəti baxımından Fav torpağının vəziyyətini öyrənsin.

**"Həsən Baqirinin kəşfiyyat ehtiyaclarına cavab vermək üçün ayağımızın Fava dəyməsi lazım idi. Kəşfiyyat əməliyyatları üçün çinko adlanan yerli bir qayıqla Ərvənd çayından keçirdik. Fav bölgəsini öyrəndiyimiz müddətdə Həsən Baqiri ağa Rəhim Səfəvi və ağa Rəşidlə birgə Ərvəndin kənarındakı kəşfiyyat qərargahına gəlir, topladığımız informasiyaları alıb tapşırıqlarını verməklə yanaşı Çəzzabə, Səfəriyyə, Rəmli bölgələrində və əl-İmarənin qarşı tərəfində keçirilmiş kəşfiyyat əməliyyatlarının inkişafına dair fikir mübadiləsi edirdilər.**

**İraqın Hərbi Dəniz Qüvvələrinin komandanlığı Favın cənubunda yerləşirdi. Ora bizim kəşfiyyat zonamıza daxil idi. Günbatan çağı oraya atəş açırdıq, onlar da cavab atəşi açanda pulemyot gülləsinin işığından məsafəni təyin edirdik. Suyun qabarma və çəkilməsini nəzərə alaraq qayığı çaya buraxır, İraq sahillərinin təxmin etdiyimiz nöqtəsindən çıxırdıq. Qayıqları gizlədib orada gözləyir, gecələr kəşfiyyata başlayırdıq. İmarə və Favda Vəlfəcr adlı əməliyyat baş tutmalı idi. Təəssüf ki, Xuzistan vilayətinin qərbindəki uğursuzluqdan sonra**

**ona Vəlfəcr-hazırlıq adı verildi, Fav əməliyyatı isə Vəlfəcr-8 əməliyyatına qədər gecikdi".**[1]

1983-cü ilin yanvar ayının ortalarından sonlarına qədər bütün kəşfiyyatçılar üçün gərgin günlər idi. Məhəmməd Baqiri o zaman Kərbəla qərargahının kəşfiyyat üzrə komandir müavini idi.

**"Məhərrəm əməliyyatından sonra gələcək planlar müzakirə olunurdu. Ramazan əməliyyatı göstərdi ki, düzənlikdə qələbə çala bilmirik. Düşmənin zirehli texnika və aviasiya üstünlüyü o həddə idi ki, bizə əl-qol açmağa imkan vermirdi, elə səhər çağından işimizi axsadırdı. Ərvənd çayından keçmək məsələsini də araşdırdıq, Həsən Baqiri və Məcid Bəqayi ilə birgə oraya getdik. O zaman Vəlfəcr-8 əməliyyatı kimi hərəkətə keçmək ağlımıza gəlmədi. Araşdırıb gördük ki, körpülərimizin uzunluğu ən çox 250 metrə qədərdir, körpü salmaq da imkansızdır. Ramazan əməliyyat zonasında Mehrana qədər irəlilədik. Müxtəlif cəbhələrdə komandirlərlə birgə iki həftə gəzib araşdırdıq. Hamı Məhərrəm əməliyyat bölgəsində işləməyi uyğun sayırdı".**[2]

Həsən Baqiri xarici bölüyün də əsasını qoymuşdu. Bu bölüyün üzvləri iraqlı mücahidlərdən ibarət idi. Onlar sonradan Bədr briqadasını yaratdılar. Qərara alınmışdı ki, əməliyyat üçün münasib yol tapılsın və şəxsi heyət 50 km gedəndən sonra Dəclə çayına çatsın. Döyüşçülərimiz həmişə hücum edib mövqeyi ələ keçirirdilər, amma səhər açılanda iraqlılar hava hücumları və zirehli texnikanın köməyi ilə

---

[1] Abadan cəbhəsinin ovaxtkı kəşfiyyat-diversiya komandiri Əhməd Əmiri ilə müsahibədən.

[2] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

əməliyyatı davam etdirməyə imkan vermirdilər. Həsən Baqiri istəyirdi ki, mövqeyi ələ keçirməklə yanaşı bir diversiya əməliyyatı ilə arxadan düşmənə hücum edib dördüncü korpusun komandir sistemini çökürtsün. Bu, əks-hücumların qarşısını ala bilərdi. Həsən Baqirinin kəşfiyyatçıları bəzi kəşfiyyat işlərinə başladılar. Bu mürəkkəb və ağır əməliyyata Məhəmməd Baqiri başçılıq edirdi.

**"İraqlı mücahidlərin bəzisini Hurdan Çəzzabənin arxasına kəşfiyyata göndərirdik. Batalyonlarımızı Çəzzabənin arxasına yollayıb mövqeyi arxadan ələ keçirmək üçün bir neçə keçid tapdıq. Dördüncü korpusun komandir qərargahına hücum etmək üçün bir bölük də hazırladıq. Bu işə rəhbərlik Rza Həbibullahiyə tapşırıldı. O, çox istedadlı və cəsarətli hövzə tələbəsi idi. Onunla birlikdə dördüncü korpusdan olan əsirlərlə işlədik, korpusun qərargahında əsgər, qarovul və ya zabit olmuş əsirləri tapdıq. İraq avtomobillərinə oxşayan SUV və Toyota avtomobilləri əldə etdik. Ələ keçirilmiş avtomobillərdən də istifadə olundu. Şəhid Həbibullahi 500 döyüşçüyə təlim keçməyə başladı. Onlara İraq geyimi, ratsiyası və vəsiqələri verdik. Qərara gəldik ki, Rza Həbibullahi uşaqlarla birgə əməliyyat yerində hazır olsun, hansı istiqamət açılsa, avtomobillərlə oradan içəri girsinlər. Onlar geri çəkilən bir İraq hərbi birləşməsi kimi Qəzilə körpüsündən keçib dördüncü korpusun komandir qərargahında əməliyyata başlasınlar. Hər şey bütün xırdalıqları ilə Şəhid Baqirinin nəzarəti altında planlaşdırıldı, komandir qərargahının yeri, ratsiya, motosiklet, bölük, qarovul, silah-sursat və yanacaq yerləri – hamısı müəyyən edildi, müxtəlif yol və magistrallar öyrənildi. Dördüncü korpusun komandir**

**qərargahı əl-İmarənin cənub-qərbindən 60 km aralıda yerləşirdi. Əl-İmarədən keçib magistralla cənuba doğru getməli və dördüncü korpusun qərargahına çatmalı idik".**[1]

Lakin bu əməliyyat baş tutmadı. Rza Həbibullahi Vəlfəcr-hazırlıq əməliyyatının gecəsi döyüş yerində şəhid oldu, mövqe də ələ keçirilmədi.

## *Fəkkədə görüş*

Korpus və ordu komandirləri yekdilliklə qərara gəldilər ki, Məhərrəm əməliyyat zonasında işləri davam etdirərək Vəlfəcr-hazırlıq əməliyyatına başlasınlar. Lakin Həsən Baqiri kəşfiyyatların nəticəsini orada əməliyyat keçirməyə yetərli bilmirdi. Məruzələr göstərirdi ki, İslam döyüşçüləri qumlu bölgələrdən çox çətinliklə keçəndən sonra iraqlıların iki cərgə kanal qazdıqları bir düzənliyə çatacaqlar. Kanalların qabağını, arxasını və iki kanalın ortasını tikanlı məftil, mina və su ilə doldurmuşdular. Qumluqlarda da pusquları vardı. Həsən Baqiri əmin olmaqdan ötrü özü kəşfiyyata yollandı.

**"Ordunun mövqeyi ilə iraqlılar arasında 16 km məsafə vardı. Oradan 4 km irəliləyib Fəkkə yolunda maşını saxladıq. On beş nəfər idik, Hüseyn Xərrazi, Həmzə və İmam Hüseyn (ə) briqadalarından bəzi uşaqlar da bizimlə idilər. Şəhid Baqiri irəli getməyin imkansız olduğuna inanmırdı, özü görmək istəyirdi. İraqlılar yolu şumlayıb mina basdırmışdılar. Onnəfərlik bir komanda ilə öndən getdik, beşi də arxadan gəldi. Özü öndə gedirdi ki, həqiqətən keçilməz olub-olmadığını görsün. Pusquları görmüşdü və onlardan keçməyin çox çətin olduğunu**

[1] Yenə orada.

**bilirdi. İraqlılar oranı keçilməz etməkdən ötrü çox fikirləşmişdilər.**

**Əməliyyata uyğun digər bölgə Fəkkənin şimalı, Zübeydata, Həmrin və Fövqi təpələrinə gedən istiqamət idi. O təpələrdən Fəkkə düzünü ələ keçirə bilərdik. Bir yol bu idi ki, Həmrin dağından enib Fövqi dağına çıxaq. Başqa bir yol isə bu idi ki, Fəkkədən gedib ikisinin arasından keçək. Fövqi ilə Həmrinin bir-birinə bitişik olub-olmadığını dəqiq bilmirdik. Xəritələr və göydən çəkilmiş şəkillər aydın deyildi. Müxtəlif bucaqlardan baxmaq istəyirdik ki, onların sonda bir-birinə bitişib-bitişmədiyini biləк".**[1]

Həsən özünü bu suala və digər qaranlıq məqamlara cavab tapmağa borclu bilirdi. Öncəki hadisələrdə də sübut etmişdi ki, bəsicilərin həyatda qalması üçün canından keçməyə hazırdır.

**"Qardaşlar Məhərrəm istiqamətində işləri davam etdirməyi düşünürdülər. Çox müzakirə getdi. Həsən Baqiri danışmaqla, xəritəyə baxmaqla məsələnin aydınlaşmayacağını bilib bölgəyə yaxından baxmağı vacib saydı. Birlikdə Məhərrəm əməliyyat zonasına gedib yüksəkliklərə diqqətlə baxdıq. Bəzi yerlərdə sürünə-sürünə düşmənin yaxınlığına qədər irəlilədik. Təhlükəli yerlər idi, Həsənin orada olması əsla düzgün deyildi. Əlbəttə, buna adət etmişdi, bəsiciləri özü getmədiyi bir yerə əməliyyata göndərməzdi. Həmin gün müşahidə apardıq və qərara gəldik ki, sabah işimizi davam etdirək".**[2]

---

[1] Yenə orada.

[2] Şəhid Mehdi Zeynəddinin sözlərindən.

Ertəsi gün kəşfiyyat əməliyyatı Mehdi Zeynəddinsiz davam etdirildi. O, İmam Xomeyni ilə görüşə getmişdi. Korpus komandirləri imamdan görüş vaxtı almışdılar, ancaq Həsən Baqiri onların arasında deyildi.

**"Ağa Rzayi israr edirdi ki, qardaşım, Məcid Bəqayi və digər dostlar da görüşə getsinlər. Qardaşım isə dedi: "Gedib imama nə deyək?! Deyək ki, bu qədər bəsici gəlib təlim keçib, bütün diviziyalar hazırlaşıb, amma biz əməliyyata yol tapa bilmirik və planlarımız natamamdır?! Mənim üzüm gəlmir, qoyun işimizi görək". Ağa Rzayi də qane oldu".**[1]

Həsən Baqiridən əlavə Məcid Bəqayi və dostlardan bir neçəsi də qaldı.

1983-cü ilin 29 yanvarında Həsən Baqiri Məcid Bəqayi, Məhəmməd Baqiri, Mürtəza Səffari, Müctəba Möminian, Təvəkkül Qəlavənd, Palaş və Rizvani ilə birgə Fəkkəyə doğru yola düşdü. Fəkkəyə təxminən 12 km qalmış bir təpədə Həmrin və Fövqi təpələrinə nəzarət edən müşahidə postumuz vardı. Onlar xəritə və göydən çəkilmiş şəkil üzərindəki cığır və dəhlizləri tapmaqdan ötrü oraya getdilər. Əməliyyat üçün son qərar da qəbul olunacaqdı. Üstüaçıq bir səngərə girdilər. İraqlılar bunu bilib raket atmağa başladılar. Raketlər pərakəndə şəkildə səngərdən 80-100 metr aralıya düşürdü. Başları xəritə və fotolara elə qarışmışdı ki, partlayış səslərinə fikir vermirdilər.

**"Əməliyyat məsələsini müzakirə edirdik. Xəritənin bəzi yerləri barədə fikir ayrılığı yarandı. Biri deyirdi ki, bura filan təpədir, o biri deyirdi ki, yox, başqa bir yerdir. Hətta səngərimizin xəritədəki dəqiq yeri barədə 500 metrlik bir fikir ayrılığı vardı. Bizdən təxminən 100 metr**

---

[1] General-leytenant Məhəmməd Baqiri ilə müsahibədən.

aşağıda ordunun bir raket mövqeyi yerləşirdi, içində üç-dörd əsgər və bir gizir vardı. Şəhid Baqiri mənə dedi: "Get, onlardan bu səngərin xəritə üzərindəki dəqiq yerini soruş və nişanla".

Öz-özümə dedim ki, biz yerimizi bilmiriksə, onlar haradan biləcəklər?! Bir anlığa buna ehtiyac olmadığını söyləmək istədim, amma dərhal fikirləşdim ki, sözünə əməl edim, digərlərinin yanında etiraz etməyim düzgün deyil. Səngərdən çıxdım. Təxminən 15 metr uzaqlaşmışdım ki, bir raket fitini eşidib yerə oturdum. Partlayış səsindən raketin çox yaxına düşdüyünü hiss etdim. Toz-torpaq yatanda ayağa qalxıb tüstünün səngər tərəfdən qalxdığını gördüm. Tez geri qayıtdım. İlk olaraq, ağa Mürtəza Səffari ilə rastlaşdım. Əlini ürəyinə qoymuşdu, "Allahu-əkbər" və "ya Hüseyn" deyə-deyə səngərdən çıxırdı. Sinəsinə və ürəyinin altına bir-iki qəlpə dəymişdi. Tez səngərə girdim. Qəlavənd, Rizvani və Möminian oradaca şəhid olmuşdular. Məcid Bəqayinin bir ayağı kəsilmişdi, biri də dəridən asıla qalmışdı. Ağa Palaşın da ayağı kəsilmişdi. Qardaşıma bir neçə qəlpə dəymişdi, özündə deyildi, amma "ya Sahibəzzaman" və "ya Hüseyn" deyirdi. Tez gizir və əsgərləri çağırdım. Onlar qaça-qaça gəldilər. Məcid Bəqayi ilə qardaşımı avtomobilə qoyduq. Əsgərlərə dedik ki, siz də sağ qalmış digər iki nəfəri başqa bir avtomobillə tibb məntəqəsinə aparın. Biz də oraya yola düşdük. Təqribən 5 dəqiqə sonra Bəqayi şəhid oldu. Çoxlu qan itirmişdi. Qardaşım sağ idi, amma özündə deyildi. Güclü partlayış dalğasına düşmüşdü. Daim zikr deyirdi. Nə qədər çağırırdımsa, məni duymurdu, ancaq kəlmeyi-şəhadətini, "ya Sahibəzzaman" və "ya Hüseyn" sözlərini pıçıldayırdı. İmam Rza (ə) briqadasının postlarından birinə çatdıq.

**Orada bir təcili yardım maşını vardı. Uşaqlara dedim: "Bu, Həsən Baqiridir, yaralanıb. Tez ratsiya ilə qərargaha xəbər verin, helikopter göndərsinlər. Onlar gələnə qədər təcili yardım maşınında ona serum qoşun".**

**Tibb işçiləri gəlib onu təcili yardım maşınının içinə uzatdılar və serum qoşmaq üçün damarını axtarmağa başladılar. Lakin nə qədər etdilərsə, damarı tapılmadı. Hələ yaşayırdı. Dedim ki, siz tibb məntəqəsinə gedin, mən qayıdım, görüm Səffari ilə Palaş necədirlər.**

**Qərargaha çatanda xəstəxanadan qardaşımın şəhid olduğunu söylədilər. Bu xəbəri gözləmirdim. Elə bilirdim ki, partlayış dalğasına düşüb və sağalacaq. Çünki kəlmeyi-şəhadətini və zikrləri çox düzgün tələffüz edirdi. Hətta bir dəfə qalxıb əlini üzünə çəkdi, onu yerə uzatdıq. Özümə təskinlik verirdim ki, mütləq yaşayacaq. Bu hadisəyə görə bir qədər gərginləşdim. Həkimlərin fikri bu idi ki, partlayış dalğası beyninin və bədəninin bütün damarlarını sıradan çıxarıb. Bədəninin bir neçə yerinə xırda qəlpələr dəyib yaralasa da, ölümə səbəb olacaq yaralar deyildi. Əslində, damarlar içəridən partlamışdı və daxili qanaxma şəhidliyinə səbəb oldu".**[1]

Hadisə zamanı Mürtəza Səffari Həsən Baqiri ilə Məcid Bəqayinin arasında qalıb yaralanmışdı. Həmin gün o, Məcid Bəqayi ilə birgə Şuşdan yola düşüb Fəkkənin yaxınlığında Həsənə qoşulmuşdu.

**"Məcid Bəqayinin üstündə həmişə kiçik bir Quran olardı, bekar olan kimi oxuyardı.**

**İkimiz də avtomobilin arxasında oturduq. Şuşdan Fəkkəyə qədər təxminən bir saat yarım yol vardı. Məcid orada Vəlfəcr surəsini əzbərləmək istəyirdi. Quranı mənə**

---

[1] Yenə orada.

**verib dedi ki, gör, düz oxuyuram? Baxırdım ki, əgər səhv oxusa və ya hansısa sözü yaddan çıxarsa, deyim.**

**Fəcr surəsinin axırlarında Fəkkəyə çatdıq. Orada Baqiriyə qoşulub təmas xəttinə doğru getməyə başladıq. Bəqayi Baqiriyə dedi: "Bilmirəm, Fəcr surəsinin son ayəsini nə üçün əzbərləyə bilmirəm. Nə qədər təkrarlayıramsa, yenə ilişirəm. Bilmirəm problem nədir". Həsən Baqiri gülüb dedi: "Bilmirsən problem nədir? Problem bir qəlpədir, bir şəhadət tikəsidir. O ayə İmam Hüseyn barədədir, sadə məsələ deyil".**

**Həsən Baqiri İmam Hüseynə (ə) xüsusi eşq bəsləyirdi. Əzadarlıq zamanı onun adı çəkiləndə ucadan ağlayırdı".**[1]

Polkovnik Hüseyn Həsəni Sədi Həsən Baqirinin yaxınlarından idi. Müştərək Nəsr qərargahında işləyirdi, Fəthülmübin və Xürrəmşəhr qələbələrində böyük rolu olmuşdu. O, Vəlfəcr əməliyyatında Həsən Baqiri ilə əməkdaşlıq etməkdən ötrü müştərək Xatəmül-ənbiya qərargahına getmişdi.

**"Vəlfəcr-hazırlıq əməliyyatında kəşfiyyat işləri Fəthülmübin və Beytülmüqəddəsdəki qədər deyildi. Həsən Baqiri kəşfiyyat işinin yüksək səviyyədə görülməsini istəyirdi, amma təəssüf ki, bölgənin müstəsna coğrafi şəraitinə görə buna imkan yox idi. Şəhadətindən bir gün öncə səhər çağı onun konteynerində bir saat söhbət etdik. Qərara gəldik ki, praktik müşahidəyə gedək. Bu zaman dedi ki, siz gedin, Eynxoşda işləyin, sonra kəşfiyyat nəticələrini araşdırıb bir qərara gələrik.**

**Qərara alındı ki, Həsən Baqiri ertəsi gün sübh çağı digər yoldaşlarla birgə kəşfiyyata getsin. Mən səhər saat**

---

[1] General Mürtəza Səffari ilə müsahibədən.

**7-də Eynxoşa gedəndə Dezful tərəfdən bir toyotanın gəldiyini gördüm. Həsən idi. Üzü işıldayırdı. Onun üzünün nuru hələ də gözlərim önündədir. Onlar qərargaha kəşfiyyata getdilər, biz də Eynxoşa yollandıq. Günorta çağı ağa Baqiriyə nəsə olduğunu dedilər. Sonra xəbər gətirdilər ki, qəlpə dəyib. Bir müddətdən sonra isə şəhid olduğunu söylədilər. Həsənin şəhadət xəbəri o anda bizim üçün ən acı xəbər idi".**[1]

Fətulla Cəfəri də İmam Xomeyni ilə görüşə getməyib kəşfiyyat işlərinə kömək etmək üçün Həsən Baqiri ilə qaldı, amma tale elə gətirdi ki, hadisə günü onun yanında olmadı.

**"Yanvarın 28-də qaranlıqda öz istehkamımızdan düşmənin Fövqi dağındakı mövqeyinə doğru yola düşdük. Düşmənin yaxınlığındakı bir təpənin arxasında dayandıq. Həsən Baqiri göydən çəkilmiş köhnə şəkillər və xəritələr üzərində oranın mövqeyini müəyyən etməyə çalışırdı. Məhəmməd Baqiri, Məcid Bəqayi, Əsgər Kazimi, Mürtəza Səffari və digər kəşfiyyat komandirləri də yanında idilər. Həsən düşmən mövqelərinə qədər hansı keçidi öyrənməli olduqlarını onlara tapşırırdı. Günorta azanı vaxtı Xatəmül-ənbiya qərargahına qayıtdıq. Qərara gəldik ki, ertəsi gün həmin bölgənin şərq bucağına gedək. Həsən gecə saat 12-yə qədər oyaq idi. Həmin qərargahda yatdım. Sübh azanından öncə Çənanədəki Tehran hamamına getdim. Hələ hava işıqlanmamış qərargaha qayıtdım. Orada Həsən Baqirinin kəşfiyyata getdiyini öyrəndim. Günorta qərargaha bir avtomobil gəldi. Sürücü ayaqyalın maşından enib korpus komandirlərinin müşahidə postunda raketlə vurulduqlarını söylədi. Tez hadisə**

---

[1] General-leytenant Həsəni Sədi ilə müsahibədən.

**yerinə getdik. Məhəmməd Baqiri onları geri gətirmişdi. Nəsr diviziyasının tibb məntəqəsinə getdik. Oradan da xəstəxanaya aparmışdılar. Xatəmül-ənbiya qərargahında Əli Şəmxaniyə Həsən Baqirinin şəhid olduğuna dair dəqiq xəbər verildi. Onun şəhid olduğuna inanmaq istəmirdik. Qərargah heyrət dolu sükuta qərq oldu. Cəbhələrin ən istedadlı, ən təsirli komandirinin aramızdan getdiyinə inana bilmirdik".**[1]

Həsən Baqirinin sürücüsü Qədirəli Qasimi müşahidə postuna gedəndə Həsəni yola salan və onun şəhid olduğunu Əli Şəmxaniyə xəbər verən adam idi.

**"Həsən Baqiri həmin gecənin yarısına qədər qərargahın iclasında idi. İclasdan sonra onu bir toyota ilə Dezfula apardım. Orada ailəsinə bir ev tutmuşdu. Dedi ki, sübh azanından qabaq onu götürüm. Azana yaxın getdim, bir məsciddə namazımızı qılıb qərargaha yola düşdük. Səhərlər adətən, yolda bir qədər yatırdı. Bu dəfə isə əsla yatmadı. Qərargaha qədər mənimlə danışdı. Keçdiyimiz hər yerdən bir xatirə danışırdı. Misal üçün, Kərxə körpüsünə çatanda Fəthülmübin əməliyyatında baş verənləri söyləyirdi. Qərargaha çatanda mənə dedi: "Bizim günortaya qədər işimiz var, sən get, maşının işlərini gör".**

**Günorta onların səngərinə raket düşdüyünü eşitdim. Ağa Şəmxani dedi ki, tez get, gör nə baş verib.**

**Dərhal özümü tibb məntəqəsinə çatdırdım. Dedilər ki, ağa Bəqayi və başqa bir neçə nəfər şəhid olub, Həsən Baqiri isə yaralanıb və onu Əndimeşkə xəstəxanaya aparıblar. Xəstəxanaya çatanda isə şəhid olduğunu dedilər. Əmin olmaq üçün yerini soruşdum. Bir xərək**

---

[1] General Fətulla Cəfəri ilə müsahibədən.

**göstərdilər. Mələfəni kənara çəkəndə gördüm ki, özüdür. Ağa Şəmxaninin yanına qayıdıb şəhid olduğunu bildirdim".**[1]

Qədirəli əslində, əziz bir dostunu itirmişdi. Həsənin onunla münasibəti dost və ailə üzvü kimi idi.

**"Məni həmişə öz yanında oturdurdu. Komandirlərlə iclas başlayanda bayıra çıxırdım, amma yemək vaxtı çağırıb yanında oturdurdu, mən yeməyincə dilinə heç nə vurmurdu. Çox vaxt gecə-gündüz işləyirdi. Bəzən səhərə qədər oyaq qalıb bölgəyə baxış keçirirdik. Yolumuzun üstündə məscid olsaydı, azana beş dəqiqə qalmış maşını saxlayır, ilk vaxtda namazını qılırdı. Məscid olmayanda da yolun kənarında qılırdı. Həmişə dəstəmazlı idi. Cəbhədə bir ay qalan kimi məni məzuniyyətə göndərirdi. Nə qədər israr edirdimsə, deyirdi ki, gərək ailənə baş çəkəsən. Bəzən özü məni Əhvazın avtovağzalına aparırdı. Mən də ailəsinin qulluğunda dururdum. Bəzən o demədən, onu qərargaha aparandan sonra qayıdıb alış-verişlərini edirdim".**[2]

Həsən Baqiri bəzi qonşularını, o cümlədən Maşallah İsmailini cəbhəyə aparmışdı. Baqiri onlar üçün elə uşaqlıqdan bir yerdə böyüdükləri Qulamhüseyn Əfşurdi idi. Qulamhüseyni ömrünün son saatlarında görənlərdən biri də Maşallah İsmaili idi.

**"Yanvarın 29-da səhər çağı qərargahda idim. Qulamhüseyn Əfşurdi Hacı Məhəmməd Pişbaharla birgə bir konteynerin içində xəritə üzərində işləyirdilər. Qulamhüseyn üzünü mənə tutub dedi: "Hacı, yeməyə bir şeyiniz var?" Nə qədər axtardımsa, bir şey tapmadım.**

---

[1] Qədirəli Qasimi ilə müsahibədən.

[2] Yenə orada.

**Dedim ki, burada bir şey qalmayıb, indi gedib Şəhid Çəmran yeməkxanasından çörəklə mürəbbə gətirərəm.**

**Maşına minmək istəyəndə işarə ilə bildirdi ki, lazım deyil. Bir qədər kifli çörək yığılmışdı. Bir neçə tikəsini götürdü, bıçağın ucu ilə kiflərini təmizləyib yedi. Sonra sağollaşdı və bir neçə nəfərlə birgə getdi. İki saat keçməmiş Əli Xürrəmdel motosikletlə gəldi. O, motosikletdən enib başını divara vururdu. Nə baş verdiyini soruşanda dedi ki, Qulamhüseyn Əfşurdi şəhid oldu".**[1]

Həmin gün korpus komandirləri Tehranda İmam Xomeyni ilə görüşürdülər.

**"Həmin gün İmam Xomeyni ilə görüşə getmişdik. İlahi qəza və qədər də Həsəni Allahla görüşə apardı. Günortaya yaxın uşaqların mühüm bir hadisə haqda danışdıqlarını hiss etdik. Əvvəlcə dedilər ki, qardaş Bəqayi şəhid olub. Bəziləri deyirdilər ki, qardaş Həsən də orada olub. Sonra araşdırıb öyrəndik ki, hər ikisi birlikdə şəhid olublar. Bu xəbər bir dağ kimi başımıza çökdü. Hamımız bir yerdə idik: Qardaş Möhsün, Rəşid, Rəhim... Az qaldı məyusluq vücudumuzu sarsıltsın və böyük günah etmiş olaq, lakin bir əzadarlıqla və ağlamaqla tez xilas olduq. Müharibənin gələcəyi sual altında idi. Daha Həsənimiz yox idi, Kərbəla qərargahı komandirsiz qalmışdı. Müharibəni necə davam etdirəcəkdik?!"** [2]

İmam Xomeyni ilə görüşdən sonra bu acı xəbəri eşidən komandirlər arasında Əziz Cəfəri də vardı.

---

[1] Qonşusu Maşallah İsmaili ilə müsahibədən.

[2] Şəhid Mehdi Zeynəddinin sözlərindən.

**"Həsən Baqiri iki cinah axtarırdı ki, piyada qüvvələr gecə ikən hücuma keçəndə düşmən daha böyük itki versin. Bu, Həsən Baqirinin son təkidlərindən idi. Yadımdadır, birlikdə şimal istiqamətində, Eynxoşun qarşısında kəşfiyyat əməliyyatlarına başladıq. Kəşfiyyat zamanı qərarsız olurdu, bir an da oturub istirahət etməyə qoymurdu. Səhər yeməyinin ortasında deyirdi ki, qalx, gedək, gecdir. Planını çox tez bir zamanda korpus komandanına vermək, tezliklə əməliyyata başlamaq istəyirdi.**

**Kəşfiyyatın ikinci günündə Fəkkə ətrafına çatdıq. Kəşfiyyatı davam etdirmək istəyirdik, amma İmam Xomeyni ilə görüş imkanı yarandı. Komandirlərin bir qismi görüşə getməli idi. Həsən Baqiri mənim də getməyimi söylədi. Qərara gəldik ki, özü kəşfiyyatı davam etdirsin. Biz İmam Xomeyni ilə, o da imamın Allahı ilə görüşə getdi."** [1]

Komandirlər Həsənin şəhid olduğunu Möhsün Rzayiyə necə söyləyəcəklərini bilmirdilər. Ağa Möhsünün Həsən Baqirini nə qədər istədiyini hamı bilirdi.

**"Əvvəlcə Həsənin şəhid olduğunu söyləmədilər. Dedilər ki, yaralanıb. Onun yaralandığını eşidən kimi sanki beynimdə bir partlayış baş verdi. Bir neçə saniyə adi halımdan çıxdım, özümü itirdim, mənəvi sarsıntı keçirmiş kimi oldum. Narahat idim ki, birdən şəhid olar və mənə deməzlər. Nəhayət, uşaqların hərəkətlərindən şəhid olduğunu anladım. Birdən məndə boşluq hissi yarandı. Elə bildim ki, müharibə həlledici mərhələyə çatıb və mən qollarımdan birini itirmişəm. Ondan sonra**

---

[1] General Əziz Cəfəri ilə müsahibədən.

**müharibəni necə davam etdirəcəyimizi təsəvvür edə bilmirdim".**[1]

Qulaməli Rəşid müharibənin əvvəlindən qolf meydanında Həsən Baqiri ilə işləmiş, komandirlər arasında hamıdan çox onunla ünsiyyətdə olmuşdu.

**"1983-cü ilin 29 yanvarında əziz imamla görüşməyə getdik. Qardaşım Həsən Baqiri də Böyük Allahla görüşə tələsdi. O, Allah yolunda cihad yarışında bütün döyüş yoldaşlarından önə keçdi. Şəhid olandan sonra Dezfulda yaşadığı otağa getdim. Vəliəsr diviziyasının komandiri qardaş Rəufinin kirayə etdiyi mənzildə kiçik bir otaq idi. Həsənin həmin otaqdakı mülkü bir palazdan, iki ədyaldan və beşaylıq körpəsinin bir neçə paltarından ibarət idi. İslam ordusunun bu əziz komandirinin böyüklüyünə heyran oldum. O, olduqca sadə şəkildə yaşadı, amma Rəbbinin görüşünə əlidolu getdi".**[2]

Komandirlərin xatirələrində Rəhim Səfəvinin adı həmişə Həsən Baqiri və Qulaməli Rəşidin adlarının yanında çəkilir. Onlar hadisə günü İmam Xomeyni ilə görüşdən sonra nahar yeməyinə Polkovnik Seyid Ələkbər Musəvi Qəvidelin qonağı olmuşdular.

**"Heç iki qaşıq yeməmişdik ki, gəlib dedilər: "Cənab polkovnik, cəbhədən zəng vurublar, sizinlə işləri var".**

**Dəstəyi götürdüm. Korpus uşaqlarından biri idi. Tanıyırdım, ancaq adı yadımda deyil. Dedi ki, cənab polkovnik, ağa Rəhim yanınızdadır? Dedim ki, elə birlikdə oturub yemək yeyirik. İndi danışmağınız zəruridir? Nahardan sonra sizə zəng vura bilərik? Dedi ki, çox zəruridir.**

---

[1] General-leytenant Möhsün Rzayi ilə müsahibədən.

[2] General-leytnant Qulaməli Rəşidlə müsahibədən.

**Onu çağırdım. Dəstəyi götürüb danışmağa başladı. Gözləyirdim ki, söhbəti qurtarsın və nahar yeməyinə qayıdaq. Bir də gördüm ki, gözlərindən yaş axır. Özümü itirdim. Soruşdum ki, ağa Rəhim, bir şey olub? Gördüm ki, bu adamda telefonun dəstəyini saxlamağa taqət yoxdur. Dəstəyi alıb soruşdum ki, nə olub? Dedi ki, Həsən şəhid olub".**[1]

Cənub qərargahında komandirlər arasında söhbət gəzirdi ki, Həsənin ata-anası oğullarının şəhid olduğunu radio və televiziyadan eşitmədən onlara xəbər vermək lazımdır. Sonda qərara gəldilər ki, Məhəmməd evə zəng vurub bu xəbəri versin.

**"Evə zəng vurdum. Anam soruşdu ki, necəsiniz? Dedim ki, Allaha şükür. Soruşdu ki, bir şey olub? Dedim ki, yox, bir şey olmayıb.**

**Analar duyurlar; onlardan gizlətmək mümkün deyil. Dedi ki, yox, nəsə olub. Dedim ki, dadaşım bir az yaralanıb. Soruşdu: "Şəhid olub?" Dərhal cavab verdim: "Hə".**

**Vay-şivən salmadı. Dedi ki, bu xəbəri gözləyirdim. Təbii ki, ona çox çətin idi. Atama da çox çətin idi".**

Anası bu xəbəri gözləyirdi. Çünki həm oğlunun şəhidliyə həvəsini görürdü, həm də ana ilhamı onu xəbərdar etmişdi.

**"Deyirdi ki, ana, dua elə, şəhid olum. Deyirdim ki, mən imamın sözünü təkrar edirəm: Dua edəcəyəm ki, müvəffəq olasınız, qalib gələsiniz. Mənə deyirdi: "Əgər qalsam, sabah qiyamətdə bəsicilərin ata-anaları qarşımda dayanıb, "sən hansı haqla uşaqlarımızı öndən şəhid olmağa göndərdin, özünsə qaldın?" - deyə soruşsalar, nə deyərəm?!**

---

[1] General-mayor Musəvi Qəvidellə müsahibədən.

**Şəhadətindən iyirmi gün qabaq yoldaşı uşağı ilə birgə bizə gəldi. Uşağı qucağıma götürdüm. Çox şirin və sevimli idi. Onu çox sevirdim; indi də çox sevirəm. Uşaqla oynadığım yerdə onun məsum üzünə diqqət kəsildim. Sanki birdən-birə dünya başıma uçdu. Birdən özümə gəldim. Bu halıma təəccübləndim, Allaha təvəkkül edib dedim ki, inşallah xeyirdir. Lakin o hal mənə şəhadət carçısı idi. Biz şəhadət xəbərini gözləsək də, adam dörd-beşaylıq bir körpənin atasını itirməsini bu asanlığa qəbul edə bilmir; hərçənd Allah yolunda, İslam və vətən naminə olsa da. Bu, hamıya çətindir, çünki insan hisslərinə tabedir".**

Məhəmmədi qardaşının şəhid olduğunu elə açıq şəkildə anasına deməyə cürətləndirən amil anasının qüdrətli danışıq tərzi və rəftarı idi.

**"Gecə saat 12-nin yarısında oğlum Məhəmməd zəng vurdu. Dəstəyi atası götürdü, sonra mənə verdi. Hal-əhval tutandan sonra dedi ki, dadaşım yaralanıb.**

**Bu sözü eşidəndə elə bildim, sinəmə çox ağırlıq çökdü və bütün vücuduma yayıldı. Məncə, Allahın lütfündən məndə səbir yarandı. Şəhadət ona mübarək olsun! İnqilab dövründə və inqilabdan sonra tez-tez Behişti-Zəhra məzarlığına şəhidləri ziyarətə gedirdim. Şəhid vermədiyimə görə onların məzarı başında xəcalət çəkirdim. Şəhid anaları ilə üzləşəndə onlara nə deyəcəyimi bilmirdim. Oğlum şəhid olandan sonra müəyyən həddə bu xəcalətdən çıxdığımı düşünürəm. İki-üç şəhid vermiş anaların xəcalətindən az da olsa, çıxdım.**

**Allaha şükür edirəm. Allah mənə elə səbir verdi ki, qohum-qonşular təəccübləndilər. Onun şəhadət xəbəri yayılanda hamıya dedim ki, qara geyinməyin və mənə başsağlığı verməyin. Özümüz də qara geyinmədik. Quran**

**deyir ki, şəhidlər sağdırlar. Biz də Quranı qəbul edirik. Şəhiddən ötrü nə qara paltar lazımdır, nə başsağlığı, nə də ağlayıb narahat olmaq. Şəhidliyi özü istəmişdi. Öz-özümə fikirləşirdim ki, nə üçün şəhidlik istəyib getdi? Məgər qoca ata-anasının olduğunu bilmirdi? Məgər kiçik övladının olmasından xəbərsiz idi? Bilmirdi ki, gənc xanımı var? Narahat olur, sonra sanki yuxudan ayılıb özümə gəlir və deyirdim ki, bu nə fikirdir? Uzaqbaşı yüz ildən sonra nə bizdən əsər-əlamət qalacaq, nə də onun övladından. Hamımız gedəcəyik. Bəs nə üçün əbədi xoşbəxtliyi bir neçə günlük həyata satmalı idi?! O, Allahın nəsib etdiyi səadəti və xoşbəxt həyatı dərk etmişdi".**

Həyat yoldaşı onda şəhadətə hazırlığı hamıdan çox görürdü. Xanım Pərvin Daipur ağır və sıxıntılı müharibə şəraitində bir il bir neçə ay Qulamhüseynlə birlikdə yaşadı. O, son iki-üç ayda Qulamhüseynin ata-anasına qarşı rəftarındakı dəyişikliyi sezmişdi.

**"Anası zəng vuranda ilk fürsətdə zəng vurub onunla danışardı. Son zamanlarda isə zəng vurmurdu. Bəzən iki-üç dəfə deyirdim ki, anan zəng vurub, amma ona zəng vurmurdu. Bir dəfə dedim: "Nə üçün anana zəng vurmursan? Narahatdır, səsini eşitmək istəyir". Dedi ki, buna alışmalıdır.**

**Bəlkə də beş-altı dəfədən sonra zəng vururdu. Anasından uzaqlaşmağa, atasına isə yaxınlaşmağa başlamışdı. Bir müddət idi atasını da özü ilə aparırdı. Atası "gəlim?" – deyən kimi cavab verirdi ki, gəl, hacı. O vaxtdan hər yerdə yanında idi. Atası onu sevdiyindən qalxıb çay gətirirdi. Evdə də belə edirdi; bizim oturduğumuzu görən kimi mətbəxə keçib bir şey gətirirdi. Atasının əlini öpdüyünü dəfələrlə görmüşəm.**

Məncə, Qulamhüseyn ata olandan sonra atasına daha çox yaxınlaşmağa başladı.

Bəzən Qulamhüseynlə mən heç nə demədən beynimizdən nə keçdiyini bilirdik. Bəzən eyni zamanda beynimizə bir şey gəlirdi. Ondan uşağımın olmasını çox istəyirdim, çünki getməkdə olduğunu bilirdim. İstəmirdim ki, gedəndən sonra əlim boş qalsın. O isə övladının olmasını istəmirdi. Çünki o da getməkdə olduğunu bilirdi və mənim əlimdə bir şeyin qalmasını istəmirdi. Bu məsələni bir-birimizə deyə bilmirdik. Ona deyirdim ki, bir uşağımız olsa, yaxşı olar. O isə deyirdi ki, yox, nə vacibdir. Deyirdim ki, uşaq istəyirəm. Heç birimiz sözümüzü açıq demirdik. Əvvəldən razılaşmışdıq ki, aramızda fikir ayrılığı yarananda Quranın hökmünə tabe olacağıq. Ortaq məxrəcə gələ bilməyəndə dedim ki, onda Qurana müraciət edək.

Həsən ağa Musəvi Cəzairidən istixarə etməsini istədi. O, zəng vurub istixarənin yaxşı gəldiyini bildirdi. Çox sevindim. Dedi ki, bilirsən hansı ayə gəlib? Anasına Musanın verilməsi ayəsi. Surəni və ayəni dedi. Qaçıb Quranı gətirdim. Çox həvəsləndim. Ayədə deyilirdi ki, qəlbindən qəm-kədəri uzaqlaşdırmaq üçün ona Musanı verdik. Elə də oldu.

Nərgizin dördaylığında getdi. Dünyaya gəlməzdən öncə adı barədə qərara gəldik. Dedik ki, oğlan olsa Musa, qız olsa Süsən olsun. İmam Mehdini (ə) çox sevdiyinə görə anasının adını qoymaq istəyirdi. Lakin inqilabın əvvəlində bu ad bir müğənnini xatırlatdığına görə dedim ki, olmaz. Dedi ki, onda Nərgiz qoyarıq".

Xanım Daipur Xanımlar mərkəzinin sədri kimi, Qulamhüseyn də qolf meydanında, Nəsr, Kərbəla və Xatəmül-ənbiya qərargahlarında müharibə məsələləri ilə

**ciddi məşğul idilər. Lakin həmin qısa fürsətlər də həyat dolu idi.**

**"Üzərinə düşən vəzifələrə qarşı diqqətli idi. Çox mehriban insan idi. Bəzən evə gəlməsi on gün çəkirdi, gələndə çəkisi beş-altı kilo azalmış olurdu, vücudundan ölümcül yorğunluq yağırdı, amma heç nə olmamış kimi zarafat edir, qayğıma qalır, bir qız kimi oturub soruşurdu ki, danış görüm, nə etdin. Elə rəftar edirdi ki, onu on gündür görmədiyim yadımdan çıxırdı və daha on gün görməməyə hazır olurdum.**

**Kitablarını çox sevirdi. Hər dəfə gedəndə özü ilə kitab aparırdı. Oxuduğu son kitab Şeyx Müfidin imamların həyatı barədə olan əl-İrşad kitabı idi. O, şəhid olanda mənə verilən əşyalardan biri də o kitab idi".**

Qulamhüseyn şəhadətindən bir neçə gün qabaq Məşhəd şəhərinə birgünlük səfərə getmiş, İmam Rzadan (ə) şəhadət istəmişdi. O bu istəyinin həyata keçəcəyinə əmin idi. Yoldaşı bu əminliyi onun gözlərinin işıltısından anlamışdı.

**"Ondan məndə yalnız bir üzük vardı. Onu çox sevirdim. Məşhədə getmişdi. Uşağı yuyanda barmağımdan çıxıb ayaqyoluna düşdü və çirkab borusuna getdi. Çox pis oldum. Axşam gəldi. Nərgiz ayaqlarımın üstündə idi. Yanımda oturanda ona dedim: "Bu gün çox qorxdum. Sən nəsə etmisən?" Dedi ki, başa düşmədim. Dedim: "Bilmirəm. Bir hadisə baş verib?"**

**Mənə Məşhədə getdiyini söylədi. Bir neçə dəfə şəhadət barədə danışmışdı. Bu dəfə narahat olub ağladım. Məni sakitləşdirməyə çalışmadı. Gözlərində gördüyüm işıltı heç vaxt yadımdan çıxmaz. Gözləri həqiqətən, alışıb-yanırdı. "Dua edib cavabımı aldım" - deyəndə gözlərindəki sevinci gördüm, bildim ki, daha iş-işdən keçib. Onda anladım ki, imamın məzarının zərihindən**

**yapışdığı vaxt üzük əlimdən çıxıbmış. Üzüyün getməsi sanki bunu xəbər verirdi.**

**Fəthülmübin əməliyyatından sonra ağır əməliyyatlar oldu, uşaqlar şəhid oldular. O, ürəyiyumşaq insan idi. Hərdən fikirləşirəm ki, özünə necə nəzarət edə bildi, yoldaşları öldüyü halda necə möhkəm dayanmağı bacardı? Çünki geri çəkilsəydilər, daha çox şəhid verəcəkdilər.**

**Yol qəzasında və ya yataqda ölməsi ona ağır gəlirdi. Qüds yolu əməliyyatı zamanı keçirdiyi qəza da ona pis təsir etmişdi".**

Bəsicilərin və döyüş yoldaşlarının şəhadətinə görə çəkdiyi əzablarını xəlvət evdə yalnız həyat yoldaşı görə bilərdi. O, amalından irəli gələrək göz yaşlarını yoldaşından gizlətmir, zar-zar ağlayır, Allahdan onu şəhid dostlarına qovuşdurmasını istəyirdi.

**"Ata olandan sonra iki dəfə mənə belə dedi: "Əgər qiyamət günü şəhidlərin uşaqları mənim önümü kəsib "sən kim idin ki, bizim atamız şəhid oldu, sənsə yox?" - desələr, nə cavab verərəm?" Ona təskinlik verirdim ki, sən öz vəzifəni yerinə yetirirsən. Şəhadəti səadət bilən bir komandirin tabeliyində olan uşaqların getməsi, onunsa baxması və bu əzablara dözməsi çox çətindir. O, gələcəyi görürdü, bilirdi ki, bir gün müharibə bitəcək və bir gün bir şəhidin oğlu ona "sən mənim atamla döyüş yoldaşı olmusan" - deyəcək. Bu fikirlər onu incidir və ağladırdı.**

**Bir əməliyyatın ortasında bir neçə saatlığa evə gəldi. Halı çox pis idi. Deyəsən, çox acınacaqlı olan bir-iki şəkil görmüşdü. Mənə dedi: "Bu gün uşaqlarımızın çiçək kimi üzərinə səpələndiyi bir düzənliyin şəklini görmüşəm. Əməliyyatın planını hazırlayan və əməliyyat əmri verən mənəm. Kim məni əmin edə bilər ki, bu uşaqların, İmam**

**Mehdinin (ə) bu əsgərlərinin ölümünə görə mən məsuliyyət daşımıram?”**

**Sonra bərkdən ağlayıb dedi: "Əgər qiyamət günü onların yalnız birinin uşağı önümü kəsib "sən haraya baxırdın ki, mənim atam şəhid oldu?" – deyə soruşsa, nə cavab verərəm?"**

**İlk dəfə o zaman mənim yanımda ağladı və açıq şəkildə dedi: "Allahdan istə ki, mən də gedim".**

**Həmin axşam bildim ki, o, əsgərlərindən ayrı qala bilməyən komandirlərdəndir. Bir gün müharibə bitsə, uşaqların hər birinin ölümü ona əzab verəcək. Üstəlik, o, məhdud bir əməliyyat idi, Beytülmüqəddəs kimi böyük bir əməliyyat zamanı komandirlik tərəfindən baş tutan hər bir səhv və hər bir şəhid qarşısında da məsuliyyət hiss edirdi. Mən onun əzablarını dərk edirdim. O zamandan onun şəhadətə rəğbəti daha da ciddiləşdi".**

Son günlərdə şəhadətə həvəs və hazırlığını dostları da hiss etmişdilər.

**"Şəhadətindən bir neçə gün öncə xanımı ilə birgə Süsəngird korpusuna gəldi. Qızını qucağına götürüb "Əzizim! Əzizim!" deyirdi. Şəhid Əli Haşimi Həsənin qızını qucağına götürüb əzizləyə-əzizləyə yavaşca ondan bir çimdik götürdü. Uşaq ağlamağa başlayanda Həsən dedi: "Əli, nə etdin ki, qızım ağladı?" Dedi: "Ağa Baqiri, qızının xuzistanlılardan xoşu gəlmir. Mən nə qədər əzizləyirəmsə, ağlayır". Həsən dedi: "Xeyr, yəqin çimdikləmisən".**

**Əli Haşimi əvvəlcə inkar etdi, sonra özünü saxlaya bilməyib güldü. Həsən uşağı aldı və gülə-gülə dedi: "Qızım, Əli Haşiminin sir-sifətindən qorxdun?"**

**Hamımız güldük.**

**Günorta dəstəmaz almağa getdik. Köynəyinin qolunu çırmaya-çırmaya göyə baxıb dedi: "Ağa Nasiri, nə qədər ki müharibə var, Allahın hüzuruna əlidolu gedək. Müharibədən sonra Allah bilir, aqibətimiz nə olacaq. Ən yaxşı aqibət elə şəhidlikdir".**

**Dostlarını görəndə onun üçün dua etmələrini istəyirdi. Bəzi adamlar bunu bir vərdiş kimi deyirlər, amma Həsənin dua istəməsi ayrı cür idi. O deyirdi: "Əli ağa, dualarında bizi unutma. Əgər məndən tez şəhid olsan, şəfaət yadından çıxmasın".**

**Üzünə baxdım. Həmişəki kimi deyildi. Bu, Həsən Baqiri ilə son görüşümüz oldu. O gedəndən sonra Əli Haşimiyə dedim: "Ondan nigaranam". Soruşdu ki, nə üçün? Dedim: "O, əvvəlki Həsən deyil, üzündən bəllidir ki, tezliklə gedəcək". Əli Haşimi bu məsələlərə çox da ciddi yanaşmırdı. Dedi ki, Allah böyükdür.**

**Hadisə günü Əli Haşimi ilə Süsəngird korpusunda idik. Xəbərləri dinləməkdən ötrü günorta saat 2-də radionu açanda əzizlərimiz Həsən Baqiri ilə Məcid Bəqayinin şəhid olduğunu eşitdik".**[1]

Qardaşı Məhəmməd də həmişə bu hadisəni gözləyirdi. O, Qulamhüseynin ömrünün son iki il yarımında da qardaşından ötrü darıxırdı. Çünki iş zamanı qardaşlıq hissini göstərə bilmirdi.

**"Ətrafımızda həmişə belə hadisələr baş verirdi, amma elə düşünürdüm ki, qardaşımın başına belə iş gəlməz. İnanılmaz dərəcədə heyrət içində idim. Həqiqət budur ki, o müddətdə ona darıxırdım. Beş-altı nəfərlə birgə onun yanına gedəndə hamı ilə görüşüb-öpüşürdü, mənə isə yalnız əl verirdi, çox da məhəl qoymurdu. Mənə ağır**

---

[1] General Əli Nasiri ilə müsahibədən.

**gəlirdi. Hərdən tənə ilə özümü təqdim edib deyirdim ki, mənəm, filankəs. Qorxurdu ki, qardaşlıq, dostluq, yerlilik kimi hisslər işə qarışar. Buna görə ona yaxınlaşmağa, onunla işləməyə qoymurdu. Bir-iki dəfə onunla görüşüb-öpüşə bildim. Çox gözəl hiss idi".**

Komandirlər xəbəri eşidən kimi bir təyyarə ilə Dezful hava limanına Şəhid Baqirinin cənazəsi ilə vidalaşmağa yollandılar. Orada onun başı üstə böyük bir əzadarlıq mərasimi keçirildi. Tehranda da izdihamlı dəfn mərasimi baş tutdu. Möhsün Rzayi və digər komandirlər ondan sonra qərargaha qayıtdılar.

**"Ağa Möhsün Rzayi o qədər narahat idi ki, üç gün heç nə yemədi. Əsəbləri korlanmışdı. Komandirlər onunla nə qədər danışırdılarsa, xeyri olmurdu. Yeddinci gün qərargahda ona yas məclisi keçirildi. Ağa Səyyad Şirazi çıxış edib dedi: "Ağalar, sanki ilk dəfədir şəhid veririk. Bu qədər şəhid vermişik, ancaq Həsən Baqirinin şəhadəti dostlara elə təsir edib ki, sanki dünyanın sonu gəlib".**

**Ondan sonra ağa Rzayi çıxış edib dedi: "Bəli, əziz Həsənin şəhadəti ruhiyyəmə çox mənfi təsir edib. Mən əməliyyatların gələcəyinə görə narahatam".**[1]

1983-cü ilin 29 yanvarını bütün komandirlər həyatlarının ən acı günlərindən biri kimi xatırlayırlar. Qasim Süleymaninin Həsən Baqirinin şəhadəti barədə dediyi sözlər onun bütün döyüş yoldaşlarının ürək sözləridir:

**"Müharibə boyu cəbhə uşaqlarına və Həsən Baqirini tanıyanlara heç bir gün onun şəhadət günü qədər ağır keçmədi. Döyüş komandirləri Həsəndən ötrü bütün taqətlərini itirdilər. Məncə, Həsən Baqiri cəbhələrin Behiştisi idi. Şəhid Behişti İslam inqilabı və İmam**

---

[1] Qədirəli Qasimi ilə müsahibədən.

**Xomeyni üçün kim idisə, Həsən Baqiri də cəbhə və müharibə üçün o idi. Bütün qədim komandirlərin fikri budur ki, Həsən Baqiri sağ qalsaydı, müharibənin vəziyyəti ayrı cür olardı. Həsənin şəhadətindən sonra Ramazan, Vəlfəcr-hazırlıq əməliyyatlarını və digər məsələləri unutduq. Həsənin itkisi o qədər böyük idi ki, bunlar kiçik görünürdü. Həsən Baqirinin şəhadəti cəbhələr üçün böyük itki idi və bu boşluq müharibənin sonuna qədər özünü göstərdi".**[1]

[1] General-leytenant Qasim Süleymani ilə müsahibədən.



Qulamhüseyn yavaş-yavaş böyüyüb məktəb yaşına çatdı. Onun adını Mütərcimüd-dövlə ibtidai məktəbinə yazdırdılar. Məktəb, dərs və tapşırıqlar da Qulamhüseynin uşaq dəcəlliyini azaltmadı.



Anasının səbri Qulamhüseynin dəcəlliklərindən böyük idi. O, dəfələrlə evin pəncərələrinin sınmış şüşələri ilə rastlaşmışdı. Qulamhüseyn şüşə qırıqlarını bayırdan içəri töküb onun bayırdan daşla sındırıldığını göstərmək istəyirdi. Anası isə üz vurmurdu, özünü ona inanmış kimi aparırdı.



Qulamhüseyn 1978-ci ilin 20 sentyabrında bacısı Bətula bir şəkillə birgə bir məktub göndərmişdi. Bu, onun əsgər paltarında ilk şəkli idi. Bədənindən çox böyük ölçüdə əsgər forması özünə də o qədər gülməli görünmüşdü ki, bacısını güldürməkdən ötrü ona satirik şərh yazmışdı.



Minlərlə tehranlı gənc kimi Qulamhüseyn də 10 fevral 1979-cu ildə küçələrdə idi; bu fərqlə ki, onun yazarlıq məharəti həmin tarixi günləri qeyd edirdi. Qulamhüseyndən yadigar qalmış bir yazı həmin təyinedici hadisələri canlı şahid kimi, bəzən də digərlərindən nəql edərək yazmışdır.




Qulamhüseyn İslam Respublikası qəzetində əvvəlcə adi bir müxbir kimi işə başladı. Elə ilk bir neçə gündən uşaqlar onun geniş mütaliəsinin olduğunu bildilər. Adları çəkilən çoxlu kitabları oxumuşdu, məzmunları və müəllifləri ilə tanış idi. Qısa müddət ərzində qəzetin baş redaktoru onun istedad və bacarığını görüb Xəbər departamentinin Tehran bölməsini ona tapşırdı.


گزارش اختصاصی هیئت اعزامی جمهوری اسلامی به طبس

طرح انقلابی وزارت کار برای بیکاران

# جزئیات یورش نظامی آمریکا

جمهوری اسلامی

جزئیات حوادث سنندج

شورای عالی ناظر بر دادگاهها و دادسراهای انقلاب تشکیل شد

26 aprel 1980-ci ildə Amerikanın İranda məxfi hərbi əməliyyat planı qum tufanı nəticəsində Təbəs səhrasında iflasa uğradı. Qulamhüseyn Əfşurdi hadisənin üstü açılandan bir neçə saat sonra Təbəsə yola düşdü və oraya çatan ilk jurnalist oldu. Onun Təbəsdən ilk reportajı 27.04.1979 tarixində “ABŞ-ın hərbi hücumunun təfərrüatı” başlığı ilə İslam Respublikası qəzetinin manşetinə çıxdı. Reportajın mətni qəzetin ikinci səhifəsində "Təbəsdən eksklüziv reportaj" adı altında dərc olundu.



جمهوری اسلامی

گزارش

مسلمانان جنوب لبنان اسطوره مقاومت در برابر صهیونیسم تجاوزگر

Qulamhüseyn Əfşurdi 1980-ci ilin iyulunda Livana ikihəftəlik səfərə getdi. O səfərin nəticəsi İslam Respublikası qəzetində dərc olunan beş reportaj oldu. Qulamhüseyn Əfşurdi bu reportajlarda Livanın bütün siyasi, ictimai, mədəni və digər məsələlərinə toxunmuşdu. O həmçinin yazırdı: “Mənim bu görüşlərdən aldığım nəticə odur ki, müsəlman Livan xalqı ilə mübariz və müsəlman İran xalqı arasında çox dərin bağlar var. Xüsusən Livan müsəlmanları İmam Xomeynini çox sevirlər. Lakin İran tərəfindən Livana çox da diqqət olunmur”.



Mürtəza Sərhənginin bu fotosu 1979-cu ildə Qulamhüseyn Əfşurdi tərəfindən çəkilmişdir.

"Müharibə başlayanda elektrik enerjisi tez-tez və uzun müddətə kəsilirdi. Redaksiyada şam yandırırdıq. Oraya get-gəl çox idi. Həmin qaranlıqlarda Əfşurdini görmədiyimi hiss etdim. Bir müddət belə davam etdi. Bildim ki, qəzetdən gedib. Xəbər departamentinin uşaqlarından soruşanda dedilər ki, cəbhədədir".



Qolf qərargahı əksərən gəlmələrdən təşkil olunsa da, Həsən Baqiri daha çox Əhvaz korpusu və xuzistanlı uşaqlarla işləyirdi. Həmin günlərdə Həmid Təqəvini öz bölüyünə qəbul etdi.



Əbdülhəsən Ariannejad Əhvaz ətrafındakı Xəlifə Heydər kəndində müəllim idi, kəşfiyyat-diversiya bölüyü yaradılandan sonra Həsən Baqirinin qrupuna qoşuldu.

"Elə bilirdim ki, mən yalnız düşmənin harada və hansı texnikaya sahib olduğunu öyrənməliyəm. Həsən Baqiri isə deyirdi ki, əvvəlcə görün əllərində nə var, sonra nə etmək istədiklərini təxmin edin. Görün qalmaq istəyirlər, yoxsa hücuma keçmək? Yüklərini boşaltmayıb harasa birləşmək istəyirlər, yoxsa oturmuşlar və səngərlərini dərinləşdirirlər? Yalnız nə gördüyünə fikir vermə, hərəkətlərini təhlil et və fikir yürüt. Gör düşmən orada rahatdır, yoxsa qorxu içindədir; qalmaq istəyir, yoxsa daşınmağa hazırlaşır?"



Müharibə başlayandan sonra bəzi komandirlər öz şəhərlərindən Əhvaza yollandılar. Onlardan biri də İsfahan korpusunun komandanlıq şurasının üzvü Seyid Məhəmməd Hicazi idi. O, müharibənin ikinci günü İsfahanın təlim keçmiş pasdarlarından iyirmi nəfəri toplayıb Əhvaz korpusuna apardı. Bir-iki gün araşdırdı ki, necə kömək edə biləcəklərini öyrənsin. Heç kim onlara aydın bir cavab vermirdi. Nəhayət, Həsən Baqiri ilə tanış oldu.



Fətulla Cəfəri 1979-cu ilin oktyabrından İmam Xomeyninin evinin mühafizəsinə başçılıq etməyə başlamışdı. O, 1980-ci ilin iyununda Mərkəzi vilayətin pasdarlarından 64 nəfərlik bir qrupu Kürdüstana aparmış, müharibə başlayana qədər çoxlu döyüşlərdə təcrübə toplamışdı. O, daha böyük bir müharibədə Həsənin söz və davranış tərzindən elə təsirləndi ki, bütün keçmişini görməzdən gəlib onun bölüyünə qoşuldu.



Süsəngird əməliyyatına dair iclasdan sonra Həsən müharibə otağında özünə yer açdı. Kim inanardı ki, hərbi təcrübəsi olmayan gənc bir tələbə və müxbir müharibədə üç ay iştirak edəndən sonra belə bir yüksək məqama nail olacaq, ordunun müharibə otağında yüksək rütbəli hərbçilər və Ali Müdafiə Şurasının yüksək rütbəli üzvləri ona ən dəqiq informasiyalara sahib olan, çıxış yolu göstərə bilən biri kimi baxacaqlar?!



Beytül-müqəddəs əməliyyatında Nəsr qərargahının komandir müavini olmuş Əlirza Əndəlib

“İclasda, yol yeriyəndə, avtomobilin içində onu sakit görməzdin. Yadımdadır, Həsənlə bir land cruiserdə idik. Yanımda yatmışdı. Kələ-kötür yollardan keçəndə başı oyan-buyana aşırdı. Yəni yatması da sakit deyildi: başı 30 sm bu tərəfə gəlir, 20 sm o tərəfə gedirdi; yuxarı qalxır, aşağı düşürdü. Belə vəziyyətdə necə yatdığına təəccüb edirdim".



Müharibə başlayanda Qəzvinin zirehli diviziyasının komandiri olmuş General-mayor Sirus Lütfi

“Qərara gəldik ki, düşmənin bundan artıq irəliləməməsi üçün bir iş görək. Böyük su motorları ilə Kərxə çayının suyunu düşmənə yönləndirdik. Həsən Baqiri gəlib dedi: "Özünüzü yormayın. Nə qədər su göndərsəniz də, başqa yerə gedəcək". Sonra Karunun suyunu kanalın içinə vurmağa başladıq. Su Karundan vurulur və düşmən qüvvələrinin yerləşdiyi yerin aşağısına axırdı. Bu layihə Həsən Baqirinin informasiyaları əsasında icra olundu. Səhər gördük ki, düşmənin bütün tankları suda qalıb və ekipajlar qaçıblar. Bundan sonra üstünlük əldə etdik".



General-leytenant Rəhim Səfəvi

“Həsən mömin, cəsur, ağıllı insan idi, şəriət hökmlərinə əməl edirdi, istedad və uzaqgörənlik baxımından misli yox idi. Qolf meydanında sönən sonuncu işıq onun otağının işığı olurdu. Adətən, səhərlər onu mən oyadırdım, çünki gecə daha tez yatırdım, o isə hələ oxuyub-yazırdı".



Müəyyid Rizvani Həsən Baqirinin tabeliyində idi, ələ keçirilmiş düşmən sənədlərini tərcümə edirdi. Həsən Baqiri ərəb dilini öyrənmək üçün də ondan kömək alırdı.

"Bir gün mənə dedi: "Ərəbcə danışmağı o qədər istəyirəm ki, balıq kimiyəm". Soruşdum ki, yəni necə? Dedi: "Balıq suda nə deyir?" Dedim ki, məgər balıq nəsə deyir? Dedi: "Balığın ağzına baxsan görərsən ki, "ab" (su) deyir. Bu onu göstərir ki, həmişə su istəyir. Mən də balığın su istədiyi qədər ərəb dilini öyrənmək istəyirəm".

O qədər çalışdı ki, axırda ərəbcəsi yaxşılaşdı və əsirlərlə asanlıqla danışmağa başladı.



Seyid Məhəmmədəli Şeyxülislam

"Ali Baş Komandan əməliyyatında həmişə yanında idim; çox əziyyət çəkdi. Həmişə ratsiya əlində, plan da qabağında idi. O halda, atışmanın ortasında başqa bir əli ilə qələm tutmuşdu, plan üzərində koordinasiyaları çəkib atəş yerlərini göstərirdi.



Həsən Baqiri Qüds yolu əməliyyatından altı ay öncə Bostanın şimalındakı qum təpələrində qısa kəşfiyyat əməliyyatlarına başladı. O, əməliyyat başlayan kimi düşmənin Çəzzabədəki dəstək yolunu bağlamaq istəyirdi. Fikirləşdi ki, həmin təpələr bu taktikanı həyata keçirməyə yaxşı vasitə ola bilər. Düşmən qumları keçilməz hesab edirdi, iranlı döyüşçülərin qum təpələrindən Çəzzabəyə girib onları mühasirəyə almaları ağıllarına gəlmirdi.



Seyid Sədun onda 13 yaşlı bir çoban idi, nənəsi ilə birgə Bostanda yaşayırdı. Həsən Baqiri Qüds yolu əməliyyatı ərəfəsində əməliyyat yolunu son dəfə nəzərdən keçirmək üçün onu özü ilə apardı.

"Hava soyuq idi, sısqa yağış yağırdı. İkimiz də motosiklетə mindik. Motosikleti mən idarə edirdim. Darəlşiya yaxınlığında motosikleti təpənin aşağısına qoyub piyada qalxdıq. Durbini götürüb iraqlılara tərəf baxmağa başladı. Onunla işim yox idi, ətrafa göz qoyurdum. Birdən ona baxanda ağladığını gördüm. Təəccübləndim. Ağlamalı bir şey yox idi. Dedim ki, ağa Baqiri, nə üçün ağlayırsan? Durbini verib dedi: "Bax".

İraqlılarla məsafəmiz çox deyildi. Gördüm ki, qalın bığlı bir iraqlı zabit əsgərlərə səngərin üstünə sellofan çəkmələrini əmr edir. Məni gülmək tutdu. Dedim ki, ağa Baqiri, ağlamalı bir şey yoxdur. Dedi ki, nə isə, mühüm deyil. Dedim: "Ağa Baqiri, nə üçün ağladığını bilmək istəyirəm". Yenə dedi ki, mühüm bir şey deyil.

Onda uşaq idim, Həsən Baqirinin necə böyük komandir olduğunu bilmirdim. Dedim ki, gərək deyəsən. Dedi: "Ağa Seyid, durbinlə baxdığın iraqlılardan ötrü ağlayırdım. Bu gecə onların hamısı öləcək. Bizim ilk hücumçularımız əvvəlcə bunların üstündən keçəcəklər, bunlarsa özlərini yağışdan qoruyurlar".



"Başı dərindən yarılmışdı. Onu Tehrana göndərmək istəyirdilər. Yaşayıb-yaşamayacağı bilinmirdi. Birdən özünə gəldi. Gördüm ki, çətinliklə nəsə demək istəyir. Qulağımı ona yaxınlaşdırdım. Dediyi ilk söz bu idi: "Sabilə körpüsü nə oldu?" Mən dedim: "Sən hələ istirahət elə, yaxşı deyilsən".

Qolunda serum iynəsi vardı, tez-tez huşunu itirir və özünə gəlib deyirdi: "Uşaqlar o üçbucağı bərkitsinlər. İraqlılar oranı tutsalar, körpünü yenidən alacaqlar". Üç dəfə təkidlə tapşırdı: "Get, ağa Rəşidə de ki, diqqətiniz orada olsun".



Həsən Baqiri 19 fevralda səhər çağı əməliyyat zonasını son dəfə nəzərdən keçirmək üçün Nəbəəyə getdi. Xatirə dolu bu səfərdə Fətulla Cəfəri də iştirak etmişdi.

"Təmas xəttinə doğru gedirdik. Elə bir yerə çatdıq ki, düşmən bizi görürdü və vura bilərdi. Bu zaman Nəbəənin üstündən avtomobilimizə doğru pulemyot atəşləri yağmağa başladı. Fikirləşdim ki, belə güclü atəşdən sonra qayıdar. Həmişəki kimi avtomobili qapı-pəncərəsiz və üstüaçıq idi. Qapının yerindən yola baxırdı. Pulemyot atəşləri altında təxminən 200 metr sürdü. Güllələr maşının yanından keçirdi. Nəbəənin aşağısına çatanda avtomobili ikinci mövqeyin arxasında qoydu və birinci mövqeyə qədər piyada getdik”.



Hacı Əhməd Mütəvəssilian və Hacı Məhəmməd İbrahim Himmət 27 saylı "Məhəmməd Rəsulullah (s)" briqadasını yaratmazdan öncə Kürdüstanda olmuşdular. Onlar Həsən Baqiri haqda çox eşitmişdilər. Nəhayət, tale onları bir-birləri ilə tanış etdi.



General-leytenant Möhsün Rzayi

“Həsənin sözlərini həmişə təsdiqləyici, bəzən də yeni söz kimi qəbul edirdim. Hər əməliyyatda üç-dörd əsas qərar olurdu. Həsən Baqiri o qərarlarda mühüm rol oynayırdı. Məsələn, Radara hücum etməsəydik, bütün Fəthülmübin əməliyyatı hədər gedəcəkdi".



Şəhid Məhəmməd İbrahim Himmət

"Əməliyyat planını izah edəndə istisnasız olaraq hamı qəbul edir və tam başa düşürdü. Adam hiss edirdi ki, Həsən Baqiri dediklərinin bütün cəhətlərinə əmin olub, sözü nəfsdən, bilgisizlikdən, təcrübəsizlikdən uzaqdır. Hətta ordudakı əzizlərin manevri müzakirə olunanda da həmişə sözünə real nümunəsi vardı. Heç kim ondan öndə danışmırdı. Bu onun bacarığını və güclü idarəçiliyini göstərirdi".



General-leytenant Qasim Süleymani

"Qərargahda bütün komandirlərin fikri bu idi ki, əməliyyatı saxlayıb hərbi birləşmələri bərpa edək. İclas yekunlaşmaq üzrə idi. Bu zaman Həsən Baqiri ayağa qalxıb dedi: "Xürrəmşəhr mühasirədədir, siz qayıtmaq istəyirsiniz?!"

Həsənin sözlərindən sonra bütün komandirlərin fikri dəyişdi. Əminəm ki, o mərhələdə dayansaydıq, düşmən digər yerləri də geri alar, ya da ən azı yerini elə bərkidərdi ki, heç bir iş görə bilməzdik. O, hamını qane etdi. Əgər Həsən olmasaydı, Xürrəmşəhr 24 may 1982-ci ildə azad edilməyəcəkdi".



Müharibə başlayandan bir qədər sonra Möhsün Rzayi bir nəfəri kəşfiyyatçı kimi Həsən Baqiriyə təqdim etdi. Sonralar diviziya komandiri olan həmin şəxs Mehdi Zeynəddin idi. Zeynəddin Həsən Baqirinin ilk cümlələrindən birini həmişə xatırladırdı. Kəşfiyyat-diversiya bölüyünün kiçik otağında ona demişdi ki, bu bölük işə başlayanda siz müharibənin nəticəsinə təsir edə biləcəksiniz.



General Əsgər Kazimi

“Həsən Baqiri problemləri həll etmək qabiliyyətinə malik idi. Mən bir dəfə də görmədim ki, hansısa bir idarə və ya əməliyyat işi barədə Həsənə müraciət edək və o, məsələnin həllindən ötrü bizə düstur verməsin”.



اطلاعیه حزب اسلامی افغانستان

جمهوری اسلامی

هشدار امام به کارکنان رادیو، تلویزیون

هدف از ترمز جمهوری بستی مسالمت آمیز دو امپریالیسم شرق و غرب، غارت ملت‌هاست

نخست وزیر از مهاباد دیدن کرد

بیش از سه میلیون نفر با شهدای انقلاب تجدید عهد کردند

Qulamhüseyn qəzetdə açar mövzular üzərində işləyir, əks-inqilabçı qrupların, şah tərəfdarlarının və solçu təşkilatların sərhəd vilayətlərdə, xüsusən də Kürdüstanda başlatdıqları qiyamların ölkəni parçalayacaq həddə ciddi təhlükələr olduğunu xatırladırdı. O, qəzetdə işə başlayandan az sonra Kürdüstana getdi. Məqsədi o zaman Kürdüstanın əhli-sünnə dini rəhbərlərindən olan Əhməd Müftizadədən müsahibə almaq idi. Kürd xalqı Əllamə Müftizadənin fikirlərini qəbul edirdi. Müftizadə müsahibəsində deyirdi:

“Kürdüstanda baş verənlər kürd xalqının deyil, bütün İrandakı əks-islamçı qüvvələrin, hətta regiondakı müstəmləkəçi dövlətlərin bütün imkanlarının səfərbər edilməsinin nəticəsidir. Onlar kürd paltarı geyinmişlər, amma əslində, fars, ərəb, türk, bəluc, hətta iraqlı və misirlidirlər. Bu yaxında İsraildən gəlmiş dörd casus tutuldu. Çox təəssüflü haldır ki, bu rəzil hərəkəti çox vaxt kürd xalqına aid məsələ kimi qələmə verirlər”.



Saminül-əimmə əməliyyatında 77 saylı diviziyanın komandiri olmuş General-mayor Əzim Əzgəmi

"Saminül-əimmə əməliyyatı üçün plan hazırlığına başlanmışdı. Həsən Baqirini ilk dəfə əməliyyat planına dair iclasda gördüm. O, iclasda ideal bir hərbçi kimi çox yaxşı məruzə etdi, düşmənin imkanlarını təfərrüatı ilə açıqladı. Elə oradaca qəlbimdə ona hörmət yarandı. O, tam informasiya ilə əməliyyatda iştirak edən hərbi birləşmələri yaxşı məlumatlandıra, əməliyyatın qələbəsində mühüm rol oynaya bildi. Bizimlə həmişə gülərüzlə danışırdı. Bu onun ordu zabitləri arasında xüsusi sevilməsinə səbəb olmuşdu".

# Mündəricat


Dəcəl uşaq .......... 10
Uşaqlığın sonu .......... 19
Yarımçıq təhsil .......... 28
Qələbə .......... 39
Macəra dolu jurnalist .......... 47
Kod adı: Həsən Baqiri .......... 68
Əhvaz korpusundan mərkəzi komandanlığa .......... 81
Həsən Baqiri, 01.10.1980, saat 21:00 .......... 82
Su döyüşü .......... 88
Plan otağı .......... 93
İki iyirmi şöbəsi .......... 107
Uğursuz əməliyyat .......... 115
Dalandan çıxış .......... 119
Komandirlik .......... 129
Müharibə elçiliyi .......... 135
Müharibədə böyük yenilik .......... 150
Qüds yolu qalasının açarı .......... 158
Çəzzabə döyüşü .......... 173
Böyük zəfər .......... 185
Böyük gün .......... 205
Məğlubiyyət acısı .......... 237
Qələbənin dönüşü .......... 254
Müharibənin gələcəyindən narahatlıq .......... 264
Fəkkədə görüş .......... 276